ZAHİDƏ VULKAN

# ƏFSANƏVİ FENOMEN

ZAHİDƏ VULKAN

# ƏFSANƏVİ FENOMEN

**Bakı - 2021**

**Redaktoru: Nazim Tapdıqoğlu**
*tarixçi, tədqiqatçı, publisist, pedaqoq, şair,*
*"Qızıl Qələm" mükafatı laureatı*

**Zahidə Vulkan**
**"Əfsanəvi fenomen"**
Bakı, "Zərdabi Nəşr" MMC, 2021, 320 səh.

*Əziz oxucu! Qarşınızdakı "Əfsanəvi fenomen" kitabı Zahidə Vulkanın sayca üçüncü əsəri olmaqla, tanınmış psixoterapevt, yazıçı-publisist, dini və tarixi araşdırmaçı, Elmi-lədun bilicisi, beş ensiklopediya və 31 kitabın müəllifi doktor Paşa Yaqubun həyat-yaradıcılığı və möcüzəli müalicələrindən bəhs edir.*
*Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulub.*

**ISBN 978-9952-542-48-6**

© Zahidə Vulkan, 2021

# MÜƏLLİFDƏN

Bir işə yanaşsan əgər ürəkdən
Xəbər verəcəksən Çərxi Fələkdən
*Kəlilə və Dimnə*

Dəyərli oxucular!

Bu kitabı yazıb ərsəyə gətirməyimiz tarixi zərurətdən doğmuşdur.

Əsər dünyaya gəlməmişdən valideynlərinin Allahdan qurbanlar kəsməklə arzuladıqları, uşaq yaşlarından həyatını Allahın müqəddəsliyini qəbul edib, Allahın Səmavi kitablarını tam şəkildə mənimsəyərək, təbliğ etməyə, eyni zamanda əməyə, elmə, siyasətə, şərəf və ləyaqətə, insanlığın yaranışını, təbiətin quruluşunu öyrənməyə həsr edən, vətənpərvər ictimai fəal, cəmiyyətdə baş verən sosial hadisələrə biganə qalmayan, əqidə, məslək və mənəviyyat sahibi, ədəb-ərkanlı, səmimi, haqqın carçısı kimi kifayət qədər cəmiyyətdə özünü təsdiq etmiş psixoterapevt, yazıçı-publisist, dini və tarixi araşdırmaçı, ruhani, elmi-lədun bilicisi, uşaq ikən getdiyi ziyarətgahların 20 yaşlarından tarixlərini, kəramətlərini mükəmməl öyrənib qələmə alaraq təbliğ edən yüzlərlə məqalənin, 5 ensiklopediya və 31 kitabın müəllifi (elə kitabları var ki, 4 dəfə nəşr olunub), müasir tibb elmini insan

sağlamlığı üçün yetərli hesab etməyərək, bir çox xəstəlikləri özünəməxsus möcüzələrlə müalicə edən, əksər hadisələrin baş verəcəyini qabaqcadan deməklə həm də öncəgörücülük qabiliyyəti olan, möcüzəvi həkim Paşa Yaqub Alı oğlunun ömür yolundan bəhs edir.

Paşa Yaqub kimi fədakar, vətənpərvər və fenomen bir ziyalının həyatı, amalına çatmaq üçün yorulmadan apardığı şərəfli mübarizə yolu gənc nəsillərə böyük bir məktəbdir. Bəli, gələcək nəsillər mütləq Allahın bizə hədiyyə kimi bəxş etdiyi bu insan haqqında bilgiyə malik olmalıdırlar. Hesab edirəm ki, Azərbaycanın ən yeni tarixində "Paşa Yaqub səhifəsi" önəmli yerlərdən birini tutur və biz hər birimiz bunu oxuyub-öyrənərək nümunə götürməyə borcluyuq. Bu yol insanlığın şər qüvvələr üzərində qələbəsi üçün iti bir qılıncdır.

Paşa Yaqubun qəlbində tükənməz Allah sevgisi var. O, nümunəvi ailə başçısı, mehriban ata, sevimli baba, insanlığa, vətəninə, xalqına, millətinə, dininə, təbiətə bağlı olan bir şəxsiyyətdir.

Ebu Turxan insanlar haqqında belə deyir:

*İnsan var dərya kimidir, baş vurduqca çətindir;*
*İnsan var divar kimidir, qarşında durur heç nə görə bilmirsən;*
*İnsan var şüşə kimidir, dünyanı sənə göstərməyə çalışır;*
*İnsan var ayna kimidir, səni özünə göstərməyə çalışır.*

Paşa Yaqub şəffaf rəngli şüşə kimidir. Dünyanı  o üzlü, bu üzlü sənə göstərməyə çalışan, elmin əksər sahələrini tam mənimsəmiş əfsanəvi fenomendir.

Paşa Yaqubun bütün bildiklərini qələmə alması, gələcək nəsillərə miras kimi çatdırmaq istəyi onun bütövlükdə insanlığa töhfəsidir. Eyni zamanda tərəddüdsüz demək olur ki, Paşa Yaqub fitri istedada malik qeyri-adi bir möcüzədir.  Nurani siması onu görənlərdə Allah sevgisi aşılayır. Həmsöhbət olanda ondan ayrılmaq adamda nəyisə itirəcək kimi hisslər yaradır.

Belə bir deyim var ki, elə sirrlər var insan onu ancaq özü ilə qəbrə aparır. Paşa Yaqub da sirli dünyamızda sirli bir dəryadır!

**Zahidə Vulkan**

## REDAKTORDAN

Tanınmış publisist, dini və tarixi araştırmaçı, ruhani, psixoterapevt, 35 kitab müəllifi, qələm dostum Paşa Yaqubu 14 ildir ki, tanıyıram. Yaşının az olmasına baxmayaraq onun zəngin həyat və yaradıcılığı var. Yaşadığı ömrün yarıdan çoxunu insanlığın yaranışını, təbiətin quruluşunu öyrənmnəyə həsr edən Paşa Yaqub elmi-lədun bilicilərindən biri kimi getdiyi ziyarətgahlar, ziyarət etdiyi pirlər, Azərbaycanın müxtəlif bölgələrində olan onlarla müqəddəs tapınaq yerləri, övliyalar, seyidlər, kəramət sahibləri haqqında yazdığı kitablarında, məqalələrində dəyərli məlumatlar vermişdir. Cəmiyyətdə özünü tanınmış psixoterapevt kimi təsdiq etmiş, neçə-neçə xəstəyə şəfa vermiş, onları sağlam həyata qaytarmışdır. Vaxtı ilə illərlə çoxlu sayda kitablar mütaliə edib, yuxusuz gecələr keçirərək elmin əksər sahələrini mənimsədiyi üçün qazandığı bilgiləri müxtəlif kitablar halına salaraq əvəzsiz töhfə kimi gələcək nəsillərə miras qoyur. İndiyədək mən onun 6 kitabının redaktoru və “Ön söz” müəllifi olmuşam. Bu dəfə isə onun haqqında yazılan kitabın redaktoru və “Ön söz” müəllifiyəm.

Tanınmış publisist, vəkil, jurnalist Zahidə Vulkan onun haqqında “Əfsanəvi fenomen” kitabını yazıb ərsəyə gətirmişdir. Paşa Yaqubun ömür yolundan, öncəgörücülük qabi-

liyyətindən, səxavətindən, möcüzəvi həkim kimi sağalmaz xəstələrə bəxş etdiyi həyatlardan bəhs edən bu kitab sadə və oxunaqlı bir dildə yazılmışdır. Kitabdan aydın olur ki, müəllif Zahidə Vulkan özü də bir zaman Paşa Yaqubun pasiyentlərindən biri olub. Həkimlərin və özünün gəldiyi nəticəyə görə "sağalmaz" xəstəliyə düçar olan Zahidə xanım paşa bəyin bir neçə seansı nəticəsində sağalaraq ayağa qalxır. Elə o zamandan da Paşa bəy haqqında, onun həyat və yaradıcılığından, möcüzəli müalicə üsulundan kitab yazmaq fikrinə düşür. Beləliklə, Azərbaycanın ilk disidenti Nadir Ağayevdən və görkəmli alim Əhəd İbrahimovdan yazdığı kitabların ardınca üçüncü kitabını –Paşa Yaquba həsr etdiyi "Əfsanə fenomen" kitabını yazır.

Kitabdakı ayrı-ayrı oçerk və məqalələri oxuduqca, seansları ilə xəstələrə sağlamlıq, sevinc bəxş edən Paşa həkimin pasiyentləri ilə dost kimi davrandığının da şahidi oluruq. Əksər pasiyentlərin gəldikləri qənaətdən aydın olur ki, onlar həkimin seanslarını, müalicə üsullarını İlahi möcüzə hesab edirlər. Onların fikrincə qeyri-adi xüsusiyyətlərə malik olan xeyirxah həkim Paşa Yaqub dost kimi də pasiyentlərinin qəlbində uca zirvəni fəth etməyi bacaran bir şəxsiyyətdir.

Bir oxucu olaraq biz kitabda Paşa Yaqubu həm də bədii yaradıcılıqla məşğul olan şair kimi görürük. Onun "Bəs ağlamazmı?", "Ay baba" adlı şeriləri, "Hüsnünə mail oldum gördüyüm ilk andan səni" mətləli misrası ilə başlayan qəzəli gözəl ədəbi nümunələrdir. Paşa Yaqubun kitabda çap edilmiş

onlarla hikmətli kəlamları, aforizmləri insanlara cəmiyyətdə layiqli mövqe tutmaqda dəstək olacaq, bir rupor rolunu oynayacaqdır.

Kitabın ayrı-ayrı bölümlərində pasiyentlərin paşa Yaqub və onun həyata keçirdiyi seanslar haqqında maraqlı fikirlər, faktlar da yer almışdır. Kitabı oxuduqca insanda Allah sevgisi, sağlamlığa həvəs daha da artır. Mən Zahidə Vulkana belə bir dəyərli kitabı araya-ərsəyə gətirdiyi üçün təşəkkür edir, ona həyatda ən qiymətli nadir nemət olan cansağlığı, ömür yollarında və yaradıcılığında uğurlar, sevinc dolu günlər arzulayiram.

Hörmətlə: **Nazim Tapdıqoğlu** (Vəlişov)
*Tarixçi, tədqiqatçı, pedaqoq, publisist, şair,*
*"Qızıl qələm" mükafatı lauratı*

# İLK TANIŞLIĞIM...

2005-ci ildə bacım mənə *"Allahın dostları"* adlı bir kitab verdi və dedi bu kitabın müəllifini tap haçansa sənə lazım olar.

Güldüm, dedim ki, kitab yazan mənə nədə lazım ola bilər?

-Səndə də Allaha bağlılıq tükənməzdir, bəlkə birləşib insanların dinə-imana gəlməsinə öz töhfənizi verə bildiniz- dedi.

İllər ötdü. 2011-ci ildə Facebook sosial şəbəkədə özümə səhifə açdım. Fikirlərimi paylaşmağa başladım. İlk dostluq mesajı göndərənlərdən biri də Paşa Yaqub oldu. Beləcə əvvəlcə virtual olaraq tanışlığımız (dostluğumuz) başladı.

Facebook vasitəsilə hərdən açıq səhifədə yaza bilmədiyimiz siyasi fikirlərimizi mesajlarda bölüşməyə başladıq.

Paşa Yaqub hərdən mənə peşəmlə bağlı suallar verir, hərdən də imkansız insanlara hüquqi yardım etməyimi xahiş edirdi. Onun belə xahişləri məndə Paşa Yaqubu dərindən tanımağa imkan verirdi.

İmkansız insanlara yardım etmək üçün ancaq qəlbində insan sevgisi olan şəxslər yol axtara, xahişlər edə bilər. Bu sevginin Paşa Yaqubun ruhuna hopmasını səsinin ahəngindən hiss edirdim. Yazdığı kitablarından mənə dərkənarla

hədiyyə göndərirdi. Mən də ona öz kitablarımdan hədiyyə etmişdim.

Bir gün Paşa Yaqub zəng edərək dedi ki, bir tanışım məndən xahiş edib onun qohumlarından kitab yazım. Etiraz edə bilməmişəm. Amma, bu sahədə kitab yazmaq mənə çətindir. Göyçay bəylərindən olan Cəlil bəyin və oğlu xalqın suyunu kəsdiyi üçün XX əsrin əvvəllərində Ulaşlı Şıxlı Kommunasının sədri olan Mahmud Nuh oğluna layiqli cavab verən Cahangir bəyin sapı bizdən olan baltaların fürsət düşən kimi başlarına açdıqları oyunlardan bəhs edəcəkdir.

Çox mülayim bir tərzdə həmin kitaba redaktorluq etməyimi xahiş etdi.

Məmnuniyyətlə təklifi qəbul etdim.

Kitabı elektron ünvanıma göndərdi. Oxudum, təəccübümü gizlədə bilmədim. Paşa Yaqubun dəsti-xəttindən tamam uzaq və həm də onun ürəyinə yaxın olan sanki, bu günümüzü əks etdirən bir kitab idi. Zəng edərək-əsil hüquqşünas sizsiniz – deyə zarafat etdim. Kitab 37-ci ilin represiyasından bəhs etməklə, rəsmi arxiv sənədləri əsasında yazılmışdı.

Beləcə, bir-birimizi görməsək də, hərdən zəngləşər, mesajlarla fikir mübdiləsi edərdik.

Son günlər mən ağır və sağalmaz bir neçə xəstəlikdən əziyyət çəkirdim.

Bir müddət sosial şəbəkəyə qoşulmadım. Paşa Yaqub mənə zəng edərək, – Sizə nə olub, facebookda görünmürsünüz – deyə narahat olduğunu bildirdi. Elə bil qəlbinə dam-

mışdı ki, mən nədənsə narahatam. İşim çoxdur-cavabı versəm də, o bu cavabla sanki razılaşmadı-arada görünün-dedi.

Sosial şəbəkədən mənə məlum idi ki, Paşa Yaqub inşanları özünəməxsus üsulla seans edərək, müalicə edir.

Bir gün zəng etdim, Mübariz Mənsimovun taleyi ilə bağlı söhbətləşdik. Sözarası dedim ki, belə haqsızlığa adamın lap ürəyi sıxılır. Paşa Yaqub sözümdən sanki anladı ki, mən xəstəyəm.

Təklif etdi ki, gəlin iş yerimə oturub çay içək, söhbətləşək. Nə vaxtsa gələrəm dedim. Xəstə olduğumu duyduğunu dilinə gətirməsə də, təklif etdi ki, vasthsabla görüntülü zəng edim, seans etsin, sıxıntılarım keçsin. Təşəkkür etdim. Sən xəstəsən, hiss edirəm, demək istəsə də, nədənsə demədi. Sual verdi ki, belinizdə ağrı var? Heç yerim ağrımır – cavabını verdim. Cavablarımdan narazı qaldığının fərqindəydim. Amma, xəstə olduğumu demək istəmədim.

Ömrümün son aylarını yaşadığımı isə, ancaq dostluğun uca zirvəsini fəth etmiş xalqımızın dəyərli oğlu Mətləb bəy Mütəllimli bilirdi. Hər gün zəng edir, xəstəliyimlə bağlı müalicələr əks olunan səhifələr atır, oğlu Mahirlə kitablar, hazırladığı cürbəcür məcunlar, çətin tapılan şəfalı bitkilər və ərzaqlar göndərirdi. Məni sağalmaz xəsətliklərin cəngindən xilas etmək üçün yollar axtarırdı.

Buna görə də, Mətləb bəy “Youtube” kanalında “Ədalət” TV-də “Sağlam həyat tərzi” rubrikası açaraq alternativ müalicə üsulları ilə məşğul olan insanları dəvət edir, onların müalicə üsullarını öyrənirdi. Məndən də hər gün verilişə

baxmağımı xahiş edirdi.

Bir gün mənə zəng edib, mütləq həmin gün verlişə baxmağımı və sonra həmişəki kimi fikrimi ona bildirməyimi xahiş etdi. Verilişdə sosial şəbəkədə şəkillərini gördüyüm **Paşa Yaqub** öz seanslarından danışırdı.

Mətləb bəy onun yanına gedib seans almağımı məsləhət gördü. Mən belə seanslara inanmadığımı bildirdim. Təkrar onu verilişə dəvət etdi və Paşa bəyə suallar verərək cavablar almaqla yanaşı, məni onun seanslarına inandırmaq üçün hətta, xəstələri ilə də canlı bağlantı qurdu. Ertəsi gün məndən təkrar olaraq Paşa Yaqubun yanına getməyimi xahiş etdi. Xeyli fikir mübadiləsi etdik. Mətləb bəy bildirdi ki, xəstələrin Paşa Yaqubun seansları haqqında söylədikləri onda əminlik yaradıb.

Mən Paşa bəyi tanıdığımı, ona hörmətim olsa da, düçar olduğum ağır xəstəliklərin seansla sağalmasına inanmadığımı bildirdim. Mətləb bəy Paşa Yaquba elə inanmışdı ki, məndən təkidlə xahiş edirdi ki, heç olmasa bir neçə seans gedim.

Çox düşündükdən sonra fikirləşdim ki, Mətləb bəy Mütəllimli sadə olsa da, sadəlövh deyil. Hər yalana inanmaz. Görünür Paşa Yaqubun kəramət sahibi olmasına onda inam var. Ertəsi gün Paşa Yaquba zəng etdim. Ona ağır xəstə olduğum barədə telefonda qısaca danışdım. Paşa bəy, – klinikaya gəlin, Sizi seans edim – dedi və cavabımı gözləmədən iş yerinin ünvanını izah etdi.

Qapının girəcəyində məni nurani bir kişi elə səmimi, isti,

müsbət enerji və təbəssümlə qarşıladı ki, elə bildim, bu insanı indi yox, uzun illərdir həyatda görmüşəm. O da mənimlə elə mehriban davranır, danışırdı ki, sanki məni çoxdan görübmiş kimi. Məni dinlədikdən sonra, sağalacağıma inandırdı və dərhal seansa başladı. Nəhayət ki, ağır və sağalmaz xəstəliklərim Paşa Yaqubla virtual dostluqdan əyani dostluğa keçidin təməlini qoydu.

Paşa Yaqub kimi möcüzəli bir insanı tanıdığım üçün 24 iyul 2020-ci il yaddaşımdan heç vaxt silinməyən bir tarixi gün oldu.

Ertəsi gün Mətləb bəyə zəng edərək Paşa Yaqubun seansına getdiyimi bildirdim. Mətləb bəy dərindən nəfəs aldı. Mən də zəng edib səni tapşıracam-dedi. Çox sevinirdi. Paşa Yaqubun seansına getməyim onda mənim sağalacağıma nədənsə böyük ümid yaratmışdı. Mətləb bəy hisslərində yanılmamışdı.

Bir neçə seansdan sonra vəziyyətimdə dəyişiklik gözlə görünən həddə hiss edilməyə başladı.

Beləcə, Paşa Yaqubu kəşf etdim. Qərara aldım ki, Allahın insanlığa hədiyyəsini hamının tanıması üçün onun haqqında kitab yazım.

İlk öncə Paşa bəyə onun həyat və yaradıcılığından, möcüzəli müalicə üsulundan kitab yazmaq istədiyimi bildirdikdə cavabı çox sərt oldu-axı mən nə etmişəm ki, barəmdə kitab yazılsın-dedi.

Fikrim qəti idi. Təkrar ona kitab yazmağıma razılaşmasını xahiş etdim. Özünəməxsus tərzdə: – Siz xəstəsiniz qıymıram əziyyət çəkəsiniz – deyə yumşaq tərzdə fikrimdəm

daşındırmağa çalışdı.

– Yox, Paşa bəy, başımı qataram, fikrim dağılar, xəstəliyimi düşünməyə vaxtım olmaz-deyə birtəhər onu razı sala bildim. Anladım ki, onun haqqında kitab yazılması üçün yox, mənim bundan zövq alaraq, başımı qatıb xəstəliyimi düşünməyə vaxtım olmaması naminə razılaşdı. Bu, Paşa Yaqubun Allahın yaratdıqlarına, təbiətə və insanlığa tükənməz sevgisinin təzahürüdür.

Bildirirəm ki, Paşa Yaqubun seanslarından sonra düçar olduğum bir neçə sağalmaz xəstəliklərdən hal-hazırda heç bir əlamət qalmamışdır.

Hesab edirəm ki, vaxt gələcək, bu kitab Azərbaycan tarixində özünə layiq yer tutacaq və yaşayacaqdır.

Mən iki kitab müəllifiyəm. Qəhrəmanlarım Azərbaycanın ilk dissidenti Nadir Ağayev və görkəmli alim Əhəd İbrahimov olmuşdur. Paşa Yaqubla əyani tanışlığımdan sonra cəmiyyətimizdə başqa bir cəsarətli ictimai-siyasi xadimin də olması mənim qəlbimə cəsarət, qələmimə təpər verdi.

Beləcə, Paşa həkimlə əyani tanışlığım başladı və çox məmnun oldum ki, xalqımızın çox dəyərli oğlu, Allahın insanlığa bəxş etdiyi şəfa mələyi ilə ünsiyyətdə oldum, onun həyat və yaradıcılığını qələmə alaraq, gələcək nəsillərə çatdırmaq mənə nəsib oldu.

***Müəllif***

# DƏRYADAN DAMLA YAZDIM

# ALLAHA SEVGİSİ SOYUNDAN GƏLİB...

***"Allahın iki şah əsəri var: İnsan və Kainat"***
*(Paşa Yaqub)*

Hansı nəslin soykökündə xeyirxah, əməlisaleh və yaxud kəramətli bir adam olubsa, zaman keçdikcə həmin nəsildən kimdəsə bu əlamət özünü büruzə verir.

Dahi Füzuli bunu nəzərdə tutub deyirdi ki, "Sədəf su içməyincə abu-nisandan, gövhər verməz". Yəni, əslindən-soykökündən ilham almayan yaxşılıq edə bilməz və yaxud, kəramət göstərə bilməz.

Bütün bu insani keyfiyyətlər bir çox hallarda kodlaşdırılmış formada, genetik yolla ötürülür...

Belə bir el misalı da var ki: "Ot kökü üstə bitər".

Kür qırağının sirlərlə dolu məkanlarından biri olan Zərdab rayonunda XIX əsrin sonlarında Hacı Yaqub kimi tanınan bir tacir yaşayırdı. Hacı Yaqub bölgənin sayılan kişilərindən biri kimi böyük hörmət sahibi idi. Həm də bölgədə kasıbların, kimsəsizlərin ümid yeri kimi ad-san qazanmışdı. Dinə bağlılığı ilə bölgədə xüsusi hörmət sahibi idi. Onun düşmənçilikləri olan ailələrə gedərək qan-qadanın sona çatmasını rica etməsi, küsülüləri barışdırması kimi xeyirxah əməlləri ola biləcək çox faciələrin sipəri olmuşdu.

Zamana görə Həcc ziyarətinə getmək hər adama nəsib olmasa da, bu mübarək qədəm Yaqub kişiyə nəsib olmuşdu.

Hacı Yaqub Kür qırağında yerləşən Lələağacı kəndinin Aşağı bağ adlanan sahəsində pambıq əkdirər və xammalını tacir kimi tez-tez Avropa ölkələrinə, əsasən də Fransaya aparardı. Xammalını sataraq, ipək parça, şirniyyat məhsulları, kəllə qənd, konfet və s. alaraq gəmilərə yükləyib Odessa limanına gətirərmiş. Mallarının bir hissəsini satdıqdan sonra, hazırkı İpək Yolu ilə mallarını sata-sata Zərdabın Lələağacı kəndinə gələrdi.

Mallarının hamısını satmaq imkanları olsa da, Hacı Yaqub bölgənin tələbatını nəzərə alaraq, lazımi qədər məhsulları saxlayaraq Lələağacı kəndində olan mağazasında satdırardı. Bütün ətraf rayonlar Hacı Yaqubun mağazasına alış-verişə gələrmişlər. Beləcə Hacı Yaqub, bölgə əhalisini həm sənaye və həm də ərzaq məhsulları ilə təmin edərmiş.

Hacı Yaqubla alış-veriş etmək üçün İrandan da ticarət gəmiləri gələrmiş. Hacı Yaqub da İrana alış-veriş etməyə gedərmiş. İrandan aldıqları məhsulları Xəzər dənizindən keçməklə Kür çayı vasitəsilə çayın kənarında yerləşən Lələağacı kəndinə gətirərdi. Malın bir hissəsini kənddə, qalanını digər əyalətlərin tacirlərinə satarmış.

Dövrün qanunları çox sərt idi. Yollarda qaçaq-quldur tacirlərə hücum çəkər, var-yoxunu talayardılar. Lakin, Hacı Yaqubun karvanına yaxın düşməzdilər. Ondan bac almazdılar. Ona görə yox ki, qorxardılar, sadəcə çox hörmətli kişilərdən olduğu üçün, qaçaq-quldurlar da ona hörmət edərdillər.

Hacı Yaqub Sovetlər dönəminə qədər fəaliyyətini davam etdirib. Onun karvanında işləyənlər sonradan xatirə kimi kənddə danışardılar ki, yollarda qaçaqlar bütün karvanların qarşısını kəssələr də, Hacı Yaqubun karvanına yaxın durmurdular. Hacı Yaqub bu halı qiymətləndirərək, dəfələrlə onlara hədiyyələr vermək istəsə də, qaçaqlar imtina edərək, Hacı Yaquba minnətdarlıq edərdilər.

Hacı Yaqub dövrünün çox varlı kişilərindən olub. Bölgədə tək-tək imarətlər olub ki, onlardan biri də Hacı Yaqubun olub. Onun imarəti zövqə görə xüsusilə seçilərmiş. İmarətinin tikinti materiallarını və içərisinin əşyalarını Fransadan gətiribmiş.

Hacı Yaqub kəndin qırağında Bəylik məhəlləsi deyilən yerdə yaşamış və Həsənbəy Zərdabinin atası Səlim bəylə həm qonşu və həm də yaxın dost olmuşdur.

Hacı Yaqub sonradan kənddə Aşağı bağ deyilən sahəyə köçür. Burada da 6 otaqlı imarət inşa etdirir. Hətta, otaqların qapılarının dəstəyi qızıldan olub. Otaqlar bahalı daş-qaşlarla bəzədilmişdir. Sovetlər birliyi Hacı Yaqubun bütün varidatı ilə yanaşı imarətini, heyvan sürülərini də əlindən alaraq, kolxoza verir. Onun imarəti bir müddət məscid kimi, daha sonra isə məktəb kimi fəaliyyətdə olub.

Bölgədə hörmətli və kəramətli birisi kimi tanınan Hacı Yaqubun 5 oğlu olub. Oğlanlarının hərəsi bir yol seçərək, istəklərinin arxasınca gediblər. Həm möminlikdə və həm də ticarətlə məşğul olmaqda təkcə oğlu Paşa onun yolunu davam etdirib. Paşa hələ uşaq ikən atasının yanında olar, hər

şeylə maraqlanar, suallar verib cavablar alaraq, özünü atasının davamçısı kimi hazırlayarmış. Hacı Yaqubun qocalaraq əldən düşdüyünü görən oğlu Paşa Sovetlər dönəmi olduğundan onun işini davam etdirə bilməsə də, zamana uyğun iş qurmağa başlayır. Tez bir zamanda bölgədə nüfuz sahibinə çevrilir.

Hacı Yaqub dünyasını dəyişəndən sonra Paşa kişi bölgədə böyük hörmət sahibi kimi tanınır və bölgənin adamları onu özlərinin ağsaqqalı kimi qəbul edərək, hər işlərində onunla məsləhətləşər, dediklərini dəyərləndirərdilər.

Paşa kişinin bir neçə övladı olsa da, ancaq Alı adlı oğlu Allahın yolunu seçərək, möminliyi atasından miras kimi qəbul edir.

İkinci Dünya müharibəsi Alı kişini də imtahana çəkir. O da qanlı-qadalı müharibəyə gedir. Dəfələrlə yaralansa da, el-obasına qayıtmaq ona nəsib olur.

1940-1950-ci illər Sovetlər Birliyində çox çətin illər olub. Aclıq, yoxsulluq insanların həyatını kabusa çevirir. Kənddə ona doğma olan qohum-qonşuların aclıqdan özlərinin, doğmalarının həyatını itirdiklərinə ürək ağrısıyla yanaşan Alı kişi kənd camaatına köməklik etmək üçün yollar axtarmağa başlayır.

Kənddə yaşayan ahıl insanlar danışardılar ki, aclıq illərində Ali kişi bizi acından ölməkdən xilas edib. İnsanlar bitkilərlə qidalanardılar. Alı kişi Kür çayından balıq tutaraq, araba ilə Qarabağa aparıb satar və çörək alıb kəndə gətirərmiş. İlk öncə müharibədən qayıtmayan həmkəndlilərinin

övladlarının payını göndərərmiş. Qalanını isə, kənddə hər bir evə pay edərmiş. Babası Hacı Yaqub və atası Paşa kişi kimi ticarətindən də qalmazmış. Baramaqurdu saxlamaqla, bostançılıqla dolanışığını təmin edərmiş.




***Alı kişi (sağdan birinci), qohumları Allahqulu və Nuru ilə***

Alı kişi də babası Hacı Yaqub və atası Paşa kişi kimi gənc yaşlarından kənd camaatının hörmətini qazanır. Yaşa dolduqca kəndin ağsaqqalı kimi çox böyük nüfuz sahibinə çevrilir. Kəndin camaatı elçiliyə gedəndə, barışıq üçün harasa getməli olanda özləri ilə Alı kişini də apararmışlar ki, “əliboş” qayıtmasınlar.

Alı kişi kəndin sayseçmə kişilərindən olan Zaman kişinin qızı Aşa xanımla ailə qurur. 4 qızı olur. Kənd camaatı Alı kişinin oğlu olması üçün dualar edər, ziyarətgahlara gedər, nəzir verər, qurbanlar kəsərmişlər. Alı kişi özü də soyunu davam etdirən oğlunun olması arzusu ilə kəndin digər ağsaqqalları ilə birlikdə ziyarətgahlara gedərək oğlu olması üçün zikr və dualar edərdi.

Adəti üzrə bir gün Ağdaşdan 45 km. cənubda yerləşən Xınalıqlı kəndində Veys Baba kimi tanınan Veysəl Qəraninin qəbrini ziyarət edir və Allahdan oğlunun olmasını arzu edir. Həmin gün yuxusunda Veys Babanın ona hədiyyə verdiyini görür. Alı kişidə oğlu olacağına əminlik yaranır. Müntəzəm olaraq Veys Babanın qəbrini ziyarət edər, qurban kəsərək, ətrafda yaşayan kasıblara paylayarmış. Tez-tez Mövlud oxudar, Mövlud ayında ehsanlar verərək, zikrlər edər və dualar oxuyarmiş ki, oğlu olsun.

Alı kişini tanıyan hər kəs də onun oğlu olması üçün dualar edərmiş.

Alı kişinin qəlbində Allah sevgisi qijov axan dağ selinə, çağlayan sulara bənzəyirdi. O cümə namazını camaatla qılmağın fəzilətinin böyüklüyünə inandığı üçün yaşadığı Lələağacı kəndindən rayonun mərkəzi Zərdaba atla gedər, atını orda bağlayaraq, oradan Göyçaya Cümə namazı qılmağa gedərmiş.

Cümə namazından qayıdanda yolda bazarlıq edər, kəndin uşaqlarına hədiyyələr alarmış. Hər cümə günü kəndin uşaqları toy-bayrama gedirmiş kimi evdən çıxaraq kəndin

qırağına yığışar, Alı kişinin gəlişini gözləyərmişlər. Alı kişi çox əliaçıq adam olub. Uşaqlara aldığı hədiyyələri onlara verdikdən sonra kiminsə evində qoca, yaxud xəstə var imiş-sə, etdiyi bazarlıqdan onlara da pay göndərərmiş.

Alı kişinin qəlbindəki Allah sevgisinə, kənd ağsaqqalla-rının, ətraf rayonlardan Alı kişini tanıyaraq ona oğul arzula-yanların dualarına xatir Alı kişiyə Allah hədiyyə olaraq oğul payı nəsib edir.

26 may 1968-ci il tarixində adəti üzrə rayon mərkəzinə bazarlıq etmək üçün gedir. Kəndə hay düşür ki, Alı kişinin oğlu olub. Kənd əhli onu təbrik etmək üçün Alı kişigilə axışır. Alı kişinin Zərdaba getdiyini öyrənir və onun gəlişini göz-ləyirlər. Alı kişi kəndə yaxınlaşanda kəndin ahıldan tutmuş oğul-uşaqların yol ustündə yığıldığını görür. Onlara yaxın-laşdıqca "Allahım, xeyr olsun!" – deyə dua edir. Alı kişinin atını görən insanlar sevinclə ona tərəf qaçırlar. Təlaşla: Nə olub? – deyə soruşur. Adamlar onu: – Muştuluğumuzu ver – deyə atın belindən qucaqlayıb düşürür və təbrik edərək, sevinclə onlara gedirlər. Alı kişi ilk qurbanını elə həmin gün kəsərək, kənd camaatına paylayır. Beləcə, bütün deyilmiş qurbanlar kəsilir, ziyarətgahlara edilən nəzirləri körpə ilə birlikdə aparırlar.

# ALLAHIN ALI KİŞİYƏ HƏDİYYƏSİ HAMIMIZA HƏDİYYƏ OLDU...

Alı kişi atasının adını yaşatmaq üçün oğluna Paşa adı qoysa da, kənd əhli, qohum-əqraba onu hamıya doğma olduğundan Əziz deyə çağırmağa başlayırlar.

Körpə Paşa bütün qayğılardan bixəbər, sevinc içində böyüməyə başlayır. Atası onu tez-tez özü ilə ziyarətgahlara, kəramət sahiblərinin, övliyaların ocaqlarına aparmaqla yanaşı, Veys Babanın qəbrini də ziyarət etməyə aparırdı.

Beləcə böyüməyə başlayan balaca Paşa 5 yaşına çatanda qəfildən Alı kişi dünyasını dəyişir.

Aşa xanımın çiyinlərinə çox ağır 5 övladını tək böyüdüb, ərsəyə çatdırmaq kimi bir yük düşür.

Kənddə çox böyük nüfuz sahibi olan Ali kişi kənd məktəbində təsərrüfat işləri üzrə çalışırdı.

Ağsaqqallar yığışaraq məktəb direktorunun yanına gedib xahiş edirlər ki, Alı kişinin işini Aşa xanıma həvalə etsin. Məktəbin direktoru Aşa xanımı Alı kişinin işlədiyi işə qəbul edir. Çətinliklər olsa da, Aşa xanım 5 balasını böyüdüb ərsəyə çatdırır.

Alı kişidən qalan kəramət sahiblərini ziyarət etmək kimi mirası Aşa xanım davam etdirirdi. Özü ilə Paşanı tez-tez Veys Babanın qəbirüstünə və digər kəramət sahiblərinin ocaqlarına ziyarətə apardı.

Paşa böyüdükcə hamı ona heyranlıqla baxarmış. Çox ağıllı, düşüncəli, savadlı, yaşından çox bilən birisi kimi böyüyür. Balaca Paşa danışanda, – buna bax, böyüyüb təzədən kiçilib, – deyərmişlər.

Balaca Paşa ona verilən hədiyyələrdən kənd uşaqlarına pay verərmiş. Paşanın əliaçıqlığını görən kəndin yaşlı insanları onu qucaqlayıb, öpərmişlər. Deyərmişlər ki, biz müharibədən sonrakı aclıq illərində sənin atanın səxavəti sayəsində salamat qaldıq.

### *Balaca ağsaqqal...*

Alı kişi dünyasını dəyişəndən sonra kənddə təşkil olunan məclislərdə onun həmişə əyləşdiyi stolda heç kim oturmur. Məclisin başında stolun boş qalmasını istəməyən ağsaqqallar təklif edirlər ki, Alı kişinin oğlu uşaq olsa da, həmin stolda onu otuzdursunlar. Belə də edirlər. Paşa əvvəllər yaşlı insanlarla əyləşmək istəməsə də, sonradan buna alışır.

Tez-tez uşaqlarla məhəllədə oynayan balacanı uşaqlarla oynadığı yerdə kənd adamlarından kimsə gəlib özü ilə aparır. Yayda isə Paşa üçün daha dözülməz olur. Belə ki, o, ev paltarında oynadığı vaxt aparıldığından məclis adamı oğul-uşaqdan kimin paltarı ona yarayırsa geyindirib, sonra məclisdə atasının yerində başda otuzdurarmışlar.

Çox hallarda Paşa məclislərə uşaqlarla oynamağa getsə də, Alı kişinin oğlu olduğu üçün ağsaqqallarla oturmalı olurdu. Kənddə ələlxüsus qohum-əqrəba olduğundan Aşa

xanım da etiraz etmir və buna adət edir. Paşa da böyüdükcə buna adət edir. Artıq harda məclis olsa, geyinib həmin məclisə gedir. Bu hal balaca Paşanı müdrikləşdirirdi. Məclislərdə adət-ənənələri öyrənməklə yanaşı, məclis əhlindən ədəb-ərkan da öyrənir. Məhz, buna görə də dünyagörüşündə yaşıdlarından çox-çox qabağa gedirdi.

Altı yaşından məclis əhli olan Paşa artıq 8-9 yaşında olanda qohum-əqrəba məclis təşkil etməmişdən öncə onu çağıraraq ondan soruşardılar ki, filankəsin məclisində sən orda idin nə bişirmişdilər, stolu necə bəzəmişdilər və s. Artıq əksəriyyət adamlar kənddə Paşanın zövqü ilə məclisini bəzəyərdi.

## *Leninin başı...*

Paşa da yaşıdları kimi məktəbə gedir. Hələ birinci sinifdə oxuyarkən savadına müəllimməsi heyran qalır.

Məktəbdə hərəyə bir ləqəb qoşurdular. Balaca Paşaya “Lenin” deyirdilər.

(Sovet dönəmində savadlı adama “başı Leninin başıdır” deyirdilər).

Müəllim nə sual versə, Paşa fikirləşmədən cavab verərdi. Müəlliməsi: – Paşa, bunları hardan öyrənmisən? – deyə tez-tez ona suallar verərmiş.

Balaca Paşa böyüdükcə anasının ona başa saldığı və buyurduğu işləri mükəmməl yerinə yetirirdi.

Artıq 7-8-ci sinifdə oxuyanda hətta, müəllimlər də hansı sənədi haradan almağın lazım olduğunu Paşadan soruşar-

dılar. Məktəbli olsa da, müəllimələrinə sənədləşmə işlərini başa salaraq, hansı işə hansı sənəd lazım olduğunu öyrədirdi. Ailəsinə aid bütün sənədləşmə işlərinin də həlli Paşanın öhdəsində idi. Paşa idarə və təşkilatlara nə iş üçün gedirdisə, Alı kişinin oğlu kimi hörmət edər, onu tez yola salardılar.




Paşa ibtidai siniflərdə oxuyan vaxtdan uşaq təfəkkürünə sığmayan kitablar oxuyardı. Hətta, "Elm və Həyat" jurnalını oxuyurdu. Hələ uşaq olsa da, sanki gələcəyini elmdə görürdü. "Kommunist", "Azərbaycan Gəncləri" kimi qəzetləri müntəzəm oxuyurdu. Mütaliə etməyi çox sevərdi. Gündəlik qəzetləri izləyirdi. Hamısına abunə olurdu. Bir gün qəzet və jurnalı gec çatdırılardısa, poçtalyonu bezdirərdi.

Paşa hələ uşaqlığından babaları və atasına kənddə saxlanılan hörmət-izzəti sanki miras kimi qəbul edir.

Paşa orta məktəbi qurtaranda artıq ali təhsil almış insanlar səviyyəsində bilik və bacarığa malik idi.

Kənd orta məktəbi bitirdikdən sonra təhsilini davam etdirir. Ömrünün təravətli çağlarına qədəm qoyan Paşa 20 yaşında ikən ölkədə İmperiyaya qarşı mübarizə başlayır və ölkəmizin müstəqilliyi uğrunda Xalq Hərəkatı vüsət alır. Gənc Paşa da bu hərəkata qoşulur. Ölkəmizin müstəqillik qazanacağına onda daxili inam olduğunu hərəkat yoldaşlarına həvəslə danışır və gələcək planlarını qurur.

Ölkəmiz müstəqilliyini qazanandan sonra rayonda bizneslə məşğul olmağa başlayır. İlk öncə dəftərxana ləvazimatlarının alış-satışı ilə məşğul olur.

Eyni zamanda surətçıxaran  aparat alaraq, Quranın tərcüməsini əldə edib, Surə və Ayələrin surətlərini çıxarıb alıcılar arasında təmənnasız paylamağa başlayır. Aylıq gəlirindən xeyriyyə məqsədilə də istifadə edir. Dini mərasimlər təşkil edir. Tez-tez şadlıq evlərində rayonun camaatını yığaraq, Peyğəmbərin şərəfinə ehsan verir, Mövlud oxutdurur, İlahi musiqləri oxuyanların rayonda çıxışlarını təşkil edir.

Rayonda tez bir zamanda ad-san qazanır. Tezliklə ailəsində olan maddi çətinlikləri də arxada qoyur. Ailə həyatı qurur, 3 övladı dünyaya gəlir. Beləcə, ailəsini halal zəhmətilə dolandırdığı bir vaxtda  üç rəngli bayrağımıza sevgisi Paşanın həyatının gedişini büsbütün dəyişdi.

## "PAŞANIN BAYRAĞI"...

*Vara aldanmadı, pula uymadı,*
*Vicdanından qeyri hakim duymadı,*
*Ağrılı anları xalqa qıymadı,*
*Çəkdi hər bəlanı o özü ancaq.*

Azərbaycanda Milli Azadlıq Hərəkatı başlayanda gənc Paşa da hərəkata qoşulur və üçrəngli, ay-ulduzlu bayrağımızı aparıb, doğulduğu kəndin mərkəzində bir işıq dirəyinə sancır. Kənddə bu bayrağa hamı «Paşanın bayrağı» deməyə başlayır. Bir neçə gündən sonra Kənd Sovetinin sədri İxtiyar müəllim (Paşanın riyaziyyat müəllimi olub, indi Rusiya bazarında alver edir) bayraq asılan dirək yaxın olan evin sakini yaşlı kişini idarəsinə çağıraraq ona hədə-qorxu gəlir ki, niyə "Paşanın bayrağı" sənin evinin tuşundakı işıq dirəyinə vurulub, təcili onu çıxart ordan.

Kişinin təlaşını nəzərə alıb, Paşa bayrağı həmin mərkəzi küçədəki başqa dirəyə sancır. 2 gündən sonra başqa kişini hədələyir ki, niyə "Paşanın bayrağı" sənin evinin tuşuna taxılıb? Paşa bayrağı burdan da çıxarıb, başqa dirəyə taxır. Paşa bayrağı harda asırdısa, ora yaxın yaşayan kənd adamlarını Paşanın üstünə göndərirdi ki, bayrağını ordan götürsün.

Xülasə, kənddəki bütün dirəklərə taxılıb, çıxarılmaqdan bayrağın sapı dəfələrlə sınıq-sınıq olmuşdu. O boyda kənddə Kənd Sovetinin sədrinin hikkəsindən Paşa evlərə uzaq dirək tapıb bayrağını oraya sanca bilmir.

Beləliklə, kənddə "Paşanın bayrağı" kimi tanınan üç-rəngli ay-ulduzlu bayrağımız kəndin bütün küçələrində asılmağa və tezliklə çıxarılmağa "məhkum olur".

Kənd Sovetinin sədri İxtiyar müəllim özü də bilmədən bayrağı kənddə hamıya tanıdır, özü də "Paşanın bayrağı" kimi.

Haşiyə: Sərxan Carçı adlı tədqiqatçı jurnalistin "Azərbaycan bayrağı" adlı kitabında (80-ci səhifədə) "Paşanın bayrağı"nın da "müsibətləri" yer alıb.

Paşa nəinki, Kənd Sovetinin sədrinin, hətta, rayon rəhbərlərinin də "qara siyahı"sına düşür.

Gənc Paşanın üstünə "səlib yürüşü"nə başlayırlar. Paşanın ofisindən kimlər alver edirdilərsə onlar da hədələrə məruz qalırdırlar. Paşa dəftərxana ləvazimatlarını bank hesabına köçürülmə yolu ilə müəssisələrə də satırdı. Tələbat çox olduğundan o da satdığı malları nisyə götürərək satdıqdan sonra pulunu verirdi. Rayonda İcra hakimiyyəti bütün idarə və təşkilatlara tapşıırq verir ki, heç kim Paşadan heç nə almasın, alınan malların pulları ödənilməsin.

Vəzifə hərisləri də bu tapşırıqdan istifadə edərək, Paşanın pullarını mənimsəyirlər. Paşa isə nisyə aldığı malların pulunu qəpiyinə kimi ödəməyi özünə vicdan borcu bilir. Amma, pulunun olmaması onu çox narahat edir. Tək ağlına



gələn 5 otaqlı evinin 3 otağını sökərək, daşını, qapı-pəncərəsini, pula gedən nə varsa dəyər-dəyməzinə satıb borcunu ödəyir. İki kiçik otaqda isə altı nəfərlik ailə üzvü ilə dözülməz şəraitdə yaşayır.

Səbəb Paşanın Xalq Hərəkatına qoşulması və üç rəngli, ay-ulduzlu bayrağımızı çoxlarının həzm edə bilməməsi idi.

İnsafla desək, Paşaya vəzifə, pul təklif edilirdi ki, hərəkatdan uzaqlaşsın. O isə, "amalım qeyrətimdir" – deyə, bütün bu təklifləri rədd edirdi.

Haqq yolunda olduğu üçün bir müddət anası və beş nəfərdən ibarət ailəsini anasının təqaüdü hesabına ancaq çörək alaraq ac-yalavac dolandırmalı olur. Bu, Paşanı sarsıtsa da, çıxış yolu tapır. İlk öncə soyadından – ov şəkilçisini ataraq, Paşa Yaqub kimi özünü tanıdır. Allahdan ona sanki bir səda gəlir ki, kəramət sahiblərinə üz tut, onlardan yazdığın kitablar sənə kömək olacaq, kitabları sat, dolan.

Əvvəllər kitablarından gəlir güdmürdü. Ziyarətgahlar, övliyalar haqında olduğu üçün təbliğ etmək məqsədilə çap etdirir və paylayırdı. Evinin əşyalarını və üç otağının pula gedən hissələrini satıb qurtardıqdan sonra, satılası heç nəyi qalmadığından, kitablarını satmağa başlayır. Kitablarını çap etdirmək üçün maddi imkanları da olmadı-

ğından, hərəkatdan tanıdığı, ona hörməti olan insanlardan xahiş edir ki, kitablarını nisyə çap etsinlər, sataraq pullarını ödəyəcək. Onun saflığını bilən nəşriyyatda işləyən tanışları vəziyyətdən agah olduqları üçün kitablarının nisyə çap edilməsində ona köməklik edirlər. Beləcə, yazdığı  kitablarını satmaqla ailəsini dolandırmağa başlayır. Bundan xəbər tutan rayon rəhbərliyi Paşadan kitab alanların başına oyun açacaqları ilə insanlara hədə-qorxu gəlirlər. Əvvəllər fəxrlə Paşa ilə qucaqlaşıb görüşənlər belə vəziyyətdə ona salam verməyə belə qorxurlar. Paşa yaşadığı rayonun adamlarının həyatlarını təhlükəyə atmamaq məqsədilə kitablarını da götürərək, ətraf rayonlara üz tutur. Çox çətinliklərlə üzləşir. Balalarını böyütmək üçün hər bir əzab-əziyyətə qatlaşır. Beləcə, ailəsini dolandırmağa başlayır. Uşaqlarını böyüdür, təhsil almaları üçün çalışır, onlara əllindən gələni edir ki, övladları qarşısında  üzüağ olsun.

# İLAHİDƏN GƏLƏN DİPLOM...

***"İnsan Mənim sirrimdir,***
***Mən də insanın sirriyəm!"***
(Yaradan)

Hələ Paşa uşaq ikən bir gün anası Aşa xanım yuxusunda qara atda, uzun qara libasda nurani simalı bir kişinin onlara gəldiyini görür. Öz-özünə deyir ki, bu ki, Veys Babadır. Görür ki, həmin nurani kişi eyvanlarının divarını rəngləyir. Sonra dördkünc nəsə çəkir, sonra  qızılı rəngdə boyayır, ortasına DİPLOM və SSRİ yazır və dönüb ona baxan Aşa xanıma deyir ki, bu, Paşanın diplomudur.

Paşa uşaq olsa da, anası gördüyü yuxunu ona danışır. Həvəslə: – Sənin diplomun  İlahidən gələcək, –deyir. Paşa anasından: – Diplomu oxuyub alırlar, necə mənə İlahidən gələcək? – deyə soruşur.

Anası sevinclə yuxusunu Paşaya izah edirdi:-Yuxuda gördüm  ki, Veys baba bizə gəldi, atdan düşüb, onu evimizin sütununa bağladı. Sonra eyvanımızın divarını rəngləyib, divarda diplom şəkli çəkdi və dedi ki, bu Paşanın diplomudur.

Paşa uzun müddət var-gəl edərək anasının yuxusunu düşünür ki, bu nə diplomu ola bilər?

Beləcə, illər ötür. Ona şəfa vermək qabiliyyəti verildikdə başa düşür ki, anasının yuxuda gördüyü diplom elə bu imiş.

### *Veyis Baba kimdir?*

Xalq arasında "Veys Baba", "Veysəl Qara", Veysəl Qərani kimi tanınan Uveys əl-Qərani İslam tarixində ən çox tanınan və sevilən mübarək bir şəxsiyyətdir. Bunu məşriqdən məğribəcən demək olar ki, hər diyarda ona nisbət edilən müxtəlif qəbirlərin mövcudluğu da sübut edir.

Azərbaycanda onun məzarı Ağdaşdan 45 km. cənubda yerləşən Xınalıqlı kəndinin ərazisindədir.

Veysəl Qərani Azərbaycana cihad üçün göndərilən orduyla gələrək İslamı buralarda təbliğ etmişdir. Onun kimi örnək şəxsiyyətlər İslam orduları ilə birlikdə yeni fəth olunan yerlərə gedər və orada İslamı halları, davranışları və dilləri ilə təbliğ edərdilər. Bu mübarək şəxs də Azərbaycana gələrək bu torpaqları şərəfləndirmişdir. Azərbaycan xalqının İslamı qəbul edərək müsəlmanlaşmasında şübhəsiz ki, onun da rolu olmuşdur. Bəlkə elə ona görə də bu torpaqlarda bir çox Allah dostu övliyalar və İslam alimləri, şairlər yetişmişdir. Nizami, Füzuli, Nəsimi, Seyyid Yəhya Şirvani kimi Allah və Rəsulunu şeirlərində ən gözəl şəkildə tərənnüm edən şairlərimizdəki ilahi eşq və məhəbbətlə dolu ruh halının Veysəl Qərani və onun kimi buralara gələn İslam təbliğçilərindən qaynaqlandığını söyləmək yanlış olmaz.



**Uveys əl-Qəraninin qəbri**

Mənbələrdə bildirilir ki, Veysəl Qaraninin soyu Yəmən tayfalarından olan «Beni Murad» (Muradoğullarından) gəlir.

Məhəmməd Peyğəmbər dövründə yaşamasına baxmayaraq onu heç görməmişdir. Dinimizdə ana sevgisinin böyüklüyüylə anlamlandırılmış bir din böyüyümüzdür. İbn Battuta Veysəl Qaraninin Siffeyn döyüşündə Əlinin ətrafında döyüşərkən öldürüldüyünü söyləyir.

Övliyalar vilayəti olan Bursa vilayətinin Osmanqazi mahalında Veysəl Qarani məhəlləsi və məscidi vardır. Veysəl Qaraninin müxtəlif dövlətlərdə türbəsi var.

Muhadramundandır. Muhadram təbiri, hədisçilər istilahına görə həm cahiliyyə zamanını, həm də Peyğəmbərimizin Peyğəmbərlik zamanını idrak edib də Əfəndimizi görmə şərəfinə nail olmadan, müsəlman olanlara verilən addır. Veysəl Qərani həzrətləri də bunlar arasında sayılmaqdadır.

Peyğəmbər Əfəndimiz Veysəl Qəraniyə hədiyyə olaraq özünün xirqəsini (namaz qılarkən geydiyi libası) göndərmişdir.

Yunus Əmrə tərəfindən şərəfinə, "Yəmən ellərində Veysəl Qərani" adlı şeir yazılmışdır.

Özünə göndərilmiş olan Xirka-ı Şərif, indi İstanbul Fətihdəki Hirka-ı Şərif məscidində, soyundan gələnlərin himayəsindədir. Veysəl Qəraninin, Din böyüklərimizin izah hekayələrində Peyğəmbər sevgisinin, ana sevgisinin böyüklüyü izah edilmişdir. Onun bu böyük duyğuları indiki vaxtda bir çox insanlara nümunə olmalıdır.

## "DOSTU" AGENT İMİŞ...

***"Haqqı deyin, hətta, acı olsa belə."***
*(Məhamməd Peyğəmbər)*

Paşanın izlənilməsinə göstəriş verilir. Nə yeyib-içməsi ilə belə maraqlanırlar. Hətta, hansı çayxanada oturub çay içsəydi, dərhal həmin çayxana bağlanırdı. Paşa bu halı ürək ağrısıyla qarşılayaraq, günahsız insanların çörək puluna bais olmamaq üçün heç bir ictimai yerə getməməyə qərar verir.

Özünü Paşanın dostu kimi  aparan birisi (hərbi komissarlıqda işləyən bu şəxsin adını yazmağı münasib bilmədik) gününün çox vaxtını Paşanın yanında keçirir. Hara getməsi, nə yeməsi, kimlə görüşməsi, nə söhbət etməsi barədə suallar verir. Çox saf və həm də gənc olan Paşa da onun suallarını dostu bilərək həvəslə cavablandırır. Bir gün Paşanın televizoru xarab olur. Həmin illərdə ancaq AzTV kanalı göstərirdi. Həmin kanalda gah bayağı verilişlər, gah da iqtidarın tərifindən başqa normal bir veriliş olmadığından Paşa televizor almır. Lakin, "Xəbərlər" proqramına baxmaq üçün ətrafda yaşayan qohumlarının evinə gedir. Bir neçə gündən sonra görür ki, hansı qohumun evinə gedirsə, ya televizor işləmədiyini deyirlər, ya da bir bəhanə ilə ona "Xəbərlər"ə baxmağa imkan yaratmırlar. Paşa başa düşür ki, onlara təzyiqlər olduğundan qohumları belə edirlər.




Bacısınının həyat yoldaşı idarə müdiri işləyirdi. Rayonun rəhbərlərinin iştirakı ilə keçirilən iclasda gözlənilmədən Başçı  bacısının yoldaşına sual verir ki, Paşa sizə niyə tez-tez gəlir? O isə bildirir ki, mən evdə olanda bizə gələn görməmişəm.  Deyir niyə yalan danışırsan, dünən sizdə dolma yeyib. Necə olur biz kənarda ola-ola, hər şeyi bilirik, sən isə, evindən xəbərsizsən?

Paşa bundan xəbər tutan kimi neçə illərdir özünü Paşanın sadiq dostu kimi qələmə verən şəxsin əslində onun izlənilməsi üçün təşkil olunmuş "dost" sifətində agent olduğunu başa düşür və ondan dərhal uzaqlaşır...

# ÖLÜMÜNƏ FİTVA VERİLİR...

***Bir Allah istəyən şəxsi***
***Sevər külli mahal istər.***
*(Aşıq Ələsgər)*

Paşa Yaqubun yazdığı kitabların çoxu böyük zəhmət hesabına başa gəlirdi. Belə ki, o rayonları gəzir, övliyaların, kəramət sahiblərinin tarixçələrini ətraflı öyrənir, arxivdə araşdırmalar aparır, bunların əsasında kitablar yazırdı.

Paşa Yaqubun yazdığı kitablar bir çox dini təriqətlərin əqidəsinə zidd olduğundan, onu bu yoldan çəkindirmək üçün hərəkətə keçirlər. Bir zaman ölkədə tüğyan edən bəzi təriqətlərin yüksək eşalonu Paşa Yaqubun evinə hücum edərək onu hədələyirlər ki, kitablarını satışdan çıxarsın. Paşa Yaqub belə hədələrə məhəl qoymadığını görəndə onun öldürülməsinə fitva verirlər.

Bundan qorxmayan Paşa Yaqub bir çox qəzetlərdə hadisələri işıqlandırmağa başlayır. Eyni zamanda 16 rəqəmi Allahın məhəbbət rəmzi olduğundan Paşa Yaqub Allaha sidq ürəklə yalvararaq 16 gün müddətində ona “ölüm hökmü” çıxaranların cəzasını verməsini diləyir. 16 gün tamama çatmamış Allah sevimli bəndəsi olan Paşa Yaqubun köməyinə çatır. 2002-2003-cü illərdə ölkəmizdə qatı təriqətçilərə qarşı



Hürriyyət

№1(1083); 3 yanvar 2003

Bakı-Qazax yolunda dəhşətli qəza

4 nəfər ölüb, 3 nəfər xəsarət alıb

Bakı-Qazax yolunun 401-ci kilometrliyində dəhşətli yol qəzası olub. Rəşadət Məlikovun (1979) idarə etdiyi VAZ-2101 markalı 57 BD 214 dövlət qeydiyyat nişanlı avtomobil 20 BK 223 dövlət nömrə nişanlı "Moskviç"in yoluna çıxaraq toqquşub. Birinci avtomobilin sürücüsü və sərnişini Yasin Namazov (1979) ölüb, Samir Əhmədov (1979) xəsarət alıb. "Moskviç"in sürücüsü Həmid Babayev (1962), onun oğlu Səid Babayev (1993) ölüb, yoldaşı Sevda Babayeva (1970) və 4 yaşlı oğlu Əhəd bədən xəsarəti alıblar. Zərərçəkənlər Şəmkir rayon mərkəzi xəstəxanasına götürülüblər. Faktla bağlı Şəmkir rayon polis şöbəsində araşdırma aparılır.

*OLAYLAR*

Paşa Yaqubun evinə basqın olub

O, vəhabiləri günahlandırır

Dekabrın 29-da yazıçı Paşa Yaqubun evinə basqın olub. Qeyd edək ki, o ümumi elmi araşdırmalar aparır. Dekabr ayının 26-27-28-də qəzetimizdə silsilə yazıları dərc olunub. Həmin yazılarda vəhabilik təriqətinin mahiyyəti izah olunur. Məqalədə Qurana əsaslanmaqla düsturlar vasitəsilə göstərilib ki, həmin təriqətin mənsubları Quranın əksinə çıxırlar. Onlar enerji ötürücülü insanları sıradan çıxarmağa çalışırlar. Bununla enerjinin mənbəyi (Allah) ilə mənsəbi (insan) arasında əlaqəni kəsmək üçün onlar peyğəmbərlərin əleyhinə təbliğat aparırlar. Onları gözdən salırlar. Bundan sonra dekabrın 29-da gecə saat 21 radələrində Paşa Yaqubun Zərdab şəhərində yerləşən evinə hücum olub. Onun sözlərinə görə, həmin adamlar həyətə girərək əcaib səslər çıxarıb, uşaqları qorxudublar. Paşa Yaqub bunu vəhabilərin təzyiqi kimi qiymətləndirir.

*XATİRƏ*

geniş miqyaslı həbslər başlayır. Çoxları həbs edilir, çoxları isə ölkədən qaçırlar. Başbilənləri isə, deportasiya edilir, gəlir mənbələrinə qadağalar qoyularaq, bankları bağlanır. Bu bəla da Allahın istəyilə Paşa Yaqubdan sovuşur...

# KƏŞFLƏRİ ALİMLƏRİ HEYRƏTƏ GƏTİRDİ...

# AYIN ÜZƏRİNDƏKİ LƏKƏ DEYİL, XƏRİTƏDİR

Paşa Yaqub bu sirri kəşf etdikdə alimlər heyrətə gəlir.

Hər gün hamımızın gördüyü və diqqətimizi çəkərək sual verdiyimiz və müxtəlif cavablarla özümüzü sakitləşdirdiyimiz Ayın üzərindəki "ləkə" əslində ləkə deyilmiş. Seçilmişlərdən olan Paşa Yaqub elmi-lədun bilicisi kimi bu sirri açmağa nail olmuşdur.

Bu kəşfini mətbuatda çap etdirdikdə hətta, bir müddət təzyiqlərə də məruz qalmışdır.

Paşa Yaqub elmi-lədun araşdırması ilə yerin orbiti olan bu göy cisminin sirrini sübutlarla izah edərək bildirir:

-Araşdırmalarımız zamanı məlum oldu ki, Ayın üzərindəki "ləkə"lər əslində, yerin ilk yaranışındakı **Pangeya** adlı materikin xəritəsidir.

Bu şəkil coğrafiya kitablarında və internetdə də var.

Həmin materikin xəritəsi ilə Ayın şəkillərini yanaşı qoyduqda Ayın üzərindəki "ləkə"nin Pangeya materikinin xəritəsi olduğu adi gözlə görünür. Bu "ləkə"lərin nəyə işarə olduğu indiyədək elmə məlum olmadığından, bu barədə dillərdə daim əfsanələr, miflər dolaşmaqdadır.

Hər gün gördüyümüz, ancaq fərqinə varmadığımız hikmətləri üzə çıxaran (kəşf edən) elmə elmi-lədun deyilir.



*Ay və Pangeya materikinin xəritəsi*

## *Mənə inanmayan axşamlar Aya baxsın*

Paşa Yaqub Salvador Dalinin əsərinin sirlərini də açır.

Xilaskar kim olacaq?

Belə söyləyir:

-Bildiyimiz kimi, məşhur rəssam Salvador Dali (1904-1989) bir çox sirli, abstrakt rəsm əsərləri yaratmışdır ki, bu sirlər, oradakı gizli şifrələr üzərində bu gün də tədqiqatçılar baş sındırmaqdadırlar. Rəssamın belə şifrəli əsərlərindən biri də “Geopolitik uşaq yeni insanın doğuluşunu seyr edir” adlı rəsm əsəridir.

Göründüyü kimi, əsərdə Yer kürəsi, materiklər təsvir edilib və kürədən bir uşaq doğulur. Əsərdə diqqət çəkən digər məqam kənarda dayanan qadının, əlilə xəritə üzərində Azər-

baycanı işarə verməsidir. Bir çox təhlilçilər əsərdəki yeni doğulan körpənin dünyanı xilas edəcək xilaskar İsa Məsih, yaxud, Həzrət Mehdi olduğunu bildirirlər və qadının verdiyi işarə ilə rəssamın bu körpənin Azərbaycandan çıxacağını xəbər verdiyini güman edirlər.

Elmi-lədun araşdırmalarımız göstərir ki, əsərdəki doğulan uşaq Pangeistdir (Pangeoist).

Nədir (kimdir) Pangeist?

Bunu izah etmək üçün Yer kürəsinin əvvəlki halına qayıdaq. Elmə məlumdur ki, ilk yaranışda Yer kürəsində cəmi bir materik olub ki, onun da adı Pangeya olub. Həmin materiki əhatə edən okeanın adı isə, Pantalas olub.

Zaman keçdikcə, həmin Pangeya materiki əvvəlcə iki hissəyə - Lavrasiya və Hondvanaya bölünmüşdür. Hazırda isə, altı materik olduğu hamımıza məlumdur.

“Pangeoist” sözün mənşəyi “Pan os”- “tam”, “bütöv”, “kök” (özül); “geo” – “Yer” anlamı verməklə, “bütöv Yer” mənasını bildirir.

Göründüyü kimi, ilk yaranışda Yer bütöv olmuş, əsrlər keçdikcə parçalanaraq indiki halına gəlmişdir. Necə ki, insanlar əvvəlcə bir atadan və bir anadan (Adəm və Həvvadan) doğulduqdan sonra millətlərə, xalqlara parçalandılar, daha sonra irqlərə, dinlərə, təriqətlərə bölündülər və hazırkı hallarına gəldilər. Həmin eyni atanın və ananın övladları artıq bir-birlərinə düşmən kəsilərək, bir xalq digərinin, bir din o birinin, bir təriqət digər təriqətin qanını içməyə hazırdır və içirlər də.

Salvador Dalinin şifrəli əsərindəki yeni doğulan Pangeist adlandırdığımız körpə həmin bu parçalanmanın qarşısını alacaq və Yeri əvvəlki halına-bütöv Yer halına gətirəcək şəxsdir.

O şəxsin fəaliyyəti ilə Yerdə yaşayan bütün insanlar vahid bir ideya ətrafında birləşərək, bugünkü düşmənçiliyə və müharibələrə son qoyacaq, sülh, əminamanlıq şəraitində yaşayacaqlar.

Etiraf edək ki, bu gün bəşəriyyət arasında yaranan qarşıdurmanın kökündə ilk növbədə dinlər dayanır. Daha dəqiq desək, din mafiyaları (dinlərin mafiyalaşması) dayanır. Dünyaya açıq gözlə baxsaq, “Buddizim”, “Atəşpərəstlik”, “Musəvilik”, “İsavilik” və “İslam” adı altında fəaliyyət göstərən mafiyaların dünya sərvətləri, nüfuz dairəsi uğrunda necə qanlı savaş apardıqlarını görmək olar. Bu savaşda qazanan yuxarıda sadaladığım mafiyalar, onların başında duran mafiozlar; itirən isə, onları din bilib, ardınca gedən sadə insanlardır. Bu mafiyalar insanları öz ardınca aparmaq, özlərinə tabe etdirmək üçün ibadətgahlar (kilsələr, sinaqoqlar, məscidlər) düzəldir və ora “Allah evi” adı verirlər. Halbuki, Allah hər yerdə, özəlliklə də insanın qəlbindədir.

Mafiya başçılarının gəlir mənbəyi olan bu ibadətgahlarda əsas təbliğat onun üzərində qurulur ki, başqa dinlərə (yaxud təriqətlərə) mənsub olan insanlar sizin düşməninizdir və mütləq onları qətlə yetirib, sərvətlərini və yurdlarını əllərindən almalısınız. Onlar əsasən, savadsız, elmsiz, işsiz-gücsüz insanları öz təsiri altına salaraq, onlara pul vəd verməklə,

müharibələrə cəlb edirlər. Nəticədə həmin müharibədə iştirak edən tərəflərə həm silahlarını satır, həm əsir götürdükləri insanları (onların daxili orqanlarını) satır, həm də qarətçilikdən küllü miqdarda sərvət qazanırlar. Bir çox hallarda müharibədə iştirak edən əsgərlərin maaşlarını və sığortalarını da vermirlər. Əsgərlər ölüncə döyüşür, ömürlərini mafiyaların yolunda qurban verirlər.

Bütün bunların qarşısını almaq, insanları din mafiyalarının əsarətindən qurtarmaq üçün, əsərdə təsvir edilən Pangeist insanlara elmlənməyi və bu mafiyaların quraşdırdıqları ibadətgahlardan – “Allah evləri”ndən uzaq durmağı tövsiyə edəcəkdir. Beləliklə, bu təbliğat bütün dünyaya yayılacaq və insanlar öz əvvəlki hallarına-birlik və sülh hallarına qayıdacaqlar.

Oxucuda sual yaranacaq ki, Pangeizm ideyasının rəhbəri (əsərdəki doğulan uşaq) və onun ardınca gedənlər dinsiz olacaqlarmı?

Əlbəttə ki, yox!

Onlar Yaradanın birliyini qəbul edəcəklər. Öz fəaliyyətlərində elmə, əxlaqa, halallığa və dürüstlüyə-bir sözlə, bəşəri dəyərlərə üstünlük verəcəklər. Sadəcə, indi mövcud olan (mafiyaların nəzarətində olan) heç bir ibadətgaha getməyəcəklər və özləri də heç bir ibadətgah yaratmayacaqlar. Onlar yuxarıda qeyd etdiyimiz kimi, Allahın təkliyini, hər yerdə olduğunu qəbul edəcəklər. Bu səbəbdən onların inancı daha çox bütün kitab verilmiş peyğəmbərlərin babası olan İbrahim Peyğəmbərin təbliğ etdiyi Tovhidə (təkallahlılığa)

uyğun gələcəkdir. Bildiyimiz kimi, Tovhid bütün dinlərin mənbəyi, başlanğıcıdır (həmin vaxt ibadətgah olmayıb). Beləliklə, yeni doğulmuş Pangeist həm millətləri, həm də dinləri ilkin mənbəyinə, başlanğıcdakı halına gətirəcəkdir ki, bu da insanlar arasında sülhün, əmin-amanlığın yaranmasına səbəb olacaqdır.

Salvador Dalinin "Geopolitik uşaq yeni insanın doğumunu seyr edir" əsərində diqqət çəkən digər məqam xəritə önündə dayanmış qadının Azərbaycana işarə etməsidir. Elmi-lədun araşdırmalarımız göstərir ki, yeni doğulan Pangeoist və onun təbliğ edəcəyi pangeizm ideyası həqiqətən də çox qısa zamanda Azərbaycanda meydana çıxacaq və buradan bütün dünyaya yayılacaqdır.

Yazdığımız fikirlərin subyektiv olmadığını və Allahdan gələn bir xəbər olduğunu sübut etmək üçün daha bir sirri diqqətinizə çatdırmaq istəyirəm. Yuxarıda Dünyanın ilk yaranışda tək bir materikdən ibarət olduğunu, həmin materikin isə Pangeya adlandığını yazdıq. Bu materik zaman-zaman 6 hissəyə parçalanıb. İndi sizə Pangeya materiki haqda daha heyrətamiz bir sirr açacağıq.

Belə ki, insanlar hər gecə bu materiki görsələr də, əslində bunun Pangeya olduğunu heç vaxt ağıllarına gətirməyiblər. İndi mən sizə həmin materikin yerini göstərirəm. Axşam qaranlıq qovuşandan sonra başınızı qaldırıb Aya baxın. Pangeya materikini orada görəcəksiniz. Belə ki, Ay Yer kürəsinin, üzərindəki «ləkə» isə, Pangeya materikinin xəritəsidir.

Bütün bu və hələlik demək istəmədiyim digər sirlər Azərbaycanda doğulacaq yeni ideyanın bəşəriyyəti xilas edəcəyi barədəki fikirlərimin subyektiv olmadığını, Allahın qərarı olduğunu bir daha sübut edir.

Oxucuda sual yaranacaq ki, bəşəriyyət birləşib vahid hala gəldikdən sonra, ictimai quruluş necə olacaq?

Həqiqətən, maraqlı sualdır. Bəşəriyyət gələcəkdə hansı quruluşda yaşayacaq: kapitalizm, sosializm, yoxsa kommunizm olacaq?

Mənə məlum olan budur ki, gələcəkdə bəşəriyyət bu quruluşların heç birində yaşamayacaq. Gələcək quruluşun adı **İnformasionizm** olacaq. Bu quruluşda əsas məsələ məlumat olacaq. Düzgün məlumat hər şeydən qiymətli olacaq.

Hakimiyyət quruluşu isə, **Meritokratiya** olacaq. "Meritokratiya"- savadlıların və ağıllıların hakimiyyəti deməkdir. Yəni, insanlara mənsub olduqları partiyaya görə deyil, malik olduqları savada, ağıla görə yanaşılacaq.

Onu da bildirim ki, həmin vaxt insanlarda elm çox güclü inkşaf edəcək və digər planetlərdə yaşayan canlıların elminə yaxın, bəlkə də onlardan çox olacaq.

Həmin dövrdə mədəniyyət və incəsənət də indikindən güclü inkişaf edəcəkdir. Belə ki, tikilən binalar insanlara, heyvanlara və ağaclara bənzəyəcəkdir. Yəni, memarlıq o qədər güclü inkişaf edəcək ki, istənilən görkəmli adama bənzəyən, sevdiyiniz heyvana, yaxud, xoşladığınız ağaca, gülə bənzər binalar sifariş edib, tikdirə biləcəksiniz.

# MƏŞHUR RƏSSAMIN ƏSƏRİNDƏKİ RƏQƏM QIZ QALASINA İŞARƏDİR

***"Allah Kainatı riyazi dillə yaratmışdır".***
(Qalileo Qaliley)

Salvador Dalinin "Geopolitik uşaq yeni insanın doğuluşunu seyr edir" adlı şifrəli rəsm əsərinin aşağı hissəsində yazılmış 9 rəqəmi Paşa Yaqubun diqqətini çəkir.

Aydın məsələdir ki, dünyaca məşhur bir əsərdə qeyd olunmuş rəqəm təsadüfi ola bilməzdi. Elə isə, bu rəqəm insanlara hansı kodlaşdırılmış mesajı verir sualına cavab üçün elmi-lədunla hesablamalar aparmağa başlayır və aydın olur ki, bu rəqəm Qız Qalasının sirridir.

Paşa Yaqub araşdırmasını belə izah edir:

Hesablamalarımız göstərir ki, Salvador Dalinin sözü gedən əsərindəki rəqəm Bakıdakı Qız qalasına işarə verir.

Xatırladım ki, yazılarımızdan birində Bakıdakı yaşı minillərlə ölçülən və astronomik məqsədlə tikilən Qız qalasının sirlərindən (kodlarından) bəhs etmişdik. Təqdim etdiyimiz hesablamalar göstərirdi ki, "9" formasında tikilən qalanın kodları 9 rəqəminə (eləcə də "Quran"ın 9-cu surəsinə) bağlanır. Qalada diqqət çəkən məqamlardan biri gövdə hissəsində 32 diş, çıxıntı (qol) hissəsində isə, 23 diş olmasıdır. Elə isə:

**32 - 23 = 9**




Onu da qeyd edim ki, dünyadakı 11 iqlimdən doqquzu Azərbaycandadır.

Burada haşiyə çıxaraq, oxucuların diqqətini "Quran"da 9 rəqəmi ilə gələn surələrə cəlb etmək istəyirik:

Bəşəri dəyərlərə əməl etməyənlərin necə cəzalanacağından bəhs edən surələr 9 rəqəmi (Qeyd edim ki, 9 "Tövbə" surəsinin sıra nömrəsidir.) ilə gəlir və sayı 11 olan bu (9, 19, 29, 39, ......109) surələrdəki ayələri cəmləsək, 555 ədədi alınar:

129 + 98 + 69 + 75 + 18 + 24 + 52 + 46 + 30 + 8 + 6 = 555

Bu ayələr bir qayda olaraq cəzadan və tövbədən bəhs etdiyindən, 555 ədədi "Quran"da sərtlik, cəza rəmzi sayılır.

Yenə də qayıdaq Qız qalasındakı rəqəmlərə. Maraqlıdır ki, qalanı tədqiq edən bütün tədqiqatçılar orada keçən ölçülərin hamısının 555 ədədinə bağlandığını təsdiq edirlər.

Məsələn:
159 + 951 = 1110 : 2 = 555
258 + 852 = 1110 : 2 = 555
357 + 753 = 1110 : 2 = 555
456 + 654 = 1110 : 2 = 555

Qalanın tikilişində diqqət çəkən digər məqam onun kərpic qatlarının 555 sıra olmasıdır.

Ona görə də tədqiqatçılar 555 ədədini Qız qalasının kodu hesab edirlər.

“And olsun ki, Allah bunları hesablamış və təkrar-təkrar saymışdır”. “Məryəm” surəsi, 94.

Bildiyimiz kimi, “Quran”ın 9-cu surəsi yeganə surədir ki, “Bismillah”sız başlayır.

Sual yaranır: Niyə bəs “Tövbə” (9) surəsi “Bismillah”sız başlayır?

Elmi-lədun araşdırmalarımızla bu suala cavab tapmağa çalışaq. Hesablamalarımız göstərir ki, 9-cu surə 22-ci (Həcc) surənin davamıdır.

Xatırladım ki, elm və peyğəmbərlik rəmzi olan XXI əsrin 2-ci Qurban bayramı günü (22. 02. 2002) mənə məlum oldu ki, “Tövbə” surəsinin ilk üç ayəsindəki hökm bugünkü Qurban bayramına da şamil olunur.

Belə ki, bu ayələrdə bu gün Qurban bayramı olduğu vurğulanaraq, doğru yolda olmadıqları insanların diqqətinə çatdırılır və düz yola qayıtmaq üçün onlara dörd ay möhlət verilir:

*"Allahdan və Onun Peyğəmbərindən saziş bağladığımız müşriklərə bir xəbərdarlıq: "Yer üzündə dörd ay sərbəst gəzib dolaşın və bilin ki, siz Allahı aciz qoya bilməzsiniz. Əgər tövbə etsəniz, bu, sizin üçün xeyirli olar. Əgər üz döndərsəniz, bilin ki, Allahın əzabından qaçıb canınızı qurtara bilməzsiniz. Kafir (günahkar) olanları şiddətli bir əzabla müjdələ!" (Bax: "Tövbə" (9) surəsinin ilk üç ayəsinə).*

Allahın verdiyi elmlə dörd aylıq möhlətin 22-24 iyunda (bayram 3 gündür) bitəcəyini bildiyimizdən, bu barədə ovaxtkı dövlət başçısına və xalqa açıq məktub yazıb, mətbuat orqanlarına göndərdik və gözlənilən bəladan xalqı xəbərdar etdik (5 iyun 2002-ci il tarixdə həmin müraciət "Hürriyyət" qəzetində çap olundu).

Nəhayət, 22 iyunda Cənubi Azərbaycanda baş verən 9 bal zəlzələ ilə bəşəriyyətin cəzalanma prosesinin başlanğıcı qoyuldu.

Ondan sonra Yerdə baş verən bütün təbii fəlakətlər və təyyarə qəzalarının bu prosesin davamı olduğunu zaman-zaman məqalələrimizdə və kitablarımızda riyazi hesablamalarla sübut etmişik.

Yəni, riyazi dildə desək, Quranda "iyirmi iki" "doqquza" çevrilir.

Yeri gəlmişkən, diqqətinizi başqa bir məqama da cəlb etmək istəyirik. Bu hikmət insanın anatomik quruluşunda da özünü büruzə verir. Belə ki, insan anatomiyası 22(0) sümüyün birləşməsindən yaranmışdır (sıfır məna bildirmədiyindən onu mötərizəyə aldıq) ki, bunlardan 22-si başdadır.

Maraqlıdır ki, "Quran"ın 22-ci surəsi "Həcc" surəsidir və burada Allahın evi, başqa sözlə desək, enerjinin **baş**langıcı, mərkəzi olan Kəbə evinin ətrafına fırlanmaqdan söhbət açılır. Bunlar təsadüfi deyildir.

22-nin 9-a çevrilməsi tək "Quran" və anatomiya elmlərində deyil, fizika elmində də özünü büruzə verir. Belə ki, diqqətinizi cihazların daxilində qoyulmuş transformatorun funksiyasına cəlb etmək istəyirik. Bu transformatorlar 22(0) voltluq enerjini bir qayda olaraq 9-a çevirirlər.

Buradan belə qənaət hasil olur ki, insan öz enerjisini əməli işə çevirərkən, onu vicdanının (oxu: daxili transformatorunun) süzgəcindən keçirməlidir. Yəni, TÖVBƏ surəsinin sərhədləri daxilində əməllər etməlidir, –öz enerjisini günah işlərə sərf etməməlidir.

Əgər insan fizikanın (Allah kainatı fizikanın qanunları ilə idarə edir) qanunlarına tabe olmayıb, enerjisini günah işə sərf edərsə, onda mütləq gec-tez bəlaya məruz qalacaqdır. Son dövrlərdə cəmiyyətdə həyəcanlı hadisələrin (qəzaların, zəlzələlərin...) artması da məhz bu amillə əlaqədardır.

## SİRLƏRİ YUXUDA ÖYRƏTDİLƏR, O DA KƏŞFLƏR ETDİ...

Paşa Yaqub İlahi tərəfindən mükafatlandırılır desək, yanılmarıq. Onun zəngin fəaliyyəti belə deməyə əsas verir. Paşa Yaqub demək olar ki, bəşəriyyətə bəlli olmayan hər gün yeni sirləri kəşf etməklə hətta, elm adamlarını da heyrətləndirir. Paşa Yaqubun bir çox sirlərin açılmasını kəşf etməsi Yaradanın istəyi olmasa mümkün deyil. Çoxşaxəli kəşfləri alimlərin uzun illər elmi axtarışlarla kəşf edə bilmədiklərini Paşa Yaqubun asanlıqla tapması onun Allah tərəfindən seçilmişlərdən olması qənaətində olmağa əsas verir. O, bir çox sirləri yuxuda öyrənib, bir çox sirləri dostlarının yuxusu vasitəsilə kəşf edib.

***“Bir zaman Yusif atasına demişdir ki, “atacan, mən yuxuda on bir ulduz və Günəşlə-Ayı gördüm. Gördüm ki, onlar mənə səcdə** (təzim) **edirlər”.***

***Yaqub dedi: “Can oğul! Yuxunu qardaşlarına danışma, yoxsa sənə bir hiylə qurarlar. Çünki Şeytan insanların açıq-aşkar düşmənidir. Yuxuda gördüyün kimi, Rəbbin səni başqalarından seçib üstün tutacaq, sənə yuxu yozmağı öyrədəcək, bundan əvvəl babaların İbrahimə və İshaqa nemətini tamamlayıb verdiyi kimi, Yaqub nəslində də sənə tamamlayıb verəcək. Həqiqətən, Rəbbin hər şeyi biləndir, hikmət sahibidir!*** *“Yusif” surəsi, 4-6-cı ayələr.*

### *Yuxuda kəşf etdiyim cədvəl astronomları heyrətə saldı.*

Paşa Yaqub sübutlarla açıqlayır:

Bildiyimiz kimi, indiyədək alimlər tərəfindən kəşf olunan bir çox elmi sirləri onlar məhz yuxuda görmüş, sonra kağıza köçürmüşlər. Bu barədə bir neçə misal deyə bilərəm:

– Mendeleyev tərəfindən kəşf olunan Elementlərin Dövri Cədvəlini;

- Dekartın riyazi prinsiplərin təbiətin dərk edilməsinə yönəlmiş kəşfləri;

– Almaniyalı kimyaçı Fridrix Kekulenin benzol molekulunun strukturunun kəşfi;

– Fridrix Burdaxın qan dövranını kəşf etməsini;

– Nobel mükafatı laureatı Otto Levinin ürək impulslarının sinir vasitəsi ilə ötürülməsini kəşf etməsini;

– Nils Borun atomun strukturunu kəşf etməsini (yuxuda nüvə və elektronlar ona günəş və onun ətrafında hərəkət edən planetlər sistemi obrazında görünüb);

– Frederik Bantinqin insulini kəşf etməsini;

– Hindistanın dahi riyaziyyatçısı Srinivasa Ramunadcanın kəşflərini;

– Elias Xouv 1845-ci ildə tikiş maşınını yaratmazdan öncə maşının iynəsini necə yerləşdirmək məsələsi üzərində həddindən artıq baş sındırırdı, bu məsələ onu çox incidirdi. O bilmirdi ki, iynənin dəliyini necə yerləşdirsin ki, ip par-

çanın əks üzündən daxil olsun. Bir gün yuxuda görür ki, bir qrup vəhşi adam tərəfindən əhatə olunub və onu əsir götürmək istəyirlər. Vəhşilər nizələrini silkələyə-silkələyə onun ətrafında fırlanırdı. Birdən Elias diqqət yetirir ki, bu nizələrin düz iti ucluqlarının üzərində dəliklər vardır. Yuxudan ayılandan sonra, o iynənin dəliyini əks tərəfə, yəni iynənin ucunun üzərinə keçirir.

Yeri gəlmişkən, qeyd edim ki, indiyədək məqalələrimdə və kitablarımda bəhs etdiyim elmi-lədun kəşflər mənə yuxu vasitəsi ilə öyrədilmişdir. Buna misal olaraq bir neçə faktı xatırlatmaq istərdim.

– Bir gün yuxuda insanların Sirat körpüsündən keçmək üçün növbəyə durduqlarını, lakin heç kəsin bu tük kimi nazik və altında od yanan körpüdən keçə bilmədiyini gördüm. Mən yaxınlaşıb körpüyə çıxdım və bu vaxt sağ tərəfimdən düşən nur körpünü işıqlandırmağa, getdikcə genləndirməyə başladı. Nəhayət, körpü enlənərək ara qat (praqlatka) formasına düşdü. Heyrətlənib, soruşdum ki, körpü niyə praqlatka formasındadır? Onda öz ruhum mənə izah etdi ki, Kainat bütöv və işlək bir mühərrikdir; onun yarısı bu dünya, yarısı isə o dünyadır. Maşınlardakı mühərrikin iki hissəsi praqlatka ilə birləşdirildiyi kimi, bu dünya ilə o dünya da Sirat körpüsü vasitəsi ilə birləşib. Yəni, Sirat körpüsü əslində praqlatka funksiyasını yerinə yetirir. Yuxudan ayılandan sonra bu mövzuda məqalə yazdım.

– Daha sonra Mendeleyev cədvəlində elementlərin düzülüş prinsipi ilə “Quran”da surələrin düzülüş prinsipinin üst-

üstə düşməsi haqda hesablamaları da ilk dəfə yuxuda görüb, sonra bu barədə məqalə və kitab yazdım.

– Yuxu vasitəsi ilə etdiyim kəşflərin ikisi astronomiya elminə dair cədvəllər oldu. Belə ki, təxminən 17 il bundan qabaq yuxuda öz ruhum mənə bildirdi ki, bütün Günəş və Ay tutulmaları hər biri **858** gündən bir təkrarlanır (hər tutulmanın 858-ci günü daha bir tutulma baş verir) ki, bu da "Quran"ın səhifələrinin (286) üç mislidir. Həmin vaxt baş vermiş bir neçə tutulmanın 858-ci günlərinin hansı tarixə düşdüyünü hesabladım. Amma, o vaxtlar internetdən istifadə edə bilmədiyimdən gələcəkdə bu tarixdə tutulma olub-olmayacağını təsdiq edən rəsmi informasiya əldə etməkdə çətinlik çəkirdim. Nəhayət, Şamaxı Astrofizika Rəsədxanasının telefonunu tapıb, onlardan öyrəndim ki, həqiqətən gələcəkdə həmin tapdığım tarixlərdə astronomik hadisə olacaq. Ondan sonrakıların da tarixlərini hesablayaraq onlardan soruşanda və düz çıxanda maraqlandılar ki, əgər səndə belə bir cədvəl yoxdursa, internetin yoxdursa, onda belə dəqiq hesablamanı nəyin əsasında aparırsan? Cavab verəndə ki, "Quran"ın səhifələrinə uyğun hesablayıb tapıram, əvvəlcə heç nə anlamadılar. Ancaq sonra "Hürriyyət" qəzetində dərc olunan astronomik cədvəlləri və onların izahını görəndə Azərbaycanın bir çox astrofizikləri zəng edib heyrətləndiklərini bildirdilər və instituta dəvət edərək, cədvəli necə tərtib etməyimlə maraqlandılar.

***858 gün fərqlə baş verən Günəş tutulmalarının cədvəli***

| Əsrin ilk tutulması | Aradan keçən günlər | Növbəti tutulma | Aradan keçən günlər | Növbəti tutulma | Aradan keçən günlər | Növbəti tutulma |
|---|---|---|---|---|---|---|
| 21.07.2001 | 858 | 23.11.2003 | 858 | 29.03.2006 | 858 | 01.08.2008 |
| 14.12.2001 | 858 | 19.04.2004 | | | | |
| 10.06.2002 | 858 | 14.10.2004 | | | | |
| 04.12.2002 | 858 | 08.04.2005 | | | | |
| 31.05.2003 | 858 | 03.10.2005 | 858 | 07.02.2008 | 858+858 | 13.09.2015 |
| 22.09.2006 | 858 | 26.01.2009 | 858 | 02.06.2011 | | |
| 19.03.2007 | 858 | 22.07.2009 | 858 | 26.11.2011 | | |
| 11.09.2007 | 858 | 15.01.2010 | 858 | 21.05.2012 | | |
| 11.07.2010 | 858 | 14.11.2012 | 858 | 20.03.2015 | | |
| 04.01.2011 | 858 | 10.05.2013 | | | | |
| 01.07.2011 | 858 | 03.11.2013 | 858 | 09.03.2016 | | |
| 29.04.2014 | 858 | 01.09.2016 | 858 | 06.01.2019 | | |
| 24.10.2014 | 858 | 26.02.2017 | 858 | 02.07.2019 | | |
| 11.08.2018 | 858 | **14.12.2020** | | | | |

**858 gün fərqlə baş verən Ay tutulmalarının cədvəli**

| Əsrin ilk tutulması | Aradan keçən günlər | Növbəti tutulma | Aradan keçən günlər | Növbəti tutulma | Aradan keçən günlər | Növbəti tutulma |
|---|---|---|---|---|---|---|
| 09.01.2001 | 858 | 16.05.2003 | | | | |
| 05.07.2001 | 858 | 09.11.2003 | 858 | 14.03.2006 | | |
| 30.12.2001 | 858 | 05.05.2004 | 858 | 07.09.2006 | | |
| 24.06.2002 | 858 | 28.10.2004 | 858 | 03.03.2007 | 858 | 07.07.2009 |
| 24.04.2005 | 858 | 28.08.2007 | 858 | 31.12.2009 | | |
| 17.10.2005 | 858 | 21.02.2008 | 858 | 26.06.2010 | | |
| 16.08.2008 | 858 | 21.12.2010 | 858 | 25.04.2013 | | |
| 09.02.2009 | 858 | 16.06.2011 | 858 | 19.10.2013 | | |
| 06.08.2009 | 858 | 10.12.2011 | 858 | 15.04.2014 | | |
| 04.06.2012 | 858 | 08.10.2014 | 858 | 11.02.2017 | | |
| 28.11.2012 | 858 | 04.04.2015 | | | | |
| 25.05.2013 | 858 | 28.09.2015 | 858 | 31.01.2018 | 858 | 5.06.2020 |
| 23.03.2016 | 858 | 28.07.2018 | 858 | **30.11.2020** | | |
| 16.09.2016 | 858 | 21.01.2019 | | | | |

– Yuxuda öyrəndiyim sirlərin bir çoxu da təbabət və psixologiya elmlərinə aiddir. Bu sirlərin də mənə öyrədilməsinə səbəb açığını desəm mənim kasıblığım oldu. Belə ki, bu gün Azərbaycanın səhiyyə sistemindəki qiymətlər həddən artıq baha və mənim kimi çörəyi qələmdən çıxanların imkanlarına uyğun olmadığından, övladlarım xəstələnərkən onların qarşısında bir ata olaraq xəcalət çəkirdim. Belə anlarda Allahıma dua edirdim ki, övladlarımı pulsuz və dərmansız necə sağaltmağın sirrini mənə bildirsin. Bizdən əvvəl yaşamış bir çox peyğəmbərlər və Allah dostlarının da xəstələri dərmansız sağaltmaları haqda sonsuz sayda faktlar mövcuddur.

Çox şükür ki, allah-taala vəziyyətimi nəzərə alıb, bəzi sirlərdən məni hali etdi. Məlum oldu ki, yuxularda olan bəzi müasir elmə məlum olmayan sirləri bilməklə insana dəqiq diaqnoz qoymaq və müalicə etmək mümkündür. Bu sirləri elmi-lədun üsulu ilə öyrənməklə bərabər, paralel olaraq psixologiya kursuna da yazıldım. Hər iki istiqamətdən öyrəndiyim sirləri birləşdirərək sırf özümə məxsus olan başqaları üçün mümkünsüz görünən müalicə üsulu yaratdım. Bundan sonra övladlarım xəstələnərkən artıq onların qarşısında xəcalət hissi keçirmədim.

Yeri gəlmişkən, yuxuda olan bəzi deyilməsi mümkün sirləri oxucularım üçün açıram ki, bunu bilməklə müalicə edə bilməsələr də, hər halda özlərinə diaqnoz qoya bilsinlər.

1. Yuxuda yad ölüləri çox görmək insanın xəstəlikdən əziyyət çəkməsinə, doğma ölüləri görmək isə, dünyəvi,

(maddi) sıxıntılarının çox olmasına işarə verir. Ölmüş biri kimisə çağırırsa, artıq çağırılan şəxs xəstəliyin pik nöqtəsindədir. Ölü ilə əl-ələ tutub getmək ölümün astanasında olmağa işarə verir. Belə xəstəni sağaltmaq bir çox hallarda mümkün olmur.

2. Əgər yuxuda ilan görürsünüzsə, demək neqativ təsirə məruz qalmısınız və bu, sizin auranızı korlayıb. İlanı uzaqdan görürsünüzsə, bu, neqativ enerji sizə insanların nəfsindən, gözündən gəlib. Yox, əgər ilanlar sizi mühasirəyə alıblarsa və yaxud qovurlarsa, üstünüzə hücum çəkirlərsə, bu artıq tilsimin, cadunun təsiridir ki, sizə bu neqativ enerjini sifariş ediblər.

Yuxuda ilan kimisə çalıbsa (Allah göstərməsin!) artıq o şəxsin ailəsi, işi, bütün mövqeləri əlindən çıxıb (yaxud tədricən çıxmaqdadır) və bütün həyatı alt-üst olub (belə adamlar nə qədər cəhd etsələr də bizim qəbulumuza gələ bilmirlər).

Ümumiyyətlə, yuxuda ilan görən şəxslərin immuniteti zəifləyir və tez-tez xəstələnirlər, yuxudan diksinib oyanırlar, yuxuda boğulmaları olur. Qərar verməkdə çətinlik çəkirlər və verdikləri qərarı tez-tez dəyişirlər.

3. Yuxuda üstünüzə hürən it sizin düşməninizdir. Onun kimliyini bilmək istəyirsinizsə yuxu görən anda beyninizdən belə bir sual keçirin, – bu it kimə oxşayır, yaxud kimindir? Həmin anda it sizə düşməninizin formasında görünəcək və həyatınızı qaraldanın kimliyini tanıyacaqsınız. Yuxuda it üstünüzə kimin həyətində hürürsə, düşməniniz həmin həyətdə yaşayır (ola bilsin o sizinlə açıq düşmən olmasın və əməli

işdə əleyhinizə fəaliyyət göstərməsin. Amma, o şəxs öz bəd nəfsi, gözü ilə sizi çökdürə, hətta, öldrə bilər.

4. Yuxuda gördüyünüz pişik sizə həm fayda, həm də ziyan verən qadın anlamına gəlir. Pişik ayağınıza sürtünürsə, sizə sığınan, pənah gətirəni, aqressivdirsə, düşmənçilik edən qadına işarədir. Həmin epizodda pişiyin yanında hansı qadını görürsünüzsə, və yaxud pişik hansı qadına oxşayırsa, düşmənçilik edən həmin qadındır.

5. Doğulduğunuz, hazırda yaşamadığınız evi (ata, baba evinizi), yaxud keçmişdə yaşadığınız evi, uşaqlıq dostlarınızı, sinif yoldaşlarınızı yuxuda görürsünüzsə, bu yuxuda nə qədər xoş epizodlar (meyvə-tərəvəz dərmək, su və s.) olsa da, bunlar hamısı əksinə yozulur. Yəni, çin çıxmayan yuxulardır ki, bunun da demək istəmədiyim səbəbləri var.

Ruzi-bərəkətlə əlaqəli xoş yuxular o vaxt çin çıxır ki, onu kənddə yox, şəhərdə, yaxud tanımadığınız bir yerdə, tanımadığınız insanlar arasında görəsiniz.

Amma, nə badə bu əlamətləri (yuxuları) gördükdən sonra hansısa bir falçıya, görücüyə (kartla, kofe ilə, şamla, “Quran”la baxanlara) müraciət edəsiniz. Nəinki faydası olmayacaq, əksinə, daha da ağırlaşacaqdır.

## ALLAH DOST ETDİ, YUXUSU USTAD...

*Əzizim dostun olsun,*
*Dost tut ki, dostun olsun,*
*Allah dostunu dost tut,*
*Allah da dostun olsun.*

1998-ci ilin yay mövsümü idi. Bakıda açıq havada çayxanaların birində əyləşib çay içirdi. Hərdən də təzəcə çapdan çıxmış “ALLAHIN DOSTLARI” kitabını vərəqləyirdi. Birdən küçədə külək əsir, tozanaq başlayır, sanki fırtına qopur. Çayxanada oturanlar tez içəriyə doluşur. İçəridə oturmaq üçün yerlərin az olduğundan kim harda, kimlə gəldi, oturmaq məcburiyyətində qalır. Paşa Yaqub da bir kişinin oturduğu stolda oturur. Çay içə-içə tanış olurlar. Hadisələrin gedişi belə deməyə əsas verir ki, Allah onların dostluğuna bu an xeyir-dua vermək üçün güclü külək əsdirir.

Söhbət əsnasında kişi Paşanın əlindəki kitabla maraqlanır və kitabı əlinə alaraq burda bir hikmət olduğunu deyir. Kitabı vərəqləyir Veys babanın qəbirüstü abidəsinin şəklinə baxaraq bildirir ki, bu adi qəbirüstü şəkil deyil. Burada Allahın bir hikməti gizlənib. Bu, övliya Veysəl Qəraninin (Veys baba) öz şəklidir. Şəkil çəkiləndə Veys Babanın ruhu sanki insan formasında fotoya düşüb.



Hacı Xalid

Paşa Yaqub etiraf edir ki, o, burda heç bir hikmət bilmir, başdaşının şəkli kimi kitabda yer ayırıb. Diqqətlə şəklə baxanda təəccübünü gizlədə bilmir. Görür ki, ayaqüstə durmuş, kürkünün yaxası açıq, saçlarıı çiyinlərinə tökülmüş, saqqallı bir kişi sanki canlıdır. Bir qədər söhbət etdikdən sonra kişi Paşa Yaquba ünvanını verərək- bizə gələrsən- deyir. Paşa Yaqub: – gələrəm, – deyib ünvanı götürür. Ayrılırlar. Aylar keçdikdən sonra Paşa Yaqub həmin kişini xatırlayır. Öz-özünə deyir ki, axı mən o kişiyə söz vermişdim ki, gələcəyəm. Ünvana baxır ki, həmin kişi Neftçalanın Qaraimanlı kəndində yaşayan Fərəcov Xalid  Saday oğludur. Üz tutur Neftçalaya. Soruşa-soruşa kəndə çatır. Xalid kişinin evini tapır. Xalid kişi Paşa Yaqubu görəndə çox təəccüblənir. Paşa Yaqub onun üzünün görkəmindən  nəsə olduğunu anlayır və soruşur ki, Sizə nəsə olub, yoxsa münasib vaxtda gəlməmişəm. Xalid kişi: – Yooox, elə Allahın izn verdiyi gün gəldin. Bilirdim gələcəksən.

Paşa Yaqub yerindəcə donub qalır. Xalid onu süfrəyə dəvət edir. Söhbət əsnasında bildirir ki,  bu gecə Həzrəti Cəbrayıl mənə nazil olaraq Qurandan  üç sirr açdı. Dedi ki, sabah Paşa Yaqub gələcək, bu düsturları ona ver. Həmin

disturlar insan beyninin məhsulu deyil. Bu ancaq “Quran”da olan Allaha məxsus sirlərdir. Həmin düsturları biləndə artıq kainatın Allah tərəfindən necə idarə olunduğunu, “Quran”ın heç bir dəyişikliyə məruz qalmamasını, yəni, ona bir kəlmə belə nə artıq nə də ki, əskik kəlam əlavə olmadığı həmin düsturlarla təsdiq olunur. Həm də kainatda gedən proseslərin Allah tərəfindən idarə olunmasını, kainatda baş verən böyük hadisələri həmin düsturla hesablayanda həm “Quran”ın, həm də hadisələrin sirlərini açır. Bütün hadisələr düsturla təsdiq olunan sirlərdir. Həmfikir olduqları üçün Hacı Xalidi əvvəlcə ustadı kimi, sonra isə yaxın dostu kimi qəbul edərək 23 ildir ki, bu dostluğu davam etdirirlər. Bir sözlə dostu ustadı oldu.

### *Axtardığı dostuna vəhy olundu*

Uzun illər qəlbində götür-qoy edir ki, insanlıq necə yaranıb, Kainat necə idarə edilir?

Təbiətdə hər bir şeyin mükəmməl idarə olunmasında bir hikmət var. Bu sirləri bilmək üçün çoxsaylı kitablar oxuyur. Kəramət sahiblərinin həyat və məşğuliyyətini araşdırır. Amma, bu sirlər barədə heç bir ədəbiyyatda rast gəlmir. Hacı Xalidin ona verdiyi üç düsturun da sirrini bilmir. Həmin düstürların açılmasında yuxusunda ona köməklik edilir. Həmin düsturları insanın başa düşəcəyi rəvan dilə çevirərək, hesablamalar aparır və yaymağa bşlayır. Düsturlar aşağıdakılardır:

### *Birinci düstur: "Quran" niyə məhz 114 surədir?*

-Kainatın 4 cəhətdən;
-Təbiətin 4 fəsildən ibarət olmasını;
-İnsanın 4 ünsürdən yaranmasını;
-Quranın 4-cü Səmavi kitab olmasını nəzərə alıb, bu müqəddəs kitabın ilk dörd surəsində olan ayələri cəmləyək:

**7 + 286 + 200 + 176 = 669**

Bu **669** ayələrə diqqətlə fikir versək, görərik ki, burada bəşəri dəyərlər çox mülayimliklə təbliğ edilir və heç bir cəzadan söhbət açılmır. Buna görə də 669 ədədi "Quran"da bəşəri dəyərlər, mülayimlik rəmzi sayılır.

Bəşəri dəyərlərə əməl etməyənlərin necə cəzalanacağından bəhs edən surələr isə, 9 rəqəmi ilə gəlir və sayı 11 olan bu (9, 19, 29, ...... 109) surələrdəki ayələri cəmləsək **555** ədədi alınar:

**129 + 98 + 69 + 75 + 18 + 24 + 52 + 46 + 30 + 8 + 6 = 555**

Bu ayələr isə, bir qayda olaraq cəzadan və tövbədən bəhs etdiyindən **555** ədədi "Quran"da sərtlik, cəza rəmzi sayılır (yeri gəlmişkən, 9 rəqəmi "Tövbə" surəsinin sıra nömrəsi olduğundan, müqəddəs kitabda tövbə və cəza rəmzi sayılır).

Elə isə, mülayimlik rəmzi olan 669 ədədindən, sərtlik və cəza rəmzi olan 555 ədədini çıxaq:

**669 – 555  = 114**

Göründüyü kimi, mülayimliklə sərtliyin fərqi "Quran"ın surələrinin sayı (kodu) olan **114** ədədini göstərir.

Düsturdan o da məlum olur ki, müqəddəs kitab mülayimliklə sərtliyin vəhdətindən ibarətdir. Necə ki, Rəbbim 13-cü surənin 6-cı ayəsində buyurur:

*"Həqiqətən, Rəbbin insanların zülmlərinə baxmayaraq, onlara qarşı mərhəmət sahibidir. Və şübhəsiz ki, Rəbbinin cəzası da şiddətlidir!"*

Bu və digər hesablamalarımız göstərir ki, Həzrət Peyğəmbərimizə Qədr gecəsində vəhy olunan Quran surələri Həzrət Osmanın xəlifəliyi dövründə kitab halına salınsa da, buradan heç bir ayə çıxarılmamış və yaxud əlavə edilməmişdir. Yuxarıdakı düstur sübut edir ki, müqəddəs kitab insan beyninin məhsulu olmayıb, xüsusi bir qanunauyğunluğa tabedir.

### *İkinci düstur: "Məhəmməd" surəsi niyə 47 ədədiylə nömrələndi?*

*"Məhəmməd"* surəsinin sıra nömrəsi olan **47** ədədinin sirri elə Rəbbimin Öz adına olan *"Rəhmli Allah"* (55) surəsində açılır. Yəni, Peyğəmbərin adına olan surə riyazi yolla Allahın adına olan surəyə bağlanır.

Belə ki, "Rəhimli Allah" surəsi 78 ayədən ibarətdir və bu ayələrin 31-də eyni sual təkrar olunur:

"Belə olduqda Rəbbinizin hansı nemətlərini yalan saya bilərsiniz?!"

Bunu nəzərə alıb, ayələrin ümumi sayından (78), təkrar olunan sualların sayını (31) çıxsaq, "Məhəmməd" surəsinin sıra nömrəsi olan **47** ədədinin alındığını görərik:

**78 - 31 = 47**

Bu fakt Yaradanla, Onun Peyğəmbəri arasında olan əlaqənin riyazi sübutu olmaqla yanaşı, həm də "Quran"ın düzülüşünün birbaşa Allah-taalanın nəzarətində və iradəsi ilə baş tutduğunu sübut edir. Yəni, surə və ayələrin düzülüşü insan beyninin məhsulu olmayıb, şüurdankənar, fövqəladə bir elmlə baş tutmuşdur.

## *Üçüncü düstur: "İbrahim" surəsi niyə 14 ədədi ilə nömrələndi?*

Bildiyimiz kimi, "Quran"da *"İbrahim"* surəsi **14** ədədi ilə nömrələnib. allah-taala bu surədə İbrahim Peyğəmbərin mənalı həyat yolundan söhbət açır və onun zülmə qarşı apardığı mübarizəni önə çəkir. Onun mübarizəsi o vaxta təsadüf edirdi ki, yerdə Xeyirlə Şər arasındakı balans birincinin ziyanına pozulmuşdu. Allah həmin dövrdə pozulmuş balansı İbrahim əleyhissalamın vasitəsi ilə bərpa etdi.

Araşdırmalarımız göstərir ki, 14 ədədi də Allahın Öz adına olan *"Rəhmli Allah"* surəsinə bağlanır və "Quran"da çox böyük tarazlıq (balans) yaradır. Bunu sübut edən hesablamanı diqqətinizə çatdırırıq:

*«Rəhmli Allah»* surəsinin sıra nömrəsi (kodu) olan **55** ədədi "Quran"da **41** dəfə keçir (yəni, kitabın cəmi qırx bir surəsində 55-ci ayə var. Qalan surələrdə ayələrin sayı 55-dən azdır).

Eyni zamanda **41**-ci ayə də müqəddəs kitabda **55** dəfə keçir ("Quran"ın cəmi əlli beş surəsində 41-ci ayə var).

Beləliklə, "Quran"da **55** ədədi 41 dəfə, **41** ədədi isə, 55 dəfə keçir. Tarazlığa (balansa) dəlalət edən bu faktı nəzərə alıb, 55 ədədindən **41** çıxsaq, alınan **14** ədədi "İbrahim" surəsinin sıra nömrəsini (kodunu) göstərir:

**55 - 41 = 14**

Alınan **14** ədədi həm də İbrahim Xəlilullahın Peyğəmbərliyinin riyazi sübutudur.

### *Haşiyə: Nuşirəvanın sarayından niyə məhz 14 sütun uçdu?*

Yeri gəlmişkən, haşiyə çıxaraq, diqqətinizi daha bir maraqlı və hikmətli tarixi fakta cəlb etmək istəyirəm. Belə ki, Məhəmməd əleyhissalam dünyaya təşrif gətirən gecəsi fars hökmdarı Nuşirəvanın sarayından 14 (!) sütun uçdu.

Bu hadisəni şərh etmək üçün saraya yığılan kahinlər və bilicilər şaha belə izah etdilər ki, bəşəriyyətin gözlədiyi Peyğəmbər artıq dünyadadır və sütunların uçması da Nuşirəvanın hakimiyyətinin tezliklə süqut edəcəyinə işarədir. Çox

keçmədi ki, verilmiş proqnoz özünü doğrultdu və Sasanilər dövləti süqut etdi.

Yuxarıda qeyd etdiyim kimi, peyğəmbərlərin (elmi-ladun sahiblərinin) meydana çıxması, adətən yerdə Xeyirlə Şər arasında tarazlığın pozulduğu zamanlarda baş verir və onların missiyası tarazlığı bərpa etməkdən ibarət olur.

Bu gün də yerdə Xeyirlə Şər arasında tarazlığın pozulması göz önündədir. Artıq haqq-ədalət demək olar ki, qalmayıb. Hər gün yüzlərlə insan fitnə-fəsad törədənlərin partlatdığı bombanın qurbanına çevrilir, yaxud, şərlənərək, başına yüz cürə oyunlar açılır; bu və ya digər formada zülmə məruz qalırlar. Yerdəki bu vəziyyət Allah-taalanın qəzəbinə səbəb olmuşdur. Hesablamalarımız göstərir ki, son vaxtlar baş verən təbii fəlakətlər və müəmmalı təyyarə və s. qəzalar da məhz bu qəzəbin təzahürüdür.

Odur ki, vəzifəsindən asılı olmayaraq, insanlar bu xəbərdarlıqlardan nəticə çıxarmalı, günahlarına görə tövbə edib, əməllərinə diqqət etməli və savablarının sayını artırmalıdırlar. Əks halda...

***«Elə isə onlardan ötrü** (zalımların tezliklə məhv edilməsinə) **tələsmə, çünki Biz onların günlərini bir-bir sayırıq».*** *“Quran”, 19:84*

*Sözardı:* Yeri gəlmişkən, “İbrahim” surəsindəki hikməti sübut edən bu düstur insan beyninin məhsulu deyildir. Belə ki, əvvəlki düsturlar kimi, bu düsturu da Həzrət Cəbrayıl əleyhissalam Neftçala rayon sakini Hacı Xalidə vəhy

edərək: "Sabah Paşa Yaqub adlı bir nəfər sizə qonaq gələcək, bu düsturu ona ver, insanlara çatdırsın", - deyə, tapşırmışdır (qeyd edim ki, illərdir bu düsturu axtarırdım).

Düsturu insanlara çatdırmaqda Yaradanın mesajı odur ki, müqəddəs kitaba nəyinsə əlavə olunması və yaxud buradan hansısa ayənin çıxarılması haqqında deyilənlər cəfəngiyyatdan başqa bir şey deyil və bunu söyləyənlər (ateistlər və bəzi mollalar) "Quran"a və Allahın qüdrətinə şübhə edənlərdir.

***"Biz hər şeyi sayıb yazmışıq".*** *"Quran", 78:29.*

Düsturlar təsdiq edir ki, hər şey Allahın nəzarətindədir. Hətta, Paşa Yaqubun Hacı Xalidgilə getməsi də, həmin gün düsturların Hacı Xalidə verilməsi də.

Eyni zamanda, bu hadisə Azərbaycanda Həzrət Cəbrayıl əleyhissalamdan birbaşa vəhy qəbul etməyə layiq olan adamın olmasını da təsdiq edir.

Allah tərəfindən vəhylər Cənab Cəbrayıl tərəfindən nazil olunması sirr deyil. Bildiyimiz kimi, belə vəhylər kamilliyin son həddinə çatan adamlara nazil olur.

Paşa Yaqub özünü dərk edəndən həmin düsturların axtarışında olub. O, 20-25 il əvvəllər arzulayıb ki, Kainatın, Quranın sirlərini hansısa vasitə ilə açmağı bacarsın.

Allah ona qəlbinə görə verib.

Müdrik kəlamlarda deyilir:

-Niyyətin hara, mənzilin ora.

-Allah ürəyinə görə versin!

Odur ki, bizi Yaradan Allah Paşa Yaquba axtardığını Hacı Xalid vasitəsilə çatdırır.

Düsturlar Hacı Xalidə veriləndə izah olunmamışdı. Paşa Yaqub həmin düsturu aça bilir. İnsanlara çata bilən tərzdə izah edir. Məqalələr və kitablar yazaraq insanlara çatdırır.

Zəlzələlər, təyyarə qəzaları, partlayışlar, Ay, Günəş tutulmaları kimi hadisələrin üzərində sirr pərdəsi var ki, həmin düsturlarla sirlər pərdəsini Paşa Yaqub asanlıqla açmağı bacarır.

# DOSTLUQDAN QARDAŞLIĞA APARAN YUXULAR...

*Şair, aparıcı, Zərdab rayon Mədəniyyət evinin bədii rəhbəri Teyyub Xəlilov:*

-Yaşıdlarından fərqli böyüyən Paşa əsasən mütaliə ilə məşğul olmağı sevir, boş vaxtını ziyarətgahlarda keçirirdi.

Tez-tez mənimlə münasibət qurur, söhbətləşirdi. İkimiz də rayon mərkəzində yaşayırdıq. Səmimi, qayğıkeş, insanlığa və təbiətə vurğun bir insan kimi tanıdığım Paşada ALLAH sevgisinin tükənməz olması, "Quran"ı mükəmməl öyrənərək təbliğ etməsi, məndə ona qarşı qeyri-adı hisslər yaratdı. Onu dərindən tanımaq üçün tez-tez görüşür və fikirlərini öyrəndikcə, onun gələcəyinin bütün insanlardan fərqli olacağı qənaətinə gəlirdim. Paşa dünyada baş alıb gedən haqsızlıqlara etiraz edir, vəziyyətdən çıxış yolları axtarırıdı. Bir gün mənə dedi ki, xüsusi nişanları ilə seçilən bir inək olmalıdır. Həmin inək qurban kəsilsə yer üzündə ədalət bərqərar olar. Mən də onun dediyi nişanələri olan inək axtarmağa başladım. Özü də belə bir inəyi hələ də axtarmaqdadır.

Rayonda bir kişinin 10-a yaxın heyvanı var idi. Bir gün yuxumda həmin heyvanların arasında Paşanın axtardığı inə-



*Teyyub Xəlilov*

yi gördüm. Bunu Paşaya dedim. Paşa həmin evə çox gedib-gəldi, dəyərindən də çox pul təklif etdi ki, inəyi alıb qurban kəssin. Kişi razılaşdı, lakin, xanımı inəyin satılmasına birmənalı etiraz etdi. Paşa çox məyus oldu. Dedim ki, qismət deyilmiş. Əlbət yenə də hardasa belə inək olmasını Allah nişan verəcəkdir...

Paşa yazdığı kitablarından mənə də verirdi. Onun "Allahın Dostları" kitabını oxuduqdan sonra namaz qılaraq Allaha yalvardım ki, kitabda haqqında bəhs edilən Veys Babanı **(Üveys Əl-Qərani)** yuxuda görmək mənə nəsib olsun. Həmin kitabda yer alan Veys Babanın şəklində qeyri-adilik hiss etmişdim. Həmin gecə yuxuda mənə dedilər ki, Veyis Babanı görmək istəyirsənsə Paşa Yaqubun üzünə bax, ona oxşayır. Dedim ki, Paşa cavandır, kitabdakı şəklə oxşamır, Veys Baba saç-saqqalı çiyinlərinə tökülmüş bir nuranidir. Deyildi ki, yaşlaşdıqca Veys Babanın görkəmini alacaq. Üstündən uzun illər keçib. Paşa yaşamaq üçün Bakıya köçüb. Son zamanlar rayona gələndə kitabdakı Veys Babanın şəklindəki görkəmi aldığını hiss edirəm.

Bir dəfə də yuxuda gördüm ki, bir nurani kişi mənimlə söhbət edir. Sözarası dedi ki, "Quran"dakı "Yusif" surəsinin 3-5-ci ayələri Paşa Yaquba da şamil olunub. Səhər "Quran"ı açıb baxdım ki, yazılıb:

***"Biz bu "Quran"ı sənə vəhy etməklə sənə ən gözəl hekayəti danışırıq. Hərçənd ki, sən əvvəlcə ondan əsla xəbərdar deyildin.***

***Bir zaman Yusif atasına demişdi: "Atacan! Mən yuxuda on bir ulduz və Günəşlə Ayı gördüm. Gördüm ki, onlar mənə səcdə*** *(təzim)* ***edirlər".***

*(Atası)* ***dedi: "Can oğul! Yuxunu qardaşlarına danışma, yoxsa sənə bir hiylə qurarlar. Çünki Şeytan insanın açıq düşmənidir.***

***Yuxuda gördüyün kimi, Rəbbin səni başqalarından seçib üstün tutacaq, sənə yuxu yozmağı öyrədəcək, bundan əvvəl babaların İbrahimə və İshaqa nemətini tamamlayıb verdiyi kimi, Yaqub nəslində*** *(!)* ***də sənə tamamlayıb verəcək. Həqiqətən, Rəbbin hər şeyi biləndir, hikmət sahibidir!***

Paşanın həyatına nəzər salanda bu ayələrə uyğun gəldiyini gördüm. Maraqlıdır ki, Paşa da Yaqub nəslindəndir və yuxuyozma elminin sirlərini bilir. Kənddə onlara *"yaqublular"* nəsli deyilir.

Bir gün də  nahar zamanı anidən Paşanı xatırladım.  Elə həmin vaxt telefonuma zəng gəldi. Baxdım ki, Paşanın zəngidir.Təəccübümü gizlədə bilmədim.

Paşa mütəmadi qurbanlar kəsir, xeyriyyəçiliklə də məşğul olmaqdan həmişə zövq alır.

Paşada qeyri-adiliyi gördükcə onu bir gün dəvət etdim ki, gəl   namazını bizdə qıl. Etiraz etmədi, gəldi və günorta namazını bizdə qıldı. O, namaz qıldıqca ona baxaraq düşünürdüm ki, İlahi bu, nə möcüzədir, balaca Paşa necə də sadə,

ədəb-ərkanlı, nurani, savadlı, saf bir ağsaqqal kimi yaşlaşmaqdadır. Elə bilirəm ki, bu ata və babalarının dinə bağlılığından irsi olaraq Paşaya keçmiş bir xəzinədir.

Mən Paşanı dost yox, doğma qardaş sanıram. Paşa ziyarətgahlardan, pirlərdən müqəddəslərdən kitablar yazıb, paylayanda hətta, doğmaları belə deyirdilər ki, nəyinə lazımdır, pullarını boş yerə xərcləyirsən? Paşa isə deyilənlərə əhəmiyyət belə vermədən qarşısına qoyduğu missiyasını həvəslə davam etdirirdi. Mən onun daxili aləmini başa düşdüyüm üçün həmişə hörmətlə yanaşmışam. Onunla həmsöhbət olanda mənəvi rahatlıq tapmışam. Onu-səmavi nur, möcüzə dünyası, kəramətli insan, haqqa gedən yolçu, sirlər dünyasının sirri  adlandırsaq yanılmarıq.

# SƏADƏT XANIM YUXUDA GÖRÜR Kİ...

1998-ci il idi. Paşa bəy Zərdab rayonunda yaşayırdı. Rayonda demək olar hamı onu tanıyırdı. Ətrafındakı insanlarla söhbət zamanı Həcc ziyarətinə gedəcəyini bildirir.

Həcc ziyarəti başlayan vaxt düşünür ki, həmin pula çox zəhmətlə yazıb başa çatdırdığı, lakin, çap etdirmədiyi, övliyaların həyatından bəhs edən "ALLAHIN DOSTLARI" adlı kitabını çap etdirsin, Həcc ziyarətinə növbəti illərdə imkan olsa gedər.

Zəvvarlar yola çıxır, Paşa bəy nəşriyyata üz tutur. Amma, rayonda çox adam elə bilirdi ki, Paşa bəy də Həcc ziyarətindədir.

Zərdab rayonunda Qeydiyyat (VVAQ) şöbəsinin müdiri Səadət xanım təsadüfən Paşa bəylə küçədə rastlaşır və təəccüblə soruşur ki, Siz nə tez gəlibsiniz?

Paşa bəy suala sualla cavab verir ki, hardan gəlmişəm ki?

Səadət xanım: Bəs siz Həccə getməmisiniz? -deyə soruşur.

Paşa bəy getmədiyini bildirəndə Səadət xanım:-ola bilməz- deyərək, təəccübünü gizlədə bilmir.

Paşa bəy Səadət xanımın təlaşlı olduğunu görərək soruşur: – "Nə olub, Siz nədən təəccüblüsiniz?" (Səadət xanım rayonda "Seyid qızı" kimi tanınır və inanclı bir xanımdır).




Deyir ki, eşitmişdim ki, Siz də Həcc ziyarətinə gedəcəksiniz. Qurban bayramı günü yuxuda gördüm ki, Kəbənin ətrafında camaatla birlikdə namaz qılır, ibadət edirsiniz. Bir səs Sizə - qabağa keç, namaz qıl, deyir. Qabaqda Siz namaz qılırsınız, həmin səs arxada namaz qılanlara deyir ki, "Hamınız Paşa Yaqub kimi namaz qılın, ondan nümunə götürün, onun kimi ibadət edin".

Paşa bəy: - Yuxunuz kaş çin olsun! - deyərək sağollaşsa da, daxilindən gələn bir səs onda övliyaların kitabını çap etdirməkdə doğru qərar verdiyinə əminlik yaradır.

## YUXULARDA HƏCCDƏ OLAN XEYRİYYƏÇİ...

*Mərdlik nəsib olmaz hər bir insana,*
*Xalq üçün yananı doğmaz hər ana.*

Xeyriyyəçiliyi ata və babalarından sanki miras qəbul etmişdi Paşa Yaqub.

Hələ gənc yaşlarından "Quran"ın surə və ayələrinin surətlərini şəxsi hesabına çıxararaq yaymağa başlayır. Tez-tez ehsanlar verir, imkansızlara maddiköməkliklər edərək, tez bir zamanda nüfuz sahibinə çevrilir.

Övliyalardan, kəramət sahiblərindən, ziyarətgahlardan kitablar yazaraq, paylamaqla xeyirxah əməl sahibinə çevrilir.

Tez-tez kimsəsizlər evlərinə, uşaq evlərinə yardımlar apararaq onlarla həmsöhbət olur, xəstə olanları müalicəvi seanslar etməklə özündə rahatlıq tapır.

Cəmiyyətdə kifayət qədər tanınan psixoterapevt Paşa Yaqub şəhid ailələrinə, qazilərə pulsuz xitmət etməklə də kifayətlənmir. Tez-tez sosial şəbəkələrdə pulsuz seans aksiyaları elanları verərək, müəyyən günlər pulsuz müayinələr etməklə də Allaha xoş olan əməllərlə məşğul olur.

Doğulduğu Lələağacı kəndinin yaxınlığında "Pircahan Piri" kimi tanınan bir pir var. Ata-babadan həm onun ailə

üzvləri və həm də ətraf kəndlər həmin Pirə inanclı olaraq, ziyarət edər, nəzirlər verərdilər.

Pirə hər gün bir qadın gəlib qoyulan nəzirləri götürər və ətrafını abadlaşdırardı. İyirmi ilə yaxındır ki, həmin qadın dünyasını dəyişib. Pirin ətrafını abadlaşdıran olmadığından ərazini kol-kos basır. Bir hektara yaxın sahəsi olan Pirə ayaq basmaq mümkün olmadığından çox sayda inanclı insanlar nəzirlərini Pirə çatdıra bilmirlər. Kənd əhlinin maddi imkanları olmadığından Pirin ətrafını abadlaşdıra bilmirlər.

Paşa Yaqub bu il kəndə gedəndə bir məclisdə insanların nəzirləri olmasından, Pirə yaxın düşə bilmədiklərindən gileyləndiklərinin şahidi olur.

Paşa Yaqub ALLAH rizası üçün həmin ərazini öz vəsaiti hesabına min manatdan çox vəsait xərcləməklə təmizlədir. Ətrafını hasara alaraq, gül-çiçək əkdirir. Pir sahiblərindən nəzirləri götürmək və gül-çiçəyi sulayaraq, Pirin ətrafını abad saxlamağı xahiş edir.

Paşa Yaqub etdiyi xeyriyyəçiliyi reklam etmir, bəziləri kimi videoya çəkdirərək sosial şəbəkələrdə paylaşmır.

Deyir ki, “sağ əlin verdiyini sol əl bilməməlidir”. El məsəlimiz var, insan etdiyi hər bir əməlini Allah rizası üçün etməlidir.

Məhz, belə xeyriyyə əməllərinə görə də Səadət xanım yuxusunda onun Həcc ziyarətində namaz qılanlara nümunə göstərildiyini görür.

# ƏFSANƏVİ LOĞMAN...

*"O zahir həkimlər başqadır, onlar ürəyə nəbzi tutaraq baxırlar və insanın cismini, əczalarla müalicə edirlər.*

*Mənəvi həkimlər isə, nəbzi tutmadan ürəyə baxırlar və Allahın bəxş etdiyi elmlə (elmi-lədunla) insanın ruhunu müalicə edirlər. Onların dəlilləri kəşf, ilham və sirri-İlahidir"*

Mövlanə Cəlaləddin Rumi

Paşa Yaqub öncə övliyalardan, kəramət sahiblərindən, ziyarətgahlardan, pirlərdən kitablar yazmağa başlayır. Həmin kitabları pulsuz paylamaqla 70 illik Sovet imperiyasının Allahı inkar etməsini, əslində isə Allahın varlığını və hər bir canlı və cansızın da Allahın iznilə yaranmasını təbliğ etmək fikrində israrlı olur.

Pespublikanın ayrı-ayrı bölgələrində yerləşən pirləri, ziyarətgahları gəzərək, onların kəramətlərini dərindən öyrənib, qələmə aldıqca özündə də belə bir hisslərin olmasını Allahdann arzu edir. Allahın varlığını, Kainatın fizikanın qanunları ilə idarə edilməsini, səmavi kitabların niyə nazil olmasını tam mənimsəmək üçün daim öz üzərində işləyir.

Arzu edir ki, o da insanlara şəfa vermək qabiliyyətində olsun.




Zaman yetişir. Sanki ona deyirlər ki, artıq sən insanlara şəfa vermək qabiliyyətinə maliksən. Uzun sürən yaradıcılığından sonra özündə qeyri-adiliyi hiss edr. Günü-gündən özündə dəyişiklik hiss edir. Hiss edir ki, onun əlində enerji var. Bunu yoxlamaq qərarına gəlir. Doğmalarının ağrıyan yerlərinə əlini uzadır. Ağrı kəsməyə başlayır. Beləcə, Paşa həkim doğmalarına şəfa verməklə özünün Tanrıdan Veys Baba vasitəsilə anasına yuxuda göstərilən diplomun əslində həkimlik diplomu olduğunu başa düşür. Getdikcə özündə neqativ enerjini çıxarmaq qabiliyyətinin olmasını da hiss edir. Oxuduğu saysız-hesabsız kitablardan, eyni zamanda özünün kəramət sahibləri barədə yazdıqlarından bütün xəstəliklərin şəfasının olması və əksəriyyətinin isə neqativ enerjidən əmələ gəlməsi qənaətinə gələrək, təcrübələr aparmağa başlayır və bu gün tibb elminin aciz qaldığı xəstəlik-

ləri özünə məxsus tərzdə - ***Güc və Qüdrət sahibi Allahdır*** -deyərək əlləri və nəfəsi ilə həm neqativ enerjini təmizləyir və həm də xəstəliyi müalicə edir.

Zaman-zaman ona kəramət sahiblərinin bilik və bacarıqlarından da pay verilir. Xəstəsi olan hər bir kəs Paşa həkimdə olan qeyri-adi möcüzəni hiss edir və buna şahid olur. Şəfa tapmış çox  xəstələri onu əfsanəvi loğman adlandırır.

Həkimlik ona  Allahdan gələn DİPLOM və MÜKAFATDIR!

# HAQQINDA BELƏ SÖYLƏYİRLƏR...

# USTAD SÖZÜ

*Fərəcov Xalid Saday oğlu (Hacı Xalid):*

-Paşa Yaqubla adi təsadüfdən çayxanada bir masada əyləşməli olduq. Çox gənc idi. Əlindəki *"Allahın dostları"* adlı kitab diqqətimi çəkdi. Ustündə "Paşa Yaqub", yazılmışdır. Sual verdim ki, adınız nədir? Paşa Yaqub dedikdə kitabın müəllifi olduğunu bildim. Biz xeyli söhbət etdik. Onu dinlədikcə heyran qalırdım ki, elmin bütün sahələrindən danışır. Mükəmməl savada malik olması danışdıqlarından bəlli olurdu. Gənc yaşlı birinin Allaha və ona sadiq olanlara bağlılığı da diqqətimi çəkdi. Qəlbimin dərinliyində bir səs mənə-onu yaxından tanı,- deyə bildirdi. Bu məqsədlə də ev ünvanımı ona verərək, bizə gəlməsini xahiş etdim. Uzun müddət keçdi, Paşa Yaqub gəlmədi. Bir gecə yuxuda Cənab Cəbrayıl mənə nazil olaraq üç düstur verdi və dedi ki, Paşa Yaqub gələcək ona verərsən. Yuxudan oyanan kimi düsturları yazdım. Hələ günorta olmamışdı ki, qapı döyüldü. Qapını açanda təəccübdən yerimdəcə donub qaldım. Bir anlıq yuxuya daldım və həmin yuxu gözlərim önündə canlandı.

Onun: - Salam, deyəsən münasib vaxtda gəlməmişəm - deməsi səsinə silkələnərək ayıldım. Gülümsəyərək: - gəldiyini bilirdim, dedim. O da təəccüblə: Hardan bilirdiniz? deyə soruşdu. Beləcə, Allah qonağını evə dəvət etdim. Onun-

la xeyli söhbətləşdik. Sağollaşıb gedəndə düsturları yazdığım vərəqi ona uzadaraq, sənə çatacaq dedim. Baxdı, – anlamadım, dedi. Yuxumu ona danışdıqda güldü və kağızı tutan əli titrəməyə başladı. Soruşdum ki, nə oldu sənə? Uşaq kimi sevinməyə başladı və gülə-gülə dedi ki, bunu mən çoxdandır ki, oxuduğum kitablarda axtarmışam. Axır ki, şükürlər olsun Yaradana! Axtardığımı göndərdi mənə.

Etiraf edim ki, mən də həmin düsturların nə olduğunu anlamadım. Amma Allahın əmanətini olduğu kimi sahibinə çatdırdığım üçün qürurlu idim. Mənə, ustadımsan, – deyib getdi.

Bir müddət sonra Paşa Yaqubun məqalələrində kainatda baş verən hadisələrin və "Quran"ın riyazi dillə (düsturlarla) hesablamaları barədə yazılarını oxuyanda başa düşdüm ki, Paşa Yaqub Allahın sevimli bəndələrindəndir.

Uzun müddət get-gəl etdikdən sonra "ustadı" olsam da, dostu da  ola bildim.

Paşa Yaqub kəşf edilməmiş bir sirdir. Onun özünü kəşf etmək üçün də bir düstur lazımdır.

O, dərin biliyə malik bir fonemendir.

# CƏFAKEŞ İNSAN, QƏLƏM DOSTUM

*Tarixçi, tədqiqatçı, "Qızıl Qələm" mükafatı laureatı, publisist, şair, Bakı Slavyan Universitetinin elmi işçisi, BDU-nun müəllimi* ***Vəlişov Nazim Tapdıq oğlu****:*

-Paşa Yaqub imzası oxuculara yaxşı tanışdır. O, otuz bir kitabın, beş ensiklopediyanın və onlarla məqalənin müəllifidir. Paşa Yaqub elmi-dini, tarixi araşdırmalarla bərabər, bir sıra yaşayış məntəqələrinin adlarının mənşəyi, toponomiyası, arxeologiyası, eləcə də Böyük Vətən, Əfqanıstan, Qarabağ müharibələrinin iştirakçıları, şəhidləri haqqında dəyərli kitablar yazmışdır.

Həyat təcrübəsi göstərir ki, xeyirxah niyyətli insanlar həmişə insani dəyərlərə layiq işlər görməyə çalışırlar. Bu, doğrudan da belədir. Əslində yaxşı adamların gördükləri yaxşı işlər yaxşı da qiymətə layiqdir. Heç kimdən təmənna güdməyən Paşa Yaqub insanlara xidmət etməyi hər şeydən üstün tutur və haqlı olaraq sübut etməyə çalışır ki, əgər ürəkdə həvəs və sevgi varsa, Azərbaycanın istənilən yaşayış məntəqəsinin tarixini araşdırıb ortaya maraqlı bir əsər qoymaq mümkündür.

İlk baxışda elə görünə bilər ki, burada qeyri-adi bir şey yoxdur. Amma, hər şeyə diqqət ilə yanaşsaq, mədəni irsi-



***Nazim Tapdıqoğlu***

mizi diqqətlə araşdırsaq, bir sıra məsələlərlə yanaşı, hər hansı bir kəndin fəxr edilməli şərəfli keçmişi olduğunun şahidi olarıq.

Paşa Yaqub istər kitablarında, istərsə də məqalələrində kimya, fizika, anatomiya, biologiya, tibb, astronomiya, daktiloskopiya, kibernetika və informatika elmlərinin bu günədək gizli qalan məqamlarını araşdırıb, onların həyatımıza təsirindən əsaslandırılmış faktlarla söhbət açır.

Paşa Yaquba məxsus olan maraqlı araşdırmalar, izahlar oxunaqlı bir dillə oxucuya çatdırılır və əlbəttə, müəllifin özünün də qeyd etdiyi kimi, aqillərin "kəşf", cahillərin isə, "fantaziya" adlandıracağı bu tipli maraqlı yazıları, fikirləri, kitabları gələcəkdə də davam etdirəcəyinə inanıram.

Mən hörmətli qələm dostum Paşa Yaquba həyatda möhkəm cansağlığı, elmi-ədəbi yaradıcılığında və həkimlik fəaliyyətində uğurlar arzulayıram. Arzu edirəm ki, maraqlı araşdırmaları ilə oxucularının böyük rəğbət qazanmış Paşa Yaqub bundan sonra da tibb elmindəki naliyyətləri ilə psiyentlərini tez-tez sevindirsin.

# DOSTUN DUALARI

***Rəhmətlik dostu Nizami Ağayevin 16 fevral 2018-ci il tarixli facebook rəyindən:***

-Ey DƏYƏRLİ İNSAN, ey DƏYƏRLİ QARDAŞIMIZ! Hər şey üçün çox dərin-dərin təşəkkürlərə və minnətdarlıqlara layiqsiniz.

Qiyməti və dəyəri çox böyük ölçüdə olan mənəviyyat boxçasına sahibsiniz ki, faydalanan hər kəs bilir onun dəyərini. ALLAH faydalanmaq istəyənlərə də nəsib eləsin! ALLAH bu yolda çəkdiyiniz zəhmətlərin (həm maddi, həm də mənəvi) əvəzini artıqlaması ilə versin və Sizi tək bizlər üçün deyil, bütün bəşəriyyət üçün var eləsin!

***21 oktyabr 2018-ci il tarixli paylaşmasında isə, Nizami Ağayev yazırdı:***

-Allahın mənə ən böyük lütfindən biri kimi Paşa bəylə dost-qardaş olduğum günü saymışam və sayıram. Tam səmimiyyətimlə deyirəm: - İllərdir ki, özlərinin fikirləşdikləri kimi birinin gələcəyini gözləyən bir çoxlarının (yanlarından ötüb keçən bir müjdəçinin varlığını anlamazlıqdan gəldiklərinin fərqinə varıb) necə peşmançılıq keçirəcəklərinə Allahın iznilə çox şahidlik etmək istərdim. Allah Sizi hifz etsin Paşa Yaqub!

# O, SEÇİLMİŞLƏRDƏNDİR...

## *Kəramətli övliyaların yolu şərəfli yoldur*

*Araşdırmaçı Vüqar İsmayılzadənin Paşa Yaqubla müsahibəsi*

Paşa Yaqub nurani və ruhani insan olaraq, seçilmişlərdəndir, - desəm, yanılmaram. Fikri, zikri yalnız insanların sağlamlığı, onların şəfası, Allahdan, Ulu Kəramət sahiblərindən aldığı ruhu, enerjini, nəfəsi qarşısındakı xəstəyə ötürməklə, onun neqativ təsirlərə məruz qalmış ruhunu təmizləmək və sair missiyalardan ibarətdir.

2018-ci ilin yay aylarından birində onunla görüşüb çay süfrəsi ətrafında söhbətləşdik:

*- Salam hörmətli Allah adamı, necəsiniz?*

- Xoş gördük, təşəkkür edirəm və çox şadam görüşümüzə.

*- Paşa doctor,  nə vaxtdan bu işlə məşğulsunuz?*

- 20 ildir ki, özümü həsr etmişəm Kəramətli övliyaların sirlərinə və bir də hiss etdim ki, onlardakı hikmət mənə də keçib.

*- Demək, 20 il əvvəl həyat bir az başqa formada idi ?*

- Bəli, Bişir Hafinin həyatına bənzər...

*- O kimdir elə?*

- İndi onun adı dillər əzbəridir. Təxminən 600 il əvvəl Bağdadda sadə və təvəzökar bir Bişir var idi, bütün boş vax-



tını meyxanələrdə keçirdərdi, bizim Əlağa Vahid kimi bir adam idi, evdən çıxan kimi dostları ilə ora yığışar və mey məclisləri düzüb qoşardılar. Və beləcə bir gün...

- *Maraqlıdır...*

- Hə, beləcə bir gün Bişir yenə meyxanədən  çıxıb evə gedəndə yerdə bir kağız görür. Tapdığını əyilib yerdən götürərək maraqla baxır və görür ki, yazılıb *"Bismilləhir Rəhmanir Rəhim"*.

Fikirləşir ki "burda Allahın adı yazılıb", qorxusundan yerə atmır, cibinə qoyur, evə gələndə o kağızın tozunu silir, ətirləyir ki, Allahın adı təmiz və ətirli olsun. Sonra fikirləşir ki, bu kağızı hara qoyum ki, uşaqların əlinə keçməsin,  yerə düşməsin. Birdən baxır ki, evin yuxarı başında divarda bir mismar var, fikirləşir ki, "Allahın adı ən yüksəkdə olmalıdır" və kağızı həmin mismara taxıb yatır.

O gecə Bağdaddakı böyük övliyalardan biri röya gördü. Röyada deyildi ki: "Get, Bişrə belə söylə: "İsmimi təmizlədiyin kimi, səni təmizlərəm. İsmimi böyük tutduğun kimi,

səni böyüdərəm. İsmimi gözəl ətirli etdiyin kimi, sənin ismini dünyada və axirətdə təmiz və gözəl edərəm". Həmin övliya fikirləşdi ki, Bişr günaha batmış adamdır, olsun ki, yalnış yuxu görmüşəm. Dəstəmazını aldı, namazını qıldı və yenidən yatdı. Təkrar eyni röyanı gördü. Beləcə üç dəfə davam etdi. Səhər açılar-açılmaz Bişr Hafini axtardı. Dedilər ki, meyxanadadır. "Ona deyin ki, ona mühüm xəbərim var" – deyə buyurdu. Bişrə xəbər verdilər. Gəlib soruşdu ki: "Kimdən xəbər verəcəksən?" Övliya bildirdi ki, ona Allah-təaladan xəbər verəcək. Bişr bunu eşidib ağladı, sonra dedi:

-Mənə qəzəbimi tutub, yoxsa şiddətli bir əzabamı düçar edəcək? Gözlə dost-tanışıma deyim ki, Allaha ismarladıq.

Bunu deyib, üzünü dost-tanışına tutdu. Belə söylədi:

-Ey qardaşlarım! Məni çağırdılar. Mən gedirəm. Bundan sonra məni bir daha bu işdə görə bilməzsiniz. Beləcə, Bişr tövbə etdi.

Bişr Hafi özünü dostu Füzeyl bin İyad kimi elmə vermişdi. Bütün vaxtını elmə həsr edərdi. Yeddi sandıq hədisi-şərif kitabı əzbərləmişdi. Ürəyində şəkk olan adamlardan uzaq gəzirdi. Çox mömin idi. Hal əhli olmuşdu. Müqəddəslər arasında adı və sanı uca idi. Ayaqyalın gəzərdi. Odur ki, ona "Hafi" deyirdilər. Ondan soruşanda ki: "Nə üçün ayaqqabı geyinmirsən?" cavab verərdi ki: "Söz verdiyim gün ayaqyalın idim. İndi ayaqqabı geyinməyə həya edirəm. Allah-təala buyurur ki, yer üzünü sizin üçün döşədim, xalı etdim (Nuh, 19). Padşahların xalısına ayaqqabı ilə ayaq basılmaz". Ayaqyalın gəzdiyi üçün onun sağlığında Bağdaddakı heyvanlar

ona hörmət olaraq yola batırmazdılar. Bir gecə bir nəfərin heyvanı yola batırdı. Həmin adam feryad edib dedi ki: "Bişr Hafi öldü". Səhər gördülər ki, doğurdan da, Bişr Hafi vəfat edib.

*- Sizin auranız qeyri-adidir, bu doğrudan da hiss ounur başdan ayağa və gözlərinizdə də. Bunun səbəbi nədir?*

-Kim hansı işlə məşğul olursa, həmin sənətə, peşəyə uyğun olaraq o işin aurası öz sahibinin görünüşündə əks ounur. Məndə də öz fəaliyyətimə görə belə bir aura yaranıb.

*- Paşa doktor, Siz pasientləri qəbul edirsiz, işiniz avand olsun, hansı pasientə hansı seansı keçirirsiniz?*

- Pasiyentin zahiri və daxili aurasına baxıram, onun daxilindəki mənfi enerjini ondan çıxarıb dəf edirəm, xəstənin ruhunu mənfi enerjidən təmizləyirəm, elə ki, mənfi enerji ondan xaric oldu, həmin orqan şəfa tapır.

*-Maraqlıdır.*

- Mənfi enerji insanın istənilən orqanını zədələyir, orqanın funksiyasını pozur. Həkimlər bunu sağalda bilmirlər, nevropotoloq, psixoloq və digərləri müəyyən diaqnoz qoyub uzun resept yazaraq, çoxlu dərmanlar təyin edirlər və əksər hallarda nəticəsi də olmur. Bir misal çəkim, bu yaxınlarda bir qadın pasiyentin üzərində seans keçirəndə o, mənə dedi ki, "neçə vaxtdır sanki mədəmdə "şarik" olduğunu hiss edirəm, zülm çəkirəm", mən seansı bitirəndə dedi ki, "şarik sanki" mədəmdən qalxdı yuxarı və ağzımdan çıxdı və indi özümü sap-sağlam hiss edirəm.

*- Seanslar neçə dəfə olmalıdır?*

- Həftədə bir dəfə. 21 gündən sonra xəstənin sağlam ruhi-enerji sistemi bərpa olunur. Xəstələrimin böyük əksəriyyəti bu müddətdə sağalır. Ağır xəstəliyi olanlar bir qədər artıq gəlirlər.

*-Niyə məhz, 21 gün?*

-Hüceyrələrin insan orqanizmində yaşama müddəti 21 gündür.

*-Doktor, sizin bu məharətiniz həm də kəramət adlanır, yəqin ki, bunu ilk dəfə özünüzdə hiss edəndən sonra həm də inkişaf etdirirsiniz? Maraqlıdır, necə inkişaf etdirirsiniz? Bu enerjinin mənbəyini haradan alırsınız?*

-Xeyir əməllərlə məşğul oluram. Pirlərə gedirəm, oradan pozitiv enerji alıram. Əsasən Mir Mövsüm Ağanın ziyarətgahı və Zərdab rayonu yaxınlığında yerləşən Üveyis əl-Qərani (Veys Baba) pirini tez-tez ziyarət etməklə oradan pozitiv enerji alıram və beləliklə, mənim enerjim güclənir. Mənim otuz altı kitabım var, biri *"Kəramətin Sirləri"* adlanır. Bir çox sirləri orada yazmışam.

- *Sanki, o övliyyaların ruhu sizi tanıyır və öz vergilərindən sizə də pay verirlər?*

- Yəqin belədir. Qeybdən mənə müraciət olunanda ***"Ey Həzrət Əli oğlu!"*** deyirlər.

- *Sizdə müqəddəs ruh olduğuna görə onlar sizə öz enerjilərini ötürürlər, bu isə hər adamda baş vermir.*

- Əvvəldən bu işə marağım olduğuna görə bu məndə yarandı, çünki, bir xətt tutub o yolla getdim. Hər bir imanlı adam düzgün istiqamət götürsə bu şərəfli missiyaya nail ola bilər.

*- Bəziləri deyirlər "Ha çalışırıq gedək onun qəbuluna, amma,  gedə bilmirik, elə bil hansısa qüvvə mane olur".*

- Mane olan onlardakı neqativ enerjidir. Bu enerji insanı həm xəstələndirir, həm də yolunu bağlayır. Gələ bilməyənlərə məsləhət görürəm ki, ya qurban kəsib imkansız ailələrə paylasınlar, ya da iki yetim usagı bir dəfə doyuzdursunlar. Onda yolları açılacaq, gəlib sağalacaqlar.

*- Bəs bu məharətinizi niyə bütün insanlara bəyan etmirsiniz?*

- Bazara girəndə görürsən ki, bütün satıcılar yaxşı kartof, kələm, pomidor, xiyar deyib, qışqırırlar.  Qızıl satanın isə, sakit dayandığını, qışqırmadığını görürsünüz. Biz həmin o qızıl satana bənzəyirik. Qızılı satan da, alan da həmişə pünhanlığı sevər. LAzım olan adam özü axtarıb tapar.

*- Sizə bu şərəfli missiyanızda uğurlar arzulayırıq, səsiniz daima ucalardan gəlsin.*

- Amin! Çox sağ olun, təşəkkür edirəm.

# O, DAHİDİR, XƏSTƏSİ İDİM, PƏRƏSTİŞ ETDİM

*Kərimov Aydın Rəhim oğlu - "Qızıl Qələm" mükafatı laureatı, uzun illər "Neft daşları" qəzetinin redaktoru, Kirpi jurnalının müxbiri, "Yeni fikir" qəzetinin redaktor müavini, 1960-cı illdən dillər əzbəri olan "Sevgilimə könül açdım" mahnısının sözlərinin müəllifi, şair, yazıçı:*

-Belimdə uzun müddət idiki ağrı var idi. Heç bir müəlicə nəticə vermirdi. Qızım mənə tanınmış təbib Paşa Yaqubdan seans almaq təklif etdi. İki seans aldıqdan sonra ağrılarım qismən azalmağa başladı. Seans zamanı Paşa Yaqub mənə "Gizli Elmlər" kitabını bağışladı. Kitabı bir nəfəsə oxumağa başladım. Kitabı oxuduqca elə bilirdim Şimal Buzlu Okeanın buzu əriyib bir dərya olub, mən də həmin dəryada üzürəm.

Kitabda yazılanları insan təfəkkürünün qavraması ancaq bir möcüzə nəticəsində ola bilər. Paşa Yaquba zəng edib, kitab haqqında fikir mübadiləsi etdim. Soruşdum ki, sənə indiyə kimi niyə Nobel Mükafatı verilməyib?

Təvazökarlıqla bildirdi ki, "mən nə etmişəm ki, Nobel Mükafatı" alım?

*Dedim bu mövzuda yazıram ki:*
*Sağlığında bircə yol tutmurlar hörmətini,*
*Xəbislər hey pisləyirlər,*
*Dahi bir insan ölmək istəyir.*
*Öləndən sonra verirlər öz qiymətini,*
*O qədər tərif edirlər ki,*
*Ölmüş o dahi dirilmək istəyir.*

# QIZIM ONU TANIDI

*Salmanova Nailə Qədir qızı:*

- Mən Paşa həkimin Allahın bəndələrinə hədiyyəsi olan Şəfa Mələyi olduğu qənaətindəyəm.

Qızım Soniya gecələr yuxuda qorxurdu, səpkiləri vardı, çox əsəbi idi. Bədənində dəmrov var idi. Həkimlər nə qədər müalicə etsələr də, dəmrovu müalicə edə bilmədilər. Hətta, xüsusi məhlulla yandırmışdılar da. Buna baxmayaraq, yenə də sağalmırdı. Bir tanışım bildirdi ki, psixoterapevt yanına apar. Ağlıma batdı. Hamıdan yaxşı psixoterapevt tanıyıb-tanımamasını soruşurdum. Bir tanışım mənə qızımı Doktor Paşa Yaqubun yanına aparmağı məsləhət gördü. Paşa Yaquba zəng etdim. Vəziyyəti ona danışdım. Dedi seans edərəm sağalarsınız. Utana-utana bildirdim ki, həkim maddi imkanım yoxdur. Qız da internatda oxuyur. Heç yerdə işləmirəm. Telefonda bildirdi ki, mən Sizinlə pul danışmadım axı, niyə kövrəlirsiniz? Gəlin mən Sizi təmənnasız seans edəcəyəm. 2020-ci ilin aprel ayının ortaları idi. Qızımla onun yanına getdik. Qızım Paşa Yaqubu görən kimi dedi ki, mən Sizi tanıyıram. O da, mən də təəccüblə eyni andan sual verdik ki, hardan tanıyırsan? Qızım dedi ki, Siz bizim uşaq evinə tez-tez gəlirsiniz. Siz gələndə həmişə bizə əlavə yeməklər bişirilirdi. Siz də bizimlə əyləşib yemək yeyirdiniz. Hərdən



də durub bütün stollardakı yeməklərə baxır və uşaqlardan doyub-doymamalarını soruşurdunuz.

Paşa Yaqub qızımı da məni də seans etdi. Qızım dörd seansdan sonra tamamilə sağaldı. Hətta, dəmrov da keçib getdi.

### *Hələ də gözlərimə inana bilmirəm*

Özüm də 2000-ci ildən bir çox xəstəliklərdən əziyyət çəkirdim. Azərbaycanda aldığım müalicələrin nəticəsi olmadığından, qardaşım məni Rusiyaya apardı ki, orada müalicə olunum.

Zob, qulağımda mikrob, döşümdə mastopatiya, böyrəyimdə iltihab, mioma, düz bağırsağımda qaşınmalar, kürəyimdə osteoxondroz, qaraciyərimdə, öd kisəsində durğunluq kimi xəsətliklərdən həm Azərbayccanda və həm də Rusiyada mütəmadi müalicələr alsam da, sağlamlığıma qovuşa bilmirdim.

10 il Rusiyada aldığım müalicələrin də heç bir xeyri olmadı. 2010-cu ildə qayıtdım Azərbaycana.

Yenidən mütəmadi müalicələr almağa başladım. Yataqda qalmışdım. Heç bir iş görə bilmirdim. İynə-dərman hesabı-

na müvəqqəti ayağa qalxa bilirdim. Həkimlər 2 kiloqramdan artıq heç nə qaldırmağa icazə vermirdilər. Əlimə gələn pulları yeməyə, geyməyə, uşağıma yox, həkimlərə, dərmanlara verirdim. Ağrıdan bədənim keyləşmişdi. Müalicə olurdum, 1-2 aydan sonra təkrar ağrılarım başlayırdı. Düz bağırsağımdakı qaşınma məni elə hala salırdı ki, yaşamaq belə istəmirdim. Qızımı düşünürdüm, mənsiz onun taleyi necə olar deyə-deyə sağalmaq üçün alternativ yollar axtarırdım. Bu, məndə doqquz il davam etdi. Hətta, dörd il bitkilərlə də müalicə edən həkimlərdən müalicə almağıma baxmayaraq, sağalmırdım. Həkimlər də məndən bezmişdilər. Etiraf edirdilər ki, bacarmırlar. Tibb elminə məlum olan hər bir tədbiri görüblər. Nəticə ala bilmirlər. Hətta, qanımın filtirasiyasını (yuyulmasını) etdikdən sonra da sağalmadım. Çarəsiz bir dərdə düçar olmuşdum.

Hər gün namazdan sonra dua edirdim ki, "Allahım, elə bir möcüzə elə ki, sağalıb, övladımı yanıma gətirib özüm böyüdüm".

Paşa Yaqubun bir neçə seansından sonra ağrılarım azalmağa başladı. İynə-dərman qəbulunu dayandırdım. O tez-tez seans edirdi ki, ağrılar azalsın. Seans vaxtı elə bilirdim ki, damarlarımdan qan yerə axır. Damarlarımda qanın səsini eşidirdim. Bədənimə istilik gəlirdi...

Bir dəfə qrip olmuşdum. Tərləyirdim, boğazım ağrıyırdı. Paşa həkimə zəng etdim. Votsabla görüntülü seans etdi. Bircə seansa məndə heç bir qrip əlaməti qalmadı.

Hər namazda Allaha dua edərək arzuladığım möcüzəni tapdım. Həmin möcüzə Paşa Yaqubdur. Onun vasitəsilə Allahım məni çarəsiz, həm də 20 il davam edən xroniki xəstəliklərdən 21 günə sağaltdı. Allahıma şükürlər olsun ki, Paşa Yaqub kimi mənəviyyatı yüksək bir insanı bizim kimi çarəsizlərə hədiyyə bəxş edib.

# XƏRÇƏNGDƏN, DEPRESSİYADAN, SƏPKİLƏRDƏN VƏ KORONAVİRUSDAN MƏNİ XİLAS ETDİ

Çiçək Qəzənfərqızı (Məmmədli) -"Azərbaycan Respublikası Autizm-Defektoloji və Psixoloji Yardım Mərkəzi" İctimai Birliyinin sədri:

Üç ilə yaxın idi ki, arıqlamaq üçün dünyaca məşhur "Herbalayf" firmasının dərmanlarını qəbul edirdim. Bir müddət sonra bir çox xəstəliklərə düçar oldum. Birdən səhhətimdə narahatçılıq yarandı. Köp, gəyirmə, mədəmdə qıcqırma, yuxu pozğunluğu, özünəqapanma (depressiya), dəridə qaşınmalar, qəbizlik (elə olurdu ki, qəbizlik dörd gün davam edirdi) kimi hallardan əziyyət çəkirdim.

Ultrasəs (UZİ) müayinəsinə getdim. Öd, mədəaltı vəz və qaraciyərimdə ciddi patologiya olduğu bildirildi. Həkim dərmanlar təyin etdi. Dərmanlar təsir göstərmədiyindən təkrar müayinəyə gedərək, bağırsaqlarımın yoxlanılmasını istədim. Biopsiyanın nəticələrinə əsasən "S"-vari bağırsağımda adenomakarsinoma (xərçəng) aşkarlandı. Onkoloqlar əməliyyat olmasam, şiş metastaz verəcəyini bildirdilər. Mən isə əməliyyat olunmaq istəmirdim. Şiddətli ağrıların azalması üçün qəbul etdiyim dərmanlar təsir etmirdi. Xərçəng xəstəliyi diaqnozu təsdiqlənən kimi tibb elminə o qədər də



inamım olmadığından, (bunu həyat mənə aşılamışdı) 27 dekabr 2018-ci ildə müayinə cavablarımı götürüb son çarə olaraq məqalə və müsahibələrini izlədiyim möcüzəvi qüvvəyə malik, elmi-lədun bilicisi, psixoterapevt-həkim Paşa Yaqubun yanına getdim.

Düzdür, onun yanına 100 faiz inamla getməsəm də, yenə də möcüzə ilə rastlaşdım. Onun yanına həyatdan əlimi üzmüş halda getmişdim. Yaşamağa ümidim qalmamışdı. Amma, başqa yol da tapa bilmirdim. İki övladım - biri auditizm, digəri isə əqli inkişafdan qalma xəstəliyindən əziyyət çəkirlər. Həyat yoldaşım da ruhi xəstədir. Bütün bunlar mənim əsəb sistemimə tamamilə təsir etmişdir. Özümü sakitləşdirmək üçün mütəmadi dərmanlar qəbul edirdim.

Xərçənglə yanaşı sinəmdə, qurşağımda və kürəyimdə dəhşətli ağrı və qaşınma verən səpkilər də yaranmışdı. Həkimə getdim; ağrıların azalmasına iynə-dərmanlar kömək etmirdi. Bu halı görən müalicə həkimim 6-7 həkimin iştirakı ilə konsilium (fikir mübadiləsi) etdi. Həkimlər stasionar (xəstəxanada) müalicə olunmağımın vacibliyini bildirdilər. Razılaşmadığımdan dərmanlarımı dəyişdilər. Bu dərmanlar da mənə kömək etmədi. Düzünü deyim ki, səpkiləri Paşa həkimin müalicə edə biləcəyi ağlıma gəlmirdi. Seans zamanı

Paşa həkim soruşdu ki, nədənsə narahat görünürsünüz. Mən bədənimdəki səpkilərin iynə-dərman sağalda bilmədiyini ona deyəndə o, soruşdu ki, bəs bunu mənə niyə əvvəldən deməmisiniz? Çox soyuqqanlılıqla dərhal səpkiləri seans etdi. Bir neçə gün dalbadal seans olmağımın vacibliyini bildirdi. İkinci seansda sinəmə üfurdukcə mənə elə gəlirdi ki, sinəmdə bir lopa (məşəl) hərləyir. Bir neçə seans aldıqdan sonra səpkilər yoxa çıxdı, əsəblərim də sakitləşdi. Dərmanlardan qurtuldum.

Paşa həkim dua oxuyaraq üfürdükcə elə bilirdim ki, nəfəsindəki lopadan çıxan istilik səpkilərimi yandırır, yerinə isə sərinləşdirici maz çəkir. Seansdan sonra hər gün səpkilərə güzgüdə baxırdım. Üç gün dalbadal seansa getdim. Birinci seansdan sonra gördüm səpkilər sönüb, yavaş-yavaş azalır. İkinci gün ləkələrin yox olduğunu gördüm. Üçüncü seansdan sonra möcüzəilə qarşılaşdım. Gecə yatdım, səhər duranda gördüm ki, sanki bədənimdə elə bir şey olmamışdı. Gözlərimə inanmırdım.Tez-tez ğüzgüyə baxıb sevincdən gah ağlayır, gah da gülürdüm. Halbuki, pespublikada ən güclü dəri həkimləri kimi tanınan bir neçə həkimlərin müalicələrinin xeyri olmamışdı. Bu səpkiləri də  Paşa həkimin möcüzəli müalicəsi sağalda bildi.

Bir gün müalicəmi nəzarətdə saxlayan qeydiyyatda olduğum poliklinikanın həkimi zəng edib vəziyyətimi soruşdu. Sağaldım, özüdə dərmansız dedikdə, xahiş etdi ki, poliklinikaya gəl. Getdim; məni müayinə edən bir neçə həkim gəlişimlə əlaqədar başıma yığışdılar. Necə sağalmağım onlara

maraqlı idi. Həkimlərə Paşa həkimin seanslarından danışdıqca-ola bilməz, - deyib, təəccüblərini gizlətmirdilər. Həkimlər inanmaq istəməsələr də, reallıq göz qabağında idi.

Sən demə müalicə üçün dərman təyin etsələr də, tam sağalacağıma ümidləri yox idi. Artıq poliklinikada bu xəsətliyimi xroniki xəsətlik kimi qeydə almışdılar.

Bildirirəm ki, seanslar zamanı Paşa həkimin üfürdüyü nəfəsi sanki alova bənzər enerji kimi bütün orqanizmimdə ağrı nöqtələrini yandırırdı.

Mən Paşa həkimdən üç ay mütəmadi seans aldım. Tez bir zamanda xəstəliyimi unutdum. Daxilimdə elə fikir yarandı ki, xərçəng xəstəliyi məndə yoxdur.

Mən bunları gözümlə görüb, yaşadım. Bunları gözümlə görməsəydim, kimsə danışsaydı, heç vaxt inanmazdım.

Onu da deyim ki, ilk dəfə seansa gedəndə depressiyada idim, yuxusuzluq, iştahsızlıq, ağrılar da məni rahat buraxmırdı. Çox çəki də itirmişdim. Dayanmadan ağlayırdım. Az müddətdə mən həyata qayıtdım, altı kq çəkim artdı, depressiyadan çıxdım. Qanımda lyambliya və digər xəstəliklər də aşkarlanmışdır. Bir neçə seansdan sonra təkrar müayinəyə getdim, qan analizlərim yaxşı çıxdı, onkoloqlar bağırsağımdakı şişin üç ay ərzində böyüyüb yayılmamasından heyrətləndilər. Paşa doktorun seansları sayəsində şiş çəkilib getmək üzrəydi...

Daha sonra yaxınlarımın təkidilə Türkiyədə də müayinə olundum. Orada da onkoloqlar təəccübləndi ki, üç ay ərzində necə olub ki, bu şiş metastaz verməyib, əksinə, balacalaşıb.

Onlara deyəndə ki, bunlara iynəsiz-dərmansız nail olmuşam, inanmırdılar.

Paşa Yaqubun seansları sayəsində sağlamlığıma qovuşdum. Allah mənə o qədər səbr, həyat eşqi verib ki, görənlər məəttəl qalır. Psixoloji cəhətdən sağlam bir insan oldum. Sanki, dünyaya yenidən gəlmişəm. O hissləri yuxuda görmüş kimi xatırlayıram. Adətən mədə-bağırsaqda olan şiş 3-4 ay ərzində sürətlə yayılır. Əminəm ki, mən ağrılar hiss edən kimi dərhal Paşa həkimin seanslarını qəbul etsəydim heç xərçəng də olmayacaqdım. Əlavə olaraq bildirirəm ki, bir necə il öncə müayinə zamanı sinəmdə düyünlər aşkarlanmışdı. Paşa həkim seanslara başlayanda həmin düyünlər də şiddətli ağrılar verməyə başladı və dərhal da keçib getdi. Müayinə zamanı həmin düyünlər də aşkarlanmadı. İndi heç bir dərman müalicəsi almıram, ancaq hərdən seanslara davam edirəm. Analiz və müayinələrin cavabları isə çox yaxşıdır. Paşa həkimin sayəsində mən həyatda ən səbrli, sakit bir insan olmuşam.

### *Koronovirusdan da məni o qurtardı*

Bəşəriyyəti cənginə alan koronavirus məni də yaxaladı, - deyə, Çiçək xanım söhbətini davam etdirir: - on gün əziyyət çəkdim. Bacılarım həkimdir. Hərəsi bir dərman dedilər. Nə etdimsə sağalmaq bilmirdim. Yadıma Paşa həkim düşdü. Ona zəng edərək, vəziyyətimi danışdım. Paşa həkim bu dəfə məni votsab vasitəsilə görüntülü seans etməyə başladı. Dəh-

şətə gəlmişdim. Telefonun o başında olan həkimi yanımda hiss edir, sanki, nəfəsini əyani olaraq üzümə üfürürdü. Bir neçə görüntülü seansa və dediyi tövsiyələrə əməl etdim. Tamamilə sağaldım.

Paşa həkimin müalicə üsulunu başıma gələn və gördüklərimə əsasən, İlahi bir möcüzə hesab edirəm. Heç bir insan möcüzə yarada bilməz. Paşa həkim Allahın yaratdığı bir möcüzədir.

Paşa həkimin seansları haqqında tanışlarıma sevinc dolu hisslərlə danışıram.

Paşa həkim çox danışmağı sevmir. Ancaq səbrlə qarşısındakı insanı dinləməkdən sanki zövq alır. Ondan seanslar götürdüyüm müddət ərzində çox müsbət xüsisiyyətləri olmasının şahidi oldum. Müsbət xüsisiyyətləri çox xoşuma gəldiyinə görə onunla həm də dost olmağa qərarlı oldum.

Qeyri-adi xüsisiyyətləri olan Paşa həkimin dost kimi də insan qəlbində uca zirvəni fəth etməyi bacaran biri olduğunun da şahidi oldum.

Paşa həkim kimi möcüzəli müalicə üsuluna sahib olan ikinci bir həkim tanımıram.

### *Qızımı da müalicə etdi.*

Seanslara qızımı da aparırdım. Qızım autizmdən əziyyət çəkirdi. Qızımda o qədər narahatlıq və əsəb var idi ki, bizə də əzab verirdi. Özü də rahatlıq tapmırdı. Əzab-əziyyət çəkirdi. Uca ALLAHdan başqa mənim heç kimə belə rəğbətim yoxdur.

Seanslara başlamamış qızımın yavaş-yavaş sakitləşəcəyini dedi və çox təmkinlə seanslara başladı. Bir neçə seansdan sonra onun dediyi məqam yetişdi. İndi qızımda həmin narahatlıqlardan əsər-əlamət belə yoxdur. Demirəm tam sağalıb. On gündə bir dəfə yüngulcə tutmaları olur. Hiss edirəm ki, xəsətlik yavaş-yavaş canından çıxır. Normal insanlar kimi davranır, danışır, gülür, şənlənir.

Bu xəstəlik bütün dünyada olan çox ağır xəstəlikdir. Hətta, mən buna görə bu adda təşkilat da yaratmışam.

Deyə bilərəm ki, mən də qızımla yanaşı sakitləşmişəm. Yəni, ətrafdakıları incitmir. Bu qıza görə intihar etmə həddinə çatmışdım. Mən Paşa həkimin sayəsində bu bəladan da xilas olmuşam. Bu xoşbəxtliyi Allahın iznilə möcüzələr yaradan Paşa həkim mənə nəsib edib. Qızıma mütəmadi güclü psixatrop dərmanlar verirdim. Dərmanlar çox bahalı olmaqla yanaşı, çətin tapılırdı. Xüsusi resseptlə satılırdı. Həttа, bir dəfə qızım əlini kəsmişdi, onu 5-6 adam zorla tutub xəstəxanaya apardıq və həkimlər yarasına tikiş qoydular. Seanslardan sonra qızım sakitlik tapıb. Bir ilə yaxındır ki, heç bir dərman qəbul etmir. Bunu necə möcüzə adlandırmayım? Bütün bu olanlar məndə yaşamağa həvəs yaratdı. Bu gün yaşadığım sakit həyat tərzim üçün varlığımla Paşa həkimə təşəkkürlər edərək, möcüzəli əllərindən öpürəm.

# DEYƏRDİM Kİ, ƏFSANƏVİ DOKTORDUR



Badisəbah Dünyamalızadə - Laçın rayon 32 saylı məktəbin ingilis dili müəlliməsi:

-Uzun müddət idi ki, diz qapaqlarımdakı kəskin ağrılar səbəbindən yeriyə bilmirdim, axsayırdım. Hətta, yaxın məsafəyə də ancaq taksilə gedə bilirdim.

Bu yaxınlarda möcüzəvi, deyərdim ki, əfsanəvi doktor PaşaYaqubun qəbuluna getdim. Elə birinci seansda xeyli yüngülləşdiyimi hiss etdim. Üçüncü seansdan sonra məndə heç bir ağrı qalmadı.

Bundan həvəslənib, bacılarıma qoşulub şəhəri başdan-başa piyada gəzdik. Neçə kilometrlərlə piyada yol qət etdim. Evə gələndə ayaqlarımda agrı hiss etdim. Paşa həkimə zəng edib, vəziyyəti dedim. O məni videogörüntüylə seans etdi və vatshapda mənə doğru üfürdü. Allah şahiddir ki, mən telefondan küləyin yelini hiss etdim, agrım həmən keçdi.

Paşa doktorun qəbulunda olanda ondan xahiş etdik ki, videobağlantı yaradaq, Türkiyədə yaşayan qohumumuza da baxsın. Həkim razılaşdı. Qohumum qadın dedi ki, hal-hazırda kürək və boyun nahiyəmdə kəskin ağrılar var, əsəbiyəm.

Paşa həkim videogörüntüylə ona enerji ötürdü. Soruşdu ki, indi həmin nahiyyələrdə ağrı varmı? Qohumum dedi- xeyr, ağrılar və əsəbim yoxa çıxdı.

Bundan sonra Türkiyədə yaşayan qohumumuzla hərdən əlaqə saxlayanda soruşuram, deyir o gündən bəri məndə nə əsəb var, nə də ağrı.

Odur ki, bütün ailəmiz adından Paşa həkimə dərin təşəkkürümüzü bildirib, ona işlərində yeni-yeni uğurlar arzulayırıq.

# TESTİN CAVABLARI NEQATİV ÇIXDI



Seymur Ağayev - Türkiyyədə təhsil alan tələbə (sosial şəbəkədəki statusunda yazır):

-Nəhayət ki, bu gün xəstəxanadan çıxdım. Koronavirus bəlasından qurtuldum. Mənə Xəstəxanada baxan həkimlərə, bütün narahat olan dostlara və ən əsası doktor Paşa Yaquba öz minnətdarlığımı bildirirəm.

Mən xəstə olduğum vaxt dostlardan birisi mənə Paşa Yaqubla əlaqə yaratmağımı söylədi. Mən həmin gecə doktor Paşa Yaquba vhatsapda yazdım. Səhəri gün doktor mənə cavab verdi. Və mənimlə görüntülü şəkildə bir neçə seans etdi. Hələ ilk seansdan mən özümü çox yaxşı hiss etməyə başladım. Zamanla artıq özümü çox rahat hiss elədim. Və nəhayət, dünən mənə bir daha Koronavirus testi olundu. Nəticə neqativ çıxdı. Mən artıq bu gün xəstəxanadan ayrıldım. Başda həkim Pasa Yaquba və Türkiyə Cumhuriyyəti, Tokat dövlət xəstəxanasının həkimlərinə, sonra isə mənə bu zamanlarda dəstək olan bütün dostlara təşəkkür edirəm. Hər kəsə inamlı olmağı tövsiyə edirəm. Var olun!

## ŞOKA DÜŞDÜM. ONU ALLAH İDARƏ EDİR.

***Elbəniz Hüseynova - pasiyent:***

-2011-ci ildə məndə poliplər aşkarlanmışdı.

Sonuncu dəfə 2017-ci ilin noyabrında muayinədən keçdim, yenə UZİ aparati polipləri aşkarladi. Paşa həkimin seanslarına getdim. Üçüncü seansdan sonra- növbəti UZİ müayinəsindən keçdim. Hər şey qaydasında idi. Poliplərin heç biri aşkarlanmadı.

UZİ həkiminin dediklərinə inanmadım. Müayinə həkiminə cavabları göstərdikdə o da təsdiq etdi ki, heç bir polip və ya şiş yoxdur.

Bundan əlavə, anadangəlmə nitq qüsurum olduğu üçun məndə kompleks var idi. Bu qusur məni ömrü boyu izləyirdi. Hətta, həkimlər belə bunun çarəsiz olduğunu deyirdilər. Mənim nitq qüsurum günün muxtəlif vaxtlarında danışığımın, səsimin aydın olmayan ifadələri idi. Yəni, günün müəyyən hissəsində aydın danışırdım, müəyyən hissəsində isə, danışığım başa düşülmürdü.  Hətta, hansı bir məclisdə, yığıncaqda danışanda başqalarının gülüşünü sezirdim. Təbii ki, butun bunlar məni psixoloji sarsıdırdı və mən yəqin etmişdim ki daha buna çarə yoxdur (yəni anadangəlmədir). Doktor Paşa Yaqub məni muayinə edərkən mənə neqativ enerji ötürüldüyünü və bütün bu qüsurların da məhz elə bundan törəndiyini



qeyd etdi. Bütün neqativ enerjilər anamdan ötürülübmüş mənə; ilkin olaraq. Sonradan isə, əlavə olunmuş bəd əməllər... Əvvəllər də mənə bir görücü demişdi ki, sənin başında natəmiz cin oturub, səni sıxır, haldan-hala salır gün ərzində. Bu, nitqimdə də özünü göstərirdi, gah aydın, gah da anlaşılmaz səslə danışırdım... Paşa Yaqub da bunu təsdiq etdi və seanslarda da yəqinləşdirdi...

Şükürlər olsun ki artıq mən bunları arxada qoydum. Paşa doktorun mualicəsi sayəsində özümü çox gumrah, şən, şux aurada hiss edirəm. Hətta, nitqimdə də qeyri adi bir aydınlıq hiss edirəm. Əvvəlki sıxıntı, qorxu, süstlük, nitqdə tormozlanmaları daha hiss etmirəm. Doktoruma minnətdaram, var olsun!

Paşa doktor, əsil möcüzəsiniz!

Bir şeyi də qeyd edim ki, dəfələrlə Paşa doktorun qəbuluna getmək üçün cəhd edirdim. Amma, gedə bilmirdim. Hansısa qüvvə buna imkan vermirdi. Çox çalışırdım, elə bil yol açılmırdı.

Allaha yalvararaq dua etdim ki, mənə Paşa həkimin yanına getməyə yol açsın.

Elə bilirəm ki, Allah dualarımı eşidib, mənə yol açdı. Paşa həkimin qəbuluna yazılanda bir daha dərk etdim ki, yolumu Allah açdı.

Tam sağaldım. Birmənalı deyə bilərəm ki, doğrudan da bu insan qeyri-adı möcüzəli qüvvəyə malikdir, Allahın Özü tərəfindən idarə olunur!

# BİZƏ ÇOX LAZIMDIR

*Bəxtiyar Ağakişiyev – 0xucu:*

-Paşa Yaqubun  saytı ilə təzə tanış oldum. Çox yararlandım. Kitablardan yüklədim. Allahın izni ilə bir-bir tanış oluram. Ən çox alternativ müalicə üsulu, Mendeleyevin dövri cədvəli barəsində məqalə, müasir xəstəliklər haqqında elmi məqalə, ziyarətgahlar, məkanlar haqqında məlumatlar məni maraqlandırdı.

Hal-hazırki dövrdə bu müalicə üsuluna maraq az olsa da, mən qəlbim ilə hiss edirəm ki, bu, gələcəyin müalicə metodudur.

Doktor  Paşa Yaqub kimi psixoterapevtlər bizə çox lazımdır; həm indi, həm də gələcəkdə. Özü ilə tanışlığım olmasa da, əsərlərindən bəzilərini oxumaq məni bu qənaətə gətirdi. Yaxın vaxtlarda yəqin ki, əlaqə saxlamağa cəhd edəcəyəm İNŞALLAH.

Paşa həkim, var olsun! Allah yardımçınız olsun! Yaxın vaxtlarda ya virtual, ya da üzbəüz görüşmək ümidi ilə.

## HƏLƏ BAZARLIQ DA EDİRDİ

*Xırdalan şəhər sakini, bədii qiraətçi Bahar Abbasova:*

– Övladlığa bir qız götürmüşəm. Sonradan bildim ki, qız autizm sindromundan əziyyət çəkir. Özümün də səhhətimdə bir çox narahatlıqlar yaranmışdı. Sosial şəbəkədə həkim, psixoterapevt Paşa Yaqub haqqında çox oxuyurdum. Bir gün onun autizm xəsətliyini müalicə edə bildiyi barədə yazıya rast gəldim. Onu tanımırdım. Facebookda statuslarından telefonunu götürüb zəng etdim. Maddi imkanım olmadığını hətta, onun seansına getmək üçün avtobus pulum belə olmadığını bildirdim. O mənə-narahat olma gəlib evinizdə müalicə edərəm, dedi. Bildirdi ki, "Siz bir xəstə qıza ömrünüz boyu kömək olaraq, ona ana olmaq kimi müqəddəs missiyanı yerinə yetirirsiniz. Həm də çox çətinliklərə qatlaşaraq. Mən necə Allahın mənə bəxş etdiyi elmi sizdən əsirgəyə bilərəm? Bu Allaha xoş olmaz. Allahrizası üçün mən onu müalicə edəcəyəm, narahat olmayın, heç nəyə ehtiyac yoxdur".

Paşa doktor həftədə 1-2 dəfə gəlib həm qızım Gümüşü və həm də bütün ailə üzvlərimizi təmənnasız seans edirdi. Qızım Gümüşə çox köməyi oldu: 14 yaşında danışmağa başladı. Gümüş utanmaq bilmir, heç nədən çəkinmirdi. Bizimlə ünsiyyət qurmurdu. Paşa həkim belə hissləri də onda bərpa etdi. Gümüş indi bizimlə ünsiyyət qurur, danışır, şənlənir.




***Aerozoldan qurtardım.***

O həm də mənim səhhətimdə yaranan bir neçə xəstəliyi müalicə etdi, deyə, Bahar xanım söhbətini davam etdirir:

– Paşa həkimin seanslarından sonra nə aerozoldan istifadə edirəm, nə də ki, astma pristuplarım tutur.

İnanılmaz haldır ki, qrip oldum, ancaq mənim astma pristuplarım tutmadı. Əvvəllər çox əziyyət çəkərdim.

***Mərhəmət sahibidir.***

Paşa həkim hər dəfə bizə gələndə bazarlıq edib gətirirdi. Halbuki, o bizdən seanslara pul almırdı. Mən onun bazarlıq etməsinə etiraz etdikdə çox mülayim tərzdə- Siz hazırlayın, mən Gümüşlə oturub birlikdə yemək yemək istəyirəm.

O qədər gözəl insandır. Onun insani xüsusiyyətlərindən danışmaqla qurtarmaz. Biz ailəliklə onun xətrini çox istəyirik. Allah ondan razı olsun! Ən çətin anlarımızda Allahın köməkliyi ilə bizə dəstək oldu.

İndi də əlaqələrimiz var. Onun haqqında dastanlar yazılsa belə azdır. Ona təşəkkür etmək üçün layiq olduğu sözləri tapmaqda çətinlik çəkirəm. Elə başa düşürəm ki, onun təmənnasız köməklik etdiyi insan tək biz deyilik. Mən inanıram ki, hələ də neçə-neçə insanlara pulsuz yardım göstərir.

Paşa həkimin mərhəmətli ürəyi qarşısında baş əyib ona dərin minnətdarlığımı bildirirəm.

## HƏYATDAN ÜMİDİMİ ÜZMÜŞDÜM

*Sumqayıt şəhər sakini Gülnarə Dünyamalızadə*:

– Gözlənilmədən səhhətim ağırlaşdı. Həkim müayinələrinin cavabları son aylarımı yaşadığıma işarə idi. Həkimlər aşkar şəkildə bildirdilər ki, məndə xərçəng xəstəliyi var və təcili əməliyyat olunmalıyam.

Hər dəfə onkoloji xəstəxanaya gedəndə elə bilirdim ki, ömrümdən 10 ilim gedir. Öz ayağı ilə onkoloji xəstəxanaya getməyin nə demək olduğunu Allah düşmənimə də yaşatmasın.

Qızımı təcili ərə verdim ki, mən öləndən sonra balaca qızımla ortada qalmasınlar. Heç olmasa ailəsi olsun ki, balaca qızıma da sahib çıxsınlar. Həyatdan ümidimi üzmüşdüm. Paşa həkimin seanslarını təklif etdilər. Mən Allaha sığınaraq, seanslara getdim.

Bu gün Paşa həkimin sayəsində sağlamlığıma qovuşdum. Allah ondan razı olsun! Amin!

### *Ağrılar cəmi bir videoseansla yoxa çıxdı.*

Türkiyədə professorların üç günə kəsə bilmədiyi sancını Paşa Yaqub videogörüntü ilə bir seansa dayandırdı - deyə, Gülnarə xanım söhbətini davam etdirir:

-Bir neçə gün qabaq Türkiyədə yaşayan qızım zəng etdi ki, ana, sancıdan nəfəsim kəsilir, yoldaşım məni xəstəxanaya aparır. Onlar Kocaeli şəhərində özəl xəstəxanaya gediblər. Orada professorlar müayinə ediblər, biri deyib kor bağırsaq sancısıdır, əməliyyat olunmalıdır. Sonra digər professorlar da baxıb, deyiblər yox, kor bağırsaq deyil, yumurtalıqda kistanın sancısıdır, ginekoloq baxmalıdır.

Səhəri gün gediblər Bursa dövlət xəstəxanasına. Orada uzman doktor ginekoloq müayinə edib, yenidən xeyli analizlər, müasir diaqnostik aparatlardan keçiriblər, belə qərara gəliblər ki, kista deyil, bağırsaq genişlənməsinin sancısıdır. Hər dəfə həkimlər müayinədən sonra ona iynə-dərman yazıblar.

Qızımın sancıları, ağrıları yenə də keçməyib. Ötən gecə nə o yata bilməyib, nə də məni qoymayıb yatmağa. Dəqiqədə yazır ki, mama, sancıdan ölürəm. Mən də burda ana olaraq narahatlıqdan yata bilmirəm.

Nəhayət, bu gün ailə həkimimiz  Paşa Yaquba zəng edib vəziyyəti dedim. Dedi ki, tez mənə zəng etsin, videoseans edib sağaldaram. Qızım zəng etdi, seans aldı. Təxminən yarım saatdan sonra Mələk təkrar mənə zəng edib dedi ki, Paşa doktorun videoseansından sonra sancılarımın hardasa səksən faizi yoxa çıxdı. İndi çox rahatam.

Doktor Paşa Yaquba öz təşəkkürümü bildirirəm. Sidq ürəklə deyirəm ki, var olasınız, doktor! Allah Sizi bizə çox görməsin! Türkiyənin məşhur klinikalarında çalışan uzman həkimlərin, professorların kəsə bilmədiyi, səbəbini tapa

bilmədiyi sancını Siz bir seansla dayandırdınız. Yaxşı ki, varsınız.

Onu da deyim ki, Türkiyədə yaşayan, tanıdığım onlarla adam Paşa doktorun xəstələridir və ondan videoseans alırlar. Müalicə üçün Türkiyəyə üz tutan azərbaycanlılara məsləhət görərdim ki, yaxşı-yaxşı fikirləşsinlər, əlavə xərcsiz, iynə-dərmansız, ağrısız sağalmağın yolu Paşa Yaqubun seansından keçir.

## ALLAHIN MÖCÜZƏSİ

*Şahbazova Aygün Əsgər qızı - jurnalist:*

-Ailəmizin dostlarından olan, özümə bacı sandığım Zahidə xanım gözlənilmədən ağır xəstəliyə düçar olmuşdu. Yataq rejimində müalicələr alsa da, sağalacağına çox şübhələrim var idi. Demək olar ki, bir çox xəstəlikdən əziyyət çəkirdi. Çəkisi həddən artıq azalmışdı. Heç bir dərman müalicələrinin köməyi olmurdu.Yemək də yeyə bilmirdi. Hər gün vəziyyətilə maraqlanırdım. Günü-gündən səhhətində ağırlaşma müşahidə olunurdu. Bir gün dedi ki, psixoterapevt Paşa Yaqubun yanına gedib, seans götürüb, nisbətən səhhətində ağrıların azalmasını hiss edir.

Fikirləşdim ki, Ali təhsilli hüquqşünas, dünyagörmüş bir insan ağır xəsətliklərdən sağalmağa psixoterapevtin ona kömək edəcəyinə inanması nə dərəcədə realdır? Hələ deyir ki, ağrılarım da azalıb.

Hər gün səhhətində dəyişikliklər olmasını söyləyirdi. Bildirirdi ki, Paşa Yaqub deyir seanslar 21 günə təsirini görəcək. Mən də 21 günün tamamında zəng etdim. Bildirdi ki, ölürəm. Ağrılarım şiddətlənib. Danışmağa halı belə yox idi. Ertəsi gün zəng etdim ki, Zahidə xanımın vəziyyətini soruşum. Çox şən bir səslə cavab verdi ki, yaxşıyam. Səsinin tonundan onun sanki dünən ölürəm dediyi insan olmadığı bi-



linirdi. Soruşdum ki, nə iş görürürsünüz? Dedi ki, badımcan dolması bişirmişəm. Qabları yuyuram. Təəccübdən yerimdəcə donub qalmışdım. Az qala nitqim tutulmuşdu. Dilim dolaşa-dolaşa soruşdum ki, yediniz? Gülə-gülə "yedim" dedi. Bir neçə gündən sonra bizə gəldi. Qardaşım oğlu Sərkərin dilində qüsur var idi. Gündəlik lokoped həkim yanına aparırdım. Özümün də ayaqlarımda ağrılar var idi. Zahidə xanım məsləhət gördü ki, həm özüm və həm də Sərkər həkim Paşa Yaqubdan seans götürək. Biz Zahidə xanımın məsləhətilə bir neçə seans Paşa Yaqubun qəbuluna getdik.

Ayaqlarımda olan ağrılar hər seansda bir az azalmağa başladı. Sərkərin də danışığında demək olar ki, qüsur keçdi.

Mən iynə-dərmansız ağrıların keçməsi, xəstəliklərin müalicə oluna bilməsi barədə heç yerdə eşitməmişdim.

Paşa Yaqubun seansları Allahın möcüzəsidir.

## ONUN SAYƏSİNDƏ HƏYATA QAYITDIM

*Dadaşova Təranə Yusif qızı:*

-Mən üç il əvvəl Paşa doktorun xəstəsi olmuşam. Ona müraciət edəndə çox pis durumda idim. Demək olar ki, iki kiloqram belə yuk götürə bilmirdim. Qarnımda yırtıq (qrija) vardı. Ağrıdan yerimdəcə qıvrılırdım. Həkimlər mütləq əməliyyat olunmağımı bildirdilər. Paşa həkimin seanslarından sonra ağrılar tamamilə getdi. Bu günə kimi də əməliyyat olunmamışam. Hal-hazırda nə qədər yük götürsəm də ağrılarım olmur.

Həmin vaxt özünəqapanma, depressiya, halsızlıq, səbəbsiz ağlama, qorxu kimi hisslərdən də əziyyət çəkirdim.

Yuxuda müəyyən qorxulu heyvanların içimə daxil olmasını hiss edirdim. Qorxub yuxudan oyanırdım. Paşa həkimin möcüzəli seanslaından sonra bu hallar məndən tamamilə getdi. Hər dəfə yadıma düşəndə həyəcandan gözlərim yaşarır. İnanmırdım ki, normal həyata qayıdacağam.

Mən Laçın rayonundanam. Son vaxtlar 44 günlük müharibənin həyəcanından depressiyaya düşdüm. Yenidən Paşa həkimə müraciət etdim. Vatsabla bir neçə seans etdikdən sonra artıq özümü əvvəlki kimi sağlam hiss edirəm. Paşa həkim həm insanın ruhunu və həm də cismini müalicə edir. O, sözün əsil mənasında Allahın möcüzəsidir.

# TİBB ELMİNƏ SİRR OLAN QEYRİ-ADİ MÜALİCƏ

*Əliyeva Nəcibə Tahir qızı – həkim-pediatr:*

-Ailəmizin dostlarından olan Zahidə xanım gözlənilmədən ağır xəstəliyə düçar oldu. Həkim kimi onun analizlərinə baxanda dəhşətə gəlirdim. Zahidə xanım həddindən artıq arıqlamış, əsəbi olmuşdu. Onun üzündə həmişə olduğu təbəssümdən əsər-əlamət qalmamışdı. Günü-gündən vəziyyəti ağırlaşırdı. Aldığı müalicələrin də heç bir təsiri olmurdu. Həmin vaxt oğlum Musa da xəstələnmişdi. Həkim kimi onu müalicə etdim. Elə deyirdi ki, boğuluram. Müalicələr nəticə vermirdi. Başqa həkimlərə müraciət etdim. Pespublikada tanınan bir neçə həkimlərə müraciət etsəm də, Musanın boğulma əlamətləri heç cür keçmirdi. Bir gün Zahidə xanıma zəng edib səhhətilə maraqlananda gülə-gülə, yaxşıyam, deməsindən sevinsəm də, həkim kimi onda olan xəstəliklərin sağalmasına inanmadım. Fikirləşdim ki, dərmanların təsirindən ağrıları azalıb. Soruşdum ki, hansı dərmanları qəbul edirsiniz? Güldü, dedi ki, dərmanlardan imtina etmişəm. Paşa doktorun seanslarına gedirəm. Çəkisinin artmasını, səhhətinin yaxşılaşmasını bildirdi. Mənə Musanı da Paşa Yaqubun yanına aparmağı məsləhət gördü. Zahidə xanım ciddi bir insan olduğundan ona inanmaya da bilməzdim. Musanı

Paşa Yaqubun seansına apardım. Həkimdən Zahidə xanım necədir deyə soruşanda-işə gedir - cavabı verdi. İnanmaq istəmədim. Amma, Musada seansdan sonrakı dəyişiklikdən sonra Zahidə xanımın səhhətində sağalma getdiyinə inanmağa başladım. Bir gün təsadüfən Musa ilə Paşa Yaqubun seansından çıxanda Zahidə xanım qapının arxasında növbə gözləyirdi. Qapı açılanda bizi görüb içəri girdi. Zahidə xanım sanki ağır xəstə olan Zahidə xanım deyildi. Bizim neçə illərdir tanıdığımız əvvəlki adam idi. Gördüklərimə inanmaq belə istəmirdim. Təəccübümü gizlədə bilmirdim. Musa da "Zahidə xala əvvəlki kimidir" -deyə təəccüb etdi. Bizim onu ağır vəziyyətdə gördüyümüzdən sonra, az bir müddətdə belə bir nəticə olmasına ancaq möcüzə demək olar. Həyat yoldaşıma danışanda, o da çox sevinsə də, inanmadı. Zahidə xanımı görmək istədi. Biz həyət evində yaşayırıq, həyətimiz ağaclıqdır. Zahidə xanım hərdən maşınla bizə gəlib həyətdə oturaraq hava alırdı. Parka getməyə qorxurdu ki, halı pisləşər. Mən həkim olduğumdan yardım edəcəyimə əmin olduğundan bizə gəldiyini deyirdi. Seanslara başlayandan gəlməmişdi. Odur ki, onu evimizə dəvət etdim. Xəstə olandan ət, çörək, yağlı və s. bir çox yeməklərdən pəhriz saxlayırdı. Nə yeməyi ilə maraqlandım. Bildirdi ki, əvvəlki kimi hər şey yeyir. Zahidə xanımın əvvəlki kimi öz ampulasında olması, deyib-gülməsi bizdə Paşa Yaqubun ALLAHIN əfsanəvi möcüzəsinə sahib olmasına əminlik yaratdı...

## BƏS VƏSİYYƏT ETMİŞDİN???

***Zahidə Vulkan:***

-Bir neçə sağalmaz xəstəlikdən əziyyət çəkirdim. Çəkim 67 kilodan 39 kiloya düşmüşdü. Artıq heç nə yemirdim. Ağrılarıma yüksək dozada vurulan iynələr də kömək etmirdi. Başa düşdüm ki, artıq bu dünya ilə vidalaşmağımın zamanıdır. Vəsiyyət etdim. Kimin üstümdə haqqı var idisə halallıq istədim.

Ailələrimizin uzun illər dost olduğu respublikamızın dəyərli siyasətçisi, hüquqşünas,10 il Milli məclisin deputatı olmuş, istiqlalçı millət vəkili Mətləb Mütəllimlinin təkidi ilə psixoterapeft Paşa Yaqubun seanslarını qəbul etməyə başladım. Doğrusu, Mətləb bəyə də ekstrasenslərə inanmadığımı qabaqcadan demişdim. Paşa bəyin özünə də dedim ki, mən inanmıram amma, Mətləb bəyin Sizə çox böyük ümidlərinə hörmətlə yanaşaraq gəldim. Çöhrəsində təbəssüm var idi. Üzümə doğmalıqla baxaraq, 21 gün səbr edə bilsən sağalacaqsan, -dedi.

Düzü, ağrıkəsici dərman qəbul edib getmişdim. Dedim ki, Paşa bəy 21 günə mənə yəqin 3;7 və 3 dəfə də cümə axşamı mərasimləri də qurulacaq həddəyəm. Sabaha çıxacağıma ümidim yoxdur. Siz 21 gündən danışırsınız. Çox mehribanlıqla bütün xəstəliklərimi soruşaraq qeyd etdi. Dərhal seansa

başladı. Danışmağa belə halım yox idi. Bir az yüngülləşdim. Dedi ki, ağrılarınız artacaqdı. Qorxmayasınız. Dözə bilsəniz, dərman da qəbul etməyin. Ertəsi gün zəng edib dedim ki, Paşa bəy, mən ağrıdan ölürəm, dərmansız mümkün deyil. Az miqdarda qəbul edin, gəlin yanıma - dedi.

Mümkünsüz olduğunu bildirdim. Videoseans etməyini təklif etdi. Razılaşdım. Seansdan sonra mədəmdə olan ağrılar azalmağa başladı. İki aya yaxın idi ki, heç nə yeyə bilmirdim. Ancaq meyvə şirələri ilə qidalanırdım. Məni görənlər tanımırdılar. Üç gün vidioseans edəndən sonra mədəmdəki ağrılar yox oldu. Yavaş-yavaş sulu yeməklər yeməyə başladım. Yenidən canlı seanslara getdim. Düzünü deyim ki, bir gün dedim ki, Paşa bəy, mənim başım xarab olub. Elm inkişaf edib. Həkimə getmək əvəzinə ekstrasens yanına gəlmişəm. Sanki mənim xəstələnməyimdə onun bir günahı var imiş kimi, çox aqressiv şəkildə paltarımı göstərərək deyirdim ki, baxın görün mən necə arıqlamışam, paltarlar əynimdən düşür. O isə, üzümə baxaraq mehribancasına gülümsəyirdi. Dözə bilsəniz, sağalacaqsınız deyirdi.

Onun gülümsəməyinə əsəbiləşirdim. Elə bilirdim ki, o mənim ciddi xəstə olduğuma inanmadığından gülümsəyir. Onun səmimi gülüşünü istehza kimi başa düşürdüm. Hərdən də mənə elə gəlirdi ki, Paşa həkim mənim dəli olduğum qənaətindədir. Hər seansdan sonra deyirdi ki, istəyirsənsə, tibbi müalicə də al. Amma, mən səni sağaldacağıma əminəm.

Nəhayət, 21-cü gün tamam oldu. Seansdan evə taksi ilə gəldim. Dəhşətli ağrılardan ilan kimi qovrulmağa başladım.

Özümün də, Paşa həkimin də qarasına gileylənirdim. Öz-özümə, - bu nədir başıma gəldi. Bu da 21 gün. Yəqin mənə tərsi oldu - deyirdim. Fikirləşirdim ki, yəqin Paşa həkim 21 günə ya sağalacam, ya da öləcəyəm, demək istəməsə də, bu, belədir. Mən sağalmadım. Ölürəm deyib sakitləşdirici dərman içib yatdım.

Ertəsi gün yuxudan tam sağlam insan kimi oyandım. Səhər yeməyi yedim. Evdəkilər işə getmişdilər. Soyuducuya baxdım ki, nə var, nə yox. Günorta yeməyə nə bişirim. Xülasə, Badımcan dolması bişirdim. Mətbəxə üç aya yaxın idi ki, girmirdim. Yeməyimi yataqda yeyirdim. Mən sanki heç xəstə olmamışam kimi kompot, dolma bişirdim, salat hazırladım.

Mənə elə gəlirdi ki, o hissləri mən yuxuda görmüşəm. Bişirdiklərimdən də yedim. Heç bir ağrı hiss etmədim. Axşam uşaqlar evə gələndə təəccübdən donub qalmışdılar. Hətta, günorta qardaşım da mənə baş çəkməyə gəlmişdi. Gördü ki, mətbəxtdəyəm. O da yemək yedikcə təəccüblə üzümə baxırdı. Nə baş verdiyini anlamırdı.

Paşa həkimdən seans götürdüyümü bilən rəfiqəm Aygün xanım hər axşam olduğu kimi 22-cü gün mənə zəng etdi. Mən onunla neçə illər əvvəl danışdığım kimi danışırdım. Telefonda - nəsə yeyə bilmisən? - deyə soruşdu. Dedim ki, badımcan dolması bişirmişəm. Aygün xanım dili dolaşa-dolaşa yediiiiiiiiiin, - deyə soruşdu. Gülə-gülə “yedim” dedikdə, necə yedin? - dedi. “Adam kimi”, -cavabını verdim.

Çox şən idim, gülürdüm. Aygün xanım təəccübünü gizlədə bilmədi. Soruşdu ki, sənə nə olub? Dedim ki, bu gün vaxt

tamam oldu. Soruşdu ki, hansı vaxt tamam olub? Gülə-gülə:
- 21 gün keçdi, sağaldım. Paşa həkimin seansları məni adam elədi - deyib güldüm.

Aygün xanım sevincindən ağlayırdı.

Mətləb bəy də tez-tez zəng edərək, necə olduğumu soruşurdu. Hərdən də oğlu Mahiri göndərirdi. Onlara da sağaldım deyib, qəhqəhə ilə güldüm. Mətləb bəy gülə-gülə: - Bəs vəsiyyət edirdin, - deyə zarafat etdi.

Mətləb bəy hər dəfə mənə zəng edəndə səsimin tonundan hiss edirdi ki, səhhətimlə yanaşı əhvalım da yaxşıdır. Deyirdi ki, deyəsən bu gün Paşa həkimin yanında olmusunuz. Soruşurdum ki, hardan bilirsiniz? Hiss edirəm, Siz seansdan sonra daha çox şən olursunuz, - deyirdi.

Təbii ki, 22-ci gün Paşa həkimin yanına getdim. Onunla da sevincimi böldüm. Çox həvəslə mətbəxt sərgüzəştlərimi ona danışdım. O, yenə də əvvəlki kimi üzümə baxaraq mehribancasına gülümsəyərək, bildirdi ki, Siz artıq neqativ enerjidən qurtarmısınız, amma, ağrılar azalsa da, xəstəliklər hələ tam sağalmayıb. Seanslara davam etməlisiniz.

Etiraf etməliyəm ki, mənim sağalmağıma hamı sevinsə də, Paşa həkimin gözlərindəki qeyri-adi sevinci heç kimdə görə bilmədim.

Paşa həkimin seanslarını qəbul etmək üçün mənim sağalmağımı gözləyən rəfiqələrim və qohumlarım da nəticəni gördükdən sonra tərəddüdsüz Paşa həkimin seanslarına üz tutdular.

Rəfiqəm Nəcibə xanım həkimdir. Oğlunun boğulma kimi xəstəliyə düçar olmasını, müalicələrin köməyi olmadığını deyirdi. Mən ona Paşa həkimin seanslarını təklif etdim. Sağaldığımı eşidən kimi oğlunu Paşa həkimin seanslarına apardı.

Bir dəfə təsadüfən Paşa həkimin seansı zamanı onunla rastlaşdım. Qapının arasından Nəcibə xanımı gördüm və içəri girdim (Paşa həkim seanslarda başqa şəxsi içəri buraxmır). Nəcibə xanım təəccüblə: - Zahidə xanım, sən əvvəlki  kimisən şən gülərüz, çəkin də normallaşıb, gözlərimə inanmıram, - deyib bir də məni qucaqladı. Paşa həkim məsum-məsum gülümsəyərək bizə baxırdı.

Beləcə, mən çox sayda qohum-qonşularımı və rəfiqələrimi Paşa həkimin seanslarına göndərmişəm. Hər biri xəstəliklərindən xilas olduqlarına görə Paşa həkimlə onları tanış etdiyim üçün mənə təşəkkür ediblər.

Paşa həkimin seanslar zamanı "açar sözləri"ni oxuyaraq adama üfürməsi insanı sanki bir anlıq təbiət qoynunda istirahət edirmiş kimi rahatlayır. Nəfəsindən müşk-ənbər iyi gəlir. Gözləri şəfəq saçır.

Seanslar zamanı bədənimin bir tərəfinə eyni anda soyuq, digər tərəfinə isti gəlirdi.

***Şəkillərindən də enerji alırdım.***

Bir müddət torpaqlarımızın işğaldan azad edilməsi üçün əks həmlə zamanı ölkədə internetin kəsilməsi və koronavi-

rusun tüğyan etməsi ilə əlaqədar Paşa həkimin həm birbaşa və həm də videoseanslar etmək imkanları olmadı.

Onunla telefonla danışdıqdan sonra rahatlıq tapırdım.

Birdən yadıma düşdü ki, Paşa həkimin bir xəstəsi ona deyirdi ki, şəklinə baxanda rahatlıq tapıram.

Fikirləşdim ki, bəlkə mən də şəkillərinə baxsam, rahatlıq taparam. Onun haqqında kitab yazmağı planladığım üçün internetdən çoxsaylı şəkillərini götürmüşdüm. Şəkillərini açaraq hər birinə dəfələrlə baxdım. İlk baxışdan şəkillərdən biri-hansı ki, indiki görkəmində olan şəkil-sanki mənə sağalacaqsan deyir, üzümə gülümsəyirdi.  Həmin şəklə təkrar-təkrar baxdım. Mənə elə gəldi ki, Paşa həkim canlı olaraq yanımdadır. Öz-özümə - Bissimillah, deyəsən dəli oluram dedikdə, qulaqlarıma –“yox” - səsi gəldi. Səs Paşa həkimin səsi idi.

Bir neçə gün həmin hadisənin təsirindən çıxa bilmirdim. Yuxuda gördüm ki, Paşa həkim mənə deyir ki, niyə görünmürsünüz, seanslara gəlmirsiniz? Həm də mənə bükülü nəsə verdi.

Yuxudan oyanan kimi həmin şəkli açıb baxmağa başladım.

Şəkildə Paşa həkim gülümsəyir, qulaqlarıma isə, sağalacaqsızınız sədası gəlirdi...

Mən bir neçə gün şəkillə təmasda olduqdan sonra, həmin şəkil vasitəsilə Paşa həkimə suallar verməyə başladım. Hətta, ona mənə aid olmayan şəxsi sirləri barədə də suallar

verdikdə cavabları dəqiqliyi ilə bilmədiyim üçün, verilən cavabları bir kağıza yazırdım.

Nəhayət, internet bərpa oldu, Paşa həkim əvvəlcə video-seanslara başladı. Sonra klinikada birbaşa seanslarını bərpa etdi. Seansların birindən sonra ona kitabla əlaqədar suallar vermək istəyimi bildirdim. Əslində isə məqsədim şəkilinə verdiyim suallara aldığım cavabların doğru olub-olmamasını yoxlamaq idi. Birbaşa cavabları deyərək, belədirmi sualı verirdim. Belədir, amma, bunu Sizin bilməyiniz mümkünsüzdür, - deyə cavab verir və özü də təəccüblənirdi. Sonda təkidlə - bunları hardan öyrənmisiniz, axı, heç evdəkilər belə bunları bilmir - deyə soruşduqda, onu intizarda qoymayaraq, şəkili ilə danışdığımı bildirdim. Mümkünsüzdür, - dedi. Gülərək, niyə mümkünsüzdür, Siz telefonun o başından nəfəsinizi ötürə bilirsiniz, amma, şəkilinizlə cavab verməyiniz mümkünsüzdür? - deyə sual verdikdə, təəccüblənsə də "hər şey mümkündür", - dedi.

Beləcə, mən onun kəramət sahibi olmasını, seçilmişlərdən olmasını, mənəviyyatını, dürüstlüyünü, qeyri-adı insani keyfiyyətlərini, Şəfa Mələyi olmasını şəkli ilə danışaraq bir daha kəşf etdim.

Düşünürəm ki, hər insanın şəklilə danışmaq da mümkünsüzdür. Elə Paşa həkimin də bir şəklindən başqa...

## Doktor Paşa Yaqubun iynə-dərman işlətmədən indiyədək sağaltdığı xəstəliklərin siyahısını təqdim edirik:

- Bütün növ qorxular, fobyalar;
- Həzm sistemi xəstəlikləri;
- Zərərli vərdişlərdən (narkomaniya, alkoqolizm və s.) xilas olmaq;
- Uroloji xəstəliklər (enuroz, sistit, gecələr tez-tez sidiyə çıxma və s.);
- Autizm;
- Epilepsiya;
- Skalyoz , osteoxondroz və s. onurğa xəstəlikləri;
- Təhsildə və işdə uğursuzluq;
- Bütün növ depressiyalar;
- Cinsi disfunksiyalar (zəiflik, həvəssizlik və s.);
- Hormon pozğunluqları (oğlanın özünü qız, qızın oğlan kimi hiss etməsi və s);
- Həyəcan pozuntuları (panik atak);
- Sayrışan hallar nevrozu;
- Sinir sistemi xəstəlikləri;
- Bütün növ nevrozlar və əsəb xəstəlikləri;
- Yuxusuzluq;
- Parkinson xəstəliyi;

- Şizofreniya;
- Miqren;
- Zob;
- Miasteniya (əzələ zəifliyi)
- Sevgisizlik, inamsızlıq;
- Dəmirov və s. dəri xəstəlikləri, allergik yaralar...;
- Bütün növ ağrılardan və neqativ enerjilərdən xilas olmaq;
- Sonsuzluq;
- Xərçəng;
- Koronavirusa yoluxma (videoseansla sağaldır);
- Analıq orqanlarının xəstəlikləri - endometroz, kistalar, fibro-miomalar, folikulların partlamaması, uşaqlığın sallanması və s.
- Osteoparez
-Ürək-damar xəstəlikləri

və s.

## MÜƏLLİFLƏ QƏHRƏMANIN DİALOQU

*Müəllif: – Salam, necəsiniz?*

**Paşa Yaqub: –** Şükürlər olsun bizi Yaradana. Allahın köməkliyi ilə alın yazımızı yaşayırıq.

*Müəllif: – Siz çox gənc yaşlarınızdan siyasətə baş vurdunuz. Xalq Hərəkatına qoşuldunuz və haqsızlığa qarşı mübarizə apardınız. Sizə qarşı atıla biləcək, şər-böhtandan, günahsız həbslərdən qorxmadınızmı?*

**Paşa Yaqub: –** Allahdan başqa heç kim və heç nədən qorxmuram. Allah qoruyur. O şəxslər ki, Yaradana inanır, onu məhəbbət və ağıl yolu ilə dərk etməyə cəhd edirlər, o şəxsləri qorxutmaq istəyi qurdu quzu ilə qorxutmağa bənzəyir. Bir də ki:

***Haqq olana Tanrı daim yar olur.***
***Şər atanlar əzəl-axır xar olur.***

*Müəllif: – Mətbuatdan mənə məlumdur ki, Siz də həqiqətləri söylədiyiniz üçün təqiblərə məruz qalmısınız.*

**Paşa Yaqub: –** Bəli, yazdıqlarımı təkzib etmək üçün dəfələrlə güclü təzyiqlər olub. Amma, nə qədər çalışsalar da, məni məhv edə bilmədilər. Allah hamımızı qorusun!

*Müəllif: – Əsasən hansı səbəbə görə təqib olunurdunuz?*

**Paşa Yaqub:** – Hətta, kəşf etdiyim bir həqiqətə görə.

*Müəllif: – Hansı kəşfə görə?*

**Paşa Yaqub: –** Yerin ilk yaranışı Pangeya materikidir. Bunun xəritəsi coğrafiya kitablarında və internetdə var. Həmin materik yerin orbiti olan Ayın üzərində əks olunub və biz onu hər axşam başımızı qaldırıb göyə baxanda görürük.. Yanaşı qoyduqda Ayın üzərindəkinin Pangeya materikinin xəritəsi olduğu adi gözlə görünür. Hər gün gördüyümüz, ancaq fərqinə varmadığımız hikmətləri üzə çıxaran (kəşf edən) elmə *elmi-lədun* deyilir.



Bu kəşfim barədə ilk dəfə -Pangeya və Ayın fotoları- “Moderator.az” saytında izahlı məqaləm dərc edildikdən sonra facebookdakı şəxsi mesaj (inbox) bölməmə hədələyici mesajlar gəldi ki, bu yazını silim və bu mövzuda danışmayım. Bu hədələrə məhəl qoymadığımı gördükdə yazdılar ki, ALLAH adından səhv məlumat yayırsan və ALLAH səni cəzalandıracaq. Buna da əhəmiyyət vermədiyimi görən həmin adam bu şəkillərin (Pangeya və Aydakı xəritənin)

proqrama salınmış şəklini göndərdi. Yazdı ki, bax, görürsən hansısa proqrama salmışam, fotolarda 80 (səksən) faiz oxşarlıq göstərir. 20 faiz yalan danışdığına görə ALLAH səni cəzalandıracaq, sil yazıları.

Dedim qardaş, lap sən məni sevinirdin ki, deməli, yazılarımda 80 faiz həqiqət var. Sən bu ölkədə mənə danışdığının 80 faizi düz olan bir adam göstər, mən onun da əlindən öpüm, sənin də. Yerin (Pangeyanın) yaranmasından milyard illər ötüb və o materik indi yoxdu, parçalanıb. Alimlər onun xəritəsini təqribi tərtib ediblər. Ona görə də 10 faiz qeyri-dəqiqliyə yol vermələri təbiidir. Eləcə də Ay bizdən milyon kilometrlərlə uzaq məsafədə olduğundan onun da fotosunda 10 faiz qeyri-dəqiqlik görmək təbiidir. Bunlar bir yerdə 20 faiz qeyri dəqiqlik edir ki, bu da mənim yox, fotoqrafların və coğrafiyaçıların günahıdır. Ona görə də mənim heç bir qorxum yoxdur. Bu cavabdan sonda hədələr qurtardı.

*Müəllif: – Bir çox dövri mətbuatda oxumuşdum ki, yazırsınız ki, mollalarla probleminiz olub. O vaxtlar nə baş vermişdi?*

**Paşa Yaqub: –** Qəlbində Allah sevdası olan mollalara salam olsun! Bəzi məmurlar haqqı deyən jurnalistləri, blogerləri pulla ələ ala bilmədikdə şərləyib həbs etdirdikləri kimi, mollalar arasında da belələri var. Hansı məmur ədalətlidirsə (belələri az saydadır) pis əməllərə əl atmır. Mollaların arasında da hətta, Allaha şəkk edənlər, hansısa qüvvələrə işləyənlər də az deyil. Mənim mətbuatda gedən bir yazımı həzm edə bilməyən (belələrinə molla demək olmaz) özlərini molla

adlandıranlar haqqında idi. Hətta, 2002-də xarici missionerlər haqqımda “ölüm hökmü” çıxardılar və bunu icra etmək üçün dəfələrlə Zərdabdakı evimə hücumlar etdilər. Azyaşlı uşaqlarımı vahiməyə salırdılar. Bu barədə həmin dövrün mətbuatında xəbərlər dərc olunmuşdu.

*Müəllif: – Həzm edə bilmədikləri yazıda nəyi əsaslandırmışdınız?*

**Paşa Yaqub:** – Bir gün əlim dinc durmadı, götürüb “Hürriyyət” qəzetində elmi-lədun bir məqalə yazdım. Üç qəzet səhifəsi həcmində olan bu məqalədə (gündə bir səhifə olmaqla üç gün çap olundu) “Quran”dakı rəqəmlərin mənasından, yolazmışlara gələcək bəlalardan tutmuş, mollaların tamah məqsədi ilə bəzi ölkələrdən pul alıb, İslamı səhv təbliğ etmələrinə qədər bir çox mətləblərdən bəhs etdim. Və sonda qeyd etdim ki, İslamın dirçəlişi məscidlərin bağlanmasından keçəcək. Sübut kimi də qeyd etdim ki, sovetlər dönəmində məscidlər bağlananda İslam (İslam deyəndə əxlaq, mənəviyyat, etibar, halallıq, dürüstlük, bir sözlə, insanlıq nəzərdə tutulur) indikindən qat-qat güclü idi və insanların qəlbində Allah xofu olduğundan, əhalinin, o cümlədən dindarların böyük əksəriyyətində İslamın sadaladığım əlamətlərini görmək mümkün idi. Məscidlər çoxalandan sonara bu əlamətlər həm ora gedənlərdə, həm də, getməyənlərdə azaldı.

Mənim bu səpkidə məqalə yazmağım və müasir dövrdə məscidlərdən bir qədər məsafə saxlamağın gərəkliyini qeyd etməyim (bir çox xarici dövlətlərin kəşfiyyat orqanlarının “mikrafonları və kameraları” məscidlərdə qurulub və mik-

rofonların düymələri də xaricdən basılır.) Zərdab mollalarını bərk qəzəbləndirdi. Onda mən Zərdabda yaşayırdım.

Məqalənin çapı bitər-bitməz gördüm ki, yaşadığım evin zirzəmisi molla ilə doludur. Bu yerdə fikirləşəcəksiniz ki, yəqin onlar əllərinə "Quran" götürüb gəliblər ki, səninlə dialoq aparsınlar, səni səhv çıxartsınlar.

Xeyr, sizin düşündüyünüz normal məntiqdir. Hardaydı bizdə belə bəxtəvərlik ki, əksər mollalarımız normal məntiqlə hərəkət edələr?

Yenə də sual verəcəksiniz ki, bəs onda mollalar sənin zirzəmində (podvalında) neynəyirdilər? Düzü, suala cavab verməkdə çətinlik çəkirəm. Çünkü, qorxuram dediyimə inanmayasız. İnanmaq nə qədər çətin olsa da, onlar orada it kimi hürürdülər.

Allah şahiddir ki, sözlərimdə yalan yoxdur.

Azyaşlı uşaqlarım gecə həyətə düşəndə onlar pencəklərini başlarına keçirərək, it kimi hürə-hürə uşaqların üstünə yüyürüb, körpə uşaqları qorxudurdular. Ona görə də uşaqlar qorxusundan, ayaqyoluna qaranlıq olmamış gedirdilər, gecə heç kəs həyətə düşmürdü. Belə olanda mollalar zirzəmidə özləri üçün bir az hürüb gedirdilər.

Ən maraqlısı da odur ki, səhəri gün həmin mollalar hüzr məclislərində camaatın gur vaxtında elan edirdilər ki, ay camaat, bəs deməzsinizmi ki, Paşa Yaqub məqaləsində "Quran"ı səhv təbliğ etdiyinə görə cinlər gecələr onu narahat edirlər.

Təbii ki, bu söhbərlər gəlib mənə çatırdı. Mən də cavabında onlara sifariş göndərdim ki, o necə cinlərdir ki, ge-

cələr mənim qapımda hürürlər, gündüzlər isə məsciddə azan verirlər, minbərdən canmaatı düzgünlüyə, əxlaqa çağırırlar...

Xülasə, bu hürüşmə bir neçə gün təkrar olandan sonra, mən polisə ərizə verdim. Bu əhvalat o vaxtın mətbuatında da öz əksini tapıb və bəzi mollalardan izahat alınandan sonra (təbii ki, onlar boyunlarına almadılar və mən də dirənmədim) daha "cinlər" gəlmədilər. İndi həmin mollalar həyatda yoxdular.

*Müəllif: – Başqa nə kimi və nə üçün təzyiqlərə məruz qalmısınız?*

**Paşa Yaqub:** – Ölkədə baş alıb gedən haqsızlıqlarda ölkə rəhbərliyinin günahı olması və ədaləti bərqərar etməsə Allahın cəzasına gələcəyi barədə 2003-cü ildə mətbuatda yazım dərc edilmişdir. Bu yazıma təkzib verməyim üçün bütün hüquq-mühafizə orqanları işə qarışmışdı və bunu Zərdabda əksər insanlar bilirdilər. Onda da təkzib vermədim və ALLAH məni darda qoymadı.

*Müəllif:* **–** *Yer üzündə tüğyan edən zülmdən qurtarmağın yolunu nədə görürsünüz?*

**Paşa Yaqub: –** Elm və Peyğəmbərlik əsri olan XXI əsr başlayanda Rəbbim mənə elə bir elm bəxş etdi ki, onunla "Quran"ın açılmamış sirlərinə işıq salıb bir çox mətləbləri üzə çıxarmaq mümkün oldu.

İndiyədək kitablarımda, məqalələrimdə və paylaşdığım statuslarda bu mətləblərdən bəzilərini cəmiyyətə çatdırmışam.

Zilmdən qurtarmağın yolu inək kəsib paylamaqdadır. Bu, o qədərdə asan deyil.

"Əl-Bəqərə" ("İnək") surəsində keçən əhvalat həyatda başıma gəldi.

Əvvəlcə qeyd edim ki, surənin mahiyyəti ondan ibarətdir ki, Misirdə iki tayfadan biri (Firon tayfası) o birinə (Musa tayfasına) zülm edirdi və onlar heç bir hüquq tanımırdı, istədiyi adamı öldürsəydi, qanı batırdı.

Musa (ona salam olsun) tayfasının xilası üçün Rəbbinə dua etdi və cavab aldı ki, qızılı rəngdə, üç yaşında, kələ görməmiş bir inək (düyə) qurban kəssələr, onu qəbul edib, tayfanı zülümdən azad edərəm (bax: "İnək" surəsi, 67-72-ci ayələrə).

Surədəki sirləri elmi-lədunla öyrənərkən mənə məlum oldu ki, bu gün bəşəriyyət həmin hadisələri yaşamaqdadır və insanlar müasir fironların zülmündən qansız xilas olmaq istəyirlərsə, həmin əlamətlərdə inəyi (düyəni) tapıb, ikinci dəfə qurban kəsməlidirlər. Surənin 2 rəqəmi ilə nömrələnməsi də məhz bununla bağlıdır.

(Ümumiyyətlə, Quranda keçən bütün hadisələr bu əsrdə bu və ya digər formada görünəcək).

Bunu biləndən sonra, mən həmin əlamətlərdə inəyi axtarmağa başladım. Bir neçə ildən sonra bir şair dostum (o həm də tamadadır) yanıma gəlib, dedi: -İnək axtarırsan? Əvvəl heç nə yadıma düşmədiyindən, dedim: -Yox. Dedi bu gecə yuxumda filankəsi gördüm, qabağında bir neçə baş heyvanlarını aparırdı, içərisində qızılı rəngdə bir düyə vardı, bir səs mənə dedi ki, bu düyə Paşa Yaqubun neçə ildir axtardığı düyədir. Şair dostum yuxunu danışanda, yadıma düşdü ki, mən

Qurandakı inəyi axtarıram, Allah-taala mənə nişan verir. Dediyi adamı tanıyırdım, axşamüstü evinə gedib, bu əlamətlərdə düyəsinin olub-olmadığını, satıb-satmadığını öyrəndim. Kişi dedi var, 3 yaşındadır, çöldə-bayırda azad gəzsə də, kələ başqa heyvanlara yaxınlaşır, nədənsə ona yaxınlaşmır. Dəfələrlə satmaq istəmişəm, arvad qoymur ki, həyətimizin yaraşığıdır, satmıram.

Maraq üçün gedib heyvanlar saxlanan yerdə həmin inəyə baxdım, gördüm "Quran"dakı bütün əlamətlər bunda var. Təxmini hesabladım ki, bunun ən yüksək bazar qiyməti 100 "şirvan" olar. Arvada bu məbləği təklif etdim ki, heyvanı sat mənə, dedi pula ehtiyacım yoxdur, satmıram.

Soruşdu ki, doğmayan heyvana nə əcəb bu qədər məbləğ təklif edirsən, hansı ki, bazarda bu pula daha sərfəlisin ala bilərsən?

Qurban kəsəcəyimi deyəndə, arvada gülməli gəldi, dedi ki, inəkdən qurbanmı olar? ("Onlar dedilər: "Bizi məsxərəyəmi qoyursan?" "Quran"ın həmin ayəsi.)

Səhəri gün həmin qadına 150, birisi gün isə 200 "şirvan" və yaxud yanı balalı bir inəyi bazardan alıb verməyi, düyəni onunla dəyişməyi təklif etdim. (And olsun ki, həmin anda mənim bir kamaz pulum olsaydı, hamısını ona təklif edərdim) Arvad iki ayağını bir başmağa dirəyib, satmayacağını dedi.

Bundan əlavə qonşu qadınların da yanında mənim dəli olduğumu, erkək heyvanlar dura-dura dişini qurban kəsmək istədiyimi lağnan danışırmış. Sonuncu söhbətimdə ona bil-

dirdim ki, mənə satmırsansa, eybi yoxdur, amma bu heyvanı heç vaxt qəssaba satma, çünki oradan restoranlara və içki məclislərinə gedəcək və günaha batacaqsan, düyə də Allahın nişanəsi olduğundan, ona kələ yaxınlaşmır. Mən danışdıqca gördüm arvad gülür.

Bir neçə aydan sonra xəbər tutdum ki, həmin düyəni 70 "şirvana" qəssaba satıblar, bir neçə heyvanla birlikdə. Arvadı qəfil sancı tutduğundan Bakıda əməliyyat olunub. Bu minvalla ailə üzvləri dalbadal bir neçə dəfə əməliyyat olandan sonra həmin həyətdəki heyvan sürüsündən əsər-əlamət qalmadı. Aradan cəmi bir neçə il keçib, həmin ailədəki bir dəstə külfətdən də heç kəs qalmayıb, sonuncu həmin qadın dünyasını dəyişdi. Allah hamısına rəhmət eləsin! Günahların bağışlasın!

Bu əhvalatı danışmaqda məqsədim insan oğlunun diqqətini bir daha həmin qurbana cəlb etməkdir ki, müasir fironların zülmündən qansız-qadasız qurtarmaq üçün Rəbbim onun kəsilməsini istəyir. Qurbana şərik olmaq üçün say məhdudiyyəti yoxdur və onu istənilən ölkədə zülmə məruz qalan toplum cəmləşərək, halallıqla alıb, kəsə bilər.

Bu qurbanlıqda başqa nüanslar da var ki, bunlar ictimaiyyət üçün deyil.

Surədə deyilir:

"Yadınıza gətirin o vaxtı ki, Musa öz qövmünə: "Allah sizə bir inək kəsmənizi əmr edir!" - dedi. Onlar isə: "Bizi məsxərəyəmi qoyursan?"-dedilər" (Musa da:) Allah Özü məni cahil olmaqdan saxlasın!" - dedi". "Quran", "İnək" surəsi, 67.

"Nəhayət, onlar inəyi tapıb kəsdilər. Amma az qalmışdı ki, bu işi yerinə yetirməsinlər" ("Quran", 2:71).

*Müəllif: – Həyatda ən çox sevdiyiniz nədir?*

**Paşa Yaqub:** – Elmli olmaq, kitab oxumaq, öz üzərində işləmək.

*Müəllif: – Hansı yeməyi xoşlayırsınız?*

**Paşa Yaqub: –** Hər bir neməti Allah yaradıb. Allahın verdiyi ruziyə şükürlər edirəm.

*Müəllif: – Hansı rəngi çox sevirsiniz?*

**Paşa Yaqub: –** Bütün rənglər təbiətin çalarlarıdır. Belə bir deyim var ki, "təbiət bir rəngdə olsaydı əgər, gözlər baxmaqdan yorulmazdımı?

*Müəllif: – Uzun ömürlülüyün sirri nədədir?*

**Paşa Yaqub: –** Uzun ömürlüyün sirrini birinci növbədə düzgün həyat tərzi keçirməkdə, zəhməti sevməkdə, mübariz olmaqda, daxili təmizlikdə, heç kimə pislik etməməkdə, qonşunun itinə-pişiyinə belə daş atmamaqda, insanın daxilində Allaha dərin sevgi olmasında, torpağa bağlı olmaqda, qohum-əqrəbanı tez-tez ziyarət etməkdə görürəm

*Müəllif: – Özünüzə bağışlaya bilmədiyiniz səhviniz varmı?*

**Paşa Yaqub:** – Xalq hərəkatında iştirak etdiyim illərdə bəzi gecələr evə gələ bilmirdim. O vaxt mobil telefon da yox idi ki, evə xəbər verəm. Səhər qayıdanda deyirdilər ki, anam səhərədək nigarançılıqdan yatmayıb. O vaxtlar cavan olduğumdan mən buna ciddi əhəmiyyət vermirdim. İndi özüm valideynəm, həmin illər yadıma düşdükcə anamın ruhu qarşısında xəcalət çəkirəm.

*Müəllif: – Elmi-lədun bilicisi kimi cəmiyyətdə tanınırsınız. Elmi- lədun nə deməkdir?*

**Paşa Yaqub: –** Elm zahiri və batini olmaqla iki qrupa bölünür.

Zahiri elmlər məktəbdə müəllimdən və kitabdan öyrənildiyi halda, batini elm əksinə, müəllimdən öyrənilməz. Buna ***elmi-lədun*** deyilir.

***Lədun*** sözü ərəbcə "***dərin qat"*** mənasını verməklə, elmin dərin qatlarına işarə anlamını verir. Bu, tək zəhmətlə (oxumaqla) əldə edilə bilməyən, həm də qəlbə gələn duyumla (hissiyyatla) qazanılan bilgidir. Vaxtilə peyğəmbərlər və digər kəramət sahibləri bu cür elmə malik olublar və sirlər üzərindən pərdələri məhz, bu elmlə qaldırıblar.

Deyleminin rəvayət etdiyi bir hədisi-şərifdə: *"Elmi-lədun allah-taalanın sirlərindən olan bir sirdir. Onun hökmlərindən olan bir hökmdür. Dilədiyi qulunun qəlbinə salar"*-deyə buyurulmuşdur.

"Sülük-ül-Uləma" adlı əsərdə keçən bir hədisi-şərifdə: *"Elmlərdən elələri vardır ki, onları ancaq mərifətullaha sahib olanlar bilirlər. Onlar bu elmlərdən xəbər verdikləri zaman mərifətullaha sahib olmayanlardan başqası onları inkar etməz"*- buyrulmuşdur.

Hadimi həzrətləri: *"Mərifətullah bilgiləri kəşflə və ilhamla hasil olur. Müəllimdən öyrənilməz"*- demişdir.

*Elmi-lədun* barəsində "Quran"ın bir ayəsində belə buyurulur:

***"Şübhəsiz ki, Yəqub onu*** *(vəhylə)* ***öyrətdiyimiz üçün bir elm sahibi idi. Lakin insanların əksəriyyəti*** *(Allahın*

*sevib-seçdiyi zatlara vəhy, ilham yolu ilə elm öyrətməsini)* ***bilməz!" (***"Quran", 12:68).

*Müəllif: – Siz həyatda nəyin əleyhinə olmusunuz?*

**Paşa Yaqub: –** Mən bütün fəaliyyətim dövründə çalışmışam ki, heç kimə pislik etməyim. Pisliyin bir ucu adamın özünə dəyir. İkincisi, mən içkinin, siqaretin, qumar oynamağın, diktaturanın, insan haqlarının pozulmasının, rüşvətxorluğun, yalan-palan danışmağın, başqasının əməyindən istifadə edib varlanmağın-bir sözlə, haram nə varsa, hamısının özümü tanıyandan bu günə kimi də əleyhinəyəm.

*Müəllif: **–** Bəs nəyin tərəfdarı olmusunuz?*

**Paşa Yaqub: –** Az yatıb, çox işləməyin tərəfdarı olmuşam. Bütün kitablarımı, məqalələrimi, hesablamalarımı və digər yazdıqlarımın hamısını gecələr yazmışam.

*Müəllif: – Başqa nəyin tərəfdarı olmusunuz?*

**Paşa Yaqub: –** Mən həmişə təlim-tərbiyənin yüksək səviyyədə təşkilinin, ailədə səmimiyyətin, övladlara qayğının. Övladlarıma bütün seçimlərində sərbəstlik verilməsinin-istər ali təhsil almaları, istərsə də ailə həyatı qurmaq üçün etdikləri seçimdə. Babalarımın, atamın əqidəsinə hörmətlə yanaşmağın, haramın əleyhinə olmağın, düzgünlüyün tərəfdarı olmuşam. Dürüstlüyün olduğu yerdə rahat həyat tərzi olduğunu dərk etmişəm və bunları özümə aşılamağa çalışmışam.

*Müəllif: – Çin çıxan yuxular hansılardır?*

**Paşa Yaqub:**-Tanımadığın məkanda görülən yuxular çin çıxar.

*Müəllif: **–** Ömrünüzün kamil çağında gənclikdə hansı arzunuzun həyata keçməməsindən peşmansınız?*

**Paşa Yaqub: –** Arzularım çox idi. Bir qismini həyata keçirə bilməmişəm. Amma, daha ciddi yanaşsaydım, bacarardım. Bax, bundan peşmanam. Amma, çalışıram ki, həmin arzularımı da Allahın iznilə heç olmasa indi həyata keçirə bilim.

*Müəllif: – Gənclərə nə arzulayırsınız?*

**Paşa Yaqub: –** Gənclərə arzum bütün işlərində böyüklərinin məsləhətini alsınlar. Mətbuatla dərindən tanış olsunlar. Mətbuatdan kənar həyat yoxdur. Mətbuatdakı xəbərləri təhlil etməyi və nəticə çıxarmalarını məsləhət görürəm. Çoxlu kitab oxusunlar, bilik-bacarıqlarını inkişaf etdirsinlər. Gənclik böyük qüvvədir, o qüvvədən səmərəli istifadə olunmasının tərəfdarıyam və tövsiyə edirəm.

*Müəllif: – Mətbuatdan söz düşmüşkən, Siz hansı mətbuatı izləyirsiniz?*

**Paşa Yaqub: –** Xəbərləri hal-hazırda əsasən internet üzərindən izləyirəm.

*Müəllif: – Kimdən xəyanət görmüsünüz?*

**Paşa Yaqub:** – Adama çoxları xəyanət edər: Ancaq, dost, silahdaş bildiyin adamın xəyanəti adama çox pis təsir edir.

*Müəllif: – Kimi əsil dost hesab edirsiniz?*

**Paşa Yaqub: –** Əsil dost təmənnasız dostluq edənlərdir. Həm də dostlar arasında sirr olmamalıdır. Əsil dost dostunun sirrini saxlayan, çətin günlərdə onun yanında olan kəsdir.

*Müəllif:* **–** *Sizin belə dostlarınız varmı?*

**Paşa Yaqub: –** Əlbəttə var.

***Müəllif: –*** *Bir də dünyaya gəlsəydiniz, hansı peşəni seçərdiniz?*

**Paşa Yaqub: –** Bir də dünyaya gəlsəydim, hal-hazırda olduğu kimi, həkimlik peşəsini seçərdim.

*Müəllif: – Ölkəmizi necə görmək arzusundasınız? Ölkənin bu durumdan çıxması üçün nə təklif edərdiniz? Yəni çıxış yolunu nədə görürsünüz?*

**Paşa Yaqub: –** Demokratikləşməkdə. Demokratik ölkənin vətəndaşı kimi, heç olmasa, bircə gün də olsa yaşamaq arzusundayam.

*Müəllif: – Ən böyük arzunuz nədir?*

**Paşa Yaqub: –** Dövlətimi, millətimi azad və firavan görmək.

*Müəllif: – Sizi üzən hal nədir?*

**Paşa Yaqub: –** Bəşəriyyətin doğru yolda olmaması, Yaradanın qanunlarına sayğısız yanaşması.

*Müəllif: – Sizi ən çox nə sevindirir?*

**Paşa Yaqub: –** Mübariz insanların olduğunu görəndə sevinirəm və yaşamağa dəyər, - deyirəm.

*Müəllif: – Keçdiyiniz həyat yolunda ən yaddaqalan xoş hadisə nə olmuşdur?*

**Paşa Yaqub: –** Taleyimdə yaddaqalan hadisələr çox olmuşdur.

*Müəllif: – Kiməsə ömrünün sonuna qədər Sizi unuda bilməyəcək bir yaxşılıq etmisinizmi?*

**Paşa Yaqub: –** Bir çox sağalmaz xəsətliyə düçar olan adamların həyatını xilas etmişəm. Düşünürəm ki, onlar məni xoş xatirələrlə xatırlayacaqlar.

*Müəllif: – Atanızdan Sizə hansı keyfiyyətlər miras qalmışdır?*

**Paşa Yaqub: –** Allaha bağlılıq. Atam həmişə deyərdi ki, bizim ailəmizə haram düşmür. Bütün işlərinizdə dürüst olsanız, çətinə düşəndə bəndədən yox, Allahdan imdad istəsəniz, köməyinizə mütləq çatdığının şahidi olacaqsınız. Bu, həqiqətən də, belədir. Mən həmişə Allahımdan razı olmuşam. Verdiyi hər şey üçün şükür edirəm.

*Müəllif: – Kainatı necə dərk etmək mümkündür?*

**Paşa Yaqub: –** Kainat kimyəvi elementlərin birləşməsindən yarandığına görə Mendeleyev tərəfindən kəşf olunan Elementlərin Dövri Cədvəlindəki sirləri bilmədən Kainatı dərk etmək mümkün deyil. Hətta, "Quran"ın düzülüşü ilə Mendeleyev cədvəlinin düzülüşü eyni prinsipə malikdir.

"Quran" bütün Kainatı özündə əks etdirən səmavi kitabdır. Maraqlıdır ki, müqəddəs kitabda surələrin düzülüşü ilə, kimyəvi elementlərin dövri sistemdəki düzülüşü arasında məntiqi bir uyğunluq vardır.

Araşdırmalarımız göstərir ki, həm "Quran"ın, həm də dövri cədvəlin düzülüşü böyük fəlsəfi əhəmiyyətə malikdir. Onların hər ikisi dialektik materializmin qanunlarını - sadədən mürəkkəbə, kəmiyyət dəyişikliyinin keyfiyyət dəyişikliyinə keçməsi, əksliklərin vəhdəti və mübarizəsi qanunlarını özündə əks etdirir.

Belə ki, "Quran"ın əvvəlki surələri nə qədər mülayimdirsə, sıra nömrələri artdıqca, surələr sərtləşməyə doğru gedir. Bu da sadədən mürəkkəbə və kəmiyyət dəyişikliyinin keyfiyyət dəyişikliyinə keçməsi qanunu ilə uyğunluq təşkil edir.

Dövri sistemdə bu hal dövrlərdə nömrələr artdıqca, metallıq xassəsinin azalıb, qeyri-metallıq xassəsinin artması ilə özünü göstərir.

Bundan başqa, surələr ikili xassə nümayiş etdirirlər. Yəni, onlar həm müsbət, həm də mənfi yüklə (vəhylə) yüklənmişlər ki, bu da dialektikanın əksliklərin vəhdəti və mübarizəsi qanunu ilə uzlaşır.

Mendeleyev cədvəlində bu hal eyni elementin ikili (həm mənfi, həm də müsbət) xassəyə malik olması ilə özünü göstərir.

Yeri gəlmişkən, qeyd edim ki, ikili xassəyə malik olma insanda da özünü biruzə verir. Belə ki, qarşılaşdığı fərddən (oxu: elementdən) asılı olaraq, insan (kimyəvi elementlər kimi) gah müsbət, gah da mənfi xassə nümayiş etdirir.

Bütün bu sadaladığım faktlar aydın göstərir ki, dialektikanın qanunları "Quran"ı və Allahı inkar etmək üçün ortaya atılsa da, əslində onları təsdiq edir. Bu da Yaradanın bir hikmətidir.

Elmi-lədun hesablamalarımız göstərir ki, "Quran"ın surələrinin düzülüşü ilə dövrü cədvəldə elementlərin düzülüşü mahiyyətcə bir-birini tamamladığı kimi, riyazi cəhətdən də bağlanırlar.

Məsələn, "Quran"ın **24**-cü surəsi olan **"Nur"** surəsinin mahiyyəti nurlanmadan (işıqlanmadan) bəhs edir. Mendeleyev cədvəlində isə, eyni xanada (24) yerləşən **Xrom** oksidləşərkən (Xrom 3 oksid) cilalayıcı qrupa aid edilir və yaşıl rəngə (nur rənginə) çalır.

Dövri cədvəldə **24** ədədinə bağlı olan elementlərdən biri də **Maqnezium**dur. Atom kütləsi **24** olan bu elementdən işıqlandırıcı (oxu: nurlandırıcı) və yandırıcı raketlərin hazırlanmasında, həmçinin fotoqrafiya işində işıq (oxu: nur) mənbəyi kimi istifadə olunur.

Göründüyü kimi, həm "Nur" surəsi, həm Xrom, həm də Maqnezium elementləri hər üçü mahiyyətcə işıqlanmaya (nurlanmaya) xidmət etdikləri kimi, hamısı **24** ədədinə bağlanır. Onlar arasında digər riyazi bağlılıq da vardır. Belə ki, "Nur" surəsinin ayələrinin cəmi olan 64 ədədindən Xromun atom kütləsini (52) çıxsaq, alınan 12 ədədi Maqneziumun sıra nömrəsini göstərir və onlar arasındakı əlaqəni bir daha təsdiq edir:

**64 – 52 = 12**

İndi isə, "Dəmir" surəsi ilə, dövri cədvəldəki Dəmir elementi arasında olan riyazi əlaqəyə nəzər salaq. Belə ki, Dəmirin atom kütləsi olan 55 ədədindən, onun sıra nömrəsini (26) çıxsaq, alınan 29 ədədi "Dəmir" surəsinin ayələrinin cəmini göstərir:

**55 – 26 = 29**

Yaxud, allah-taalanın Öz adına olan "Rəhmli Allah" (**55**) surəsi ilə, Mendeleyev cədvəlinin **55**-ci xanasında yerləşən *Sezium* elementi arasında olan riyazi əlaqəyə nəzər salaq:

Seziumun nisbi atom kütləsi olan 133 ədədindən, sıra nömrəsini (55) çıxsaq, alınan 78 ədədi "Rəhmli Allah" surə-

sinin ayələrinin cəmini göstərir və bütün bu elmlərin Allahın nəzarətində olduğunu sübut edir:

**133 – 55 = 78**

Mendeleyev cədvəlində diqqət çəkən digər məqam, **13**-cü xanada yerləşən elementlə, "Quran"ın **13**-cü surəsinin biri-birini tamamlamasıdır. Belə ki, 13-cü surə "Göy gurultusu" adlanır. Surədə deyilir: *"Göy gurultusu Onun şəninə tariflər deyir. O,* ***ildırımlar*** *göndərib (kafirlər) Allah barəsində mübahisə edərkən, onlara istədiyini vurar. Allahın cəzası şiddətlidir!"(*"Quran," 13:13)

Göy gurultusunun enerji prosesi olduğu və həyəcan yaratdığı hamıya məlumdur. "Quran"da **13** rəqəmi altında özünü büruzə verən enerji və həyəcan, kimya elmində də eynilə - **13** rəqəmi altında - büruzə verir. Belə ki, Mendeleyev cədvəlinin 13-cü (!) elementi *Alüminiumdur* ki, elektrik ötürmə qabiliyyəti yüksək olduğundan, bu element energetika (!) sənayesinin özəyini təşkil edir.

**13** rəqəmi "Quran" və kimyada olduğu kimi, fizika elmində də öz hikmətini göstərir. Yəni, bu ədəd fizikada da həyəcan rəmzi sayılır. Təsadüfi deyildir ki, hidrogen atomunun enerji qəbul etməmiş (həyəcanlanmamış) yükü **13** EV-dur. Hidrogen atomu enerji qəbul etdikdə həyəcanlanır (13-ü keçir) və yükünü digər atoma ötürməklə boşalır. Beləliklə, **13**-də enerjinin axımı başlayır.

13 ədədində olan həyəcan, kimya və fizikada olduğu kimi, biologiya elmində də özünü büruzə verir. Belə ki,

insanlar arasında bəd xəbərin tez yayılması həyəcanlanma ilə bağlıdır. Çünki, bəd xəbərin enerji yükü mənfi olduğundan, onu qəbul edən insan həyəcanlanır və yükünü (xəbəri) başqasına ötürməyə çalışır. Bu halı atomun və təbiətin həyəcanlanması (göy gurultusu) ilə müqayisə etdikdə, çox böyük oxşarlıq görünür...

Burada diqqət çəkən digər maraqlı məqam ondan ibarətdir ki, insanın qəbul etdiyi həyəcanlı informasiyaya ilk reaksiyanı bağırsaq verir (qorxulu xəbər alan insanın mədəsində spazma yaranır və bağırsağa sancı ötürür).

Diqqətinizə çatdırım ki, həyəcana ilk reaksiya verən orqanın (bağırsağın) uzunluğunun hər bir insanda **13** metr olduğunu artıq biologiya elmi təsdiq etmişdir.

Həmçinin, təbiət həyəcanlandıqda (ildırım vaxtı) öz yükünü yağışla boşaltdığı kimi, insan da öz həyəcanını bir çox hallarda göz yaşı ilə boşaldır.

Mendeleyev cədvəlinin "Quran"la uzlaşdığını görmək üçün, 16-cı elementlə, 16-cı surəni müqayisə edək.

"Quran"ın **16**-cı surəsi "Bal arısı" adlanır. Ana arı öz balasını 16 gün südlə bəslədiyindən, onun haqqında olan surə də 16 rəqəmi ilə nömrələnib.

Sözü gedən surədə arının misalında insanlara məhəbbət aşılanır: Bal-arının gülə olan məhəbbətinin nəticəsində yarandığı üçün, həm Qərbdə, həm də Şərqdə məhəbbət rəmzi sayılır. Məhəbbət yandırıcı hiss olduğundan, bu hiss "*yanmaq*""*alovlanmaq*" sözü ilə ifadə edilir. Maraqlıdır ki, bu hikmət kimya elmində də özünü eyni ədəd altında büruzə

verir. Belə ki, Mendeleyev cədvəlinin **16**-cı elementi olan *Kükürd,* məişətimizə *yandırıcı* bir vasitə kimi daxil olub.

Həmçinin, məhəbbət insana yaşamaq həvəsi, enerji (ruh) verdiyi kimi, kükürdün oksidləşməsindən yaranan sulfat turşusu da (H2SO4) akkumulyator istehsalında istifadə edilməklə, məişətimizə *enerji mənbəyi* kimi daxil olub.

Məhəbbətin yaranması və alovlanması üçün, mütləq iki tərəf iştirak edir. Maraqlıdır ki, kimya elmində də belədir: dövri cədvəldə **16**-cı element olan *Kükürd*, atom kütləsi **16** olan *Oksigensiz* yanmır.

Başqa sözlə desək, "16" tək yanmır; onun həm hərfi, həm də məcazi mənada yanması üçün ikinci "16" lazımdır. İnsan cəmiyyətində *"yanmanı"* əks-cinsdən olan tərəf müqabili təmin edir. Kimyəvi elementlərdə isə, yuxarıda qeyd etdiyimiz kimi, *Kükürdü* yandırmaq üçün mütləq *Oksigen* lazımdır ki, hər ikisi **16** ədədinə bağlıdır.

Ən maraqlısı da odur ki, Kükürdlə Oksigenin birləşməsində Kükürdün energetik səviyyələr üzrə elektronları 2-8-6 formasında yerləşir. Bunu bütöv oxuduqda görürük ki, "Quran"ın səhifələrinin sayına (**286**) işarədir.

Maraqlıdır ki, 286 ədədinin əbcəd hesabı ilə cəmi (2 + 8 + 6) **16**-ya bərabərdir ki, bu da Yaradanın insanlara məhəbbət aşıladığını bir daha sübut edir:

Diqqətinizi bal arısında olan digər xüsusiyyətin insanlarda özünü göstərməsinə cəlb etmək istəyirik. Yuxarıda qeyd etdik ki, bal arısı gözəllik rəmzi olan gülə məhəbbət bəsləyir və ancaq onlarla təmasda olur. Xatırladım ki, təbiətin

gözəlliyi gül-çiçək olduğu kimi, cəmiyyətin də gözəlliyi qadınlardır. Arının gülə olan məhəbbətinin nəticəsində *bal* yarandığı kimi, insanın da (kişinin) qadına olan məhəbbətinin nəticəsində *bal*(a) yaranır və hər ikisi şirindir. Çünki, ikisi də məhəbbətdən yaranr. "*Bala baldan şirindir"* məsəli də məhz bu hikmətdən doğur.

Yaradan bal arısını həm də ailə, dövlət və ordu qurmaq üçün insanlara nümunə yaratmışdır. Çünki, bal arısı ailəsi öz zəhmətkeşliyi, çalışqanlığı, ciddi nizam-intizamı, təmizkarlığı və faydalılığı ilə bütün canlılardan üstündür. Məhz buna görə də Allahın məhəbbətini qazanaraq, adına surə nazil olmuşdur. Buradan aydın olur ki, həmin keyfiyyətləri özündə cəmləşdirən istənilən insan həm cəmiyyətin, həm də Allahın məhəbbətini qazana bilər.

Yeri gəlmişkən qeyd edək ki, Allahın məhəbbətini qazanmağın yollarından biri də elmdir. Bu yolda çalışan insan (tələbə) hər kitabdan bir qədər elm (şirə) toplayır və nəticədə onun da əməyi *"bal"la* qiymətləndirilir.

Onu da nəzərinizə çatdıraq ki, Yaradan elmi çox olan bəndəsini digərlərindən daha çox sevir. Bunu Loğman Peyğəmbərin simasında aydın görmək olur. Belə ki, allah-taala kitab verdiyi bir çox peyğəmbərlərin adına "Quran"da surə göndərməsə də, ancaq təbabət elmi bəxş etdiyi bəndəsi Loğmanın adına 31-ci surəni göndərdi. Bu fakt, Yaradanın elm adamlarına olan məhəbbətinin təzahürüdür.

Bal arısı haqda əlavə olaraq, bir maraqlı məqamı da qeyd edim ki, erkək arı **16** tək xromosoma, dişi arı isə, **16** cüt xromosoma malikdirlər.

Düşünürəm ki, bu Allahın **“Siz biri-birinizi sevin ki, Mən də sizi sevim”** mesajıdır.

*Müəllif: – Kainatın idarə edilməsi ilə fizikanın qanunları arasında hər hansı bir əlaqə varmı və varsa bu barədə nə deyə bilərsiniz?*

**Paşa Yaqub: –** Kainatda hər şey yumaq kimi bir-birinin içindədir-Kainatın içində insan, insanın içində isə, Kainat var. Kainat insan bədəninə bənzəyir. Bütün orqanlar bir-birilə qanunauyğun şəkildə bağlı olduğu kimi, Kainatdakı hər şey də beləcə biri-birinə bağlıdır.

Allah-Taala Kainatı fizikanın qanunları ilə idarə edir.

Məsələn, Kəbə ətrafında dolanmaq (təvaf) müsəlmanların Həcc ziyarəti zamanı həyata keçirdiyi dini ayinlərdən biridir. Sözügedən ayin saat əqrəbinin əksi istiqamətində həyata keçirilir.

Bəs bunun səbəbi nədir?

1. İnsan bədənində qan saat əqrəbinin əksi istiqamətində dövr edir.

2. Atom elektronları nüvə ətrafında təvafda olduğu kimi fırlanır.

3. Ay öz oxu ətrafında saat əqrəbinin əksi istiqamətində dövr edir.

4. Yer kürəsi öz oxu ətrafında saat əqrəbinin əksi istiqamətində dövr edir.

5. Yer kürəsi Günəş ətrafında təvafda olduğu kimi fırlanır.

6. Günəş sisteminin planetləri Günəş ətrafında saat əqrəbinin əksi istiqamətində dövr edir.

7. Günəş və bütün günəş sistemi qalaktikadakı orbitdə saat əqrəbinin əksi istiqamətində hərəkət edir.

8. Bütün qalaktikalar kosmosda saat əqrəbinin əksi istiqamətində fırlanır.

Buradan belə məlum olur ki, insan Kəbə ətrafında dolananda, bütün kainatın dövr etdiyi istiqamətdə hərəkət edir və Allahın kiçik hissəciklərdən nəhəng Kainata qədər bütün yaratdıqları Uca Tanrının həmdində birləşirlər.

*Müəllif: – Yazırsınız ki, insanlarda paralel aləmə çıxış nöqtələri var bunu necə izah edə bilərsiniz?*

**Paşa Yaqub: –** Bəli, insanlarda paralel aləmə çıxış nöqtələri var.

Qeyd edək ki, elmi-lədunla bütün sirli hadisələrin və xəstəliklərin üzərindən sirr pərdəsini qaldırmaq, hadisənin mahiyyətini açıb, ondan xilas yollarını təyin etmək mümkündür. Bildiyimiz kimi, kompüter insanın alt kopyası olaraq yaradılıb. İnsanlar alt kopyanın bütün sirlərini öyrənsələr də, özlərindəki sirləri öyrənməkdə acizdirlər. İnsandakı elmə məlum olmayan sirləri elmi-lədunla üzə çıxarmaq mümkündür. Məsələn, elmi-lədun araşdırma nəticəsində sifətdə üç nöqtə üzə çıxardıq ki, onları hər əlin üç barmağı ilə birləşdirdikdə, barmaqların fəzada vəziyyəti "WWW" formasını alır və insanın bəsirət gözü açılaraq, paralel aləmdəki nuru və bu aləmin gözəlliyini, mələklərin nurunu ziyarət edə bilir. Necə ki, həmin nöqtələri ("WWW") sıxmaqla, kompüter informasiya məkanına çıxır və dünyanın istənilən nöqtəsi ilə bir anda əlaqə yaradır. Buradan aydın olur ki, insanda ("üst

kopya"da) olmayan bir şey, alt kopya sayılan kompüterə düşə bilməz.

Sübut üçün, sizə daha bir sirri açım: internetdə informasiya ötürmək üçün istifadə edilən "@" işarəsinin və insan mədəsinin şəkillərini götürüb, yanaşı qoyun. Görəcəksiniz ki, bunlar biri-birinin bənzəridir. Elmi-lədun araşdırmalarımız zamanı kəşf etdik ki, bunların funksiyaları da üst-üstə düşür. Belə ki, mədənin üzərində olan nöqtələri basmaqla, insan öz enerjisini kainatın istənilən nöqtəsinə çatdıra və orada olan əşyalara təsir edə bilir. Bu vaxt insandan ayrılan enerji öz gücünə görə Allahın enerjisinə yaxın, bəlkə də elə Ona bərabər olur. Çünki, həmin vaxt insan öz gücünü Allahın gücü, enerjisi ilə birləşdirir. Onu da qeyd edim ki, mədənin üzərindəki nöqtədən cəmi bir dəfə – 1999-cu ilin dekabrında istifadə edildi. Onda da enerjinin ünvanı Yerin cazibəsindən kənarda olan Sputnik ötürücü stansiyaları oldu. Həmin vaxt stansiyaların işi bir dəqiqəlik dayandığından, Yerdəki bütün transliyasiyalar, rabitə və internet də bir dəqiqəlik kəsildi. Həmin gün bu hadisə dünyanın bütün xəbər agentliklərində yayımlansa da, sirrini heç kəs aça bilmədi. Bir neçə cümlə ilə vurğulandı ki, ötürücü stansiyalar Yerdən edilən təsirlə dayandırıldı. Əslində isə onu Neftçala rayonunda yaşayan dostum Hacı Xalid etmişdi.

*Müəllif: – Bunu təkrar etmək mümkündürmü?*

**Paşa Yaqub: –** Bu, ancaq allah-taalanın icazəsi ilə edilə bilər. Bir dəfə etməyə icazə verdi ki, həqqi-yəqinlik hasil olsun-insan nəyə qadir olduğunu, Allahdan sonra ikinci qüdrətli varlıq olduğunu bilsin.

Enerjinin ünvanı ona görə Sputnik seçildi ki, bütün dünya bilsin: Azərbaycanda elmi-lədun sahibləri var və bu elm nəyə qadirdir. Həmin gün dünyanın bütün KİV-ləri tərəfindən xəbəri yayımlanan bu hadisə, Yer sakinlərinə Yaradan tərəfindən bir mesaj idi ki, silahlarının gücünə çox güvənməsinlər. Allahın elmi istənilən vaxt həmin silahları susdurmağa, enerjini kəsməyə qadirdir.

*Müəllif: – Kəramət nədir və kimlərə nəsib olur?*

**Paşa Yaqub: –** Allah-taala "Qurani-Kərim"də buyurur: "Allah istədiyi şəxsə hikmət (elm, mərifət, kəramət) bəxş edər. Kimə hikmət bəxş olunmuşsa, ona çoxlu xeyir (əbədi səadət) bəxş olunmuşdur".

İnsan həyatda gözəl işlər, gözəl əməllərlə məşğul olduqca və "Quran" ədəbi, "Quran" əxlaqı ilə yaşadıqca, onun nuru artır və Allaha başqalarından daha yaxın olur. Yaxın olduqca da duaları daha tez qəbul edilir. Belə şəxsləri Allah "Quran"-da *"vəliyullah", "həbibullah", "övliyaüllah"* adlandırır ki, dilimizə tərcüməsi "Allahın vəlisi, dostu, həbibi" mənasını verir. Belə şəxslər xalq arasında əsasən kəramət sahibləri kimi tanınırlar. Həm kişilər, həm də qadınlar arasında rast gəlinən bu cür şəxslər **mərifət elmi**nə sahib olurlar. Mərifət elminə (elmi-ləduna) sahib olan şəxs istər kişi olsun, istər qadın, ***kəramət sahibi*** sayılır.

*Müəllif: – Kəramətin formaları varmı?*

**Paşa Yaqub: –** Təbii ki, var. Allah dostları kəramətin özləri üçün böyük bir imtahan olduğunu bilərək, bu haldan həmişə ehtiyat etmişlər və şükürlə Rəbblərinə yönəlmişlər.

Onlar əsl kəramətin "istiqamət" olduğunu dərk etmiş və bu cür yaşayaraq, başqalarına nümunə olmuşlar.

Kəramət Allah dostu olan bir şəxsdə fövqəladə bir halın meydana gəlməsidir.

Peyğəmbərlərdə zühur edən qeyri-adi hallara isə, möcüzə deyilir.

Kəramət, Allahın öz quluna bir ikramıdır. O, iki cür olur:

Birinci: ***Hissi və maddi kəramət***.

Buna misal olaraq uzun məsafəni qısa zamanda qət etmə, az qidanı çoxaltma, su üzərində yerimə, odda yanmamaq kimi kəramətləri göstərmək olar. Allah dostları bu cür kəramətlərə çox da önəm verməz və onu daim cəmiyyətdən gizlətməyə çalışarlar. Bütün bunların Allahın imtahanı olmasından qorxarlar.

İkinci: ***Mənəvi və həqiqi kəramət.***

Bu kəramətlər elm, ürfan, səxavət, mərifət və əxlaqla əlaqəli kəramətlərdir. Bir insan pis, xoşagəlməz halından imtina edərək, gözəl və hamının bəyəndiyi bir hala gələrsə, deməli, ən böyük kəramət budur. Həqiqi kəramət elmdə, ürfanda, əxlaqda, ibadətdə, itaətdə, əməldə, ədəbdə və insanlıqda göstərilən üstün nümunələr, fəzilətlərdir. *"İstiqamət kəramətdən üstündür. Çünki kəramət nəfsin, istiqamət isə Rəbbin səndən istədiyi şeydir"* -deyilmişdir. Bu səbəbdən də biz hər namazda *"Fatihə"* surəsini oxuyarkən Rəbbimizə *"Bizi doğru yola hidayət et",* - deyə dua edirik.

Həqiqi Allah dostları elm, ürfan və əxlaq vasitəsilə baş verən dəyişiklikləri, irəliləmələri və yüksəlişləri gerçək kə-

ramətlər olaraq qəbul etmişlər. Hissi və maddi kəramətlərə isə, çox da önəm verməmişlər. Bir şeyxin və yaxud seyidin göstərdiyi ən böyük kəramət bir kafirin mömin olmasına, bir günahkarın pis əxlaqdan nəfsini tərbiyə etməsinə vəsilə və vasitə olmasıdır. Hissi və maddi kəramətə isə, bütün çarələr tükəndikdə, əlac kəsildikdə baş vurmuşlar.

Buradan belə qənaətə gəlmək olur ki, kəramət *"Allahım, yaradılışımı gözəlləşdirdiyin kimi, əxlaqımı da gözəlləşdir"* - duasıyla həyatı səadət və riza ilə yaşamaqdır.

*Müəllif: – Kəramət sahibləri nə ilə məşğul olur?*

**Paşa Yaqub: –** Kəramət sahibləri İlahidən qəbul etdikləri enerjini cəmiyyətə ötürməklə, sanki, cəmiyyətin transformatoru funksiyasını yerinə yetirirlər.

*Müəllif: – Qalileo Qaliley bildirir ki, "Allah Kainatı riyazi dillə yaratmışdır". Bunu necə başa düşmək olar?*

**Paşa Yaqub:** – Doğrudur. Bildiyimiz kimi, Kainat fizikanın qanunları ilə idarə olunur. Yəni, İlahi sistemdə enerjinin paylanması ilə, fizikada enerjinin paylanması qanunları üst-üstə düşür. Məsələn, "Quran"da 36-cı surə YASİN adlanır.

İlyas Peyğəmbərə müraciətlə müqəddəs kitabda «İlyasin» deyilməsi, bu sözün kamil insan, Peyğəmbər sözünün sinonimi olduğunu deməyə əsas verir. Bildiyimiz kimi, Peyğəmbərlər və Kəramət sahibləri allah-taala ilə bəndələri arasında enerji ötürücüsü funksiyasını yerinə yetirirlər. Fizikada isə bu funksiyanı transformatorlar yerinə yetirir. İndi onlar arasında olan riyazi oxşarlıqlara nəzər salaq.

Kamil insanın anatomik quruluşunda 5 duyğu üzvü, 5 oma, 5 bel fəqərəsi; həmçinin baş-beyində 5 şöbə vardır və gündə 5 dəfə ibadət edir. Sadaladığım 5 amili özündə cəmləşdirən kamil insanın-Kəramət sahbinin "Quran"dakı rəmzi 36-dır (YASİN).

Maraqlıdır ki, transformatorda da 5 vəziyyət olmaqla, hər vəziyyətdə 36 sarğı olur.

Bildiyimiz kimi, Peyğəmbərin qəbul etdiyi enerji (vəhy) gizli səs, siqnal formasında olur. O, bu siqnalı sözə çevirməklə insanlara çatdırır. Həm də, hamısını deyil, onların şüuru səviyyəsində (dərk edə biləcəyi qədər) ötürür.

Maraqlıdır ki, transformatorun da iş prinsipi eynilə bu cürdür. Transformasiya-"çevirmə" deməkdir və onun funksiyası mənbədən qəbul etdiyi yüksək gərginlikli enerjini alçaqgərginlikli enerjiyə (220) çevirib, mənsəbə (cihazlara) ötürməkdən ibarətdir.

Bildiyimiz kimi, transformatorlar - yüksəldici və alçaldıcı olmaqla - iki qrupa bölünür.

Yüksəldici transformatorların vəzifəsi qəbul etdikləri enerjini artıraraq ötürməkdən ibarətdir. Onlara nəinki cihaz birləşdirmək, heç yaxınlaşmaq da mümkün deyildir. İnsanı məsafədən vurur. Onun üçün də belə transformatorlar məhəllələrdən kənarda qoyulur və onlarla əlaqə alçaldıcı transformatorun vasitəsi ilə qurulur.

İlahiyyat sistemində bunun misalı vəhy gətirən mələklərdir ki, adi insanların onlarla əlaqəsi nəinki mümkün deyildir, hətta uzaqdan belə onu görməsi ilə mələyin enerji və infor-

masiya yükünə tab gətirə bilməzlər (xatırladım ki, Həzrət Cəbrayıl tərəfindən vəhy Peyğəmbərimizə çox vaxt məhəllədən kənarda- Hira dağında nazil olardı).

Alçaldıcı transformatorlar isə, məhəllə (oxu: cəmiyyət) daxilində yerləşdirilməklə, yuxarıda qeyd etdiyim kimi, qəbul etdiyi yüksəkgərginlikli enerjini (vəhyi) azaldaraq, cihazların (oxu: insanların) tutumuna uyğun-220-yə çevirərək, ötürürlər.

İlahi sistemdə bunun misalı peyğəmbər və kəramət sahibləridir ki, qəbul etdikləri vəhyin bir hissəsini özlərində saxlamaqla (informasiya yükünü azaltmaqla) insanların beyin tutumuna (şüur səviyyəsinə) uyğun olaraq cəmiyyətə ötürürlər.

İlahi sistemdə və fizikada enerjinin saxlanması və paylanmasındakı bənzərlik bununla bitmir. Belə ki, məişətimizdə istifadə etdiyimiz bütün cihazların üzərində bir qayda olaraq 220 ədədi həkk olunmuşdur.

Maraqlıdır ki, həmin 220 ədədi enerji (ruh) daşıyıcısı olan insanın da üzərinə həkk olunmuşdur. Belə ki, hər bir insanın anatomik quruluşu 220 sümüyün birləşməsindən yaranıb.

Başqa bir maraqlı məqamı da izah etmək istəyirəm. Fiziklərdə belə bir haqlı sual yaranacaq ki, Peyğəmbərlər və Kəramət sahibləri də bioloji cəhətdən bizim kimi insanlar olduğu halda, niyə onlar mələyin informasiya və enerji yükünə tab gətirə bilir, başqa insanlar tab gətirə bilmir?

Bu maraqlı sualın da cavabını yenə fizikanın qanunları ilə vermək mümkündür.

Belə ki, adətən transformatorların tutumunu artırmaq üçün onu açıb, içindəki sarğıları artırmaqla (genişləndirməklə) buna nail olurlar. Kamil insanlarda da eynilə bu cürdür-vəhy qəbul etməzdən öncə onların qəlbində genişlənmə prosesi gedir. Yəni, onların enerji və informasiya götürmə qabiliyyəti artırılır. Bu barədə "Quran"ın 94-cü Surəsinin 1-ci Ayəsində - "ƏL-İNŞİRAH" ("Açma və ya genişlətmə") belə deyilir:

***"Məgər biz sənin köksünü açıb genişlətmədikmi?"***

*Müəllif: – Bu Surədən belə başa düşmək olar ki, qəlbində açılıb genişlənmə getməyən bir şəxsin bu mövzunu şərh etməsi də mümkünsüz olardı. Deməli, Siz də qəlbi genişləndirilənlərdənsiniz? Belə insanlarda tükənməyən bir sevgi olduğu deyilir. Sizdə belə bir sevgi olubmu?*

**Paşa Yaqub: –** Yaxşısını Allah bilir. Bəli, mən ailəli idim, üç övladım var idi. Gənc idim. Birdən daxilimdə elə bir istək, məhəbbət yarandı ki, özüm də bilmədim ki, nə baş verir, nə istəyirəm, kimi istəyirəm. Sanki köksümdən qan axırdı, qanın kəsilməsi üçün pambığa yod vurub köksümə içəridən basırdılar. Həmin hissləri dillə demək mümkünsüzdür. Qeyri-adi hiss idi. Əgər bir neçə gün davam etsəydi, mən Məcnun kimi çöllərə düşə bilərdim. Bir necə gündən sonra həmin hisslər keçdi. Bundan sonra köksümün genişləndiyini hiss etdim və rahatlandım. Zaman keçdikcə özümdə qeyri-adiliyin olmasını hiss etdim.

*Müəllif: – Yazırsınız ki, tester cihazındakı funksiyalar Kəramət sahiblərində də var. Bunu necə izah edə bilərsiniz?*

**Paşa Yaqub: –** Yuxarıda qeyd etdik ki, Yaradan Kainatı fizikanın qanunları ilə idarə edir. Peyğəmbərlərin (o cümlədən Kəramət sahiblərinin) cəmiyyətin transformatoru funksiyasını yerinə yetirdiyi barədə izah verdik. Tester aparatını fiziklər yaxşı tanıyırlar. Fizik olmayanlar isə, bu aparatın adını bilməsələr də, özünü çox görüblər. Belə ki, televizor, kompüter və s. cihazları təmir edən ustaların demək olar ki, hamısının stolunun üstündə tester aparatı olur.

Aparatın çoxsaylı funksiyaları vardır. Belə ki, o, həm cihazın daxilindəki problemi (qırılmış detalı) müəyyən edir, həm də dəyişən (ürəyin kardioqramında olduğu kimi-qalxıb-enən) cərəyanı sabit (düzxətli) cərəyana çevirir. Qeyd edim ki, cihazda olan bu problem enerji (ruh) daşıyıcısı olan insanda da bir çox hallarda özünü biruzə verir. Yəni, insanın halı və yaxud bir məsələyə, bir şəxsə münasibəti gah yaxşı, gah da pis (dəyişkən) olur. Hələ ta qədimdən- son 50-60 ilə qədər (tibb elmi inkişaf edənədək) bu cür problemlərlə qarşılaşan insanlar yaşadıqları ərazidə olan Kəramət sahiblərinə (ilkin dövrlərdə peyğəmbərlərə, sonralar Allah dostlarına) üz tutar, dərdlərini onlara danışar və onların xeyir-duası, nəfəsi vasitəsi ilə ötürdükləri enerjinin təsirindən özlərində sağlam, xoş əhval (oxu: sabit cərəyan) hiss edərdilər və xəstəlikdən sağalardılar. Araşdırmalarımız göstərir ki, Peyğəmbərlərin və digər Kəramət sahiblərinin bu funksiyası fizikada tester cihazının funksiyası ilə üst-üstə düşür.

Qeyd edim ki, insan ruhunda baş verən qeyri-sabit hallar və xəstəliklər neqativ enerjinin təsirindən yaranır və qorxu,

həyəcan, qarabasma, baş, çiyin, oynaq, sinir ağrıları, depressiya və s. xəstəliklərlə özünü biruzə verir. Bu kimi əlamətləri olan adamların adətən həyatda işləri düz getmir, sağlamlıqlarında, məişətlərində və xoşbəxtliklərində onları daim izləyən problemləri həll etməkdə aciz (çarəsiz) qalırlar (xalq arasında buna qara zolağa  düşmə də deyirlər).

Belə adamların səhhətində yaranan problemləri maddi həkimlər (tibb işçiləri) dərmanlarla aradan qaldırmaqda çətinlik çəkirlər. Dərmanlarla müalicələr nəticə vermir. Çünki, birinci səbəb (neqativ enerji), sonra nəticə (xəstəlik) aradan qaldırılmalıdır.

Təəssüf ki, müasir tibb elmi (bütün digər elmlər kimi) yarımçıq olduğundan və insanda olan ruhu nəzərə almadıqlarından (ruhun sirlərini bilmədiklərindən), səbəbə qarşı deyil, nəticəyə qarşı mübarizə aparırlar. Ona görə də insanlarımızın çoxu ömrü boyu xəstəxana yollarında qalırlar. Bunun səbəbi enerjiyə dayanır. Yəni, insandakı sabit enerji *"dəyişən cərəyan"* formasına keçdiyindən, onu heç bir dərman pereparatı sağaltmır. Bu cür xəstələrin  övliyaların ziyarətində sağalmaları fizikanın qanunlarına söykənir. Yuxarıda qeyd etdiyim kimi, Kəramət sahibləri insanın ruhuna təsir edərək, onun enerjisini *"sabit cərəyan"* formasına salırlar. Eynən tester cihazında olduğu kimi.

Məhz bu qabiliyyətlərinə görə Peyğəmbərlərin və övliyaların həyatlarına nəzər saldıqda görürük ki, onlar həm də öz dövrlərinin həkimi olmuşlar.

*Müəllif: – Bir çox insanlar ziyarətgahlara inanırlar, bəziləri isə, inanmırlar. Ziyarətgahlar insanlara necə kömək edə bilirlər?*

**Paşa Yaqub:-** Ziyarətgahlar cəmiyyətin "ildırımötürücü"ləridir.

Fiziki qanunlardan daha bir misal çəkim. Yaşayış məntəqələrində binalar tikilərkən, ona ildırımötürücülər quraşdırılır. İnsan cəmiyyətində isə, bu funksiyanı kəramət sahibləri və yaxud onların müqəddəs ziyarətgahları yerinə yetirirlər. Belə ki, insanlar övliyalara, və yaxud onların ziyarətgahlarına üz tutmaqla, xəstəliklərdən, həmçinin, müəyyən bəlalardan qurtula bilirlər.

*Müəllif: – Peyğəmbərlər və övliyalar kəramətlərini necə göstərə biliblər? Kəramət sahiblərinin xəstələri müalicə etməsinin elmi əsası varmı? Varsa, bunu necə izah etmək olar?*

**Paşa Yaqub: –** Tarixə nəzər saldıqda görürük ki, peyğəmbərlər və övliyalar insanları inandırmaq üçün hərəsinin öz möcüzələri olmuşdur. Məsələn, Musa Peyğəmbər Qırmızı dənizdən yol açaraq, qövmünü oradan salamat keçirdi, əlindəki əsa ilə cadugərlərin etdikləri sehrləri qırdı. İsa Peyğəmbərin korların gözünü açması, ölünü diriltməsi və s. göstərdiyi böyük möcüzələr idi.

Bugünlərdə mətbuatda dərc olunan "ABŞ-ın Aya sahiblənmək istəyinin sirri "Quran"da imiş..." araşdırma məqaləsindən göründüyü kimi, Məhəmməd əleyhissalamın möcüzəsi ilə Ayın parçalanması faktı artıq Amerika Milli Kosmik Agentliyinin (NASA) Ayda tədqiqat aparan alimləri tərəfindən təsdiq olundu. Peyğəmbərlərdən sonra yaşamış

bir çox imamların və övliyaların da kəramət göstərərək xəstələrə şəfa verməsi barədə yaxın keçmişimizdə çoxsaylı faktlar mövcuddur.

*Müəllif: – Bütün bunları xatırladıqca insan beynində bir sual yaranır ki, Peyəmbərlərin və Allah dostlarının göstərdikləri bu möcüzələrin, kəramətlərin baş verməsi üçün böyük bir enerji tələb olunur. Bu enerji onlarda necə yaranır? Bunun bir elmi izahı varmı?*

**Paşa Yaqub:** – Yuxarıda qeyd etdiyimiz kimi, Kainat fizikanın qanunları ilə (fiziki qanunlarla) idarə olunur. Burada baş verən bütün enerji proseslərində bir qanunauyğunluq vardır. Ancaq, müasir elm Kainatda baş verən bir çox qanunauyğunluqları izah etməkdə acizdir. Ona görə ki, hal-hazırda istifadə edilən Elementlərin Dövri Sistemi saxtalaşdırılıb. Mendeleyevin ölümündən (1907-ci il) sonra cədvəldən "Efir" adlanan elementi çıxarıblar. Bu saxtalaşdırma kimya, fizika və tibb elmlərinin inkişafına zərbə vurdu. Bu elmlərdə bir yarımçıqlıq, natamamlıq yarandı. Bu səbəbdən də müasir elm Kainatda baş verən bir çox hadisələri, o cümlədən, möcüzə və kəramətləri izah edə bilmir. Çünki, "Efir" elementinin sirlərini bilmədən bunları izah etmək mümkün deyil.

*Müəllif: – "Efir" elementi nədir və niyə indi Elementlərin Dövri Sistemi Cədvəlində yoxdur?*

**Paşa Yaqub:-** Mendeleyev sağ olarkən, onun tərtib etdiyi Elementlərin Dövri Sistemi Cədvəlinin orijinalında "Efir" adlı element mövcud idi. 1906-ci ildə nəşr olunan "Kimyanın əsasları" kitabında (8-ci nəşr) Mendeleyevin əsl cədvəli salınmışdır.

**Подлинная, нефальсифицированная Таблица Д. И. Менделеева**
**«Периодическая система элементов по группам и рядам»**
**(Д. И. Менделеев. Основы химии. VIII издание, СПб., 1906 г.)**

| | группы элементов | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Ряды** | 0 | I | II | III | IV | V | VI | VII | VIII |
| 0 | Ньютоний | | | | | | | | |
| 1 | Короний | Водород **H** 1,008 | — | — | — | — | — | — | |
| 2 | Гелий **He** 4,0 | Литий **Li** 7,03 | Бериллий **Be** 9,1 | Бор **B** 11,0 | Углерод **C** 12,0 | Азот **N** 14,01 | Кислород **O** 16,00 | Фтор **F** 19,0 | |
| 3 | Неон **Ne** 19,9 | Натрий **Na** 23,05 | Магний **Mg** 24,36 | Алюминий **Al** 27,1 | Кремний **Si** 28,2 | Фосфор **P** 31,0 | Сера **S** 32,06 | Хлор **Cl** 35,45 | |
| 4 | Аргон **Ar** 38 | Калий **K** 39,15 | Кальций **Ca** 40,1 | Скандий **Sc** 44,1 | Титан **Ti** 48,1 | Ванадий **V** 51,2 | Хром **Cr** 52,1 | Марганец **Mn** 55,1 | Железо **Fe** 55,9 Кобальт **Co** 59 Никель **Ni** 59 |
| 5 | | Медь **Cu** 63,6 | Цинк **Zn** 65,4 | Галлий **Ga** 70,0 | Германий **Ge** 72,5 | Мышьяк **As** 75 | Селен **Se** 79,2 | Бром **Br** 79,95 | |
| 6 | Криптон **Kr** 81,8 | Рубидий **Rb** 85,5 | Стронций **Sr** 87,6 | Иттрий **Y** 89,0 | Цирконий **Zr** 90,6 | Ниобий **Nb** 94,0 | Молибден **Mo** 96,0 | — | Рутений **Ru** 101,7 Родий **Rh** 103,0 Палладий **Pd** 106,5 |
| 7 | | Серебро **Ag** 107,93 | Кадмий **Cd** 112,4 | Индий **In** 115,0 | Олово **Sn** 119,0 | Сурьма **Sb** 120,2 | Теллур **Te** 127 | Иод **I** 127 | |
| 8 | Ксенон **Xe** 128 | Цезий **Cs** 132,9 | Барий **Ba** 137,4 | Лантан **La** 138,9 | Церий **Ce** 140,2 | — | — | — | — — — |
| 9 | | — | — | — | — | — | — | — | |
| 10 | — | — | — | Иттербий **Yb** 173 | — | Тантал **Ta** 183 | Вольфрам **W** 184 | — | Осмий **Os** 191 Иридий **Ir** 193 Платина **Pt** 194,8 |
| 11 | | | | | | | | | |
| 12 | — | — | Радий **Ra** 225 | — | Торий **Th** 232,5 | — | Уран **U** 238,5 | | |

**1906-cı ildə çap olunmuş “Kimyanın əsasları” kitabında Mendeleyev cədvəli**

Kimyəvi işarəsi “X” olan bu elementi Mendeleyev öz cəvəlində “Nyutoniy” adlandırmışdı. Cədvəlin yuxarı sol küncündə yerləşən bu maddəni alimlər “Dünya efiri” adlandırdılar.

Cəvəldə "Efir" "Hidrogen"dən əvvəl yazılmışdı, sıfır qrupuna, sıfır sırasına daxil edilmiş yeganə element idi. Atom çəkisi 0,4 olan bu element əsl enerji daşıyıcısıdır. "Efir"in hissələri atomları, molekulları formalaşdırır, amma, kimyəvi reaksiyalarda iştirak etmir. Efir - maddənin bir hissəsidir. Belə deyək ki, ruhudur, enerjisidir.

*Müəllif: – Elif"elementini cədvəldən çıxarılması Sizə necə məlum oldu?*

**Paşa Yaqub: –** Bu barədə araşdırma apardım və internetdə çoxlu məlumatlara rast gəldim.

*Müəllif: – "Efir" elementi cədvəldə bərpa olsa tibb elmi bundan bəhrələnə bilərmi?*

**Paşa Yaqub: –** Mendeleyevin vəfatindan (1907) sonra, bəşəriyyətin tərəqqisini istəməyən qüvvələr cədvəl üzərində dəyişiklik edib, "Efir" elementini oradan xaric etdilər və 0 qrupunu ləgv etdilər. Beləliklə də, bir çox sirləri gizlətmiş oldular. Ona görə də müasir cədvəldə "Efir" görsənmir. Çünkü 0 qrupu mövcud deyil. Bu cür saxtalaşdırma kimya, fizika, biologiya elmlərinin gələcək inkişafına zərbə vurmaqla, sivilizasiyanın tərəqqisini dayandırdı. Hazırda məktəblərdə və ali təhsil müəssisələrində Mendeleyev cədvəli tamamlanmamış, yarımçıq tədris olunur ki, bu da açıq saxtakarlıqdan başqa bir şey deyildir.

*Müəllif: – Bu elementin sirrlərini bilən həmin illərdə alimlər yox idi ki, etiraz etsinlər?*

**Paşa Yaqub: –** Tarixə nəzər yetirsək görərik ki, "Efir" elementinin sirlərindən bəşəriyyətin xeyrinə istifadə edən

alimlər müəmmalı şəkildə öldürülüblər. Belə ki, bir çox alimlər bu sonsuz enerji maddəsinin cəmiyyətin xeyrinə tətbiq olunma variantlarını işləyiblər. Amma, hamısının sonu faciə ilə bitib. Bəşəriyyətin tərəqqisini istəməyən qüvvələr buna imkan verməyiblər.

Məsələn, böyük alim **Nikola Tesla** (1856-1943) "Efir"-dən energi alınmasının mümkünlüyünü sübut etdi. Alim bu elementin sirrini bilməklə, daimi işləyən mühərrik yaratdı. Daha sonra, enerjinin naqilsiz paylanmasını kəşf etdi. Bu da onun karyerasının sonunu gətirdi. Qoca vaxtı hoteldə qaldığı otaqda müəmmalı şəraitdə ölü tapıldı. Dərhal onun otağından bütün əlyazmalarını, elmi işlərini kəşfiyyat xidməti (FBR) yoxa çıxardı.

Eynşteyn "Ümumi nisbilik nəzəriyyəsi"ni açıqlamaq üçün fiziki məkanı "Efir" adlandırmağı təklif etsə də, böyük güclərin (mafiyaların) nəzarətində olan və "Elmlər Akademiyası" adlanan qurum buna imkan vermədi. Ümumi nisbilik nəzəriyyəsinə əsasən, deyə bilərik ki, məkan - "Efir" olmadan ağlasığmazdır.

Elmlər Akademiyası hələ də öz mövqeyində möhkəm dayanmaqa davam edir. "Efir" elementi ilə bağlı heç bir tədqiqat işi, Elmlər Akademiyaları tərəfindən qəbul edilmir. Çünki, bu mövzuya hansısa qüvvələr tərəfindən qadağa qoyulub. Misal üçün daimi mühərriklərin ixtirası baxılmır. Amma, hal-hazırda bu istiqamətdə aktiv müzakirələr gedir. Bu mühərrik alimlər tərəfindən bir cox ölkələrdə yenidən işlənib.

Yaponiyada yanacaqsız işləyən avtomobillərin istehsalına başlanacağı haqda məlumat verilib. 2008-ci ildə yanacaqsız çalışan və enerjisini "Efir"dən alan motosikl nümayiş etdirilib. Maraqlıdır ki, yenə də hansısa qüvvələr bu texnologiyaların həyata keçməsinə imkan vermədilər.

Müasir təsəvvürdə "Efir" yuksək sıxlığa malik olan qaza bənzəyir. Elementin araşdırmasına Rusiya alimi Vladimir Ocukovskiy də xeyli əmək sərf edib. O, texnika elmləri doktoru, Sialkovski adana Kosmik Akademiyasının üzvü, Rusiya Akademiyasının fəxri üzvüdir.

Efir küləyi Qütb ulduzunun, Əjdaha bürcünün yaxınlığında yerləşir. Onun sürəti 400 km/saniyədə yer kürəsinə yaxınlaşdqca küləyin sürəti 30 km/saniyəyə enir və daha az ola bilər; bu dəniz səviyyəsindən asılıdır. Şimalda "Efir" boyuk sıxlığa malik olur. Cənubda isə, sıxlıq azalır.

"Efir" qaza bənzədiyinə görə üç cür hərəkətə malikdir: xaotik, qəbul edilən (külək və səs), fırlanan (qasırğa, külək, burulğan).

Başlayaq küləkdən. Külək burulğanı "Efir"in yeganə yaranmasıdır. Çox uzunömürlü olur. Bu sahəni araşdıran alimlər belə qənaətə gəlirlər ki, Kainatın bütün obyektlərinin (qallaktikaların, ulduzların, Günəş və planetlərin, atomlar və elementar hissəciklərin) enerqetik əsasını burulğan "Efir" təşkil edir. Bu element maddəyə və enerjiyə çevrilir. Ehtimal olunur ki, Yer kürəsinin mərkəzində burulğan külək yerləşir. O, enerji yaradır və Yerin daimi fırlanmasını təmin edir.

Əgər küləyin növünə nəzərən "Efir"in yerdəyişməsini götürsək, bu, Fen Şuy təliminə görə *"Si"* deməkdir ki, bu da külək və su ilə yerini dəyişir. Çin heroqlifi *"Si"* - buxar, hava və ya nəfəs mənasını verir. *"Si"* ağac, kərpic və ya beton kimi müxtəlif keçiricilik qabiliyyətinə malik olan mühitlərdən maneəsiz keçə bilir.

*"Si"* insan bədənində meridianlar üzrə axır. "Efir"in bu xassəsindən istifadə edərək, ondan insan orqanizmində olan bütün xəstəliklərin müalicəsində istifadə etmək mümkündür.

Bizim üçün ən vacib olan "Efir"in yerdəyişməsinə səsin növünə nəzərən baxaq. Çox qədimdən məlum idi ki, dünya rəqəmlər və səslər vasitəsilə yaradılıb. Burada Q. Qalileyin *"Allah Kainatı riyazi dillə yaratmışdır"* fikri yerinə düşür.

Platon müəyyən etmişdir ki, ən mükəmməl həndəsi fiqurlarda musiqi kürəsi var. Bu kəşf eləcə Platon hissəcikləri adlandırıldı.

Müxtəlif diatonik musiqi tezliklərində su damlası daxilində hissələri birləşdirən ellipistik əyri xəttlərlə əhatə olunan Platon hissəcikləri yaranır.

Beləliklə, Kainatın kristallik strukturunun yaranmasına səbəb səsdir. Daha doğrusu, naqillərdə yayılan bütün növ dalğavari hərəkət kimi, efirdəki dalğaların interferensiyasıdır. Təsadüfi deyildir ki, qədim dövrdə hesab edirdilər ki, dünya səslər və rəqəmlərin köməyi ilə yaradılmışdır. Yəqin elə buna görədir ki, İlahi kəlamlar ("Quran", Azan və s.) avazla oxunduqda daha çox təsir gücünə malik olur. Səmavi kitablarda xəbər verildiyi kimi, Kainat Yaradanın "Ol!" kəlməsi ilə yaranmışdır.

İndi isə, rəqəmlər haqqında. Bildiyimiz kimi, harmoniyanın əsası fibonaççi ədədlər nisbəti adlanan rəqəmlərdən yaranır. Belə ki, hər yeni say əvvəlki iki məbləği özündə cəm edir: 1, 1, 2, 3, 5, 8, 13, 21, 34, 55, 89...

Əgər biz hər qonşu cüt rəqəmləri analiz etsək görərik ki, bu Pifaqor tərəfindən kəşf edilmiş diatonik musiqi nisbətidir: 1/1, 1/2, 3/2, 5/3, 8/5, 13/8, 21... Bu isə, öz növbəsində musiqi intervalları olub, oktava, kvinte, kvarte, kiçik və böyük sekste, kiçik və böyük terçiyə və s. uyğundur.

Bütün bunlar onu göstərir ki, Mendeleyevin ölümündən sonra Dövri Sistemdən çıxarılan (gizlədilən) “Efir” elementi rəqəmlərdə və musiqinin tərkibində də vardır. Buna görə də qəlbə yatan musiqi insana enerji (ruh) verir, yorğunluğu aradan qaldırır.

*Müəllif: – Bəs “Efir” elementi və onun faydaları niyə belə ciddi-cəhdlə bəşəriyyətdən gizlədilir?*

**Paşa Yaqub:** – Məncə səbəb odur ki, bu element Kainatın enerjisini, ruhunu təşkil edir. “Efir”in varlığını, onun sirrini bilmədən, Kaninatın, yaradılışın dərki mümkünsüzdür. Bu gün bəşəriyyəti istismar edən böyük güclərə insanların dərrakəli olması maraqlı deyil (ağıllı, dərrakəli insanı istismar etmək çətindir). Həmçinin, daimi işləyən mühərriklərin həyata tətbiq edilməsi enerji resurlarına nəzarət edən mafiyaların marağına uyğun deyildir. Bu səbəbdən də elmin inkişafına mane olmaqla, bu gün dünyada yarımçıq -inamsız, imansız, dərrakəsiz bir kütlə formalaşdırıblar ki, bu səbəbdən hələ də meymundan yarandığına inananlar var.

*Müəllif: – Bildirirsiniz ki, "Efir" enerjisi bütün xəstəliklərin dərmanıdır. Bunu necə sübut edə bilərsiniz?*

**Paşa Yaqub: –** Vacib bir məqamı qeyd edək ki, Elementlərin Dövri Sistemindən "Efir"in çıxarılması kimya, fizika və biologiya elmlərinin inkişafının qarşısını aldığı kimi, eləcə də tibb elminə zərbə vurdu. Tibb elmi adını çəkdiyim elmlərə bağlı olduğundan, onlar kimi, yarımçıq qaldı.

Təcrübəmiz göstərir ki, "Efir" elementinin sirlərini dərindən bilməklə, bundan bir çox sağalmaz xəstəliklərin müalicəsində istifadə etmək mümkündür. Necə ki, Nikola Tesla bu sirləri kəşf etməklə, daimi işləyən mühərriki, enerjinin naqilsiz ötürülməsini ixtira etmişdi. Təəssüf ki, bütün bunlar bəşəriyyətdən gizlədildi. Qeyd edək ki, bizim tətbiq etdiyimiz müalicə üsulu da məhz bu sirlərə əsaslanır. İnsan bədənində toplanan və orqanların funksiyasını pozan, ağrılara, xəstəliklərə səbəb olan neqativ enerjini bədəndən məhz "Efir"in enerjisi ilə xaric etmək mümkündür. Bu sirlər tibb elminə məlum olmadığından, bir çox xəstəliklər müalicəsiz hesab edilir. Hansı ki, belə "müalicəsiz" xəstəliklərin çoxunu "Efir"lə müalicə edib, sağaltmaq mümkündür. Zaman keçdikcə insan oğlu dərk edəcək ki, "Efir"dən alınan enerji bütün xəstəliklərin dərmanıdır.

Bu element istənilən adamda vardır. Sadəcə, bunu müalicəyə tətbiq etmək üçün sirləri bilmək lazımdır. Biz bu sirlərə uzun araşdırmalardan, tədqiqatlardan sonra vaqif olduq. Elə bu səbəbdəndir ki, tibb elminin müalicəsiz hesab etdiyi bir çox xəstəlikləri heç bir dərman tətbiq etmədən, "Efir" enerjisi ilə müalicə edirik.

*Müəllif: – "Efir" enerjisilə hansı xəstəlikləri müalicə edə bilirsiniz?*

**Paşa Yaqub: –** Bütün növ qorxular, fobyalar, depressiyalar, həzm sistemi xəstəlikləri, zərərli vərdişlərdən (narkomaniya, alkoqolizm və s.) xilas olmaq, uroloji xəstəliklər, autizm, onurğa xəstəlikləri, bütün növ depressiyalar, cinsi disfunksiyalar, hormon pozğunluqları, nevrozlar, sinir sistemi xəstəlikləri, yuxusuzluq, parkinson, şizofreniya, miqren, zob, mielit, masteniya, dağınıq skleroz, dəmirov, dəri zöhrəvi xəstəlikləri, sonsuzluq, kista, mioma, fibroma, xərçəng və s. şişləri bu enerjinin vasitəsi ilə tam sağaltmaq mümkündür.

Onu da qeyd etmək yerinə düşər ki, "Efir"in sirlərini bilməklə, nəinki yanındakı xəstəni, hətta, səndən min kilometrlərlə uzaqda olan xəstəni də sağaltmaq olur. Necə ki, N. Tesla enerjini naqilsiz ötürürdü.

*Müəllif: – Siz kəramətin mənbəyinin Efir enerjisi olduğunu deyirsiniz. Belə çıxır ki, Siz xəstələrinizi Efir enerjisi ilə müalicə edirsiniz. Siz Efir enerjisini haradan alırsınız?*

**Paşa Yaqub: –** Bəli, mən bunu demişəm və deyirəm. Amma Siz onu görə bilməzsiniz. O element mənim səsimdə, nəfəsimdə, ruhumda və səs dalğalarımdadır.

*Müəllif: – Sizin səsli duanız adi zikrdir ki, bunu çoxları edir. Amma, belə çıxmırmı ki, onlar da bu zikrləri etməklə həmin enerji ilə özlərini neqativ enerjidən təmizləyə bilərlər?*

**Paşa Yaqub:** – Xeyr, bu duaları çoxları edə bilərlər, amma, effekt almaq başqa şeydir. Çünki, onlarda məndə olan enerji yoxdur. Seans zamanı dediyim ayə əslində mə-

nim parolumdur. Onu deyəndə məndən Efir enerjisi ayrılır və pasiyentin xəstə orqanına daxil olur. Bu vaxt xəstədə ağrı varsa həmən yox olur, özünü yüngül hiss etməyə başlayır. Seans vaxtı pasiyentdən soruşanda ki, nə hiss edirsən? Deyir elə bilirəm üstümdən bir dağ götürülür, çox yüngülləşirəm...

*Müəllif: – Belə çıxır ki, möcüzələr göstərən kəramət sahiblərinin - imamların, sufilərin, seyidlərin, övliyaların - hamısında Efir enerjisi var və onlar da məhz, həmin elementin sayəsində insanlara şəfa verə bilirlər?*

**Paşa Yaqub:** – Bəli, bu, həqiqətən də belədir. Onlara da bu enerjini Allah vermişdir və bu fiziki qanunlara tabedir.

*Müəllif: – Siz suyun ruhani terapiyası olmasını da bildirirsiniz. Bu barədə nə deyə bilərsiniz?*

**Paşa Yaqub:** – Siz həqiqətən xüsusi müalicəvi mövzuya toxunursunuz, amma, heyif ki çoxları bunu anlamır, buna inanmır və baş qoşmaq istəmirlər. Maştağadakı ruhi əsəb dispanserində xəstə bir qız yatırdı, həmin yer qapalı məkan olduğundan və həmçinin karantin dövrü olduğu üçün ora gedə bimədim. Ancaq bunun da çarəsi vardı. Ora hər həftə bir şüşədə enerji yüklənmiş su göndərirdim. Tibb bacısından xahiş edirdilər ki, həmin suyu xəstəyə içirsin. Bu proseduru bir neçə dəfə təkrarlayandan sonra, on illərdir ki, əsəb xəstəsi olan həmin qızın əsəbləri sakitləşdi və evə yazdılar. Onu sonradan evində seans etdim. Buna bənzər hadisələrlə çox rastlaşıram. Bilməlisiz ki, suyun qədim yaddaşı var. Onlara enerji yükləmək mümkündür. Bu halda onlar flaşkard funksiyasını yerinə yetirirlər.

*Müəllif: – Tutaq ki, bir kənddə bir bədnəzər yaradan bir kişi var və onun gözlərindən çıxan "lazer şüası" böyük faciələr törədir, insanlara, heyvanlara zərər və xətər törədir, hətta, ölümcül tələfata səbəb olur. Onda olan bəd nəzərin həmin şəxsin özünə və övladlarına da zərəri dəyə bilərmi?*

**Paşa Yaqub:** – Bu, çox dəhşətli məsələdir. Mən şəxsən özüm o cür şəxslərdən ehtiyat edirəm. Özümü qorumağa çalışıram. Çünki o nəzərlər məni də birtəhər etməyə qadirdir. Hətta, Məhəmməd peyğəmbərə də o vaxt bu barədə ayə nazil olmuşdu. Yaqub peyğəmbər də öz övladlarını Misirə ərzaq üçün göndərəndə tapşırmışdı ki, "Siz o şəhərə hamınız eyni vaxtda eyni qapıdan girməyin. Ayrı-ayrı qapılardan girin ki, bədnəzərlər sizi fəlakətə uğratmasın!".

Əlbəttə, bədnəzərə malik olan insan özünü də məhv edər, hətta, balalarını da bədbəxt edər və adətən onların övladları həyatda ya xoşbəxt olmurlar və ya çox çətinliklə xoşbəxtliyə nail ola bilərlər. Əksər hallarda bədbəxt olurlar, çünki bədnəzər sahibinin gözlərində xüsusi Selen maddəsi vardır ki, həmin o maddə də çox kəskin neqativ enerjidir və özünə də, öz ailəsinə də dağıdıcı təsir göstərir.

Onu tanıyan insanlar yalnız ondan uzaq dursunlar, özlərini onun ölümcül enerjisindən qorusunlar. Görünən hər şeyin fəlsəfi bucağı və özünə məxsus enerjisi var. Müsbət, mənfi enerji insanlara da aiddir. Evdə mübahisə, adam itkisi, ölüm və s. olubsa, neqativ enerji özünü sıxıntı, halsızlıq, yuxusuzuq, elektrik avadanlıqlarının tez-tez sıradan çıxması, maddi problemlər kimi göstərəcək.

*Müəllif: – İndiki dövrdə neqativ enerjinin bu dərəcədə artmasına səbəb nədir?*

**Paşa Yaqub:** – Onun müxtəlif səbəbləri var. Məsələn, insanların bir-birinə paxıllıq hissi ilə baxması kimi nümunələri göstərmək olar. İnsanlarda iqtisadi vəziyyət aşağı olduqca, dolana bilmir və başqasına həsəd aparır. İstəmədən digər şəxslərdə gözü qalır. Daha sonra, bəd nəzərlər var. Bu da neqativ enerjiyə səbəb olan amillərdəndir. Digər bir səbəb isə sosial şəbəkələrdir. Burda neqativ yazıların olması, magiyaya aid şəkillərin olması (cin, şeytan şəkilləri) neqativ enerjinin əsas mənbəyi sayıla bilər.

Həmin şəkillərdən mənfi enerji insanlara yayılır. İnsanlar mənfi enerji gətirən amillərdən uzaq olmalıdır. Məsələn, insanların, daha çox da əsasən, xanımların kofe ilə, kartlarla fala baxması da onlara mənfi enerji yükləyir. Mən insanlara belə şeylərdən uzaq durmasını məsləhət görərdim. Hər növ vahimədən neqativ enerji yaranır. Bu da xəstəliyə səbəb olur. Ən çox xəstəlik qorxudan, vahimədən yaranır. Qorxulu şeylərdən uzaq durmaq lazımdır. Ürəkaçan nəyəsə baxmaq insana müsbət enerji gətirir. Qorunmağın əsas üsullarından biri də, təbiətlə daha çox təmasda olmaqdır. Xoş işlər, yaxşı əməllər bizi mənfi enerjidən hər zaman qoruyur. İnsanın niyyəti, əməli xoşdursa, o mənfi enerjidən daha tez xilas ola bilir. Qurban kəsilməsi, ehsan verilməsi də neqativlikdən qoruyan amillərdəndir. Bu zaman insan başına gələcək bəlaların, hadisələrin bir növ qarşısını almış olur. Edilən yaxşılıqlar pis enerjilərin qarşısını qismən alır.

Neqativ enerji, loru dildə "gözə gəlmək" tilsimə düşmək deməkdir.

Neqativ enerjini kompüterə düşən virusla müqayisə edək. Kompüter insanın alt kopyasıdır. Orda hansı proseslər gedirsə, həmin proseslər insanda da gedir. Sadəcə, insan bunu dərk eləmir. Virus yayılr kompüterə və müəyyən faylları silir. Neqativ enerji də, bu tip şeydir. Düşür insana, inam və sevgi hissini silir. Bundan sonra insan sevgisiz olur və sağlamlığını itirir. Sonunda insan həyatı uğursuzluqla nəticələnir. Mənim üsullarım əsasən fizikanın qanunlarına əsaslanır. Necə ki, kompüteri ustaya aparırsan, virusları silib, yeni fayllar yükləyir. Məndə də elədir. Mən insanı seans edəndə neqativ enerjilər sanki format olunur. Növbəti seanslarda silinmiş hisslər (fayllar) bərpa olur...

Elə adamlar var ki, onlar doğuşdan neqativ enerji ilə doğulurlar. Uşaq böyüdükcə onda neqativ enerji qalmış olur. Müəyyən qədər insanlarda paxıllıq hissi və kin-küdurət olur. Sanki cəmiyyətə özünü uğursuz insan kimi göstərməyə çalışırlar. Belə insanlar öz neqativ enerjilərini, digərlərinə də ötürürlər.

Adicə, heyvanlar, ağaclar da enerji ötürə bilirlər. Qoyun da, it də, dovşan da, ilan da və s. hamısı heyvandır. Amma, heç kim istəməz ki, otağında ilan olsun. Hamı arzulayar ki, yanında ceyran, maral olsun. Çünki, bu heyvanlar müsbət enerji ötürür.

İnsanlar iki cür ruhlu olur. Müsbət ruhlu və mənfi ruhlu insanlar. Müsbət ruhlu insanların sənə heç bir yaxşılığı dəy-

məsə də, onları görəndə sevinirsən.

*Müəllif: – Siz "Efir" enerjisinin sirrini bildiyiniz və ondan istifadə etdiyiniz üçün Sizi də müəyyən maraqlı qüvvələrin öldürə biləcəklərindən qorxmursunuz?*

**Paşa Yaqub:** – Allah elm bəxş etdiyi şəxsləri bədniyyət insanlardan qoruyur. Həm də özlərini qorumaq üçün onlara elm də verib.

*Müəllif: – Yazırsınız ki, zaman Allaha məxsusdur. Bunu necə izah edərdiniz?*

**Paşa Yaqub:** – Bəli, zaman Allaha məxsusdur. ZAMAN sözü soldan sağa zaman kimi oxunsa da, sağdan sola (yəni tərsinə) NAMAZ kimi oxunur ki, bu birbaşa Zamanın Allaha məxsusluğunun sübutudur. Namaz Allaha ibadətdir. Bunun başqa anlamı yoxdur. Məhz, buna görə də zamanı heyvan adları ilə adlandırmaq olmaz. Bəzi astroloqlar ili təhlil edərkən onu üzdəniraq (meymun, donuz, it və s.) heyvanların adı ilə adlandırırlar. Bu, Allaha xoş getməyən, Onun qəzəbinə səbəb olan bir haldır.

Necə ki, bizlərdən hansı birimizi, yaxud övladlarımızı bu cür adla çağırsalar, özümüzə təhqir hesab edərik. Bilməliyik ki, zaman Allaha məxsusdur və onu təhqiredici adlarla adlandırmaq qətiyyən düzgün deyildir. Ola bilsin bəziləriniz deyəcəksiniz ki, donuzu, meymunu da Allah yaradıbsa, niyə təhqir sayılır? Nəzərinizə çatdırım ki, "Quran"ın İsa Peyğəmbərdən söhbət açan bir surəsində Peyğəmbərə qarşı çıxan havarilərin Allahın qəzəbinə gəldiyini və onların meymuna döndərildiyi buyurulur. Buradan belə nəticə çıxır

ki, Allah qəzəbi tutan adamları meymuna döndərir. Bu səbəbdən insanlar da xoşlamadıqları, nifrət etdikləri adamları meymun, donuz və s. deyə təhqir edirlər. Unutmayaq ki, müqəddəs kitabda allah-taala zamana and içir. Bu fakt zamanın (əsrin, ilin)  Allah yanında necə əziz olduğunu göstərir.

Əgər biz Allahdan və onun ilindən (zamanından) nəsə xoş bir şey istəyiriksə, umuruqsa, həmin ilin düşərli olmasını, bizə nəsə verməsini istəyiriksə, onda onu xoşagələn adlarla adlandırmalıyıq. Məntiq bunu tələb edir. Necə ki, işimiz düşən birinə onu təhqir edən yox, xoş gedən formada müraciət edirik. Kiməsə donuz deyə müraciət etsək, nəinki bizim işimizi düzəltməz, əksinə, bizə qəzəbi tutar və qapıdan qovar. Zaman da belədir, başqa adla adlandırsaq, bizə heç nə verməz.

*Müəllif: – Deyirsiniz ki, Peyğəmbərlik haqqında Yer əhlinin təsəvvürləri tamamilə yanlışdır.Yanlışlıq nədədir?*

**Paşa Yaqub: –** İnanıram ki, insan bir məqama layiq olsa, Allah o məqamı həmin bəndədən əsirgəməz. Əks halda bu ədalətsizlik olardı ki, bu da ədalət sahibi Rəbbimə yaraşmaz. Biz bir məqama layiq deyiliksə, bu, o demək deyil ki, daha həmin məqama heç kəs yüksələ bilməz.

Bu, ona bənzəyir ki, abuturiyent  universitetə qəbul olmaq üçün lazım olan balı toplaya, amma ona deyələr ki, sən filan ildə, yaxud filan yerdə doğulmusan, atanın adı filankəsdir, filan millətdənsən sənə olmaz. Belə ədalətsizliyi Allahdan gözləyirsinizmi? Şəxsən mən gözləmirəm və bunun belə olmadığını da çox gözəl bilirəm.

Biz nə vaxt peyğəmbərlərin etdiyi əməlləri təkrarladıq, onların əxlaqına, imanına, səxavətinə sahib olduq, Allah bizi onların məqamına yüksəltmədi?

İş orasındadır ki, biz peyğəmbərlərin əməllərini təkrarlamırıq, bir-birimizi istismar edirik və topladığımız haram pulla gedib vəhabilərin məskənini ziyarət edirik ki, qayıdanda bizə "Hacı" deyib, başa keçirsinlər (daha bilmirik ki, bu əsrin ikinci Qur(b)an bayramından etibarən İslamın mərkəzi olmaq statusu ərəblərdən alınıb Azərbaycana verilib), sonra da deyirik indi heç kəs Peyğəmbərlik məqamına yüksələ bilməz.

Quranda yüzlərlə ayə var ki, bu ayələrdə istənilən adamın bu məqama yüksələ bilməsinə və vəhy qəbul etməsinə işarə verilir:

***"Allah Öz əmri ilə mələkləri vəhy ilə bəndələrindən istədiyinə göndərib belə buyurar- İnsanları (əzabımla) qorxudub (bu həqiqəti Mənim adımdan onlara) bildirin:-Məndən başqa heç bir Tanrı yoxdur. Məndən qorxun!" Quran, 16:2.***

İstəyirsiniz "Quran"ı dərk etməyin, istənilən uca məqama yüksəlməyin sirrini sizə açım. Hansı ki, indiyədək bu barədə heç kəsdən eşitməmisiniz:

- indiyədək etdiyiniz günahlara görə tövbə edin;
- təkəbbürdən və lovğalıqdan uzaq olun;
- sadə həyat tərzi keçirin;
- cəmiyyət üçün faydalı olmağa və onlara düz yol göstərməyə çalışın və özünüz buna nümunə olun;

- əxlaqınızı saflaşdırın və "Quran"a uyğunlaşdırın;

-"Quran"ı oxuyarkən orada mötərizə arasında (Ya Məhəmməd, Ya Peyğəmbər) yazıldığını gördüyünüz zaman xəyalən mötərizə arasında öz adınızı təsəvvür edin və həmin vəhyi özünüzə gəlmiş kimi qəbul edin və onu yerinə yetirməyə çalışın.

"Quran"da münafiqlərdən, kafirlərdən bəhs edərkən və mötərizə arasında ad çəkildikcə, siz o adın yerində tanıdığınız bu xarakterli adamların adını təsəvvür edin. Onda "Quran"ı tam dərk edəcəksiniz və tanıdığınız yaxşı-pis bütün insanarın obrazlarını bu kitabda görəcəksiniz.

Bir müddət belə ("Quran"ın buyurduğu kimi) yaşadıqdan sonra görəcəksiniz ki, "Quran"ın bütün ayələrini vəhy şəklində qəbul edirsiniz və oradakı əsas obrazlardan biri olduğunuza əmin olacaqsınız.

Diqqətinizi daha bir maraqlı və hikmətli fakta cəlb etmək istəyirəm. Belə ki, Məhəmməd əleyhissalam dünyaya təşrif gətirən gecəsi fars hökmdarı Nuşirəvanın sarayından 14 (!) sütun uçdu.

Bu hadisəni şərh etmək üçün saraya yığılan kahinlər və bilicilər şaha belə izah etdilər ki, bəşəriyyətin gözlədiyi Peyğəmbər artıq dünyadadır və sütunların uçması da Nuşirəvanın hakimiyyətinin tezliklə süqut edəcəyinə işarədir. Çox keçmədi ki, verilmiş proqnoz özünü döğrultdu və Sasanilər dövləti süqut etdi.

Yuxarıda qeyd etdiyim kimi, peyğəmbərlərin (elmi-lədun sahiblərinin) meydana çıxması, adətən Yerdə Xeyirlə

Şər arasında tarazlığın pozulduğu zamanlarda baş verir və onların missiyası tarazlığı bərpa etməkdən ibarət olur.

Bu gün də Yerdə Xeyirlə Şər arasında tarazlığın pozulması göz önündədir. Artıq haqq-ədalət demək olar ki, qalmayıb. Hər gün yüzlərlə insan fitnə-fəsad törədənlərin partlatdığı bombanın qurbanına çevrilir, yaxud, şərlənərək, başına yüz cürə oyunlar açılır; bu və ya digər formada zülmə məruz qalır. Yerdəki bu vəziyyət allah-taalanın qəzəbinə səbəb olmuşdur. Hesablamalarımız göstərir ki, son vaxtlar baş verən təbii fəlakətlər, zəlzələlər və müəmmalı təyyarə və s. qəzalar da məhz bu qəzəbin təzahürüdür.

Odur ki, insanlar bu xəbərdarlıqlardan nəticə çıxararaq, günahlarına görə tövbə etməli, əməllərinə diqqət yetirməli və savablarının sayını artırmalıdırlar.

“Elə isə onlardan ötrü (zalımların tezliklə məhv edilməsinə) tələsmə, çünki Biz onların günlərini bir-bir sayırıq”. (“Quran”, 19:84).

*Müəllif: – Çərşənbələrin mahiyyəti nədən ibarətdir?*

**Paşa Yaqub: –** Çərşənbələrin mahiyyəti ruzinin yaranmasına bağlanır. Hələ ta qədimdən cəmiyyətimizdə çərşənbələrə və digər bu qəbildən olan bayramlara münasibət birmənalı olmayıb. Belə ki, əhalinin çox hissəsi bu tip bayramları qeyd etsə də, cəmiyyətimizin dindar kəsimi (ərəb mənbələrini oxuyanlar) bayram haqda “Quran”da xəbər verilmədiyindən, onu inkar edirlər.

Bildiyimiz kimi, çərşənbələrin sayı - Su, Torpaq, Yel (hava) və Od (enerji) - olmaqla, dörddür. Elmi-lədun araş-

dırmalarımız göstərir ki, tariximizdən gələn bu ənənə insanın yaradılış ünsürləri ilə üst-üstə düşür. Belə ki, insan - torpaq, su, hava və ruh (enerji) olmaqla - dörd ünsürdən yaranıb.

Həmçinin, təbiət də - yaz, yay, payız, qış olmaqla, dörd fəsildən ibarətdir. Eləcə də Kainat - Şərq, Qərb, Şimal və Cənub olmaqla, dörd cəhətdən ibarətdir.

Allah-taalanın nazil etdiyi səmavi kitabların sayı da - "Tövrat", "Zəbur", "İncil" və "Quran" olmaqla - dörddür.

Müqəddəs "Qurani-Kərim"də kainatın altı gündə (Bazar günündən başlamaqla, Cümə günü başa çatıb.) yaranması qeyd olunmuşdur. İki günə Yer, iki günə isə, insanların qidalanması üçün Yer üzərində olanlar (ruzilər) yaradılmışdır. Sonrakı iki gündə isə, göydə olanlar yaradılmışdır:

***"Doğrudanmı siz Yeri iki gündə (!) yaradanı inkar edir və Ona şəriklər qoşursunuz? O ki, aləmlərin Rəbbidir!". "O, Yer üzündə möhkəm durmuş dağlar yaratdı, onu bərəkətli etdi və Allahdan ruzi istəyənlər üçün bərabər olaraq Yer əhlinin ruzisini dörd (!) gündə müəyyən etdi".*** *"Quran", "Müfəssəl izah" surəsi, 9-11.*

Bu ayələrin mahiyyəti ilə, insanın yaradılışı və dörd çərşənbənin qeyd olunması arasında əlaqə aydın şəkildə görünür. Odur ki, bəzi dindarların Novruz bayramının dinə uyğun olmaması haqdakı fikirləri əsassızdır.

Məlumdur ki, Novruzun (yeni günün) gəlişi ilə torpaqda oyanış yaranır və əkinçilər ruzi əldə etmək üçün fəaliyyətə başlayırlar. Onların fəaliyyətlərinin əsas istiqaməti TORPAQ və SUdur. Bahar fəslində əsən YEL isə, meyvə ağac-

ları üçün rəncbər (əkinçi) rolunu oynayır. Yəni, ağacların toxumlarını kənara səpələməklə, onların tozlanmasını (mayalanaraq, ruzi verməsini) təmin edirlər.

Baharın gəlişi ilə havanın hərarəti artır ki, OD-da buna işarədir. Sual yarana bilər ki, ruzi ilə bağlı olan bu mərasimlər niyə məhz çərşənbə günləri qeyd olunur?

Məsələ burasındadır ki, yuxarıdakı "Quran" ayəsi ilə hesabladıqda, ruzinin yaranması həftənin ikinci və üçüncü (çərşənbə axşamı və çərşənbə) günlərinə düşür. Odur ki, mərasimlər də bu günlərdə keçirilir.

Yeri gəlmişkən, SU çərşənbəsi haqda bir qədər geniş bəhs etmək istəyirəm. Bildiyimiz kimi, Yerin 71 faizi sudan ibarətdir. Eyni zamanda insan orqanizminin də 71 faizinin sudan ibarət olmasını elm təsdiq etmişdir. Bu fakt insan və Kainatın yaradılmasında necə bir İlahi qanunauyğunluğun olduğunu sübut edir. Burada diqqət çəkən məqamlardan biri də ondan ibarətdir ki, 71 ədədi "Quran"da da SU ilə bağlıdır. Belə ki, dəryadan bəhs edən "Nuh" surəsinin sıra nömrəsi 71-dir.

Bütün bunlar yaradılışın necə bir nizamla və bir-birinə bağlı yaradıldığını bir daha sübut edir.

*Müəllif: – Necə oldu ki, Siz həm yuxuların sirrini öyrəndiniz və həm də şəfa verə (müalicə edə) bildiniz? İnsanlara şəfa verə bildiyiniz Sizə nə vaxt məlum oldu?*

**Paşa Yaqub: –** Loğmanların necə şəfa verdiyini araşdırdım. Həm də haqqında yazdığım kəramət sahiblərinin iynə-dərmansız, bitkilərsiz müalicə üsullarını öyrəndim və ən əsası Allahın istəyi oldu.

*Müəllif: – İlk xəstəniz kim olub?*

**Paşa Yaqub:** – Öz ailə üzvlərimdən başladım.

*Müəllif: – 2002-ci ildən İslamın mərkəzi Məkkə yox, Azərbaycandır- yazırsınız. Bunu nə ilə əsaslandıra bilərsiniz?*

**Paşa Yaqub: –** Elm və kamillik əsri olan XXI əsrin ikinci QUR(b)AN bayramı günü (**22**.O**2**.**2002**) Elmi-lədunla mənə məlum oldu ki, Quranın 9-cu ("Tövbə") surəsinin ilk üç ayəsi bugünkü Qurban bayramına da şamil olunur.

Belə ki, bu ayələrdə bu gün Qurban bayramı (!) olduğu vurğulanaraq, doğru yolda olmadıqları insanların diqqətinə çatdırılır və düz yola qayıtmaq üçün onlara dörd ay möhlət verilir:

***"Allahdan və Onun Peyğəmbərindən saziş bağladığımız müşriklərə bir xəbərdarlıq: "Yer üzündə dörd ay sərbəst gəzib dolaşın və bilin ki, siz Allahı aciz qoya bilməzsiniz… Əgər tövbə etsəniz, bu, sizin üçün xeyirli olar. Əgər üz döndərsəniz, bilin ki, Allahın əzabından qaçıb canınızı qurtara bilməzsiniz. Kafir*** *(günahkar)* ***olanları şiddətli bir əzabla müjdələ!"*** (bax: "Tövbə" (9) surəsinin ilk üç ayəsinə).

Allahın verdiyi elmlə, dörd aylıq möhlətin 22-24 iyunda (bayram 3 gündür.) bitəcəyini bildiyimdən, bu barədə o vaxtkı dövlət başçısı Heydər Əliyevə açıq məktub yazıb, surətini mətbuat orqanlarına göndərdim (5 iyun 2002-ci il tarixdə həmin müraciət "Hürriyyət" qəzetində çap olundu).

Nəhayət, 22 iyunda Cənubi Azərbaycanda baş verən 9 (!) bal zəlzələ ilə bəşəriyyətin cəzalanma prosesinin başlanğıcı qoyuldu.

Bundan sonra Yerdə baş verən bütün təbii fəlakətlər və təyyarə qəzalarının bu prosesin davamı olduğunu riyazi hesablamalarla zaman-zaman sübut edərək, göydən gələn bəlaların bir-biri ilə 555 və 286 ədədləri ilə bağlandığından, əvvəlcə bu ədədlərin mənasını riyazi düsdurlarla izah edək:

-Təbiətin 4 fəsildən və kainatın 4 cəhətdən ibarət olmasını, insanın 4 ünsürdən yaranmasını, eləcə də bütün bunları özündə cəmləşdirən müqəddəs "Quran"ın 4-cü səmavi kitab olmasını nəzərə alıb, bu kitabın ilk 4 surəsindəki ayələri cəmləsək, 669 ədədi alınar:

**7 + 286 + 200 + 176 = 669**

Bu dörd surədəki ayələrə baxsaq, görərik ki, burada bəşəri dəyərlər mülayimliklə təbliğ olunur və heç bir cəzadan bəhs olunmur. Buna görə də 669 ədədi "Quran"da BƏŞƏRİ DƏYƏRLƏR rəmzi sayılır.

Bu dəyərlərə əməl etməyənlərin necə cəzalanmasından bəhs edən surələr isə, 9 rəqəmi ilə gəlir və sayı 11 olan (9, 19, 29, ...,109) bu surələrdəki ayələri cəmləsək, **555** ədədi alınır. Odur ki, bu ədəd (555) "Quran"da CƏZA rəmzi sayılır.

Elə isə, mülayim ayələrin sayından (669) sərt ayələrin sayını (555) çıxsaq, alınan **114** ədədi "Quran"ın surələrinin sayını göstərir:

**669 – 555 = 114**

Bu düstur onu göstərir ki, "Quran"ın düzülüşü Allaha məxsusdur və mülayimliklə sərtliyin vəhdətindən ibarətdir:

***"...Rəbbin mərhəmət sahibidir və şübhəsiz ki, cəzası da şiddətlidir."*** (13:6.)

O ki, qaldı 286 ədədinin mənasına, qeyd edim ki, Kəbədə saxlanan Quranın orijinalı 286 səhifədən ibarətdir. Həmçinin, XYIII əsrə qədər çap olunan, bu günədək muzey və kitabxanalarda qorunan bütün "Quran" kitabları bir qayda olaraq 286 səhifədən ibarətdir. Buradakı qanunauyğunluğu sübut etmək üçün aşağıdakı dəlilləri gətirə bilərəm:

1. "Quran"da təsbit olunmuş İslamın iki böyük- Qurban və Ramazan bayramları arasında qalan günlərin sayı bir qayda olaraq (Qurban bayramından sayılmaqla), 286 gündür.

2. İnsan ana bətnində 286 günə yaranır. Belə ki, cütlüklər görüşəndən sonra, toxumun ana bətninə çatması 6 gün + bətində normal inkşaf 280 gün = 286 gün. Deməli, uşaq ana bətnində "Quran"ın hər səhifəsinə bir gün hesabı ilə qalır.

3. İnsanlar ən çox Günəş və Ay (Qəməri) təqvimindən istifadə etməklə, ildə iki dəfə-21 martda və 31 dekabrda təqvim dəyişməsini qeyd edirlər. Bu iki bayram arasında qalan günlərin sayı da (Novruz bayramından sayılmaqla), bir qayda olaraq 286 gündür.

4. "Quran"ın 2-ci surəsi olan "İnək" surəsinin də 286 ayədən ibarət olması təsadüfi deyildir. Belə ki, inəyin 286 sümüyün birləşməsindən yaranmasını artıq elm təsdiq etmişdir.

22 iyunla (2002) bağlı verdiyim xəbərin doğruluğunu sübut etmək üçün daha bir neçə dəlil gətirim:

Elm əsrinin birinci, ikinci və üçüncü Qurban bayramlarının 286-cı (!) günləri - müvafiq olaraq:

-14 dekabr 2001;

- 4 dekabr 2002;

- 24 noyabr 2003

tarixlərdə Günəş tutulub.

Həmçinin, dörd aylıq möhlətin başa çatdığı 22 iyun 2002-ci il tarixinin 286-cı günü - 3 aprel 2003-cü ildə Günəş tutulub.

Bu faktlar 22 iyun tarixinin Qurban bayramları (tövbə günləri) ilə eyni statusa malik olmasını sübut edir.

Onu da əlavə edim ki, 2-ci Qurban bayramı günü verilmiş dörd aylıq möhlət başa çatan gün- 24 iyun 2002-ci il tarixində (bayram üç gün olduğundan, möhlət də üç günə bitir) Ay tutulması baş verdi.

Bütün bu və digər (açıqlanmasını indiki dövrdə məqbul saymadığım) faktlar sübut edir ki, həqiqətən də Azərbaycan dünyanın mənəviyyat mərkəzidir və allah-taalanın bəşəriyyətə ötürdüyü mesajlar məhz buradan yayımlanır. Bu proses hələ bir müddət də davam edəcək və sonda bəşəriyyət bu faktı – Azərbaycanın Mərkəz olması faktını qəbul edəcək.

*Müəllif: – "Həyatınızı dəyişəcək 2019-cu il" kitabını yazmısınız. Sizin həyatınızda həmin il nə dəyişdi?*

**Paşa Yaqub: –** Həmin il bir çox uğurlarım, yuksəlişlərim oldu. Həmçinin, 2019-cu ildə yayılmağa başlayan koronavirusun müalicəsi ilə daha çox məşhurlaşdım. Həmin vaxtdan

dünyanın əksər ölkələrindən koronavirusa yoluxmuş insanlar videozəng edirlər. İndiyə qədər bu virusdan minlərlə insanı sağaltmışam. Xoşbəxtlikdən müraciət edənlər arasında indiydək ölüm halı olmayıb.

*Müəllif: – Amma, mən həmin il xəstəlik tapdım. Həyatımı alt-üst etdi. Bunun sirri nədədir?*

**Paşa Yaqub: –** İnsan dünyaya gələndə ona sevinc, kədər, uğur, uğursuzluq limiti ayrılır. Görünür siz əvvəlki illərdə sevinc (uğur) limitinizi xərcləmisiniz...

*Müəllif: – Tez-tez xeyriyyə aksiyaları təşkil edirsiniz. Xeyriyyə aksiyalarınızda ən çox hansı hal Sizi sevindirir?*

**Paşa Yaqub: –** İllərdir övladı olmayan xəstələrimin əksəriyyətinin övlad sahibi olması halı.

Sonuncu xeyriyyə aksiyamda məni ən çox sevindirən məqam beş ay bundan qabaq seans etdiyim xanımın indi hamilə olaraq aksiyada iştirak etməsi oldu. Beş ay qabaqkı kimi, yenə həyat yoldaşıyla gəlmişdi.

Qeyd edim ki, həmin xanım folikulların partlamaması səbəbindən hamilə qala bilmirdi. Cəmi üç seans etdikdən sonra hamilə qalıb. Ailə oğlan gözləyir. İnşallah, tezliklə sevinərlər.

Bu, ilk uğurum deyil. Londonda yaşayan və videoseanslara qatılan bir xanım pasiyentim də sonuncu aksiyaya qatıldı və seansda artıq hamilə qaldığını bildirdi. 10 ilə yaxındır ki, ailə quraraq Londonda yaşayan bu xanım endometroz səbəbindən hamilə qala bilmirdi və bu müddətdə Avropanın tanınmış klinikalarında müalicələr alsa da, effekt verməmişdi. Videoformatda etdiyimiz seansların nəticəsində artıq en-

dometroz xeyli kiçildiyindən pasiyent hamilə qala bilmişdir.

İndiyədək onlarla ailəyə Allahın izni ilə övlad sevinci bəxş etdiyimə görə özümü xoşbəxt sanıram.

*Müəllif: – "Allahın dostları" kitabında yer almasaq da Hacı Xalidi və məni Sizə həmin kitab dost etdi. Burada hansı hikmət var?*

**Paşa Yaqub:** – O kitab daxilində və xaricində olan bütün Allah dostlarını birləşdirir.

*Müəllif: – Qorxmursunuz ki, Sizdən başqa bu elm (elmi-lədun) kiməsə də verilə bilər?*

**Paşa Yaqub:** – Çox sevinərəm, işim bir az yüngülləşər.

*Müəllif: – Həmin adamla ünsiyyət qurarsınızmı?*

**Paşa Yaqub:** – Məmnuniyyətlə. Axı, ona da elmin sirlərini Allah vermiş olar. Allahın verdiyinə də, aldığına da hər an şükür edirəm.

*Müəllif: – Həyatda maraqlı və yaddaqalan hansı hadisələrlə rastlaşmışsınız?*

**Paşa Yaqub: –** Bakı şəhərinin Babək prospektində əsəbləri pozumuş bir qız vardı. Daim prospekt boyu o başa-bu başa danışa-danışa gəzirdi. Oradakı bütün mağaza və sex, emalatxana sahibləri onu tanıyırdılar. Bir gün məndən xahiş etdilər ki, gəlim evlərində o qızı seans edim. Çünki, qızı klinikaya gətirmək mümkün deyildi. Evə də ancaq qaranlıq qovuşanda girirdi. Nə isə, axşamüstü getdim bunlara. Ailəsi nə qədər çalışsalar da qızı evə gətirə bilmədilər. Məcbur qalıb, düşdüm qızın dalınca. Prospekt boyu o getdikcə, mən də bir addım arxada onun arxasınca getməyə, başladım. Getdikcə

də seans edirdim (arxadan enerji dalğaları ötürürdüm). Gördüm ki, Babək prospektində nə qədər mağaza, sex və digər sahələrdə işləyənlərin hamısı bizə təəccüblə baxırlar. Onlar qızı tanıyırdılar və onun gəzməyinə adət etmişdilər. Ancaq məni birinci dəfə gördüklərindən, təəccüblə baxırdılar ki, "görəsən bu kimdir ki, düşüb bunun ardınca?"

Bəlkə də fikirləşirdilər ki, "bu yazığın da yəqin başı xarab olub, qoşulub bu qıza". Nə isə, 2-3 dəfə belə seans edəndən sonra qızın əlin-ayağın yığdım evə. Sonrakı seansları evdə davam etdirdim. İndi həmin qız sap-sağlamdır və şirniyyat sexində işləyir.

*Müəllif: – Neqativ enerji nədir və necə ötürülür?*

**Paşa Yaqub:** – Neqativ enerjini, kompüterə düşən virusla müqayisə etmək olar. Bilməliyik ki, virus kompüterimiz üçün nədirsə, neqativ enerji də ruhumuz üçün odur.

Neqativ enerjinin nə olduğunu bilmək üçün yenə də fizikanın qanunlarına və hər gün istifadə etdiyimiz kompüterə nəzər salaq. Bildiyimiz kimi, kompüter insanın alt kopyası olaraq yaradılıb. Deməli, kompüterdə gedən bütün proseslər, bu və ya digər formada insanda da baş verir. Sadəcə, insan çox texnikalar kəşf etsə də, özünü kəşf (dərk) etməkdə hələ də acizdir. Bu da dünyəvi elmlərin yarımçıqlığı və ruhu bilməməsi ilə əlaqəlidir.

Neqativ enerjini dərk etmək üçün, kompüterimizə düşən virusu və onun yaratdığı fəsadları gözlərimiz önünə gətirək: Kompüterimiz donur və ondakı bir çox fayl və proqramlar silinir.

Bilməliyik ki, insan qəlbində (ruhunda) olan sevinc, fərəh, xoşbəxtlik, sevgi, məhəbbət hissləri kompüterimizdə olan fayl və proqramlar kimidir. Virus kompüterdən faylları sildiyi kimi, neqativ enerji də ruhumuzda olan sevinc, fərəh, xoşbəxtlik, sevgi, məhəbbət hisslərini silir, əvəzində nifrət faylı yazır.

Neqativ enerji həmçinin, ruhda sabit halı dəyişən hala çevirir ki, nəticədə insan halba-hal olur, orqanizmin müxtəlif nahiyələrində səbəbi bilinməyən ağrılar, əsəbilik, qəmginlik, özünə qapanma və s. yuxarıda sadaladığım depressiya əlamətləri və xəstəliklər yaradır.

*Müəllif: – Bəs neqativ enerji insana hansı yollarla daxil olur?*

**Paşa Yaqub:** – O ki, qaldı neqativ enerjinin insan ruhuna haradan, hansı yolla yoluxmasına, bunun bir neçə yoluxma yolu vardır. Bunlardan ən çox yayılanı nəfs, bədnəzərdir ki, orqanizmdə sabitliyi pozaraq, bir çox xəstəliklərin yaranmasına səbəb olur. Lakin, bu forma yüngül olduğundan, insanı intihara sövq etmir; sadəcə xəstəliyə salaraq, uzun illərdən sonra öldürə bilir...

Neqativ (qara) enerjinin ən ağır forması insana magik yolla ötürülür. Bu, xakerlər tərəfindən kompüterə göndərilən virusa bənzəyir- insanın həyatını dondurur və sözün əsl mənasında sıradan çıxarır (özünə qapandıraraq, sonda intihara sövq edir). Bu işlə falçı və cadugərlər məşğul olurlar ki, müqəddəs kitablarda Yaradan bu işlə məşğul olanları lənətləyir. Onların iş prinsipi elmin alt qatına aiddir və

əsasən kimyanın (kimyəvi elementlərin) sirləri üzərində qurulur. Cadugərlərə bu sirləri lənətlənmiş varlıqlar öyrədir (bu sirlər dünyəvi elmə aid olmadığından, kimyaçılar onları bilmirlər).

Odur ki, bu kimi halların baş verməməsi üçün, insanlar falçı və cadugərlərdən, fırıldaqçı molla və "seyid"lərdən uzaq durmalıdırlar. Onların istifadə etdikləri (kart, kofe, şam və s.) əşyalar magik təsirə malikdir və şeytanla əlaqə qurmaq üçün vasitələrdir. Təəssüflər olsun ki, bir çox analar qızlarını ərə verərkən, yaxud, oğul evləndirərkən, həmin neqativ enerji mənbələrinə üz tuturlar. Beləliklə, özləri bilməyərəkdən övladlarını (gələcək anaları) neqativ enerjiyə yükləyirlər...

Neqativ enerjini qəsdən, düşmənçilik məqsədi ilə də yükləyə bilirlər.

Tibb və psixologiya elmləri neqativ enerjinin yaratdığı fəsadları aradan qaldırmaqda aciz qalsa da, bizim məşğul olduğumuz "lədun" elmi və müalicə üsulu ilə bu enerjidən xilas olmaq mümkündür:

*Müəllif: – Cin çıxarmısınızmı?*

**Paşa Yaqub:** – Təcrübəmdə çox olub.

*Müəllif: – Son dövrlər təbii fəlakətlərin çoxalmasının səbəbi nədir?*

**Paşa Yaqub:** – Son illərdə Yerdə baş verən bütün təbii fəlakətləri və böyük qəzaları (zəlzələlər, daşqınlar, təyyarə və enerji qəzaları və s.) tədqiq etməklə məşğulam. Tədqiqatlarım sübut edir ki, baş verən bu cür fəlakətlər bir qayda olaraq riyazi yolla astronomik hadisələrə və "Quran"a bağlanır.

Bununla Rəbbim bəşəriyyətin diqqətini bəşəri dəyərlər toplusu olan QURANA yönəldir. Çünki əsrimiz Kainatın sonuncu əsridir və nəhayət sonda insanlar kamillik dövrünü yaşayıb, sonra dünyanı dəyişməlidirlər. Mən bunu dərk etdikdən sonra, gənclikdə etdiyim günahlara görə tövbə etdim və indiyədək çap olunan məqalələrimdə, kitablarımda, statuslarımda bəşəriyyətə, tövbə edib, getdiyi səhv yoldan dönməyi tövsiyyə etmişəm.

Bir maraqlı və hikmətli faktı da bildirmək istəyirəm. Belə ki, Məhəmməd Əleyhissalam dünyaya təşrif gətirən gecəsi fars hökmdarı Nuşirəvanın sarayından 14 sütun uçdu.

Bu hadisəni şərh etmək üçün saraya yığılan kahinlər və bilicilər şaha belə izah etdilər ki, bəşəriyyətin gözlədiyi Peyğəmbər artıq dünyadadır və sütunların uçması da Nuşirəvanın hakimiyyətinin tezliklə süqut edəcəyinə işarədir. Çox keçmədi ki, verilmiş proqnoz özünü döğrultdu və Sasanilər dövləti süqut etdi.

*Müəllif: – Peyğəmbərlərin vəzifələri nədir?*

**Paşa Yaqub:** – Yuxarıda qeyd etdiyim kimi, peyğəmbərlərin (elmi-lədun sahiblərinin) meydana çıxması, adətən Yerdə Xeyirlə Şər arasında tarazlığın pozulduğu zamanlarda baş verir və onların missiyası tarazlığı bərpa etməkdən ibarət olur.

Bu gün də Yerdə Xeyirlə Şər arasında tarazlığın pozulması göz önündədir. Artıq haqq-ədalət demək olar ki, qalmayıb. Hər gün yüzlərlə insan fitnə-fəsad törədənlərin partlatdığı bombanın qurbanına çevrilir, yaxud, şərlənərək, ba-

şına yüz cürə oyunlar açılır; bu və ya digər formada zülmə məruz qalırlar. Yerdəki bu vəziyyət allah-taalanın qəzəbinə səbəb olmuşdur. Hesablamalarımız göstərir ki, son vaxtlar baş verən təbii fəlakətlər, müəmmalı təyyarə və s. qəzalar da məhz bu qəzəbin təzahürüdür.

Odur ki, insanlar bu xəbərdarlıqlardan nəticə çıxararaq, günahlarına görə tövbə etməli, əməllərinə diqqət etməli və savablarının sayını artırmalıdırlar.

Yeri gəlmişkən, yuxarıda təqdim etdiyimiz düsturlar da insan beyninin məhsulu deyildir. Düsturu insanlara çatdırmaqda Yaradanın mesajı odur ki, müqəddəs kitaba nəyinsə əlavə olunması və yaxud buradan hansısa ayənin çıxarılması haqqında deyilənlər cəfəngiyyatdan başqa bir şey deyil və bunu söyləyənlər "Quran"a və Allahın qüdrətinə şübhə edənlərdir.

*"Biz hər şeyi sayıb yazmışıq"*. "Quran", 78:29.

Düsturlar dostum Hacı Xalid vasitəsilə mənə verildikdən sonra baxdım ki, həqiqətən "Quran"ın riyazi sirlərini açan bu düsturlar insan beyninin məhsulu deyildir. Bunu ancaq ALLAH vəhy edə bilər Öz etibarlı mələyi vasitəsi ilə.

Həmin gündən etibarən, bu düsturların köməyi ilə dünyada baş verən bütün sirli hadisəlrin, təyyarə qəzalarının və s. üzərindən sirr pərdəsini qaldırmağa başladım. Bu mövzuda bugünədək otuzdan çox kitab, minlərlə məqalə yazmışam.

Soruşa bilərsiniz ki, bu düsturları sən illərdir axtardığın halda, niyə birbaşa özünə deyil, Hacı Xalidə vəhy olundu?

Qeyd edim ki, Həzrət Cəbrayıl əleyhissalam hər adama nazil olmur. Bu Mötəbər Mələk o adama nazil olur ki, adam kamilliyin ən yüksək həddində - Peyğəmbərlik məqamında olsun. Həmin vaxt mən bu məqama yüksəlmədiyimə görə Mələk düsturu mənə birbaşa deyil, Hacı Xalid vasitəsi ilə çatdırdı. Çünki, dəyərli dostum Hacı Xalid artıq bu məqama yetişmişdi və vəhy qəbul etməyə layiq idi.

*Müəllif: – Kamil insanlar nə vaxt tanınacaq və insanlar onlardan bəhrələnə biləcəklərmi?*

**Paşa Yaqub: –** Heç abad yerdən xəzinə tapan görmüsüzmü? Xəzinələr həmişə xarabalıqda gizlədilir. ALLAH da elm (hikmət) xəzinəsini həmişə elə bir qulunun qəlbində gizlədir ki, kənardan baxan heç bir naşının ağlına gəlməz ki, bu adamda hikmət xəzinəsi gizlədilib. Ariflərdən savayı.

Elmi-lədun bilgilərimizə görə elm əsrinin 2021-ci ilində insanlar öz içərilərində olan kamil insanları tanıyıb, onların qəbul etdikləri vəhylərdən və onlara verilmiş elmdən (Elmi-lədundan) daha çox bəhrələnəcəklər və onların göstərdikləri yolla gedərək, düşdükləri böhranlı vəziyyətdən (yoluxucu xəstəliklərdən, aclıq və səfalətdən, təbii fəlakətlərdən) xilas olacaqlar.

Çox təəssüflər olsun ki, indiyədək insanlar şeytanın öyrətdiyi adamalara (falçı və cadugərlərə, ekstrasenslərə, mediumlara) daha çox üz tuturlar. Getdikcə insanlar bunun mahiyyətini dərk edib, Allahın elm verdiyi insanlara üz tutacaqlar...

*Müəllif: – Niyə məhz, övliyalardan kitablar yazırsınız?*

**Paşa Yaqub: –** Bir tədqiqatçı olaraq, niyyətim övliyaların kamil elmini, nümunəvi əxlaqını, gözəl əməllərini müasir insanlarımıza nümunə göstərməkdir. İnsan Nizamini, Füzulini bilmədən şair, Mendeleyevi bilmədən kimyaçı, Nyutonu bilmədən fizik... ola bilmədiyi kimi, övliyaları da öyrənmədən kamil mömün olub, İlahi sistemdə dərəcə qazana bilməz.

*Müəllif: – Çoxarvadlılığa münasibətiniz necədir və bu lazımdırmı?*

**Paşa Yaqub:** – Bəli, lazımdır. Gec-tez buna rəsmən icazə veriləcək və cəmiyyət pozğunluğa son qoyacaq. Hər şey halal olacaq.

*Müəllif: – İnsan nəyə məhkumdur?*

**Paşa Yaqub**: **–** Hamımız bəşəri dəyərlərə təslim olmağa məhkumuq. Gec-tez bu, baş verəcək, bəşəriyyət fəlakətlərdən və xəstəliklərdən onda xilas olacaq.

*Müəllif: – Sizə xarici ölkələrdə yüksək əməkhaqqı, yaxşı dolanışıq, şəxsi klinika kimi təkliflər olsa gedərsinizmi?*

**Paşa Yaqub: –** Çox olub. Vətənimdə yaşamağımı heç bir dünya malına dəyişmərəm. Vətən hər şeydir. Yalnız həyatıma təhlükə olduğu təqdirdə yaşadığım yeri tərk edərəm. Maddiyyat üçün yox. Allah mənim ruzimi burada da verir.

*Müəllif: -Yazdığınız kitabları satmaq asan olurmu?*

**Paşa Yaqub:** – Həmişə kitablarımı təmənnasız paylamışam. Lakin, bəzi qüvvələr siyasi fəaliyyətimlə bağlı bir müddət ailəmin dolanışığını ağır duruma saldılar. Həmin müddətdə məcburiyyət qarşısında qalaraq, kitablarımı satmaqla

ailəmi dolandırdım. Dolanışığım düzəldikdən sonra yenə də kitablarımı pulsuz paylayıram.

*Müəllif: – Yazdığınız kitablara görə dini qurumlar Sizə maddi cəhətdən köməklik edirlərmi?*

**Paşa Yaqub**: – Ziyarətgahlar və onların kəramətləri haqda onlarla kitab yazmışam. İmam Rzanın Bakıda dəfn olunan övladları və bacıları haqda ayrıca "Xanım övliyalar" kitabını yazdım. Bu kitabları kasıb vaxtlarımda nisyə çap etdirdim. İranın Bakıdakı mədəniyyət mərkəzinə və gündəlik gəliri milyonlarla ölçülən həmin ziyarətgahların mafiyoz rəhbərlərinə müraciət etsəm də, bir manat yardım etmədilər ki, nəşriyyata olan borcumu ödəyim. Onu da qeyd edim ki, kitabları nisyə çap etdirsəm də, o ziyarətgahda dəfn olunan imamzadələrin kəramətlərilə heç ummadığım yerdən mənə ruzi gəldi və tez bir zamanda nəşriyyata olan borcumu bağladım.

Onu da deyim ki, həmin kitablar Haqq dərgahında çox yüksək qiymət aldı və bunun mükafatı olaraq mənə həkimlik qabiliyyəti bəxş olundu.

*Müəllif: – Həkimlik verilməyin məhz, yazdığınız kitabların Allahın dərgahında yüksək qiymətləndirilməsi ilə əlaqədar olduğu Sizə necə məlum oldu?*

**Paşa Yaqub**: – Kitabımın ALLAH dərgahında yüksək qiymətləndirilməsi haqda bir epizod deyim.

İmam Rzanın övladı və bacıları (İmam Museyi Kazımın qızları) haqda "Peyğəmbər nəvələri Azərbaycanda" kitabım nəşr olunandan sonra Haqq dərgahında münsüflər əyləşib

bu kitabı müzakirə etdilər. Çoxusu müsbət fikirlər dedilər. Müqəddəslərdən (münsiflərdən) biri məndən soruşdu ki, sən Peyğəmbrin qızlarını tanıyırsan? Dedim bircə Fatiməni tanıyıram. Dedi sən necə yazıçısan ki, İmamın bütün qızlarının həyatını öyrənib yazmısan, amma, ondan daha mötəbər olan Peyğəmbərimizin qızlarını tanımırsan? Düzü, bu irad məni möhkəm tutdu və onların qarşısında xəcalət çəkdim. Söz verdim ki, tezliklə səhvimi düzəldəcəm. Və elə səhərisi günü Peyğəmbərimizin qızlarının həyatını araşdırmağa başladım. Çox mənbələrə baş vurdum. Uzun araşdırmalardan sonra həm Peyğəmbərin, həm də İmamın qızlarının həyatından bəhs edən "Xanım övliyalar" kitabımı nəşr etdirdim (nisyə). Bundan sonra əməyim Haqq dərgahında mükafatlandırıldı və mənə xəstələrə şəfa vermək tapşırıldı.

*Müəllif: – Kitablarınızı pulsuz paylamaqda məqsədiniz nədir?*

**Paşa Yaqub**: – Məqsədim insanlarda Allaha sevgi aşılamaqla yanaşı, həm də elmin alt qatını cəmiyyətə çatdırmaqdır. Bir növ insanların gözünü açmaq, onları sirlərdən agah etməkdir.

*Müəllif: – Xəstələrlə seanslardan yorulmursunuzmu?*

**Paşa Yaqub: –** Əksinə, insanlar şəfa tapanda mən ondan zövq alıram. Daxilimdə rahatlıq tapıram.

*Müəllif: – Axı, bildiyimə görə seanslar Sizə pis təsir edir. Yəni, neqativ enerjini çıxarmağı nəzərdə tuturam.*

**Paşa Yaqub: –** Əziyyətsiz iş yoxdur. Düzdür, yorğunluq olur, amma, keçib gedir. Xəstələr isə, sağlamlığına qovuşur.

Bu gözəllikdən ötrü əziyyətə qatlaşmağa dəyər.

*Müəllif: – Siz belə bir mərtəbəyə çatacağınızı təsəvvür edirdinizmi?*

**Paşa Yaqub: –** Düzü, əməyimin Allah dərgahında belə böyük mükafat alacağını təsəvvür etmirdim. Allahın lütfi geniş olduğundan verdiyi mükafat da böyük olur.

*Müəllif: – Mendeleyevin cədvəlindəki "Efir" elementinin bir çox xəstəliklərin dərmanı olduğunu necə bildiniz?*

**Paşa Yaqub:** – Hamıya məlumdur ki, bir çox dahilər ağlagəlməz kəşfləri yuxuda tapıblar.

Mən asanlıqla yuxuları yozuram. Yusif Peyğəmbərdə olan qabiliyyət (bir proqram olaraq) mənə də keçmişdir (yüklənmişdir). Yuxuların sirrini bilirəm. Yeri gəlmişkən, bir gün dostum Teyyubun yuxusuna bir nurani kişi girib, söhbət edərkən ona deyir ki, "Quran"dakı "Yusif" surəsinin 3-5-ci ayələri Paşa Yaquba da şamil olunub.

"Quran"ın və Kainatın sirlərini açmaq üçün ustadım Hacı Xalidə mənə çatdırması üçün yuxuda Cənabi Cəbrayıl vasitəsilə üç düstür verilməsi - hansı ki, mən bütün hesablamalarımı həmin düsturların vasitəsilə aparıram;

Anama yuxusunda Veys babanın mənim diplomumu göstərməsi;

Zərdab rayon sakini Səadət xanımın yuxuda məni Həcc ziyarətində görməsi halı kimi çox faktlar deyə bilərəm. Mən həqiqətən də həmin il Həcc ziyarətinə getməyi planlasam da, sonda yığdığım vəsaiti "Allahın dostları" kitabının çapına verərək, pulsuz payladım.

Bütün bunlar Allahın yuxular vasitəsilə bir çox vəhylər verməsinin təsdiqidir. Efir elementinin sirlərini də mənə yuxuda öz ruhum dedi.

*Müəllif: – Vatsab vasitəsilə enerjini necə ötürürsünüz?*

**Paşa Yaqub: –** Efir enerjisi loru dildə desək, Allahın nurudur. "Quran"dan bir ayəni parol olaraq deyəndə bu enerji məndə yaranır. Həm qarşımda olan xəstəyə, həm də dünyanın istənilən nöqtəsində olan xəstəyə ötürərək istənilən xəstəlikdən sağalda bilirəm. Enerji dalğalarını internet üzərindən ötürəndə WWW və @ işarələrindən istifadə edirəm.

*Müəllif: – Allahın Cəlalını (Nurunu) ziyarət edə bildiyinizi söylədiniz. Bəs, haçansa Allahın Camalını (sifətini) heç olmasa yuxuda belə görmüsünüzmü?*

**Paşa Yaqub:** – Bir gün niyyət etdim ki, Allahım, Calalını görmüşəm, Camalını da mənə göstər. Həmin gecə yuxuda mənə səmanı göstərdilər. Dedilər indi göy yarılacaq, sən Allahın Camalını (Sifətini) görəcəksən. Göyə bir neçə saniyə baxa bildim. Həmin an mənə elə bir həyacan gəldi ki, az qala ürəyim partlayacaqdı. Hələ də həmin mənzərəni xatırlayanda keçirdiyim hissləri dillə izah edə bilmirəm. Əgər səmaya baxmağım bir neçə saniyə də davam etsəydi ürəyim partlayardı. Onda başa düşdüm ki, Allahın Camalını görməyə insan tab gətirə bilməz.

*Müəllif: – Davamçınız kimi görürsünüz. Sizi əvəz edəcək şagirdləriniz varmı?*

**Paşa Yaqub: –** Allah kimi məsləhət bilsə. Bunu həyat göstərər. Bu sualı mənə çox verirlər. Allah vergisi öyrədil-

mir. Kiminsə istəyi olsa, mən ona elmi-lədunu qavramağı öyrədə bilərəm. Hikmət bəxş etmək Allaha məxsusdur.

*Müəllif: – Siz hansısa əməllərinizdən peşman olmusunuzmu? Tutaq ki, hansısa mərhələdə təqib olunanda "mən niyə bunu etdim" kimi təəssüf hissi keçirmisinizmi?*

**Paşa Yaqub: –** Gəncliyimdə ekstrasenslik qabiliyyəti verilmiş bir nəfər haqda kitab yazdım. Sonradan o adam yolunu azdı və məndən halallıq almadı. Onun haqqında kitab yazdığıma görə sonradan peşman oldum. Amma, məni aldatdığına görə ondan həmin qabiliyyət alındı və özü də peşman oldu. Nə yazıq ki, yenə də halallıq istəmədi.

*Müəllif: – Bu fani dünyada kimdən və nədən razı, kimdən və nədən narazısınız?*

**Paşa Yaqub: –** Mən kimdən və nədən narazı olsam da, Allahımdan həmişə razı olmuşam. Başıma gələnləri Allahın imtahanı hesab etmişəm.

*Müəllif: – Yenidən dünyaya gəlsəydiniz, hansı yolu seçərdiniz?*

**Paşa Yaqub: –** İndiki yolumu seçərəm.

*Müəllif: – Övladlarınızın da bu yolu seçməsini istərdinizmi?*

**Paşa Yaqub**:- Çox istərdim amma, hələ ki, onların bu yolda olmasını görmürəm. Həm də ki, bu peşə seçimi deyil, Allahın iradəsi ilə gedilən yoldur.

*Müəllif: – Xalqımıza arzunuz nədir?*

**Paşa Yaqub**: – Zülmə qarşı mübariz olmaq, bu yolda ardıcıl mübarizə aparmaq əzmindən yorulmamaq. Bu devizlə yaşasınlar:- "Qorxma, aldanma, aldatma".

Cəmiyyət bu devizlə işlərini qura bilsə inanıram ki, bu xalqın uğurları böyük olacaq. Xalqıma səbr yox, mübarizə diləyirəm. Səbri insana Allah verir. Səbr sonu gözləməkdir.

*Müəllif: – Bildiyimiz kimi xalqımız Vətən uğrunda çox ŞƏHİDLƏR verdi. Deyirlər-şəhidlər ölmür-bunu necə başa düşmək olar?*

**Paşa Yaqub: –** Bu barədə "Quran"da ayə var ki, **"***Allah yolunda öldürülənləri (şəhid olanları) heç də ölü zənn etmə! Əsl həqiqətdə onlar diridirlər. Onlara Rəbbi yanında ruzi (cənnət ruzisi) əta olunur".* "Quran", 3:169.

Xocalı faciəsini yaşayan insanların üzləşdikləri vəhşilikləri ürək ağrısı ilə dinləyirəm.

Təskinlik tapacağımız bir məqam var ki, bu və digər faciələrdə dünyasını dəyişənlər adi ölü olmayıb, şəhidlik məqamına yüksəlirlər. O məqama ki, allah-taalanın peyğəmbərləri və ən sevimli dostları həmin məqamdadırlar.

Bəzən çoxları düşünür ki, axı mənim qardaşım ailəmizdə ən ürəyitəmiz, mömin oğlan idi, Allaha bağlı idi, (Qeyd edim ki, şəhidlər haqda çox tədqiqatlar aparmışam və mənə məlumdur ki, onlar nəinki öz ailələrinin, hətta doğulduqları kəndin, şəhərin ən imanlı, ən ləyaqətli, vətənpərvər və qəlbən Allaha bağlı oğulları olublar) axı Allah çoxlarını qoruduğu halda niyə onu qorumadı? Axı, istəsəydi qoruyardı, O, buna qadirdir!

Bilirəm, bu sual çoxlarının qəlbini didən və rahatlığını pozan cavabsız sualdır. Sualın cavabını Rəbim aşağıdakı ayələrdə verir:

***“Əgər siz** (Xocalı faciəsində - P.Y.) **yara aldınızsa, o biri** (kafir) **dəstə də** (digər döyüşdə) **o cür yara aldı. Biz bu günləri** (bu hadisələri) **insanlar arasında növbə ilə dəyişdiririk ki, Allah iman gətirən şəxsləri** (başqalarından) **ayırd etsin və içərinizdən şəhidlər seçsin. Allah zülmkarları sevməz”!***

***“Bu, həm də Allahın iman gətirənləri** (öz qanlarıyla günahlardan) **təmizləməsi və kafirləri məhv etməsi üçündür”.***

***“Yoxsa Allah içərinizdən cihad edənləri** (düşmənlə vuruşanları) **və** (əziyyətə) **səbr edənləri bilib** (camaata bildirib) **ayırd etməmişdən qabaq Cənnətə girəcəyinizimi güman edirsiniz?”** “Quran”, 3-cü Surənin 140-141-142-ci ayələri.*

Ayələrdən görünür ki, Rəbbim iman gətirənləri Şəhidlik (Peyğəmbərlik) məqamına yüksəltmək istəyir. İndiki dövrdə həmin məqama yüksəlməyin başqa yolu olmadığından (həm də dövrümüzdə bütün insanlar müxtəlif günahlarla çirkləndiklərindən), Allah sevdiyi bəndələrin yolunu müharibədən salır ki, üstlərindəki günahlar öz qanları (şəhidlik qanı) ilə yuyulsun ki, onlar ən uca məqama layiq olsunlar (bax: yuxarıdakı 141-ci ayəyə).

***“Müharibəyə getməyib, evlərində oturan və** (müharibəyə getmiş) **qardaşları haqqında: “Əgər onlar sözümüzə qulaq assaydılar, öldürülməzdilər”, - deyənlərə söylə: “Əgər doğru deyirsinizsə, onda** (bacarın) **ölümü özünüzdən uzaqlaşdırın!”***

***“De: - “Əgər siz evlərinizdə olsaydınız belə, alınlarına ölüm yazılmış kəslər yenə çıxıb əbədi yatacaqları** (öləcəkləri) **yerlərə gedərdilər”** “Quran”. Surə 3; Ayə 168-154.*

Bu ayələrdən də görünür ki, şəhidlərin alnına həmin gün ölüm yazılmışdır. Yəni, müharibəyə getməsəydilər belə, həmin gün ömürləri başa çatmalıydı. Sadəcə, onlar imanlı və qəlbləri Allaha bağlı olduqlarından, Allah onları ən uca məqama yüksəltmək istədi. Ona görə də onlara Şəhidlik qismət etdi. Necə ki, Peyğəmbərlərə, imamlara və digər dostlarına qismət etmişdi.

*Müəllif: – Torpaq barədə nə deyə bilərsiniz?*

**Paşa Yaqub: –** Hansı ölkədə ki, torpaqlar məhsuldardır, orada idarəedənlər ədalətsiz və yalançı olar.

Hansı ölkədə ki, torpaqlar məhsuldar deyil, orada insanlar aqil olar, idarəedənləri isə adil olarlar.

Bunun səbəbi həmin torpaqların üzərində yaşayan insanların elmə marağından aslıdır.

Torpaqla uğraşarkən elmlənməyi də unutmayın ki, əməyinizi istismar etməsinlər. Haqqınızı elminizlə qoruyun.

*Müəllif: – Təsbehin sirri nədir ki, müqəddəs yerlərə gedən zəvvarlar hədiyyə olaraq yaxınlarına təsbeh bağışlayırlar?*

**Paşa Yaqub:** – Təsbeh ordu rəmzidir. Yəni başdakı dənə Ali Baş Komandana, digər dənələr isə, ona tabe olan əsgərlərə işarədir.

Məsələn, Türkiyyə Prezidenti təsbehin başından tutub təqdim etməklə, öz kolleqasına Ali Baş komandan olaraq daim başda olmasını, tabeçiliyində güclü ordunun (komandanın, kömkçilərin, əsgərlərin) olmasını arzulayırdı...

Yeri gəlmişkən, "Quran"ın HAKİMİYYƏT surəsinin 20-ci ayəsinin də verdiyi mesaja da diqqət etmək yaxşı olardı...

Oğru dünyasında isə, təsbeh başqa anlam daşıyır. Yəni, qisas anlamı verir.

*Müəllif: – Deyirlər Dünya qəm dünyasıdır. Bu doğrudurmu?*

**Paşa Yaqub: –** Hər şeyin limiti olduğu kimi sevincin də, kədərin də limiti var. İnsana sevinc və kədər limiti ayrılıb. Bu limitə qənaət edənlər çox yaşayırlar.

Elmi-lədun araşdırmalarımız göstərir ki, insan dünyaya gələndə Yaradan tərəfindən ona həyatda qalmaq üçün zamanla yanaşı, sevinc və kədər limiti ayrılır. Bunlar bir-birinin içərisində və ayrılmaz olduqlarından, sevinc və kədər olmadan zamanı yaşamaq mümkün deyildir. Bunu "Quran"ın aşağıdakı ayəsindən görmək olur:

***"Əgər Allah insanlara xeyri tezliklə istədikləri kimi, şəri də o tezlikdə versəydi, şübhəsiz ki, əcəlləri çoxdan tamam olmuşdu…"*** *"Yunis" surəsi, 11-ci ayə.*

Ayəyə şərhçilər tərəfindən müxtəlif formalarda təfsirlər verilsə də, əslində burada insan üçün əzəldən müəyyən edilmiş sevinc və kədər limitinə işarə verilir.

Müqayisə üçün deyim ki, hər bir təşkilatın normal fəaliyyəti üçün, ilin başlanğıcında müəyyən bir maliyyə limiti ayrılır. Əgər təşkilat bu limitin hamısını ilin əvvəlində xərcləyib qurtararsa, sonrakı aylarda fəaliyyət göstərə bilməz. Odur ki, normal fəaliyyət göstərmək üçün, illik limit kvartallara və aylara bölünür…

İnsan ömrü də buna bənzəyir. Dünyaya gələrkən bizə sevinc və kədər limiti ayrılır. İnsan ona verilmiş zamanı (ömrü)

bu limit olmadan yaşaya bilməz. Bunların tezliklə xərclənib qurtarması, insan ömrünün bitməsinə səbəb olur. "Yunis" surəsində də Yaradan məhz buna işarə vurur: *"Əgər Allah insanlara xeyri tezliklə istədikləri kimi, şəri də o tezlikdə versəydi, şübhəsiz ki, əcəlləri çoxdan tamam olmuşdu...*" Yəni, ömrümüzün əvvəlində çox sevinc yaşamaq istəyiriksə, bunu sonrakı illərin hesabına edə bilərik. Zaman sevinc və kədərsiz mövcud olmadığına görə, həmin limiti xərclənmiş illərə çatdıqda artıq insan yaşaya bilməz (necə ki, təşkilat maliyyəsiz fəaliyyət göstərmir). Bu da ömrün gödəlməsinə və tez bitməsinə səbəb olur.

Yeri gəlmişkən, qeyd edim ki, limit məsələsi insanın daxili orqanlarına da aiddir. Məsələn, insan orqanizminin nasosu funksiyasını yerinə yetirən ürək, təxmini hesablamalara görə ömür boyu 2,5 milyard dəfə döyünür. Bu, bir insanın ürəyinə ayrılmış limitdir. Bu limit başa çatdıqda ürək dayanır və insanın həyatı bitir.

Bəs necə olur ki, bir insan məsələn, əlli, digəri isə, yüz il yaşayır? Araşdırmalarımız göstərir ki, bu, ürəyin döyünmə sürətindən aslıdır. Yəni, 2,5 milyard döyünmə limitini ürək əlli ilə başa çatdırırsa, insan 50 yaşında, yüz ilə başa çatdırırsa, 100 yaşında ömrünü tamamlayır.

Psixoloji araşdırmalarımız göstərir ki, çox yaşayan insanlar buna əsəblərinin sakit olması ilə nail olurlar. Çünki, əsəb sakit olduqca, ürək normal döyünür və ona ayrılmış limiti daha uzun müddətə başa vurur. Ailədə həyat yoldaşı deyingən və əsəbi olarsa, bu da kişinin ürək ritminin sürətlənmə-

sinə və ömrünün gödəlməsinə səbəb olur. Odur ki, əsəbləşməmək və əsəbi adamlardan da uzaq gəzmək lazımdır.

*Müəllif: – İsanın yaranmasını, ağacların bar verməsini və xəstəliklərin müalicəsini küləklə əlaqələndirirsinz...*

**Paşa Yaqub:** – Pasiyentlərimdən biri söhbət edir ki, bu yaxınlarda kliniki ölüm keçirərək, o biri dünyaya düşdüm. Orada mənə bir çox hikmətlərin sirlərini izah etdilər ki, onlardan biri də yellə (küləklə) bağlıdır. Belə ki, orada küləyi "rəncbər" (toxumsəpən) adlandırdılar. Çünki, külək olmasa bitkilərin və ağacların toxumları yayılmaz və ruzi-bərəkət olmaz. Bütün bunların səbəbkarı yeldir.

Burada İsa Peyğəmbərin yaradılış sirrini də xatırlamaq yerinə düşərdi. Belə ki, İsa Əleyhissalamın da küləklə (üfürməklə) yarandığı "Quran"da öz əksini tapıb.

***"Belə olduqda, Rəbbi Məryəmi yaxşı qəbul etdi, onu gözəl bir fidan** (!) **kimi böyütdü..."*** "İmran ailəsi" surəsi, 37.

Burada fidan (bitki) kəlməsi Məryəmin gələcəkdə İsaya bitkilərdə olduğu kimi (tozlanma üsulu ilə) hamilə qalmasına işarə verdi.

Qurani-Kərimin "Məryəm" surəsində isə, allah-taala buyurur:

***"**(Cəbrayıl:)* ***"Mən sənə ancaq təmiz** (məsum)* ***bir oğlan bağışlamaq üçün Rəbbinin** (göndərdiyi)* ***elçisiyəm!" – dedi".***

***Məryəm dedi: "Mənim necə oğlum ola bilər ki, mənə indiyədək bir insan əli belə toxunmamışdır. Mən zinakar da deyiləm!"***

*(Cəbrayıl)* ***dedi: "Elədir, lakin Rəbbin buyurdu ki, bu Mənim üçün asandır. Biz onu insanlar üçün qüdrətimizə dəlalət edən bir möcüzə, sənə və möminlərə isə, dərgahımızdan bir mərhəmət olaraq edəcəyik. Bu, əzəldən təqdir olunmuş bir hökmdür!"***

***Məryəm artıq Cəbrayılın üfürməsi*** *(!)* ***ilə İsaya hamilə oldu və onunla*** *(bətnindəki uşaqla)* ***birlikdə uzaq bir yerə*** *(xəlvətə)* ***çəkildi...".*** *"Məryəm" surəsi, 19-20-21-ci ayələr.*

Ayələrdən görünür ki, Həzrəti İsanın yaranma prosesi, bitkilərin tozlanma yolu ilə çoxalma prosesi ilə üst-üstə düşür. Bu da "Nuh" surəsində keçən və yaradılışdan bəhs edən:

***"Və Allah sizi*** *(atanız Adəmi)* ***yerdən*** *(torpaqdan)* ***bir bitki kimi göyərtdi"*** – ayəsini bir daha təsdiq edir.

Küləkdən (yeldən) və üfürməkdən söz düşmüşkən, yazılarımın birində xəstəliklərin elmi-lədun üsulu ilə diaqnozu və müalicəsindən bəhs etmişdim. Bildirmişdim ki, psixologiya ilə elmi-lədunu birləşdirib istənilən ağır xəstəliyə diaqnoz qoymaq və müalicə etmək mümkündür. Mövzuya əlavə olaraq onu da qeyd etmək yerinə düşər ki, elmi-lədun üsulu ilə mənə öyrədilən müalicə üsulunun da kökündə elə üfürmək dayanır. Yəni, İsanın yaranmasında və meyvələrin bar verməsində olduğu kimi, xəstəliklərin müalicəsində də üfürmə üsulundan istifadə edilir (bunu pasiyentlərim görüblər). Bu vaxt məndən ayrılan Efir enerjisi külək vasitəsi ilə pasiyentə daxil olur və ondakı bütün neqativ enerjini yox edir. Bunun nəticəsi olaraq bədəndə olan bütün ağrılar 5-10 dəqiqəyə yoxa çıxır. Beləliklə, psixoloqların və terapevtlərin

tətbiq etdikləri müalicə esulları ilə bir neçə aya, yaxud, ilə sağalan (və yaxud, sağalmayan) xəstəlikləri üfürmə (küləklə ötürülən enerji) üsulu ilə bir neçə seansa sağaltmaq mümkün olur. Videoseans etdiyim pasiyentlərə bu enerji dalğalar şəklində ötürülür və xəstəninn bədənində olan ağrılar həmən yoxa çıxır. Bir neçə seansdan sonra təkrar müayinə aparatlarından keçdikdə, xəstəliklərdən, yaralardan və yaxud, pataloji hallardan əsər-əlamət qamadığı aydın görünür. Məndən qabaq bu qabiliyyət İmam Hüseyn əlehissalamda olub. O da hansı xəstəyə üfürərmişsə xəstə həmən şəfa taparmış.

*Müəllif: – Deyirsiniz ki, "Dövlət də insan kimi canlıdır-Doğular, böyüyər, yaşlanar və ölər" Bu necə baş verir?*

**Paşa Yaqub:** – Orta əsrlərdə yaşamış təcrübəli dövlət xadimi və tarixçi İbn Xəlduna görə, dövlətlər də insanlar kimi doğular, böyüyər, yaşlanar və ölər. Buna görə də o, dövlətin keçirdiyi mərhələləri 5 yerə ayırır.

Birinci mərhələ fəth və quruluş mərhələsidir. Bu mərhələdə oturaq bir rəhbərliyin əlindən hərbi güclə iqtidar ələ keçirilir. Əsəbiyyə bağlarının çox güclü olduğu, hökmdarların bir kraldan daha çox bir başçı olduğu mərhələdir.

İkinci mərhələdə hökmdar iqtidarı inhisarlaşdırmağa başlayır. Bunun üçün özünün başa keçməsinə kömək edən təbii həmrəylikdə "təmizlik" aparmağa başlayar, onun gücünə ortaq olanları yox edər, birbaşa özünə bağlı olan muzdlu döyüşçü və bürokratlardan təşkil olunmuş bir əhatə yaratmağa başlayar. Bundan başqa mütəfəkkirlərdən ibarət məsləhətçiləri olar.

İbn Xəldunun düşüncəsincə, mütəfəkkirlər ən pis siyasi məsləhətçilərdir. Siyasi hadisələri ayrıca görmək yerinə bir-biri ilə müqayisə edərək gördükləri üçün, mənfi siyasi məsləhətlər verə bilirlər.

İbn Xəlduna görə hökmdarlara əsl yararlı məsləhətləri "orta bir zəkaya sahib olan fövqəladə şəxslər" verirlər.

Üçüncü mərhələ iqtisadi rifahın artdığı, mədəni ünsürlərin inkişaf etdiyi bir yüksəliş, ya da dəbdəbə mərhələsidir. Bu mərhələdə hökmdar şəxsi gəlirini artırmaq, tabeliyində olanların vergilərini azaldaraq dövlətin maliyyə mənbələrini artırmaq və yenidən düzəltmək, şəhərləri gözəlləşdirmək üçün çalışır. Hər kəs iqtisadi rifahdan öz payını alır, sənətkarlıq və elm inkişaf edir, hakim təbəqələr özlərini mədəni layihələrin qoruyucuları olaraq göstərərlər. Rifah və sərbəstlik dövlətin suveren vəziyyətinə çevrilər.

Dördüncü mərhələ doymaq, təmin və özünü bəyənmək mərhələsidir. Sabitlik və sülhün hakim olduğu, idarə etmədə yenilikçi heç bir təşəbbüsün olmadığı, əvvəlki idarəetmənin təqlid edildiyi və bundan imtina etmənin dövlətin dağılmasına səbəb olduğuna inanılan bir mərhələdir.

Həm idarə edənlər, həm də idarə olunanlar bu sabitlik və rifahın əbədi olacağına inanarlar. Dövlət qurucularının gücü və uğurlarına görə bu mərhələ çox uzun müddət davam edə bilər. Ancaq bu mərhələdə hiss olunmadan geriləmə, dağılma başlayır və dövlət sonuncu mərhələ olan "eyş-işrət və israf" mərhələsinə keçir.

Sonuncu mərhələ eyş-işrət və israf mərhələsidir.

Bu mərhələdə hökmdarların iqtisadi və toplum hadisələrini şəxsi arzuları ilə idarə etməyə çalışması ilə dövlətdə sağalması mümkün olmayan xəstəliklər meydana çıxır.

Hökmdar sahib olduğu lüks həyatı, ordunu və bürokratları saxlamaq üçün vergiləri artırmağa məcbur olur. Artan vergi iqtisadi fəaliyyətlərin azalmasına səbəb olur və hökmdarın məqsədinin əksinə olaraq, dövlətin gəlirləri azalır. Dövlətin gözləmələri zəifləyər və ümidsizlik yayılar. İqtisadi fəaliyyətlər dayanar və insanlar uzunmüddətli planlara girişməzlər. Doğum həddi aşağı düşər, əhalisi çox olan şəhərlərdə sıxlıq və ekoloji problemlər ortaya çıxar. Dövlət dağılmağa başlayar. Mərkəzdən uzaqda yerləşən valilər, generallar, şahzadələr, ya da başqa dövlətlər dövlətdən torpaq parçaları əldə etməyə başlayarlar. Paytaxtda da ordu və bürokratlar hökmdarın nüfuzunu ələ keçirməyə, hökmdarı sadəcə “oyuncağa çevirməyə başlayarlar. Nəticədə xaricdən gələn və əsəbiyyəsi güclü gənc və sağlam bir topluluq dövləti zəbt edər və çürümüş quruluşu yox edib yenisini qurarlar.

Hər dövlət bu mərhələləri yaşayar və bunlar dövri olaraq həmişə təkrarlanar. Göründüyü kimi, bir mərhələdən digərinə keçid  ictimai quruluşdakı təbii güclərlə izah olunur. İbn Xəlduna görə bu proses bir ictimai qanundur və şəxslərin iradəsinə tabe olmaz.

*Müəllif: – Salvador Dalinin əsərində təsvir edilən xilaskar kimdir?*

**Paşa Yaqub:** – Məşhur rəssam Salvador Dalinin “Geopolitik uşaq yeni insanın doğumunu seyr edir” adlı əsərində kodlaşdırılmış formada bu mövzuda informasiya ötürüb.



Məşhur kahin Nostradamus da bu mövzuda kəhanətlər yazıb, indi yaşadığımız dövrdə meydana çıxacaq Xilaskarın (Pangeistin) əlamətlərindən bəhs edib.

Nostradamus Yaxın Şərq mənşəli bir Mehdinin (Xilaskarın, Pangeistin) Asiyada meydana çıxacağını və onun gəlişilə, dünyanın Qızıl Çağa girəcəyini söyləyir. Məşhur kahin Mehdidən kitabın onuncu dərsinin 75-ci dördlüyündə bəhs edərək söyləyir:

"Uzun müddətdir gözlənilən adam heç dönməyəcək Avropaya;

Asiyada ortaya çıxacaq;

Hermesin Birliyindən gələn biri;

Şərqin bütün krallarının üstündə səslənilləcək".

Şifrə şərhçiləri bunu belə şərh edirlər: "Kahin "gözlənilən adam" dedikdə Mehdini nəzərdə tutur, və Mehdi (Xilaskar) Asiyada ortaya çıxacaq".

Hinduların müqəddəs kitablarında da xilaskarın zühuru haqqında müjdələr var. Bu kitablarda deyilir:

"Dördüncü dövrün axırlarında yer əhli fəsada çəkilər və onların əksəri kafir olar. Onlar böyük günahlar edərlər və hakimləri alçaq bir şəxs olar. Həmin dövrün insanları bir-birini yırtan canavara bənzəyər. Kahinlər və din adamları yolunu azar, haqq oğruların əlinə düşər, təqvalı və zahid insanlar alçaldılar...

Həmin vaxt "Brəhman Kəla", yəni şücaətli bir dindar zühur edər və öz elmi ilə yer üzündə fəsadın kökünü kəsər. O pak insanları hifz edəcək".

"Şakomuni" kitabında deyilir: "Dünya hakimiyyəti aləmin yaranmışlarının ağası nəslindən olan böyük "Kəşnin" əlinə keçəcək. O, Şərq və Qərb dağlarına hakim olacaq. Bütün İlahi dinlər bir dinlə əvəz olacaq. Adı Qaim olan bu şəxs Allahın dinini canlandıracaq".

Hindu kitablarından olan "Vişn-cok" kitabında yazılır: "Dünyanın sonunda hakimiyyət Allahı sevən və Onun xalis bəndələrindən olan bir şəxsin əlinə keçəcək. Onun adı Xoşbəxtdir".

Hindu kitablarından olan “Bask” kitabında yazılır: “Dünya həyatı adi bir şəxsin hakimiyyəti ilə tamamlanacaq. O, mələklərin, cin və insanların rəhbəridir. Haqq onunladır. O, suya, quruya, dağlara hakim olacaq. Göylərdə və yerdə olandan xəbər verəcək. Ondan böyüyü dünyaya gəlməmişdir”.

“Upanişad” kitabında deyilir: “O, dünyanın axırlarında zühur edər. Quyruqlu ulduz tək işıq saçar. Bütün rəzil insanları həlak edər, yeni bir həyat qurar. Paklığı yer üzünə qaytarar”.

Məşhur rəssam Salvador Dalinin əsərində təsvir etdiyi, Azərbaycanda meydana çıxacaq Xilaskar (pangeist, sülhyaradan) haqqında neçə əsr qabaq yaşamış bir çox kahinlər və münəccimlər də xəbər vermişlər.

Bəs xəbər verilən Xilaskar (Mehdi, Pangeist) nə vaxt gələcək?

“Pisliyin yaxşılıqla döyüşü” ilə əlaqədar Nostradamusun kral II Henriyə yazdığı məktubu araşdıran Pendiriyə məktubun son sətirlərinə diqqət çəkir: “Bu gün və bir az zaman sonrası yox olacaq. Bu, uzun sürən dövrdən sonra, Saturnun səltənəti, Qızıl Çağ yenidən başlayacaq. Qullarının ağrısını hiss edən Yaradan, Şeytanı dibsiz quyunun dərinliklərinə atacaq. Daha sonra Allah ilə insan arasında universal bir sülh başlanacaq. Və Şeytan illər boyunca orada bağlı qalacaq. Və daha sonra bağlarından qurtulacaq”.

Burada diqqət çəkən məqamlardan biri üçüncü sətirdə Xilaskarın *“Hermesin Birliyindən gələn biri”* kimi xəbər verilməsidir.

Bildiyimiz kimi, Hermes Misir mifologiyasında "Tanrının mesajçısı"dır. Yəni, Nostradamus Asiyada ortaya çıxacaq bu liderin əslində Orta Şərq - Misir tarixinə bağlı olacağını bildirmiş olur.

Araşdırmalarımız göstərir ki, "Hermes" Misir dilində İdris Peyğəmbərin adıdır.

Məlum olduğu kimi, İdrisin əsl-nəsəbi dörd nəsillə Şis Peyğəmbərə yetişir. İbn Əsir yazır ki, Adəm dünyadan gedəndə İdrisin 368 yaşı vardı. Onun ivrit dilində adı Xunux, ərəbcədə isə Uxnux kimi tələffüz olunur. Bəzi tədqiqatlara görə, Yunan hikmət alimləri onun adını Hirmisül, yaxud, həkim Hirmis qoymuşlar. Hirmis ərəbcə olub, yunanca "İrmis" Merkuri ulduzu mənasındadır. Onun anadan olduğu şəhəri bəziləri Babil, bəziləri isə qədim Misirin paytaxtı Mənəf şəhərinin olduğunu qeyd edirlər.

Nübüvvət mənsəbi Əbul-bəşər Adəm və onun övladı Şisdən sonra bütün xüsusiyyətlər, İsmi-əzəm və vəsiyyətnamə ilə ona yetişdi. Əbdül Vəhhab Nəccarın "Qisəsül-ənbiya" kitabında İdrisin Misirə gəlməsi, orada məskunlaşması və camaatı haqqa dəvət etməsi yazılır. Əlavə edir ki, o dövrün camaatı yetmiş iki dildə danışırdılar və allah-taala bütün bunları ona öyrətdi. İdris də siyasət, şəhər idarəetmə və ölkə qayda-qanunlarını camaata öyrətdi. Həmçinin şəhərsalma yollarını da onlara öyrətdi. Bunun nəticəsində yer kürrəsində 188 şəhər salındı və onların ən kiçiyi Rəha şəhəri idi.

İdris camaatı Allahın dininə, yeganəliyinə və Ona ibadət etməyə dəvət edərək deyirdi: "Bu dünyada yaxşı, saleh əməl axirətdə Onun əzabından qurtuluşa səbəbdir".

O, camaatı dünyada zöhdlə yaşamağa və ədaləti bərqərar etməyə çağırırdı. Həmçinin, onları müəyyən vaxtlarda namaz qılmağa, müəyyən günlərdə oruc tutmağa, düşmənlərə qarşı cihad etməyə, zəkat verməyə, zəiflərə kömək etməyə, cənabətdən paklığa, it və donuz kimi heyvanlardan çəkinməyə, məstedici içkilərdən uzaq olmağa və s. kimi haram şeylərdən çəkinməyi əmr edirdi. Onlar üçün bəzi bayramlar da təyin etmişdi ki, onlarda qurban kəssinlər. O, özündən sonra gələn peyğəmbəri müjdə verib onun nişanələrini camaata çatdırdı və camaatı üç təbəqəyə - kahinlər, əmirlər və rəiyyətə bölmüşdü.

Tarixdə İdris peyğəmbərin ən böyük peyğəmbərlərdən olması və allah-taalanın bütün mənəvi, zahiri və batini nemətləri onda toplaması qeyd olunur. Nübüvvət mənsəbindən əlavə, zahirdə də qüdrət və əzəmətə çatması, camaatın ona hökmran kimi itaət etməsi və böyük hörmətlə yanaşması yazılır.

Belə rəvayət olunur ki, İdrisin dövründə zalım bir padşah yaşayırdı. O zorla camaatın əkin sahələrini və mal-dövlətlərini əlindən almışdı. Onun gözəl bir qadını var idi və işlərini onunla məsləhət edir, onun dediyi ilə rəftar edirdi. Bir gün zülmləri səbəbindən İdrisin nifrətinə giriftar oldular. Padşah özü, o gözəl qadını və bütün tabeçiləri naümid oldular. İllər boyu camaata qıtlıq üz verdi...

Tarixi mənbələrdə xəbər verilir ki, "İdrisin boyu hündür, sinəsi geniş, səsi alçaq, danışığı sakit və yeriyəndə addımlarını qısa atırdı... O, paltar tikən ilk şəxs idi və hər vaxt iynə

vuranda Allaha təsbih edir, onun böyüklüyünü və birliyini xatırladırdı. Hər gün camaatın yaxşı əməl etməklərinə baxmayaraq, onun əməlləri asimana qalxırdı”.

O dövrdə mələklər yerə enib camaatla əl verib salamlaşır və söhbət edirdilər. Bu, onların saleh, pak və layiqli bəndə olmalarından irəli gəlirdi. Bu vəziyyət həzrət Nuha qədər davam etdi. Ondan sonra artıq camaat mələkləri görmədilər.

İmam Sadiq (ə) Səhlə məscidinin fəziləti barəsində buyurur: “Hər vaxt Kufəyə getdiniz, hökmən Səhlə məscidinə gedib namaz qılın və Allahdan öz istəklərinizi diləyin, çünki, Səhlə məscidi İdris Peyğəmbərin evi idi və orada dərzilik edib namaz qılardı”.

Sual yaranır: bütün dinlərin, kahinlərin, öngörücülərin xəbər verdikləri Xilaskarı (Mehdini, Pangeisti) Nostradamus niyə İdris Peyğəmbərə bağlı olacağını xəbər verir?

Tarixi mənbələrdə onun İdris adlandırılması həddən artıq dərs və kitabla məşğul olması ilə əlaqədardır. Tarix və rəvayətlərə görə ilk yazı yazan, paltar tikən və dərzilik öyrədən şəxs İdris idi. Ondan qabaq insanlar özlərini heyvan dəriləri ilə örtürdülər. O, bir çox elmlərin - nücüm (münəccimlik), hesab (cəbr), həndəsə, heyət (astronomiya) və s. elmlərin mənşəyi və ilk müəllimi hesab olunur. İdris bunları heç yerdən oxumurdu (çünki, o dövrdə kitab yox idi), o, bunları elmi-lədun yolu ilə mənimsəyirdi. Yəni, Allahdan gələn vəhylərlə mənimsəyirdi və yazaraq insanlara öyrədirdi. Ona görə də bu elmlərin ilk mənbəyi İdris Peyğəmbər sayılırdı.

Müasir dövrdə meydana çıxacaq Xilaskarın da (Pangeistin) elm cəhətdən İdris əleyhissalama oxşaması onun elmi-lədun sahibi olacağına işarə verməklə, həm də İdris və ondan sonra gələn bütün Peyğəmbərlərin missiyalarını davam etdirəcəyini bildirir.

*Müəllif: – Ruh barədə nə deyə bilərsiniz?*

**Paşa Yaqub:** – Ruh kompüter proqramı kimidir. Elmi-lədun araşdırmalarımız, ruhda sonsuz sayda funksiyalar olduğunu göstərir. Bunları açmaq qadağan olduğundan, qısaca ruhun bir xüsusiyyətini izah etmək istərdik. Ruh bir missiyadır. Ruh, həm də, kompüterə yüklənmiş proqrama bənzəyir ki, eyni proqramı iki kompüterə yükləməklə o kompüterləri eyniləşdirmək (eyni missiyanın daşıyıcısına çevirmək) mümkündür. Bildiyimiz kimi, kompyuter insanın "alt kopyası" olaraq yaradılıb. "Alt kopya"ları proqramlarla eyniləşdirmək mümkün olduğu kimi, "üst kopya"ları (insanları) da ruhlarla (missiyalarla) eyniləşdirmək mümkündür (bu barədə bundan artıq deməyə ixtiyarım yoxdur, necə istəyirsiniz elə də qavrayın).

Qısa olaraq onu bildirək ki, zühuru bu dövrdə gözlənilən Xilaskar əslində İdris Peyğəmbərdən üzü bəri bütün peyğəmbərlərin (o cümlədən İsanın) və imamların (o cümlədən 12-ci İmam Mehdinin) missiyasının davamçısıdır. Eyni zamanda, onların elmilə (elmi-lədunla) yüklənmiş olacaqdır.

O ki, qaldı həmin Xilaskarın bəşəriyyəti hansı ideya ətrafında birləşdirəcəyinə, ötən yazılarımızda qeyd etdiyimiz kimi, bu ideya Pangeya ideyası olacaqdır. Yəni, Azərbay-

canda meydana çıxacaq bu şəxs, Yerin başlanğıc materiki olan və birlik, bütövlük rəmzi sayılan Pangeya ideyasını irəli sürərək, bütün insanları bu ideya ətrafında birləşdirəcək. Beləliklə də Yer kürəsində sülh, əmin-amanlıq, insanlıq bərqərar olacaq ki, bu səbəbdən Allah Öz bərəkətini yenidən Yerə yağdıracaqdır (hansı ki, bu bərəkət indi Yerdən çəkilib).

Həmin dövrdə mədəniyyət və incəsənət indikindən güclü inkişaf edəcəkdir. Belə ki, tikilən binalar insanlara, heyvanlara və ağaclara bənzəyəcəkdir. Yəni, memarlıq o qədər güclü inkişaf edəcək ki, istənilən görkəmli adama bənzəyən, sevdiyiniz heyvana, yaxud, xoşladığınız ağaca, gülə bənzər binalar sifariş edib, tikdirə biləcəksiniz...

*Müəllif: – Pangeizmə görə erməniyə qardaş demək olarmı?*

**Paşa Yaqub:** – Bildirirəm ki, qatilin milliyyəti yoxdur. Qatilə qardaş demək olmaz. Ümumiyyətlə, vurğulamaq istəyirəm ki, Pangeizmdə millət yoxdur, İNSAN var. Yəni, insanlığı olan hər bir kəs, hansı millətə mənsub olmasından asılı olmayaraq, bizim qardaşımızdır.

***"De: "Ey insanlar! Artıq Rəbbinizdən sizə haqq*** *(Peyğəmbər, yol göstərən)* ***gəlmişdir. Doğru yolu tutan özünə savab, doğru yoldan azan isə, özünə günah qazanar. Mən sizə zamin deyiləm!"*** *"Quran", 10:108.*

*Müəllif: – Yazırsınız ki, "gül əkin, gül becərin". Burada nə kimi hikmət var?*

**Paşa Yaqub: –** Bu tövsiyə Nostradamusun kitabında yer alır. Amma, niyəsini yazmır. Belə ki, insan oğlunun məşğul olduğu sahə mütləq onun xarakterinə təsir edir. Bunu adi

həyatda, istənilən peşə sahiblərinə diqqətlə nəzər saldıqda aydın görmək mümkündür.

Bu mənada insan hər gün vaxtının bir neçə saatını gül bəsləməyə sərf edərsə, bir neçə ildən sonra güldə olan zərifliyi, gözəlliyi, təravəti, ətri həmin adamın xarakterində müşahidə etmək mümkündür.

Nostradamus bu deyimlə qadınları da nəzərdə tuta bilərdi. Çünki, təbiətin gözəlliyi gül-çiçək olduğu kimi, cəmiyyətin də gözəlliyi qadınlardır. Onlarla da təmas insana (kişiyə) nəvaziş, incəlik təlqin edir (qadın olmayan kollektivlərdə həmişə kobudluq hökm sürür).

Nostradamus bu deyimlə övladlara da işarə vura bilərdi. Çünki, onlar da bizim gül balalarımızdır və onlarla da təmas insanın xarakterinə müsbət təsir edir. Övladın qoxusu hər bir valideyn üçün əvəzolunmaz ətirdir.

*Müəllif: – Qiyamət gününün yaxınlaşmasının əlamətləri necədir? İnsanlara nə məsləhət görərdiniz?*

**Paşa Yaqub:** – Torpağın bərəkəti çəkiləcək, insanlar əsir düşəcək, xəstəliklər tüğyan edəcək;

Aralarında mübahisə düşən iki nəfər hakimlərə müraciət edə bilər. Hakimlər onları dinləyib haqlı tərəfə bəraət qazandırmalı, təqsirkarı cəzalandırmalıdır. Ədalətsizliyə yol verməyin.

Ata-anasına sayğısızlıq göstərənə lənət olsun!

Qonşusunun sərhədini dəyişdirənə lənət olsun!

Koru azdırana lənət olsun!

Qəribin, yetimin, dulun işinə baxarkən ədaləti pozana lənət olsun!

Atasının arvadı ilə yaxınlıq edib atasının şərəfini ləkələyənə lənət olsun!

Heyvanla cinsi əlaqəyə girənə lənət olsun!

Doğma bacısıyla, atabir bacısıyla, anabir bacısıyla yaxınlıq edənə lənət olsun!

Qayınanasıyla yaxınlıq edənə lənət olsun!

Pusqu qurub soydaşını öldürənə lənət olsun!

Rüşvət alıb günahsız qan tökənə lənət olsun!

Əgər bu gün sizə verdiyim nəsihətlərin hamısına dəqiqliklə əməl edib, Yaradanın sözünə qulaq assanız, Yaradan sizi bütün xalqlardan üstün edəcək.

Yaradanın sözünə həmişə qulaq assanız, bütün bu nemətlər başınızdan töküləcək: şəhərdə də, tarlada da xeyir-bərəkətiniz aşıb-daşacaq; övladlarınız çox, torpağınızın bəhrəsi bol olacaq, heyvanlarınızın balaları, buzovlarınız, quzularınız saya gəlməyəcək. Səbətləriniz, xəmir təknələriniz bərəkətli olacaq. Hər işiniz avand olacaq. Yaradan anbarlarınızı bərəkətli, əl atdığınız hər işi xeyirli edəcək. Yaradan sizə verdiyi diyarda üstünüzə bolluca xeyir-bərəkət yağdıracaq. Yaradanın əmrlərinə riayət edib Onun yolu ilə getsəniz, Yaradan siz sülhsevərləri (pangeistləri) müqəddəs xalq edəcək.

Yaradan mal-heyvanınızı birə-beş artıracaq, torpağınızı məhsuldar edəcək.

Yaradan Öz ruzi-bərəkət anbarının, göylərin qapısını açıb torpağınıza vaxtlı-vaxtında yağış yağdıracaq, əlinizin hər işinə bərəkət verəcək.

Siz bir çox xalqlara borc verəcəksiniz, özünüz isə borc üçün heç kimə ağız açmayacaqsınız. Əgər Yaradanının əmrlərinə, sizə tapşırdığı əmrlərə həmişə boyun əysəniz, Yaradan sizi quyruq deyil, baş edəcək; siz aşağıda deyil, yuxarıda olacaqsınız.

Yox əgər Yaradanın əmrlərinə qulaq asmasanız, bütün əmrlərə və qanunlara dəqiqliklə əməl etməsəniz, bu lənətlər sizi qarabaqara izləyib yaxanızdan yapışacaq:

Şəhərdə də, tarlada da lənətli olacaqsınız. Səbətləriniz xəmir təknələriniz lənətli olacaq. Övladlarınız da, torpağınızın bəhəri də, mal-heyvanınızın balaları da lənətli olacaq. Hər işiniz nəhs gətirəcək. Bəd əməllərinizə, Yaradanı unutduğunuza görə gördüyünüz hər işdən lənət, çaşqınlıq, cəza biçəcəksiniz; tez bir zamanda məhv olub yer üzündən yox olacaqsınız. Tutmağa getdiyiniz diyardan kökünüz tamamilə kəsilənəcən Yaradan azar salıb sizi qıracaq. Axırınıza çıxana qədər Yaradan canınıza vərəm, titrətmə, iltihab, qızdırma salacaq, üstünüzə qılınc göndərəcək. Səmum yelindən məhsulunuz yanacaq, onu kif basacaq. Başınızın üstündəki göylər misə, ayağınızın altındakı torpaq dəmirə dönəcək.

Başınıza yağış əvəzinə toz-torpaq yağdıracaq, siz məhv oluncaya qədər ölkələrinizdə belə olacaq.

Yer üzündə bütün məmləkətlər üçün dəhşət rəmzi olacaq.

Meyitinizi göydəki quşlar didəcək, yerdəki heyvanlar parçalayacaq, onları ürküdüb qovan olmayacaq.

Yaradan sizi çibanlarla, babasillə, və digər yeni xəstəliklərlə cəzalandıracaq, dərdinizə dərman tapılmayacaq.

Yaradan ağlınızı alacaq, gözünüzü kor edəcək, sizi çaşqınlığa salacaq.

Günün günorta çağı, zülmət məhbusu olan kor kimi, əllərinizi sürtə-sürtə gəzəcəksiniz. Bütün işləriniz tərs gətirəcək. Daim sizə fırıldaq gələcək, soyacaqlar, köməyiniz olmayacaq.

Nişanlandığınız qızı gəlib başqa kişi zorlayacaq.

Ev tikəcəksiniz, içində yaşamayacaqsınız.

Üzümlük salacaqsınız, bəhrəsindən dadmayacaqsınız.

Öküzünüzü gözünüzün qabağında kəsəcəklər, amma, ətindən bir tikə də yeməyəcəksiniz.

Gözünüz görə-görə miniyinizi oğurlayacaqlar, geri qaytaran olmayacaq.

Qoyun-quzunuzu düşmənlər aparacaq, hayınıza gələn olmayacaq.

Gözünüz baxa-baxa oğlunuzu, qızınızı yadellilər aparacaq.

Onların həsrəti sizi üzəcək, amma əliniz heç yana çatmayacaq.

Torpağınızın bəhrəsini, yığdığınız bütün məhsulu yadlar yeyəcək.

Daim aldanacaq və sıxışdırılacaqsınız.

Gördüklərinizdən başınıza hava gələcək.

Yaradan dizlərinizdə, ayaqlarınızda, təpədən dırnağadək bütün bədəninizdə ağrılı, sağalmaz çibanlar çıxaracaq.

Çox səpib, az biçəcəksiniz.

Məhsulunuzu çəyirtkələr yeyəcək.

Üzümlüklər salıb becərəcəksiniz, barından bir gilə belə, dərməyəcəksiniz. Qurdlar onun axırına çıxacaq.

Torpağınızın hər yerində zeytun ağacları olsa da, bədəninizə sürtməyə yağ tapmayacaqsınız, çünki bütün zeytunlar töküləcək.

Oğullarınız, qızlarınız olacaq, amma onları gözüdolusu görməyəcəksiniz, çünki əsir aparılacaqlar.

Ağaclarınıza, torpağınızın bəhərinə həşəratlar daraşacaq.

Aranızda yaşayan müharibəsevərlər yüksəldikcə yüksələcək, siz isə, alçala-alçala gedəcəksiniz. Siz ona yox, o, sizə borc verəcək. O, baş olacaq, siz isə quyruq.

Yaradanın sözünə qulaq asmadığınız, sizə buyurduğu qayda və qanunlara riayət etmədiyiniz üçün bütün bu lənətlər yaxanızdan yapışıb sizə zərbələr endirəcək, ta o vaxta qədər ki, tam məhv olasınız.

Bu lənətlər sizin də, övladlarınızın da üstündə bir nişan, bir əlamət olacaq. Ona görə ki, bolluqda yaşayanda Yaradana sevinclə, könül xoşluğu ilə qulluq etmədiniz.

Yaradan düşmənlərinizi üstünüzə göndərəcək. Ac-susuz, yarıçılpaq, hər şeydən korluq çəkə-çəkə onlara qulluq edəcəksiniz.

Yaradan orada ürəyinizi həyəcanla dolduracaq, gözlərinizin nurunu alacaq, sizi çarəsizliyə düçar edəcək.

Həyatınız tükdən asılı olacaq, gecəniz-gündüzünüz səksəkə içində keçəcək, bu gündən sabaha ümidiniz olmayacaq.

Qulaq verin, ey göylər, görün nə deyirəm!

Ey yer üzü, eşit ağzımdan çıxan kəlmələri!

Nəsihətim yağmur olub yağacaq, sözlərim şeh olub damacaq - çəmənliyə çiskinləyən narın yağışlar kimi, yaşıllığa tökülən leysanlar kimi.

Yaradanın böyüklüyünü vəsf edin! O, hər işi mükəmməl, bütün yolları haqq; nahaq iş görməyən etibarlı Allah Adildir, Haqqdır!

Haqdan öz çevirməyin!

*Müəllif: – Müayinə metodunuz necədir? Əllərinizlə nəsə edirsiz?*

**Paşa Yaqub:** – Xəstəni narahat edən səbəbləri soruşuram, ümumi energetik pozulmalara baxıram, keçdiyi analizləri, tibbi kağızları gətirə bilər. Onlara uyğun taktika seçirəm. Xəstəlik insana qorxu, narahatlıq, ağrı, depressiya verir, insanı haldan salır. Burada əsas metod hissiyyatdır. Efir enerjisi ilə işləyirəm. Xəstəliyin yaranma səbəbi olan neqativ enerjini aradan qaldırıram. Xəstə ilə yalnız söhbət edirəm, sözarası parollardan istifadə edirəm. Xəstə bədənində istilik, yüngülləşmə hiss edir. Yata bilməyən gedir yatır, depressiya çəkilir, sakitləşir, sanki xəstə özünə gəlir.

*Müəllif: – O parolları açıqlaya bilməzsiniz?*

**Paşa Yaqub:** – Bu, elə bir sirdir ki, açıqlaya bilmirəm. Desəm də nə xəstə, nə də siz başa düşəcəksiniz. Bu fizikadır, enerjidir. Lampanın içindəki işığı yaradan enerjini necə görmürsünüzsə, bu da elə. Tutaq ki, o vaxt müalicə edən seyidlərdən, övliyalardan da soruşsaydıq ki, nəyi necə edirsən, cavab verə bilməyəcəkdilər.

*Müəllif: – Neqativ enerji hansı orqanlara nüfuz edir?*

**Paşa Yaqub:** – Neqativ enerji birinci onurğanı, sinir sistemini zədələyir. Daha sonra ürək, mədə-bağırsaq, qızlarda ən çox uşaqlıq, yumurtalıq, cinsiyyət orqanlarına toxunur. Baxırsan gənc qızdır, əks cinsə həvəsi yoxdur, ya kişidir qadına qarşı marağı itir. Bilmir neyləsin. Deməli, neqativ enerji aşağı çanaq orqanlarında daha çoxdur.

*Müəllif: – Yaxşı, biz axı haradan, necə bu neqativ enerjiyə yoluxuruq?*

**Paşa Yaqub:** – Texnologiyaların inkişafı bizim efir bədənimizi neqativ üçün açıq qapı edib. İnsanı neqativlə yoluxduran birinci vasitə internetdir. Neqativ-virus kimidir, necə ki, kompüterin sisteminə düşür, eyni qaydada. Adam var anasından keçir, eləsi var öz qorxularından yaranır, eləsi var ki, kimsə bilərəkdən ona mənfi enerji göndərir: magiya yolu ilə, göz, nəfs, qarğış... Son zamanlar televiziya, internet, telefonda olan fotolar, videolar, kabus filmləri, neqativ xəbərlər insanı yükləyir. İnternetdə insanlara qadağan olunan paralel aləmə aid görüntülər çoxdur. Uşaqlar müasir cizgi filmlərindən yüklənir. Qorxulu, əcaib varlıqlar çoxdur cizgi filmlərində. Son zamanlar cinlərə aid kinolar çəkilir, cavanlar gedir baxır, sonra əsəbi olur, intihar barədə düşünür. İnsanlar profil şəklinə neqativ fotolar qoyur. Xəbərlərdə qan, ölüm, meyit şəkilləri çoxdur… Bunlar hamısı insanlara pis təsir edir.

Bir xəstəm var idi, neqativdən təmizləyirdim, yenə yüklənirdi, xəstələnirdi. Özüm də məəttəl qalmışdım. Sonra gördüm ki, facebookda bu qız ancaq cin şeytan şəkillər paylaşır. Ona görə təkrar yüklənirdi.

*Müəllif: – Həkimlər bu metodikaya nə deyir? Yəqin ki, qəbul etmirlər?*

**Paşa Yaqub:** – Niyə ki, həkim pasiyentlərim də çoxdur. Bilənlər öz yaxın adamlarını göndərir. Bəzən həkimin özünə də yardım lazımdır, amma təbii ki, bunu yad pasiyentlərə demirlər. Etiraz edənlər həmişə olur. Həkimlər tibbi oxuyub, orada nə yazılıb onu da icra edirlər. Mən cərrahın baş, ürək, ciyər dəyişməyinə, şişi kəsməyinə, əl-ayaq tikməyinə inanıram, amma terapevtik müalicənin effektivliyinə inanmıram. Çünki müasir tibbdə xəstənin başını yeni başla əvəz etmək daha asandır, nəinki miqren, baş ağrısını müalicə etmək. Nə qədər ki, kök (neqativ enerji) içəridədir, insan istəyir dünyanı gəzsin, istəyir bir aptek dərman içsin, hamısı müvəqqətidir. Həkimlər gözəl bilir ki, sinir sisteminin dərmanla müalicəsi mümkün deyil. Antidepressantlar beyini dondurur, insanı süst edir, yatırdır, dərman içməyi dayandıran kimi yenə əvvəlki qorxular qayıdır. Amma, mənim müalicələrim insanı aktivləşdirir, işləməyə, yaşamağa ruhlandırır. Problem bir daha geri qayıtmır.

*Müəllif: – Açıq deyək ki, bizim insanlar magiyaya meyillidir. Eləsi var çox çirkin işlər gördürür, eləsi var taleyi üçün gedir. Eləsi var mollaya dua yazdırır. Bunların bir faydası varmı və ya insanı neqativlə yükləyə bilərmi?*

**Paşa Yaqub:** – Bəli, bunlar da zərərlidir, hətta bütün ailəni məhv edir. Çoxu neqativdir. Evə gətirilən əşyalar, dualar, şamlar, hansısa magik rituallar insanı daha da ağırlaşdırır, xəstələndirir. O baxıcı, maqların özlərinə baxsanız görərsiz

ki, hamısı xəstədir, pis vəziyyətdədirlər. Elə mollalar da var ki, hansısa "Quran" ayəsi adı ilə dua yazıb verir, baxırsan ki, mənasızdır. Belə üsullarla neqativdən təmizlənmək olmur. Hər ərəbcə dua oxuyan enerji təmizləyə bilmir. Magiyanın yaxşısı olmur. Kimsə xeyir üçün, oğlu, qızı üçün gedir, belə şeylərə getməsinlər. Neqativ qüvvələrin təsirinə məruz qalırlar.

*Müəllif: – Neqativdən təmizləndikdən sonra yenidən yüklənmə olurmu?*

**Paşa Yaqub: –** Əgər yenidən neqativ enerji göndərməsələr, bir daha yoluxmaz.

*Müəllif: – Neqativ enerjili insanda nə baş verir və çıxış yolu nədədir?*

**Paşa Yaqub:** – Neqativ enerji insanı tez qocaldır, gözəlliyini alır, işləri yaxşı getmir, uğurları olmur, tənbəlləşir, əsəbi olur. Qızların qarşı tərəfə həvəsi, sevgisi olmur, həmçinin kişilərdə qadına qarşı istək azalır. Hər şeyə həvəssiz yanaşırlar. Neqativ enerji güclü ötürüləndə insanı depressiyaya salır və bəzi ağır hallarda intihara sövq edə bilir. Bir çıxış yolu var: mütəmadi, ildə 1-2 dəfə neqativ yükdən təmizlənmək. Təmizləndikdən sonra həyatına, fikirlərinə diqqət yetirsin. İnternetdə ağır görüntülərə baxmasın. Yaxşı əməllər, gözəl işlərlə məşğul olsun…

*Müəllif: – Metafizik qüvvələr nədir?*

**Paşa Yaqub**: – Cinlər. Bu varlıqlar insanların şüuraltına sanki bir virus kimi sirayət edirlər. İnsanları azdırırlar, fikirlərini qarışdırırlar. Əksər hallarda bu cadu ilə olur. Şər

qüvvələr ya cadu vasitəsilə, ya da ki, anadan keçməklə (anada olan neqativ enerji hamiləlik dövründə bətndəki körpəyə yoluxmaqla) gəlib insanlara müsəllət olurlar.

*Müəllif: – Sizin kimi düşünən psixoloq mində birdir. Axı, elm belə şeyləri xürafat adlandırır…*

**Paşa Yaqub**: **–** Onların şəxsi işidir. Mən heç kimi inandırmağa məcbur deyiləm. Amma, sizi inandırım ki, psixoloqların doxsan faizi bu dediyim məqamları qəbul edir, lakin, gizlədirlər. Baxsan, özləri dəfələrlə ekstrassenslərə müraciət ediblər. Mənim qəbuluma gələn psixoloqlar da çoxdur.

*Müəllif: – Belə çıxır ki, dəlixanada yatanlar "cinvurmuş"lardır?*

**Paşa Yaqub**: – Mən iddia edirəm və sözümün üstündə də dururam ki, dəlixanadakı psixi xəstələr məhz cinlərin qəzəbinə gəlmiş insanlardır. Fikir verin, onlar öz-özləri ilə danışırlar. Amma, əslində onların danışdıqları metafizik varlıqlardır.

*Müəllif: – Sizin qəbulunuza belə xəstələr gəlirmi?*

**Paşa Yaqub**: **–** Mənim qəbuluma hər növ insanlar gəlir, hər növ xəstəliklərlə müraciət edirlər. Bayaq da dedim ki, ən çox əsəb pozuntusu ilə bağlı müraciətlər olur. Mən də bu xəstəlikləri bir neçə seansa aradan qaldırıram. Bunu hər kəsə sübut etməyə hazıram. Hətta, inanmayanlara da dəfələrlə sübut etmişəm.

*Müəllif: – Bizdə insanın əməllərinə sağlığında dəyər verilmir. Siz mükafatınızı almısınızmı?*

**Paşa Yaqub**: – Bizdə heç kim sağlığında dəyərini ala

bilmir. Hamıya öləndən sonra qiymət verə bilirik. Mən heç kimdən mükafat gözləmirəm. Ən böyük mükafatımı Uca Allahdan almışam. Həm də qədirbilən xalqım, məni tanıyan cəmiyyət üzvləri həmişə dəyərləndirirlər.

*Müəllif: – Paşa doktor, Sizin kitablarınızın, məqalələrinizin xalqımız tərəfindən sevilə-sevilə oxunması, Sizin haqqınızda dəyərli insanların fikirləri ən böyük mükafatınız deyilmi?*

**Paşa Yaqub**: – Əlbəttə, bundan böyük mükafat olması qeyri-mümkündür. Bir neçə kitabım xəstələrimin maliyyə dəstəyi ilə ərsəyə gəlib.

*Müəllif: – Başqa hansı kitabınıza maliyyə dəstəyi olub?*

**Paşa Yaqub**: – "Övliyalar Ensiklopediyası" kitabımın 678 səhifəlik 1-ci cildi Mənəvi Dəyərlərin Təbliği Fondunun maliyyə dəstəyilə çap olundu.

*Müəllif: – Hansı xarici ölkələrdə Sizi tanıyırlar?*

**Paşa Yaqub: –** Demək olar ki, dünyanın bir çox ölkələrində - o cümlədən, Avropa, Amerika, Kanada, İtaliya, Almaniya, İngiltərə, Avstraliya kimi səhiyyəsi güclü inkişaf etmiş ölkələrdən; həmçinin, Türkiyə, Rusiya, İran, Orta Asiya ölkələrində pasiyentlərim var. Yollar açıq olanda onlar birbaşa qəbuluma gəlirdilər. Pandemiya səbəbindən yollar bağlandıqdan sonra xaricdəki pasiyentlərim seanslara videogörüntüylə qatılırlar. Koronavirus yayılandan sonra həm Azərbaycandan, həm də xaricdən yüzlərlə xəstəni bu ölümcül virusun cəngindən Allahın köməyi ilə qurtarmışam. Keçən il İtaliyadan bir pasiyentim qəbuluma gəlmişdi; ba-

ğırsaq sürüşməsindən əziyyət çəkirdi. Orada həkim dərman yazmışdı, demişdi bunu ömürlük içməlisən. O dərman da qara ciyərdə serroz yaradırdı. Hepetoloqa müraciət edib, o da həmin dərmanı içməyi qadağan etmişdi. İçməyəndə də bağırsaq dayanmırdı. Nəhayət, İtaliyadan gəldi mənim qəbuluma. Bir neçə seansdan sonra bağırsaq sürüşməsindən də xilas oldu, serrozdan da.

Moskvadan gələn bir pasiyentim isə, on yeddi il idi ki, nevropatoloqların, psixiatrların, psixoloqların arasında vurnuxurdu. Hərəsi 5-6 ay müalicə edib, nəticə almayanda o birinin üstünə göndərirdi. Beləliklə, 17 il idi ki, ürək sıxılmasından qurtula bilmirdi. Nəhayət, Moskvadan təyyarəyə minib, mənim qəbuluma gəldi. Elə birinci seansda ürək sıxılması keçdi. Həmin bu xanım valideynləri ilə gəlmişdi. Birdən ürəkdən şaqqanaq çəkib güldü. Sual verdim ki, yadına sal gör axırıncı dəfə nə vaxt belə ürəkdən gülmüsən? Bir az fikrə getdi, dedi ki, atamın canına and olsun ki, belə ürəkdən 17 il qabaq ata evində olarkən gülürdüm. Ondan sonra heç vaxt ürəkdən gülməmişəm, həmişə yalandan üzümdə gülüş ifadəsi yaratmışam. Sonra bir ifadə işlətdi, heş vaxt yadımdan çıxmır; dedi: *"Sən demə Moskvada həkim yox imiş"*.

Kanadadan videozəng edən bir pasiyentimin də diz oynağı yeyilmişdi. Dedi burda həkimlər deyir ki, oynaq elədir ki, sanki almanı dişləmisən elə yeyilib. Ağrıdan yeriyə bilmirdi. Orada həkimlər əməliyyat edib oynağı kəsmək və əvəzində süni oynaq qoymaq təklif etmişdilər. Məndən məsləhət istədi. Dedim əməliyyata ehtiyac yoxdur, sağaldaram səni. Bir

neçə dəfə videoseansa qatıldı. Aradan bir ildən çox keçib, hələ də oynaqda heç bir ağrı baş verməyib. Belə misalları çox çəkmək olar.

Çoxlarına inanmaq bəlkə də çətin olacaq, Londonda yaşayan və 10 ildir ailə qursa da, övladı olmayan bir xanımı videoseans etdim, endometrozu əridi və 5-6 seansdan sonra hamilə qaldı. Təcrübəmdə belə hallar çox olub.

*Müəllif: – Həyatınızdan razısınızmı? Bir də dünyaya gəlsəydiniz hansı peşəni seçərdiniz?*

**Paşa Yaqub: –** Həyatımdan və Allahımdan çox razıyam. Həkimlik peşəsi şərəfli peşədir.

*Müəllif: – Belə bir mərtəbəyə çatmaqda kimə borclusunuz?*

**Paşa Yaqub: –** Hər şey üçün Allahıma borcluyam.

*Müəllif: – Sizə can sağlığı, polad iradənizdən dönməzlik arzulayıram.*

**Paşa Yaqub:** – Deyirsiniz bu yaşımdan sonra iradəmdən dönərəm? Bu mümkünsüzdür.

*Müəllif: – (Gülərək:)Yox-yox arzu etdim ki, bir də aranıza satqın (agent) sala bilməsinlər.*

**Paşa Yaqub: –** Bu, bir dəfə olan işdir. Gənc idim. Hamını özüm kimi bilirdim. İnanırdım. Ağlıma da gətirə bilmədim ki, insanda bu boyda da maskalanmaq olar.

*Müəllif: – Mənim soruşmadığım daha nəyi demək istəyərdiniz? Yəni, hansı sualı Sizə verməyimi istəyərdiniz?*

**Paşa Yaqub: –** Nə deməyimi istəyirsiniz?

*Müəllif: –* ***Əfsanəvi Fonemen!***

**Paşa Yaqub:** – (*Gülümsəyir*)...

## TƏBİ DƏ RƏVANDIR...

Allah Paşa Yaquba həm də gözəl yaradıcılıq istedadı bəxş edib. O, bir çox şeirlərin, qəzəllərin və öz həyatından bəhs edən *“Pangeya”* romanının, eləcə də xeyli sayda hikmətli kəlamların müəllifidir. Bədii yaradıcılığını həm öz adıyla, həm də **Pangeist** təxəllüsüilə çap etdirir.

Paşa Yaqubun bədii yaradıcılığından bəzi nümunələri oxucularımıza təqdim edirik.

## BƏS AĞLAMAZMI?

*Şəhidlərimizin əziz xatirəsinə ithaf olunur*

*(Şair Səfərlə Paşa Yaqubun deyişməsi)*

**Səfər:**
Canan səni sevə yüz min naz ilə,
Əğyarə qalanda bəs ağlamazmı?
Baxça-bağ yetirən kamil bağbanın
Gülləri solanda bəs ağlamazmı?

**P. Y.:**
Fələk üzümüzə baxır qıyğacı,
Şirin həyatımız olubdur acı.
"Qardaş" deyib, nalə çəkən bir bacı
Saçların yolanda bəs ağlamazmı?

**Səfər:**
Həyətdə küllükdən düzəltsən təpə,
Fələk endirəcək hey səpə-səpə.
Ana həsrətini çəkən bir körpə
Gözləri dolanda bəs Ağlamazmı?

Fələk məğlub etdi yazıq Səfəri,
Bilmədi axşamı, nə də səhəri.
Şan-şöhrət içində keçən günləri
Yadına salanda bəs ağlamazmı?

**P. Y.:**
Paşanı anlamaz hər yoldan ötən,
"Ağlama" söyləyir ona hər yetən.
Gözləri önündə bu boyda VƏTƏN
Tarimar olanda bəs ağlamazmı?!

## AY BABA

*Babadağda ziyarətgahı olan*
*Həzrət Babaya ithaf olunur.*

Cəmi müsəlman adını
Müqəddəs tutur, ay Baba,
Sənin mübarək ruhun
Göylərdə uçur, ay Baba.

Bu dünyanın sərt çağında,
Qaldıq düşmən qabağında,
Qoyma kafir ayağında,
Bizə arxa dur, ay Baba.

Allahsızlar haqqı danır,
Şeytanı da Allah sanır,
Haqqın özü də tapdanır,
Nə yatmısan, dur, ay Baba.

Qarışıbdır quruyla yaş,
Naxələflər kəsirlər baş,
Bizə zamin olaydın kaş,
Çalınanda SUR, ay Baba.

# QƏZƏL

Hüsnünə mail oldum gördüyüm ilk andan səni,
Cürətim olmadı ki, edəm agah bundan səni.

İlahi qismət edib sənə gözəllik tacını,
Yaxşı ki, ayırmayıb sultandan, həm xandan səni.

Hurisən, pərisən, mələksən, bilmirəm ya nəsən[1],
Şükr Onun birliyinə, yaradıb hayandan səni?!

Sən güllər bağçasının açılmamış qönçəsisən,
Bülbül tək ilham alım o gül yanağından sənin.

Tanrı gərək soldurmasın öz verdiyi gözəlliyi,
Ölüncə mən dilərəm Böyük Yaradandan səni.

Nə ola, qismət ola, bir gün mehman olam sizə,
Qarşında səcdə edib, öpüm ayağından sənin.

Paşa, heç insaf olmur gözəl züleyxalarda,
Bu günün Yusifisən, gözləyir o zindan səni.

[1] Bu sətr Əliağa Vahidə məxsusdur

## KƏLƏMLARI DA HİKMƏTLİDİR...

***Paşa Yaqub həm də hikmətli kəlamları ilə məşhurdur. Onun hikmətli sözlərindən bir qismini oxuculara təqdim edirik:***

* Dəyişikliyə təhlükə kimi deyil, yeni imkanlar kimi baxın.
* Dünyanı yaxşılıq xilas edəcək.
* Yaradandan maddi şeylər diləməyin, maddini yaradan şeyləri diləyin!
* Yaradanın heç nəyə ehtiyacı yoxdur. Sizlər fanisiniz, sizin ehtiyacınız var-maddi  və qeyri maddi şeylərə.
* Cahil insan kal əncir kimidir - diyirlənib kökündən uzaqlaşar.
* Göydəki quşun hara uçacağı məlum olmadığı kimi, pis rəhbərin də nə edəcəyi (hansı addım atacağı) bilinməz.
* Pis rəhbər çürük diş kimidir.
* Dağ ancaq uzaqdan əzəmətli görünər.
* Həmişə bar verən ağac əkin ki, gələcək nəsillər onların bəhrədən fayda görsünlər və  sizə rəhmət oxusunlar.
* Gələcək elmli adamlara məxsusdur.
* Elmsizə gələcək keçmiş, keçmiş isə, gələcək kimidir.
* Bir gün ürəyinizcə yaşamaq, bir il əzabla yaşamaqdan üstündür.

*Torpağı məhsuldar olan ölkənin rəhbəri ədalətsiz olur. Çalışın, torpaqla uğraşarkən elmlənməyi də unutmayın ki, əməyinizi istismar etməsinlər. Haqqınızı elminizlə qoruyun.

* Ədalət bərpa olunduğu gün sülhün doğulduğu gündür.

* Müdrük insanın ürəyi tərəziyə bənzər və o heç bir şəxsin haqqına girməz.

* Əsəbləşmək, acizlik əlamətidir.

* Əsəb coşqunluğu olan insanın ən böyük dərmanı oruc tutmaq, təmiz havada gəzmək və xoş ünsiyyətdir.

* Bütün əsəbilə ətrafa atəş saçan insana veriləcək ən böyük cavab susmaqdır.

* Qənaətcil olun, israfçı və xəsis yox.

* Aza qənaət edə bilməyən çoxa da qənaət edə bilməz.

* Elə edin ki, pul sizin tanrınız yox, xidmətçiniz olsun.

* Cəmiyyətə faydalı olun ki, Yaradana qovuşanlardan olasınız.

* Kamil insanlar çeşməyə bənzəyərlər. Elə bir çeşmə ki, o susuzluqdan yanan dodaqların alovunu alan fərahlıq mərkəzidir.

* Hər bir şeydə gözəlliklər görməyə çalışın.

* Bütün insanlar, irqlər, dinlər bir kökdən yaranmışlar və bunları ayırmaq əti dırnaqdan ayırmağa bənzər.

* Həyat elə müəllimdir ki, heç bir tələbəsinə öz sirlərini təcrübəsiz öyrətməz.

* Sevgi səmimilik, qorxu isə tabeçilik yaradır.

* Ancaq elmlə, biliklə inkişaf etmək olar.

* Maşın yanacaqsız hərəkət etmədiyi kimi, insan da yaxşı əməlsiz yaşaya bilməz.

* Ehtiyatlı adam işini bilərək edər; ehtiyatsız isə, axmaqlığını sərgiləyər.

* Müdriklərlə dostluq edən də müdrik olar.

* Ağıl insanın mənəvi çəkisini artırar.

* Ağılsıza ağıl vermək balaları əlindən alınmış ayı ilə vuruşmaq kimidir.

* Sülhsevən insan çox yaşayar.

* İnsan ağlı, maşın sürəti, mal çəkisi ilə fərqlənər.

* Xoş söz pətəkdəki bal kimidir.

* Nəvələr babaların, ədalət də idarəedənlərin tacıdır.

* Müdrik insanın ağzından çıxan sözlər saf su kimidir.

* Dost var adamı uçuruma aparır, dost da var ki, doğma qardaşdan daha üstündür.

* Haram qazanılan pul adama dadlı gəlir, lakin, sonra insana xəstəlik gətirir.

* Gənclərin qüruru onların tərbiyəsi, yaşlıların qüruru isə, onların hökmü olmalıdır.

* Yoxsul oğlu elmlənərsə, o cahil varlıdan daha üstündür.

* İşinizdə usta olun ki, zirvələri fəth edəsiniz.

* Çalışın həmişə ağlınız hisslərinizdən üstün olsun.

* Qızıl zərgər üçün nədirsə, kitab da müdrik adam üçün məhz odur.

* Hər insanın içində bir Günəş var, imkan verin o parlasın.

* Çalışın cəhalətdən uzaq olun.

* Qızıl-gümüşə meyl etməyin, elmə meyl edin.

* Elm və bilik tükənməz xəzinədir.

* Elmlənin ki, sirlərdən agah olasınız.

* Beyin enerjiniz bütün məlumatların açarıdır.

* Öküzlə eşşəyi bir kotana qoşmayın.

* Allahı sevirsinizsə, insafdan üz çevirməyin.

* Ürəyiniz Yaradanın evidir, oranı təmiz saxlayın!

*Ağıldan və səbrdən faydalı heç bir sərvət yoxdur.

* Haqqı tələb edənlər haqqa boyun əyməlidir.

*Heç bir zaman “mən” deməyin, “biz” deməyin; daim “siz” deyin. Bu cümlədə böyük hikmətlər yatır.

*Təbiətdə hər şey hərəkətdədir. Çalışın daim hərəkətdə olun. (Fərqi yoxdur fiziki və ya zehni hərəkətdə). Kamilləşmək yalnız hərəkətlə mümkündür.

*Cəmiyyəti elə inkişaf etdirmək lazımdır ki, kömür parçası almaza çevrilsin, meyvəsiz ağac meyvə versin.

* İnsanlar arasında qarşılıqlı inam olsa, bir adamın barmağı belə qanamaz.

* Nə istəyirsinizsə, var gücünüzlə istəyin.

*Həqiqəti demək üçün nə yaşca böyükdən, nə də pulca sizdən artıq olandan çəkinməyin. Daim həqiqəti deyin. Onda bu xəstə cəmiyyətə dərman olarsınız.

# ROMAN

***Dünyanı yaxşılıq xilas edəcək.***

Əsrlər, minilliklər boyu insanlar dəhşətli müharibələrdən, savaşlardan keçərək, zaman-zaman sülh şəraitində yaşamış, zaman-zaman da savaşla vuruşaraq, nəsil-şəcərə ilə dövrümüzə gəlib çıxmışlar. Bu savaş və sülhlə sıralanan dünyada savad qazananlar qazandıqlarını cahilliklə sözün əsl mənasında mübarizə apararaq, illərin süzgəcindən süzülərək, insanlar vasitəsilə nəsillərə ötürmüş, öz dövr və zamanına görə təkamülləşərək, inkişafa dogru irəliləmişlər. Hər bir insan bu dünyaya bir missiya ilə gəlir. Kimi xeyiri, kimi şəri tərənnüm edir. Xeyir hər zaman qələbə qazananlardan olur. Atalarımızın dediyi kimi, “Haqq nazilir, lakin üzülmür” məsəlindəki kimi. Oxucuları qarşıda həyatdakı bütün çətinliklərə baxmayaraq, ancaq və ancaq xeyirin arxasınca səsləyən yazarın romanı sizlərə gözəl və sülhsevər mesajlar verərək, Dünyanın həqiqətən də xilaskarı yaxşılıq olduguna bir daha əmin olmaga cagıracaq.

Əziz oxucular! Sizlərə romanı oxuyarkən xoş anlar və bilgilər diləyirik. Romanın sonunda görüşənədək...

# PANGEYA
*(Roman)*

Soyuq bir qış günü bayırda iliyə işləyən bir sazaq, nəfəs kəsəcək külək var idi. Kəndin kənarında yerləşən məktəbin yuxarı sinfinin dərs otagında isə, bahar fəslini andıracaq bir istilik mehi, Günəş işıltısı bərq vururdu. İgid görkəmli İbrahimlə gözəllər gözəli Züleyxa eyni sinifdə oxuyurdular. Onlar hələ birinci sinifdən dost idilər. Böyüdükcə, bu dostluq özləri də bilmədən məhəbbətə çevrildi. Yuxarı sinfə keçəndən sonra isə, bu məhəbbət daha da alovlanaraq elə bir ülvi mərhələyə çatmışdı ki, onlar artıq bir-birlərindən ayrı qala bilmirdilər. Onlar üçün ən ağır və dözülməz günlər bazar günləri olurdu. Bu gün dərs olmadığından, onlar biri-birləri üçün darıxırdılar. İbrahim bazar günləri dərslərini hazırlayandan sonra, Züleyxagilin məhləsinə gələr, saatlarla orada oturardı ki, sevgilisi küçəyə çıxanda onu görsün. Bu, Züleyxaya da xoş gəlirdi, bir bəhanə tapıb, tez-tez küçəyə çıxırdı ki, İbrahimi görsün.

Beləcə, sevgi dolu, həsrət dolu illər ötüb keçirdi. Məktəbi bitirsələr də, bir birilərindən ayrı qala bilməyən sevgililər elə an olmurdu ki, xəyallarında belə görüşməsinlər. Fürsət tapdıqca da həyətdə görüşüb söhbətləşib, gələcək üçün planlar qurardılar.

Anası, Züleyxanın bu sevgisindən xəbərdar idi. Dəfələrlə qızına demişdi ki, atan səni İbrahimə vermiyəcək, çünki ata-babadan nəsillərimiz düşmən olublar...

İbrahim də bunu bilirdi. Günlərin bir günü Züleyxa ilə vədələşdilər ki, cümə  günü gecə sübhə yaxın saatlarda heç kimə görünmədən  kənddən qaçsınlar.

Nəhayət, o  gün gəlib çatdı. İbrahimlə, Züleyxa əvvəlcədən vədələşdikləri kimi, bütün kənd yeddinci yuxuda ikən biri-birlərinə qoşulub, meşəyə qaçdılar...

Meşə çox vahiməliydi. Gecənin qaranlıqlarında çaqqalların ulartısı gənc Züleyxanı  qorxuya salırdı. Səksəkə içində səhəri açan gənclər yollarına davam etdilər. Nəhayət, uzaq bir kəndə gəlib çıxdılar. Onlar bələdiyyə idarəsinə gəlib, qərib olduqlarını dedilər və yaşamaq üçün yer vermələrini xahiş etdilər. Bələdiyyə sədri gənclərin xahişlərini nəzərə alıb, kənddə olan sahibsiz, uçuq-sökük bir daxmanı onlara təklif etdi. "Bəyənirsinizsə, burda qala bilərsiniz" – dedi.

Toz basmış, pəncərələrinin şüşələri qırıq bu daxma yaşamaq üçün əlverişli  olmasa da, başqa əlacları da yox idi. Beləliklə, İbrahimlə Züleyxa əl-ələ verərək daxmanı yaşamaq üçün yararlı vəziyyətə salmaga  başladılar...

Daxmanı elə bəzədilər ki, Bələdiyyədən gələn nümayəndə belə heyrət etdi. Onlar öz məhəbbətləri ilə də bu soyuq daxmaya istilik verərək mehriban bir ortam yaratdılar.  Artıq İbrahim özünə iş də tapmışdı – usta Vaqifin yanında köməkçi işləyirdi. Az da olsa, gündəlik qazandığı pulla hər axşam evə lazımi ərzaq alıb gətirirdi. Züleyxa da evin işlərini görür,

İbrahim işdən gəldikdə isə, birlikdə yemək yeyib bərabər günlərini davam edərdilər. Onlar beləcə xoşbəxt və məsud yaşayırdılar. Hətta, bir gün Züleyxa çox gözəl bir xəbərlə İbrahimi işə gedərkən müjdələmiş və bu sevinclə yerə göyə sığmamışdılar. Züleyxa artıq hamilə idi.

Aylar ayları əvəz etmiş, düşdükləri bir sıxıntı onların həyatını alt üst etmişdi. Onlar bu kəndə köçdükləri vaxtdan qonşu Əbuləhəbin iti bu ailəyə göz verib, işıq vermirdi. O, heç vaxt itini bağlamırdı. It tez-tez İbrahimgilin həyətinə soxulub, Züleyxaya cumurdu. Bu səbəbdən Züleyxa həyətə düşə bilmirdi. İbrahim dəfələrlə Əbuləhəbə itini bağlamağı xahiş etsə də, o, buna məhəl qoymurdu. Beləliklə, gənc Züleyxa hamiləliyin çətinliyi ilə yanaşı, qorxu, stress də yaşayırdı.

Yenə bir gün İbrahim işdən gələndə, qonşunun itinin Züleyxaya cumduğunu gördü. Tez özünü irəli atdı. Bu vaxt İbrahim həyat yoldaşını qorumaq üçün cibindəki bıçağı şıxarıb, itin qarnına soxdu. İt Züleyxadan aralanaraq, zingildəyə-zingildəyə həyətin bir tərəfinə yıxılaraq hərəkətsiz qaldı. İtinin vurulduğunu görən Əbuləhəb, İbrahimin üstünə yüyürdü və əlindəki baltanı onun başına endirdi. Gənc oğlan yerə sərilərək, qan içində çabalamağa başladı. Ərini bu halda görən Züleyxa çaşqınlıq içində qalaraq şok oldu, nə edəcəyini bilmədi. Yerdəki daşı götürüb, Əbuləhəbin başına vurdu. Zərbədən Əbuləhəb yerə yıxılaraq yerindəcə keçindi. Təcili yardım maşını özünü çatdıranda həm İbrahim, həm də Əbuləhəb canlarını tapşırmışdılar. Züleyxa isə İbrahimin

başı üstündə saatlarla bir nöqtəyə baxaraq buz kimi donub qalmışdı...

Məhkəmə Züleyxaya yeddi il iş kəsdi...

Türmənin ağır qanunları Züleyxanı çox sıxırdı. Buradakı rüşvətxorluq, hüquqsuzluq, nəzarətçilərin özbaşınalığı bütün dustaqlar kimi, onu da bezdirmişdi. Bətnindəki körpəsi olmasaydı, bəlkə də yaşamaq istəməz, intihar edərdi. Bütün əzab və iztirablara baxmayaraq, Züleyxa körpəsini dünyaya gətirməyə qərarlı idi. Analıq hissi onu yaşamağa, həbsxanadakı haqsızlıqlara sinə gərməyə sövq edirdi.

Nəhayət, İbrahimə qoşulub qaçdığı o əlamətdar gündən 286 gün keçmiş, Züleyxa gözəl bir oğlan uşağı dünyaya gətirdi. Uşağın adını Sülhsevər qoydu.

Sülhsevər dörd yaşına çatanda Züleyxa məhbəsdə tapdığı vərəm xəstəlyindən dünyasını dəyişdi. Həyatında ən xoş günləri sevimli əri İbrahimlə yaşayan Züleyxa ondan sonra çox zillətlər çəkdiyi üçün oglunu böyüdə bilmədi, uşağı yalnız və köməksiz qoyub getdi, ruhunu əzablı dünyaya təslim edərək, sevimli İbrahiminin yanına köçdü.

Dünyaya gəlmədən atasını, 4 yaşında ikən isə, anasını itirən, boynubükük, yetim Sülhsevərin bundan sonrakı həyatı uşaq evində keçdi. Biri olub, o biri olmayan bir həyat yaşadı, balaca ikən böyüdü, uşaqlıq yaşamadan yetkinləşdi. Lakin atası İbrahim kimi mərd və igid bir oglan oldu. Zamanın heç bir çətin sınagı onu sındıra, əyə bilmədi. Çünki, oxudu, daim elmləndi, oxumaqdan güc aldı, kimsəsiz oldugunu unutdu. Həyat sınaqlarına elmilə cavab verməyə hazırlaşdı.

Çətinliklərlə böyüməsinə baxmayaraq, Sülhsevər dərslərini "əla" qiymətlərlə oxuyurdu. Humanitar və dəqiq elmləri mükəmməl mənimsədiyindən, müəllimlərin rəğbətini qazanmışdı...

Nəhayət, orta məktəbi "əla" qiymətlərlə bitirən Sülhsevər universitetə daxil oldu. Artıq o  zahiri elmlərlə yanaşı, həm də batini elmlərə maraq göstərirdi. Elmin dərin qatları onu daha çox cəlb edirdi...

Ona görə də professor Yaqub müəllimin mühazirə vaxtı dediyi bu cümlələr Sülhsevərin beynindən çıxmırdı:

"Elm - *zahiri* və *batini* olmaqla, iki qrupa bölünür. Zahiri elmlər məktəbdə müəllimdən və kitabdan öyrənildiyi halda, batini elm əksinə, müəllimdən öyrənilməz. Buna ***elmi-ladun*** deyilir.

***Lədun*** sözü ərəbcə "***dərin qat"*** mənasını verməklə, elmin dərin qatlarına işarədir. Bu, tək zəhmətlə (oxumaqla) əldə edilə bilməyən, həm də qəlbə gələn duyumla, hissiyyatla qazanılan bilgidir. Vaxtilə peyğəmbərlər və digər kəramət sahibləri bu cür elmə malik olublar və sirlər üzərindən pərdələri məhz bu elmlə qaldırıblar".

Yaqub müəllim akademiyanın Fizika İnstitutunun əməkdaşı idi. Eyni zamanda elmi-lədun bilicisi kimi tanınırdı; bu mövzuda bir xeyli kitabları çap olunmuşdu. Sülhsevər, tez-tez Milli kitabxanaya və akademiyanın kitabxanasına gedərək, Yaqub müəllimin bütün kitablarını əldə etmişdi. Hər gün saatlarla oturub, bu kitabları mütaliə edirdi.

Oxuduğu bu kitabların təsiri altında Sülhsevər bir gün Allahı zikr edərək, Ona belə dua etdi:

- Ey Kainatı yaradan! Sən vasitələrlə hər şeyə qadirsən və Sən hər yerdəsən. Dünyada yalnız sülh olsa, hər yer müqəddəs olar. Səndən yalnız ağıl və səbr diləyirəm! Məni ağıl və səbr verdiyin kəslərin yoluna yönəlt! Yönəlt ki, elmlənim, hamıya yaxşılıq və bəşəriyyətə sülh gətirim. Elmi kəşflər edim ki, insanlar boş yerə ölməsin! Yaxşılıq icad edim ki, əmin-amanlıq olsun! Yaradanım! Sən bizi bunun üçün yaratmadınmı?! Bir insanı xilas edən bütün bəşəriyyəti xilas etmiş kimidir. Sənə qovuşmağım üçün mənə sirləri agah et!

Yaqub müəllimin Pangeya mövzusunda yazdığı kitablar Sülhsevərin diqqətini daha çox cəlb edirdi:

"İlk yaranışda Yer kürəsində cəmi bir materik olub ki, onun da adı Pangeya olub. Həmin materiki əhatə edən okean isə Pantalas olub. Zaman keçdikcə həmin Pangeya materiki əvvəlcə iki hissəyə, sonra isə, altı hissəyə bölünüb.

"Pangeoist" sözünün mənşəyi, **"Pan os"** - "tam", "bütöv", "kök" (özül); **"geo"** - "yer" mənası verməklə, "bütöv yer" mənasını bildirir. Bu ideyanın daşıyıcıları pangeistlər adlanır.

Göründüyü kimi, ilk yaranışda Yer bütöv olmuş, əsrlər keçdikcə, parçalanaraq, indiki halına gəlmişdir. Necə ki, insanlar əvvəlcə bir atadan, bir anadan doğulduqdan sonra, millətlərə, xalqlara parçalandılar; daha sonra irqlərə, dinlərə, təriqətlərə... böləndülər və indiki hallarına gəldilər.

Həmin eyni atanın və ananın övladları artıq bir-birlərinə düşmən kəsilərək, bir xalq digərinin, bir din o birinin, bir təriqət digər təriqətin qanını içməyə hazırdır və içirlər də!

Bütün bunların qarşısını almaq, insanları din və digər mafiyaların əsarətindən qurtarmaq üçün Pangeizm ideyası insanlara elmlənməyi və bu mafiyaların quraşdırdıqları ibadətgahlardan - "Allah evləri"ndən uzaq durmağı tövsiyə edir. Vaxt gələcək pangeistlərin təbliğatı bütün dünyaya yayılacaq və insanlar öz əvvəlki hallarına - birlik və sülh hallarına qayıdacaqlar".

Bu yeni və mütərəqqi fikirləri oxuduqca, Sülhsevərin qəlbində bəşəriyyəti azad etmək istəyi yarandı. O, özünü artıq bir Pangeist obrazında görürdü.

Sülhsevərin beynində bir sual yarandı: pangeistlər və onun ardınca gedənlər dinsiz olacaqlarmı?

Səhər Yaqub müəllim auditoriyaya girəndə Sülhsevər beynini məşğul edən bu sualı ona ünvanladı. Yaqub müəllim səbr və təmkinlə cavab verdi:

-Əlbəttə ki, yox, oğlum; pangeistlər dinsiz deyillər. Onlar Yaradanın birliyini qəbul edirlər. Öz fəaliyyətlərində elmə, əxlaqa, xeyir əməllərə, halallığa və dürüstlüyə - bir sözlə, bəşəri dəyərlərə üstünlük verirlər. Sadəcə, indi mövcud olan (mafiyaların nəzarətində olan) heç bir ibadətgaha – sinaqoqa, kilsəyə, məscidə getməyəcəklər və özləri də heç bir ibadətgah yaratmayacaqlar. Onlar Allahın təkliyini, Allahın hər yerdə olduğunu qəbul edəcəklər. Bu səbəbdən onların inancı peyğəmbərlərin babası olan İbrahim Peyğəmbərin təbliğ etdiyi Tovhidə - tək Allahlığa uyğun gələcəkdir.

Bildiyimiz kimi, Tovhid bütün dinlərin mənbəyi, başlanğıcıdır. həmin vaxt ibadətgah olmayıb. Beləliklə, yeni

xilaskar – Pangeist həm millətləri, həm də dinləri ilkin mənbəyinə, başlanğıcdakı halına gətirəcəkdir ki, bu da insanlar arasında sülhün, əmin-amanlığın yaranmasına və pozulmuş nizamın bərpa olunmasına səbəb olacaqdır...

Nə qədər acı da olsa, etiraf etməliyik ki, bu gün bəşəriyyət arasında yaranan qarşıdurmaların kökündə ilk növbədə dinlər dayanır – deyə, Yaqub müəllim söhbətini davam etdirir:

- Dünyaya açıq gözlə baxsaq görərik ki, "Buddizim", "Atəşpərəstlik", "Musəvilik", "İsavilik" və "İslam" adı altında fəaliyyət göstərən mafiyalar dünya sərvətləri, nüfuz dairəsi uğrunda necə qanlı savaş aparırlar.

Bu savaşda qazanan yuxarıda sadaladığım din mafiyaları, onların başında duran mafiozlar; itirən isə, onları din bilib, ardınca gedən sadə insanlardır.

Bu mafiyalar insanları öz ardınca aparmaq, özlərinə tabe etdirmək üçün ibadətgahlar - kilsələr, sinaqoqlar, məscidlər... düzəldir və ora "Allah evi" adı verirlər. Halbuki, Allah hər yerdə, özəlliklə də insanın qəlbindədir.

Bu ibadətgahlarda əsas təbliğat onun üzərində qurulur ki, başqa dinlərə, yaxud, təriqətlərə mənsub olan insanlar sizin düşməninizdir və mütləq onları qətlə yetirib, sərvətlərini və yurdlarını əllərindən almalısınız.

Onlar əsasən, savadsız, elmsiz, işsiz-gücsüz insanları öz təsiri altına salaraq, onlara maaş vəd verməklə, müharibələrə cəlb edirlər. Nəticədə, həmin müharibədə iştirak edən tərəflərə həm silahlarını satırlar, həm əsir götürdükləri insanları,

onların daxili orqanlarını satırlar, həm də qarətçilikdən külli miqdarda sərvət qazanırlar.

Bir çox hallarda müharibədə iştirak edən əsgərlərin maaşlarını və sığortalarını da vermirlər. Əsgərlər ölüncə döyüşür, ömürlərini mafiyaların yolunda qurban verirlər.

Bütün bunların qarşısını almaq, insanları din mafiyalarının əsarətindən qurtarmaq üçün, bəşəriyyət pangeizm ideyası ətrafında birləşəcəkdir. Çalışmaq lazımdır ki, insanlar elmlənsinlər və mafiyaların quraşdırdıqları ibadətgahlardan – dırnaqarası "Allah evləri"ndən uzaq dursunlar.

Professor gələcək üçün proqnoz verməyi də unutmadı:

Yaxın zamanda pangeizm ideyası bütün dünyaya yayılacaq və bəşəriyyət öz əvvəlki halına - birlik və sülh halına qayıdacaqdır.

Qarışqa kimi çalışqan Sülhsevər, dərsdən sonra universitetin kitabxanasında işləyirdi. Günlərin bir günü qəribə tanışlıq nəticəsində burada o, İlknur adlı tələbə qızla tanış oldu. İlknur imtahanlara hazırlaşanda Sülhsevərin köməyindən istifadə edirdi. Həm də bu gənc qız, Sülhsevərin qəzetlərdə və jurnallarda çap edilən məqalələrini həvəslə izləyirdi. Beləliklə, onların tanışlığı əvvəlcə dostluğa, sonra isə məhəbbətə çevrilmişdi. İbrahimlə Züleyxa eşqi kimi bir-biriləri üçün dəli-divanə olan bu gənclər, görüşüb söhbətləşdikləri zamanı o qədər yüksək dəyərləndirirdilər ki, ayrılmaq belə istəmirdilər.

Artıq Sülhsevər öz məqalələrini Pangeist imzası ilə yazırdı. İlknur hər görüşəndə ondan pangeya ideyası, gələcək-

də bu ideya ətrafında birləşənlərin necə yaşayacaqları barədə soruşurdu. Sülhsevər də öz növbəsində professor Yaqub müəllimdən öyrəndiklərini həvəslə sevgilisinə izah edirdi:

-Pangeizmə görə insan öz taleyini əslində özü öz əməllərilə yazır. Yəni, bu il ərzində insanlara etdiyimiz yaxşılıq, yaxud, pislik alnımıza yazılır və növbəti ildə həmin şeylər bu və ya digər formada özümüzə qayıdır... Odur ki, pangeistlər daim yaxşılıq edib, yaxşılıq da görəcəklər.

Pangeizm ideyası ətrafında birləşənlər gün ərzində beş dəfə Yaradanı zikr edib - yada salıb, beş dəfə də ətrafdakı insanlara yaxşılıq edəcəklər. Bununla da Yaradana olan ibadətləri sözdə və əməldə tamamlamış olacaqlar. Pangeistin axşam övladına verdiyi sual budur: Oğlum, bu gün beş adama yaxşılıq etdinmi?

Pangeistlər etdikləri zikrləri də, etdikləri yaxşılıqları da təklikdə edəcəklər. Qrup halında ibadət reklam və özünü kiməsə göstərmək üçündür. Bunlar yalnız Yaradan xatirinə və gizlin olmalıdır.

Bu gün qəzetdə Yaqub müəllimin yeni bir məqaləsi dərc olunmuşdu. Professor qeyd edirdi ki, Pangeya ideyası çox yaxın zamanda dünyaya yayılacaq, bəşəriyyət bu ideya ətrafında birləşəcək. Beləliklə, dünyada sülh, əmin-amanlıq bərqərar olacaq. Bunun qarşısını heç bir qüvvə ala bilməz. Çünki, bu, Allahın qərarıdır.

Jurnalistin: *“Bu qərarın Allahdan olduğunu necə sübut edə bilərsiniz?”* sualını Yaqub müəllim belə cavablandırırdı:

-Bu xəbərin Allahdan olduğunu sübut etmək üçün, sizə

bir sirr açım. Hansı ki, bu sirr insan beyninin məhsulu olmayıb, Allahdan gələn bir kəşfdir. Belə ki, bayaq Dünyanın ilk yaranışda tək bir materikdən ibarət olduğunu, həmin materikin isə, Pangeya adlandığını qeyd etdim. İndi sizə Pangeya materiki haqda daha heyrətamiz bir sirr açmaq istəyirəm. Belə ki, insanlar hər gecə bu materiki gözləri ilə görsələr də, əslində bunun Pangeya olduğunu heç vaxt ağıllarına gətirməyiblər. İndi mən sizə həmin materikin yerini göstərirəm: *axşam qaranlıq qovuşandan sonra başınızı qaldırıb, Aya baxın; Pangeya materikini orada görəcəksiniz. Belə ki, Ayın üzərindəki "ləkə" əslində Pangeya materikinin xəritəsidir.*

Bütün bu və hələlik demək istəmədiyim digər sirlər, Azərbaycanda meydana gələcək pangeizm ideyasının bəşəriyyəti xilas edəcəyi barədəki fikirlərimin subyektiv olmadığını, Yaradanın qərarı olduğunu bir daha sübut edir.

Bu sətirləri oxuduqdan sonra Sülhsevərin beynində belə bir sual yarandı: "Bəşəriyyət pangeizm ideyası ətrafında birləşib, vahid hala gəldikdən sonra ictimai quruluş necə olacaq?"

Səhəri gün auditoriyada professor bu sualı belə cavablandırdı:

-Həqiqətən, maraqlı sualdır: bəşəriyyət gələcəkdə hansı quruluşda yaşayacaq: kapitalizm, sosializm, yoxsa kommunizm olacaq?

Mənə məlum olan odur ki, gələcəkdə bəşəriyyət bu quruluşların heç birində yaşamayacaq. Gələcək quruluşun adı informasionizm olacaq. Bu quruluşda əsas məsələ məlumat olacaq. Düzgün məlumat hər şeydən qiymətli olacaq.

Hakimiyyət quruluşu isə, meritokratiya olacaq.

"Meritokratiya" - savadlıların və ağıllıların hakimiyyəti deməkdir. Yəni, pangeizmdə insanlara mənsub olduqları partiyaya görə deyil, malik olduqları savada, ağıla görə yanaşılacaq.

Onu da bildirim ki, həmin vaxt insanlarda elm çox güclü inkşaf edəcək və digər planetlərdə yaşayan canlıların elminə yaxın, bəlkə də onlardan da çox olacaq.

Həmin dövrdə mədəniyyət və incəsənət də indikindən güclü inkişaf edəcəkdir. Belə ki, tikilən binalar insanlara, heyvanlara və ağaclara bənzəyəcəkdir.

Yəni, memarlıq o qədər güclü inkişaf edəcək ki, istənilən görkəmli adama bənzəyən, sevdiyiniz heyvana, yaxud, xoşladığınız ağaca, gülə bənzər binalar sifariş edib, tikdirə biləcəksiniz.

-*Yaqub müəllim, Pangeizmdə kimlər müqəddəs sayılır?*

-Pangeizmə görə insan daim yaxşılıq etməlidir – son nəfəsinə kimi! Pangeist öləndə də mütləq orqanını başqasına bağışlamalıdır! Pangeistin dirisi fayda verdiyi kimi ölüsü də faydalı olmalıdır!

Pangeizmə görə yaxşılığa çalışan, xeyirxahlıq edən hər bir şəxs müqəddəs sayılır.

Dünyanı nə sevgi, nə gözəllik, nə də din xilas edəcək! Dünyanı ancaq və ancaq yaxşılıq xilas edəcək!

Yaxşılıq et, sən də müqəddəslərdən ol!

-*Yaxşılığı kimə etsək, Allah dərgahında qəbul olunar?*

-Hər adama da yaxşılıq etmək olmaz. Yaxşılığın qədrini bilənlərə, dürüst insanlara yaxşılıq etmək ən məqbul olan-

dır. Həm də, yaxşılığı yerinə görə edənlərdən olun. Biri var bulağın başında olan bir adama ehtiyacı olmadığı halda bir cam su verəsən, biri də var səhradakı adama bir qurtum su verəsən. Səhrada verilən bir qurtum su, bulağın başında verilən bir cam sudan sənə daha çox hörmət gətirər.

-*Bəs ruh nədir?*

-İnsanda iki cür ruh var. Bədən sahədir, birinci ruh o bədənin sahəsi, ikinci ruh isə, bədənin suyu, Günəşi və havasıdır. Günəş təkbaşına yer səthini işıqlandırdığı kimi, ikinci ruhumuz da inkişaf etdikcə bizi elə işıqlandıracaq və nura qərq edəcəkdir. İnsanın ən zəif yeri göbək və başıdır. Hər iki ruhumuz da burada (göbəkdə və başda) yerləşir. Amma, insanların çoxu bundan xəbərdar deyil.

Bütün bu illər ərzində Sülhsevər sevimli müəllimindən bilgilər əldə edərək, çox güclü bir şəxsiyyətə çevrilmiş, Pangeist təxəllüsü ilə şöhrət tapmışdı. İstəkli sevgilisilə ailə qurub oğul uşaq sahibi olsa da, həyatında yenə də nəyinsə çatmadıgını hər zaman oz-ozlüyündə hiss etmişdi.

Ölkəsində baş alıb gedən haqsızlıq, ədalətsizlik, rüşvətxorluq və korrupsiya Sülhsevəri çox narahat edirdi. O, görürdü ki, son illər korrupsiya dünyanın bir çox dövlətlərinin idarəetmə sisteminin kökünü zədələmiş, mütəşəkkil cinayətkarlığa yol açmış, cinayətkar qruplaşmaların yaranmasına səbəb olmuş və bu qrupların əsas strategiyasına və taktikasına çevrilmişdir. Mətbuatda dərc olunan müsahibələrində tez-tez bu mövzuya toxunur və problemin həlli üçün öz orjinal təkliflərini verirdi.

Sülhsevər, Yaqub müəllimin kitablarından bəhrələnərək, elmini daha da mükəmməlləşdirir, tədricən agıl dəryasına çevrilirdi...

Onun aşağıdakı kəhanətləri artıq mətbuatda dərc olunmuşdu:

*Təbiətdə hər şey hərəkətdədir. Çalışın daima hərəkətdə olun, fərqi yoxdur fiziki və ya zehni hərəkətdə. Çünki kamilləşmək yalnız bununla mümkündür. Biz cəmiyyəti elə inkişaf etdirməliyik ki, kömür parçası almaza çevrilsin, meyvəsiz ağac meyvə versin.

*Göydəki buludlar qədər mürəkkəb olsa, saçınızdakı tüklər qədər qələm olsa, Yaradanın qüdrətini göstərməyə azlıq edər. Bildikləriniz, öyrəndikləriniz və öyrətdikləriniz dəryada bir zərrə qədərdir. Elmlənin ki, sirlərdən agah olasınız. O şəxslər ki, Yaradana inanır, Onu məhəbbət və ağıl yolu ilə dərk etməyə cəhd edirlər, o şəxsləri qorxutmaq qurdu quzu ilə qorxutmağa bənzəyir.

*Kainat insan bədəninə bənzəmirmi? Bütün orqanlar bir-birilə qanunauyğun şəkildə bağlı olduğu kimi, Kainatdakı hər şey beləcə biri-birinə bağlıdır. İnsanlar arasında qarşılıqlı inam olsa, bir adamın barmağı belə qanamaz.

*Nə istəyirsiniz istəyin, amma, var gücünüzlə istəyin. İstəklərinizi vərəqlərə yazın və hər gün hədəflərinizi ziyarət edin. Amma unutmayın ki, yüzmərtəbəli binanın onuncu mərtəbəsinə çıxmaq istəyirsinizsə, yüzüncü mərtəbəni hədəf almalısınız.

*Tibb elmi hələ yeniyetməlik dövründədir. O, hələ gənclik dövrünə çatmayıb. İnsanın bədənində tarazlıq olmasa, in-

san məhv olar. Gələcəkdə müalicə yeməklə, içəcəklərlə və meyvə-tərəvəzlərlə həll olunacaqdır.

*Heç bir cinayətkar bağışlanmamalıdır. Əks təqdirdə ədalət zənciri qırılar, bəşəriyyət məhv olar. Unutmayın, insaf qanunların təməlidir. Ədalət bəşəriyyətin ən böyük silahıdır. Yalançı əfv isə onun ölü doğulmuş uşağıdır. Aqil insan heç vaxt cinayət törətməz. Cahillik cinayətin əsas səbəbkarıdır. Elmli, intellektual insan heç vaxt başqasına pislik etməz, cinayət törətməz. Əgər o, oxumuş biridirsə, bunu edirsə, özünü pula satan bir fahişə kimidir.

***Həyatda insanlar ya qəssab olar, ya da qoyun...***

*Bəşəriyyətə olan məhəbbət Yaradana olan məhəbbətin bir parçasıdır. İnsan öz Yaradanını sevməlidir, Ondan qorxmamalıdır. Şüursuzlar qorxmalıdırlar. Yaradana olan məhəbbət artdıqca, millətlərarası ədavətə son qoyulacaq, bəşəriyyət çiçəklənəcək, hamı tərəqqi və inkişaf edəcək.

*Qəssab qoyunu ona görə bəsləyir ki, gələcəkdə qoyunu satıb xeyir əldə eləsin və öz balalarına çörək pulu qazansın. Həyatda insanlar ya qəssab olar, ya da qoyun. Qəssab bacarıqlı insandır, qoyun isə şüursuz. İbrət al, ey bəşər övladı!

*Bütün dini, irqi, sinfi, cinsi və s. ideologiyaların əsas məqsədi insanları qırmaq, kölə halına salmaq və dünyanı ələ keçirməkdir. Yer planetinin heç bir yeri digər bir yerindən müqəddəs deyil. Yer əhlini dostlara və düşmənlərə bölmək çoxallahlılığa işarədir. Yaradan təkdir. Eşq atəşi alovlandımı,

ağıl xırmanı yanar. Xırman hazırlandısa, çörək bol olar və bəşəriyyət həqiqəti bilər; hər deyilənə inanmaz.

*Hisslər daima sizi aldadar. Çalışın ağıl ilə hisslərinizi birləşdirin, sonra qərar verin.

***Yaradandan maddi şeylər diləməyin,***
***maddini yaradan şeyləri diləyin!***

*Yaradan öz əlamətlərini, ilahi qanunları, təkamülü sizin bədənlərinizdə göstərmədimi?! Sizin bədəniniz körpəlik, uşaqlıq, yeniyetməlik, gənclik, yetkinlik və qocalıq mərhələlərini keçdiyi kimi, təbiət də – yaz, yay, payız, qış – fəsilləri kimi mərhələlərə bölünmüşdür. Bu qanunauyğunluqdan ibrət almırsınızmı?!

*Yaradanın qanunları hər yerdə olduğu kimi, Özü də hər yerdədir. Vay o kəslərin halına Yaradana şərik qoşdular! Yaratdıqları evləri – sinaqoqları, kilsələri, məscidləri Yaradanın evi adlandırdılar. Onlar öz mənfəətləri üçün insanları aldadarlar. Yaradan hər yerdədir! Hərəniz özünüzə bir qibləgah düzəldib, sonradan biri-birinizlə vuruşmayın! Bunlardan hələ də nəticə çıxarmırsınızmı?!

*Yaradandan maddi şeylər diləməyin, Ondan yalnız maddini yaradan şeyləri diləyin!

*Mənəvi nemətlərlə qidalanın, həftədə bir dəfə oruc tutun.

*Yuxuda böyük hikmətlər yatır, ora bir sirli aləmdir, bu aləmə varmağa çalışın.

*Silahın ox və ya güllə olmağı əsas deyil, əsas odur ki, hədəfə vura biləsən.

*Gözəl geyinən insan yaxşı yarpaqları olan və meyvələri bol olan ağaca bənzəyir. Gizli (intim) yerlərinizi örtün, ədəblilərdən olun. Əks halda ucuzlaşmışlardan olarsız. Hamı sizə baxar, deyər ki, bu əcdadlarımız kimi lüt gəzir. O şəxs heyvanlara bənzər; axı heyvanların da paltarı yoxdur.

*Ruhanilik tarixə qovuşmalıdır. Aqil insanlar olun ki, heç kim sizə öyüd nəsihət verməsin. Kamil insana öyüd nəsihət nəyə lazımdır? Axı o, Haqdan agahdır.

## *Beyin enerjiniz bütün məlumatların açarıdır.*

*Ey insanlar, nə üçün hər hansı ideologiya üçün canınızı boş-boşuna qurban verirsiniz?!

*Yaradanın heç nəyə ehtiyacı yoxdur. Sizlər fanisiniz, sizin ehtiyacınız var – maddi və ya qeyri-maddi şeylərə.

*Beyin enerjiniz bütün məlumatların açarıdır. Bu enerjidə canlı ruh var. Bu ruh kamiləşməsə məhv olar. Bu ruha gümüş tel də deyirlər.

*Ağılla arzu tərs mütənasibdir. Ağıl artdıqca arzunun sayı azalır və konkretləşir.

*Dünya hamıya çatacaq qədər böyükdür. Başqa ölkələrdə yaşayan insanları əzməkdənsə, onlarla qohum olun, əl-ələ verin, şöhrətiniz dünyaya yayılsın. Sizlərin hər biriniz bir lidersiniz və sizlər dünyaya böyük işlər görmək üçün doğulmusunuz. Xoş arzunuza çatmaqda Yaradan daim sizin yardımçınızdır.

*Müharibələri tamahdan edirsiniz. Ey rəhbərlər, sərhədləri açın, birləşin, dünya sizin vətəninizdir. Hamınız qohumsunuz və təkrarən də qohum olacaqsınız. Yemi olan öküz heç böyürərmi? Otu olan uzunqulaq heç anqırarmı? Siz müharibə edəndə bunlardan fərqlənmirsiniz! Müharibə hər şeyin dadını qaçırdır. Həyatın mənasını itirir.

*Torpaq bizim deyil, biz torpağınıq!

*Miras olaraq sizə boş aylar verildi, nə üçün çalışıb elmlənmirsiniz? Daha nəyi gözləyirsiniz? Müharibəyə lənət olsun! Selin torpağı sürükləyib götürdüyü kimi, insan elmlənməsə, onun bütün ümid və xəyalları elə yox olar. Təxirə salınan ümid xəyal qırıqlığına uğrayar. Yerinə yetən arzu isə, insanın ömrünü artırar. Nə üçün öləndən sonra adınızın dünyadan silinməsinə razı olursunuz? Qoy sizin adınızla bəşəriyyətdə yeni səhifə açılsın. Elmlənsəniz, bəşəriyyətə daima işıq saçacaqsınız; qohumlarınız, sizi tanıyanlar daima sizinlə fəxr edəcəklər. Bir daha dünyaya gəlməyəcəksiniz. Pislik edənlərin, xeyirxahları təqib edənlərin sonu necə də dəhşətdir! Onlar aclıq və səfalət içində ölərlər. Bu şəxslərin Yaradana qovuşmağı yarasanın günəşi görməsi kimi bir şeydir. Əslində sizlərin elmliləri bilirlər ki, biz kafir deyilik. Biz həqiqəti dediyimiz halda, siz guya Yaradanın yanında yaxşı olmaq üçün elə bizi inkar edirsiniz. Amma, sizlər hər bizi inkar etdikcə dəli və özünüzü öldürənlərdən olacaqsınız.

*Həqiqəti demək üçün nə yaşca böyükdən, nə də pulca sizdən artıq olandan çəkinməyin. Daima həqiqəti deyin. Onda bu xəstə cəmiyyətə dərman olarsınız. Böyüyə yox,

ağıllıya tabe olun. Bizi anlamayanların ürəyi yağ bağlayıb, ağızlarından böyük sözlər çıxır.

*Bu deyilənlərdə bir pislik varmı ey ağıl sahibləri?! Yaradanın sirlərindən agah olsanız, ömrünüz uzun və üzərinizə bərəkət yağar.

*Cahil insan kal əncir kimidir - diyirlənib kökündən uzaqlaşar.

*Həmişə bar verən ağac əkin ki, gələcək nəsillər onların zəhmətindən fayda görsünlər və sizə rəhmət oxusunlar. Cahillər bunun fərqinə varmazlar, həmişə barsız ağac əkərlər. Bu da onların paxıllığını, qəlbi darlığını biruzə verər. Yəni, cahillər istəməzlər ki, əkdikləri ağacın meyvəsini gələcəkdə kimsə yesin.

***Gələcək elimli adamlara məxsusdur. Elmsizə gələcək keçmiş, keçmiş isə, gələcək kimidir.***

*Biz dağın zirvəsindən axan çayıq, sürətlə axa-axa gəlirik. Bəzi insalar bizim qabağımızı kəsmək istəyirlər, bizi göl edib iyləndirmək istəyirlər; amma, bu, faydasızdır. Biz yolumuzdan əsla dönmərik. Həyat hərəkətdir. Bu qısa ömrü əbədi həyat kimi yaşamaq lazımdır. Bir gün ürəyinizcə yaşamaq bir il əzabla yaşamaqdan üstündür.

*Gələcək elmli adamlara məxsusdur. Elmsizə gələcək keçmiş, keçmiş isə, gələcək kimidir.

*Hansı ölkədə ki, torpaqlar məhsuldardır, orada idarəedənlər ədalətsiz, yalançı olar. Hansı ölkədə ki, torpaqlar

məhsuldar deyil, insanlar aqil olar, idarəedənləri isə adil olarlar. Bunun səbəbi həmin torpaqların üzərində yaşayan insanların elmə marağından asılıdır. Çalışın, torpaqla uğraşarkən elmlənməyi də unutmayın ki, əməyinizi istismar etməsinlər. Haqqınızı elminizlə qoruyun.

*Pis rəhbər çürük diş kimidir.

*Güclü küləklərin qaldırdığı dalğalar ləpələnəcək, sərhədləri aşacaq, dünyaya səs salacaqdır. Ədalət bərpa olunduğu gün sülhün doğulduğu gündür.

*Bəzi dəllallar sizin yaradıcı istedadınıza mane olarlar; sizə paxıllıq edərək belə söylərlər: “Həyat bir anlıqdır və fanidir, özünü belə şeylərlə yormayın”. Belə sözlərə aldanmayın. Çalışın dünyanı və insanları mütərəqqi fikirlərlə dəyişin. Onda uğur qazananlardan olarsınız.

*Biz elə etməliyik ki, hamı müdrük olsun. Müdrik insanın ürəyi tərəziyə bənzər və o, heç bir şəxsin haqqına girməz. Avam insan isə, kar, kor, lal insana bənzəyər; onda yeni fikirlər yoxdur. Onu ancaq qədimdən gəlmə fikirlər və öz dərdi maraqlandırar. Onlarda özünə inam yoxdur.

*Kamillik dövründə yoxsulların nəsibi susmaq və səbr etmək olmayacaq.

*Əsəbləşmək, hirslənmək acizlik əlamətidir. Əsəb coşqunluğu olan insanın ən böyük dərmanı oruc tutmaq, təmiz havada gəzmək və xoş ünsiyyətdir. Bütün əsəbilə ətrafa atəş saçan insana veriləcək ən böyük cavab susmaqdır.

*Şəhərləşmənin gətirdiyi yalnızlıq, susqunluq, qohumu sevməmək hissi kamillik dövründə qar kimi əriyib yoxa çıxacaq.

*Qənaətcil olun, israfçı və xəsis yox. Aza qənaət edə bilməyən çoxa da qənaət edə bilməz. Pul sizin tanrınız yox, xidmətçiniz olsun. Pul elə bir şeydir ki, o qəfildən artdıqca insan ölümsüz olacağını düşünür. Pul sizin ömrünüzü artırar, amma, sizə əbədi həyat verməz. Gərək siz cəmiyyətə faydalı olasınız ki, Yaradana qovuşanlardan olasınız.

*Kamil insanlar çeşməyə bənzəyərlər. Elə çeşmə ki, o susuzluqdan yanan dodaqların alovunu alan fərahlıq mərkəzidir.

*Hər bir şeydə gözəlliklər görməyə çalışın. Hər çirkinlikdə bir gözəllik gizlədilmişdir. Aqil olun ki, bunu tapasınız. Bunu tapan insanlar uzunömürlü olarlar. Könül nə mal istər, nə mülk; könül ədalət və sevgi istər.

***Dəyişikliyə təhlükə kimi deyil,***
***yeni imkanlar kimi baxın.***

*Yaxşılıq icad edənlər Yaradana qovuşarlar. Pislik icad edənlər vəhşi heyvandan fərqlənməzlər. Bütün insanlar, irqlər, dinlər bir kökdən yaranmışlar və bunları ayırmaq əti dırnaqdan ayırmağa bənzər. Can qorxusu olmasın, bəşəriyyətə fayda verməmə qorxusu olsun. Yer kürəsi bizim vətənimizdir.

* Sual verməkdən qorxmayın. Dünyada sual verənlərin sayı çox olsa avamlıq tarixə qovuşar.

*Xoş ətirlərdən istifadə edin; onlar ürək açandır. Ətir bayramı keçirin. Çalışın həmin bayramda yeni-yeni ətirlər yaradın, həmin ətirlərin ilk iyi ətir bayramında hiss olunsun.

*Dəyişikliyə təhlükə kimi yox, yeni imkanlar kimi baxın.

*Konstitusiyalar, qanunlar sizi qorxutmasın; unutmayın ki, onlar qələmlə yazılıb və silinərək sizin üçün daha sərfəli şərtlərlə əvəzlənə bilər. Əsas odur ki, haqqınızı, hüquqlarınızı tələb edənlərdən olun.

*Göydəki quşun hara uçacağı bilinmədiyi kimi, pis rəhbərin də nə edəcəyi məlum olmaz.

*Həyat elə bir müəllimdir ki, heç bir tələbəsinə öz sirlərini təcrübəsiz öyrətməz.

*Pis adamlar çoxdur. Pis adamların bəziləri istəyir ki, onun ucbatından heç kəs sevinməsin, elə olsun ki, hamı ona möhtac olsun, amma, o, heç kimə təmənnasız yaxşılıq etməsin. Əgər kimsə bir başqasına yaxşılıq edirsə, paxıl adamlar kədərlənər və ürəyində deyər ki, vay, o, məndən daha yüksək olacaq. Bir para pis adamlar isə, daima fikirləşər ki, qoy başqasının haqqını yeyim; nə olur olsun, pulum çox olsun, o zaman mən ölümsüz olaram. Bir qrup pis adamlar da çalışarlar ki, yaxşılıq və xeyirxahlıq həmişəlik yer üzündən silinsin.

* Sevgi səmimilik, qorxu isə, tabeçilik yaradır.

* İnkişaf etmiş ölkələr lütlənməklə, əxlaqsızlıqla inkişaf etmədilər. Elə olsaydı, ibtidai icma quruluşunda paltarsız insanlar ən inkişaf etmiş ölkə yaradardılar. Əxlaqsızlıq insanı, ailəni, dövləti məhv edir. Ancaq elmlə, biliklə inkişaf etmək olar. Əxlaqsızlığın qarşısını almaq üçün çoxlu iş yerləri açın və gəncləri evlənməyə təşviq edin. İçimizidən keçən yaxşı niyyətlər belə bizim əxlaqımızı gözəlləşdirir və bir gün gəlir, o, yaxşılığı həyata keçirmək imkanı doğurur.

*İnsan anlamalıdır ki, onun oruc tutmasının, ibadət etməsinin Yaradana xeyri yoxdu və o, bunları yalnız özü üçün edir. Bütün sıxıntılarımız özümüz üçün dua etməməyimizdən və paylaşmamağımızdandır.

*İnsanı qorxuya salan məlumatsızlıqdır; oxuyun ki, məlumatınız çoxalsın.

*Bu kitab mimikadan istifadə etməyən natiqdir. Bu kitab qədimdəki vəsiyyətləri gələcəkdəkilərə çatdırar.

* Maşın yanacaqsız hərəkət etmədiyi kimi, insan da yaxşı əməlsiz yaşaya bilməz.

***Müdriklərlə dostluq edən müdrik olar...***

*Müdrüklərin xəbərdarlıqlarına qulaq asmayan əvəzini ödəyər; buyruqlara hörmətli olan mükafatını alar. Müdrüklərin öyrətdiklərini həyat qaynağı bilin, insanları erkən ölüm tələlərindən qurtarın.

*Ehtiyatlı adam işini bilərək edər; ağılsız adam isə, axmaqlığını sərgiləyər.

*Yerinə yetən dilək xoşbəxtlik gətirər.

*Ağılsız adam pislikdən uzaq qala bilməz.

*Müdriklərlə dostluq edən müdrik olar; ağılsızlarla dostluq edən zərər görər. Müdrik qadın evini saray edər. Axmaq qadın isə, evini xarabaya çevirər. Axmaq adam müdrikliyi axtarsa da, tapa bilməz; ağıllı üçünsə, bu, su içmək kimi asandır. Axmaq adamlardan uzaq gəzin, çünki, onda öyrəniləsi bir şey yoxdur.

*Elə yol var ki, insana düz kimi görünər, amma, sonu ölümdür. Bu yol əxlaqsızlıqdır.

*Axmaq adam hər sözə inanar. Ehtiyatlı olansa, atdığı hər addımı hesablayar. Müdrik adam qorxduğu üçün, pislikdən uzaqlaşar; fikirləşər ki, bu əməl, bu qida onun səhhətinə ziyan gətirər. Axmaq isə, nağıllardan qorxub bu işi etməz. Axmağın mirası ağılsızlıqdı. Müdrükün tacı isə ağıldır. Kamillik dövründə alçaqlar yaxşılara, acgözlər isə müdrüklərə məğlub olacaqlar.

*Tənbəli doğmaları da sevməz; lakin çalışqanın dostu çoxdur. Daima çalışqan olun. Hər əmək qazanc gətirər. Əməlsiz ibadət isə, insanı tənbəlliyə aparar.

*Dünyanın ucalığı xalqların vicdanının və elminin artmasına bağlıdır. Xalqlar vicdansız və elmsiz olarsa dünya məhv olar

## *Ağıl insanın mənəvi çəkisini artırar...*

*Gec hirslənən ağıllı, tez hirslənən isə axmaqdır.

*Sülh sevən insan çox yaşayar; dalaşqan isə az.

*Tənbəl olub cəmiyyətə yamaq olmaqdansa, çalışqan olub hamıya xeyir vermək daha üstündür.

*Müzakirə olmasa, nəyin düz, nəyin səhv olduğunu siz heç vaxt bilmərsiniz. Qərarlarınızı müzakirə edərək verin.

*Halallıqla qazanılan az şey, haqsızlıqla qazanılan böyük gəlirdən daha bərəkətlidir.

*İnsan ağlı, maşın sürəti, mal çəkisi ilə fərqlənər.

Ağıl insanın mənəvi çəkisini artırar. Onların doğumları və ölümləri də fərqlidir. Allah buyrduqlarını ağıllı şəxslərin diliylə açıqlayar. Bu səbəbdən ağıllı şəxslər ədaləti tapdalamazlar. Dürüst danışanı hamı sevər, çünki, onlar cəmiyyəti xəstələnməkdən qoruyarlar.

*Xoş söz pətəkdəki bal kimidir – cana şirin və bədənə şəfadır. Sülhü sevin, bu bəşəriyyətin ən böyük tələbatıdır.

*Çörəkçini çalışdıran onun iştahıdır; tənbəllik insanı qamçılayar.

***Ağılsıza ağıl vermək balaları əlindən alınmış ayı ilə vuruşmaq kimidir.***

*Göz qırpmaq əsəbiliyə və yalançılığa, hiyləgər təbəssümlər isə, pisliyə işarədir.

*Səbrli şəxs igiddən daha üstündür. Özünə nəzarət edən şəxs uca fatehlərdən daha üstündür.

*Nəvələr babaların, ədalət də idarəedənlərin tacıdır.

*Ağılsıza ağıl vermək balaları əlindən alınmış ayıyla vuruşmaq kimidir.

*Davanın başlanğıcı su sızıntısına bənzəyər. Qan çıxmamış çəkişməni bitirin, axı sizlər müdriksiniz. Ağılsız tez təsir altına düşər, onun gözündə bir pərdə var, onun beyni çox zəifdi, nə desələr, ona da inanar. Ağılsız onu doğana dərddir, onun atası xoşbəxtlik nədir bilməz.

*Rüşvət alan sizin haqqınızı oğurlayan kəsdir.

*Müdrik insanın ağzından çıxan sözlər saf su kimidir. Heç kəsə nifrət etməyin, onlara həqiqəti izah edin.

*Ağılsızın dili onu ölümə aparar. Qulaq asmadan cavab vermək ayıb və axmaqlığa yozular. Ədalət hisslə dərk olunmur, o ağılla dərk olunur.

*Yaxşı həyat yoldaşı tapan adamın həyatı da yaxşı olar. Həyatınızın və ailənizin xoş olmağını istəyirsinizsə, həyat yoldaşınızı götür-qoy edərək, tanıyaraq seçin.

*Uçuruma aparan dostlar var; amma, elələri də var ki, doğma qardaşdan daha üstündür. Belə dostlar sınaqlardan çıxan dostlardır.

*Spirtli içki içmək insanı lağ obyekti edər, insanı çox danışdırar, hörmətdən salar. Şərab içmək insanın ömrünü azaldar.

***Haram qazanılan pul adama dadlı gəlir,***
***lakin sonra o, insana xəstəlik gətirir.***

*İnsanın niyyəti dərin bir quyunun suları kimidir. Ağıllı şəxslər onu üzə çıxarar.

*Haram qazanılan pul adama dadlı gəlir, lakin sonra o, insana xəstəlik gətirir.

*Tez varlananın pulu bərəkətli olmaz. Gənclərin qüruru onların tərbiyəsi, yaşlıların qüruru isə, onların hökmü olmalıdır.

*Yaradan, insanların Ondan qorxmasından çox, insanların Ona sevgi ilə bağlanmasını istər. Sevgi ilə haqq ədalət bərpa olunar.

*Çalışqanın niyyəti həmişə bolluqdur, tələsənin işi isə, həmişə ziyanla nəticələnər.

*Haram qazanılmış sərvət, duman kimi keçicidir; tez gedər, yiyəsinə xəstəlik gətirər.

*Sadə insanlar daima yüksələrlər; elmi olub, özündən razı olan insanlar isə, Günəş kimi batarlar. Əgər onlar təkəbbürdən əl çəkə bilsələr, Günəş kimi yenidən çıxarlar.

*Elmin, yaxşı əməlin, sevginin arxasınca qaçan həyatı və şöhrəti tapar.

*Yaxşı ad böyük sərvətdən, hörmətcil olmaq isə, qızıl-gümüşdən daha üstündür.

***Qızıl zərgər üçün nədirsə, kitab da müdrik adam üçün məhz odur.***

*Yoxsul oğlu elmlənərsə o cahil varlıdan daha üstündür. Comərd olun; kasıba iş, ehtiyacı olanlara qurbanlar kəsib paylayın; onlara əl tutun, axırınızın necə olacağını bilmək olmaz. Siz edin ki, sizə də etsinlər.

*Yoxsulu kasıb olduğu üçün kiçiltməyin, günahsızı boş yerə həbsə məhkum etməyin.

*Heç kəsə yaltaqlanmayın və heç bir iş yoldaşınızı da yalandan rəhbər işçinizə satmayın. Yalnız işinizdə usta olun ki, zirvələri fəth edəsiniz.

*Atalarınızın hər dediklərinə kor-koranə tabe olmayın; savadlanın, ağlınızla dərk edin və pis təsirlərdən uzaqlaşın. Çalışın həmişə ağlınız hisslərinizdən üstün olsun. O zaman yüksələnlərdən olarsınız.

*Uşaqlarınızı döyməklə yox, sevgi və təcrübə ilə başa salın. Tərbiyə keçicidir. Əxlaqsız kişi və qadınlardan uzaq

olun. Əxlaqsızlar dərin bir quyudurlar, sizi ora çəkər və tələf edərlər. Nə xoş günahkarı mühakimə edənlərin halına.

*Pisliyi unudan yaxşılığı ondan daha tez unudar.

*Yerində deyilən söz ən böyük igidliklərdəndir.

*Qızıl zərgər üçün nədirsə, kitab da müdrük adam üçün məhz odur.

***Elminizi hərbdə deyil, tibbdə sınayın.***

*Xalqlar birləşsə ən güclü müqaviməti qırarlar.

*Yoxsulu olmayan hökmdarın adı daima tarixdə qalar. Elələri var ki, dişləri qılınc, çənələri bıçaqdır, yoxsulları tutub udarlar.

*Hər insanın içində bir Günəş var, imkan verin o, parlasın.

*Artıq elminizi hərbdə deyil, tibbdə sınayın.

*Sərhədləri açın və dünyanı bir kənd halına gətirin.

*"Yeyəlim-içəlim, necə olacaqsa sabah öləcəyik" - deməyin; bəşəriyyətə fayda, kasıba iş verin, o zaman uzunömürlü və Yaradana qovuşanlardan olarsınız.

*Ey qayğısız qadınlar, qalxın, səsimi eşidin. Qardaş, ər və övlad acısını dadmaq istərdinizmi? "Yox, istəmirik" - deyərsiniz. Bəs nə üçün müharibələrə etiraz etmirsiniz?! Əgər dünyada sülh olmasa, şəhərlər kişisiz qalacaq, insan nəsli yox olacaq.

*İnadkarlığa hamilə qalıb ətaləti sevənlər, çəkilin, bəşəriyyət irəliləsin.

*Kəmər insanın belinə necə yapışırsa, cəhallət də insanın belinə elə yapışmışdır. Çalışın cəhalətdən xilas olasız!

*Budur, planetlər qarşınızdadır; bacarırsınızsa, övladlarınıza verməyi vəd etdiyiniz planetləri tutun. Yaradan sizi o qədər çoxaldıb ki, sayınız göydəki ulduzlar qədərdir. Qoy Allah sizi indikindən də min dəfə çox eləsin və necə ki, vəd edib, sizi nemət sahibi etsin.

*İçərinizdən müdrik, bəsirətli, dünyagörmüş adamlar seçin.

* Hakimlərinizə belə göstəriş verildi ki, "Aralarında münaqişə düşən şəxslərin işinə ədalətlə baxın! Hökm çıxaranda tərəfkeşlik etməyin. Kasıb adamı da böyük, varlı adamı dinlədiyiniz kimi dinləyin. Adamlardan qorxmayın, hökm Allahındır".

*Sizin sülhsevər davranmağınız başqa xalqlara sizin müdrik, aqil olduğunuzu göstərəcək və bu qayda-qanunlar haqqında eşidən o xalqlar deyəcək: "Bu böyük xalq, doğrudan da, müdrik və aqil bir xalqdır". Amma, siz ehtiyatlı olun, diqqət edin ki, bu qanunları unutmayasınız, nə qədər ki sağsınız, onlar ürəyinizdən silinməsin.

*Allah onları göylər altında yaşayan bütün bəşərə ərməğan edib. Ey insanlar, bu gün sizə bəyan etdiyim qanun və hökmlərə qulaq verin. Adam öldürməyin. Zina etməyin. Oğurluq etməyin. Heç kimə qarşı yalandan şahidlik etməyin. Başqasının arvadına tamah salmayın. Heç kimin heç nəyində - evində, torpağında, pulunda, varında və dövlətində gözünüz olmasın.

## *Qızıl-gümüşə meyl etməyin, elmə meyl edin.*

*Dinlə ey insan! Yaradanı bütün qəlbinlə, bütün varlığınla, var gücünlə sevməlisən.

*Ey sülhsevər insanlar! Siz Yaradanın müqəddəs xalqısınız. Yaradan yer üzündəki bütün xalqların arasından sizi seçib ki, Onun xalqı, Onun xüsusi mülkü olasınız. Ona görə də, bu gün sizə verdiyim tövsiyələrə ciddi-cəhdlə əməl edin. Əgər bu hökmlərə həmişə qulaq assanız və onları yerinə yetirsəniz, Yaradan ata-babalarınıza and içib verdiyi əhdə vəfa edəcək, vəd etdiyi kimi, məhəbbətini sizdən əsirgəməyəcək. Sizi sevəcək, sizə xeyir-bərəkət verəcək, sayınızı çoxaldacaq. O, sizə çoxlu övlad nəsib edəcək, torpağınızın məhsulunu, taxılınızı, yağınızı bərəkətli edəcək; mal-qaranızın, qoyun-keçilərinizin balası çox olacaq. Siz xalqların ən mübarəki olacaqsınız. Aranızda nə bir sonsuz kişi, nə bir sonsuz qadın olacaq. Heyvanlarınızdan biri də qısır olmayacaq. Sizdən hər cür azar-bezarı uzaq edəcək, sizi eşidib-gördüyünüz dəhşətli xəstəliklərə düçar etməyəcək.

*Qızıl-gümüşə meyl etməyin, elmə meyl edin. İyrənc şeyləri evinizə gətirməyin, yoxsa onlarla bir yerdə məhv olarsınız. Belə şeylərdən ikrah etməli, iyrənməlisiniz; çünki onlar məhv edilməli şeylərdir.

*İnsanı yaşadan yemək deyil, insanı yaşadan xeyirli əməl və elmdir.

*Adil insanlar tərəfkeşlik etməz, rüşvət almaz. Yetim üçün, dul qadın üçün ədaləti bərqərar edər; qəribi sevər, ona

ruzi, geyim verər. Siz də qəribi sevməlisiniz, çünki, bir zamanlar özünüz də qərib olmusunuz.

*Şəhərlərdən birində soydaşlarınızdan kimsə kasıbdırsa, ürəyiniz daşa dönməsin, ona qarşı xəsislik etməyin. Əlinizi səxavətlə açıb möhtac olduğu, korluq çəkdiyi şeyi ona borca verin. Ona qarşı səxavətli olun, nə isə verəndə candərdi verməyin, Onda Yaradan əməyinizə, əl atdığınız hər işə xeyir-bərəkət verəcək. Çünki, dünyada hələ ki, kasıblar olacaq. Buna görə də sizə deyirəm: ölkənizdəki fəqir-füqəraya qarşı əliaçıq olun. Yetimlər məktəbi qutardıqdan sonra onları əliboş yola salmayın. Sürünüzdən, xırmanınızdan, zeytununuzun və üzümünüzün məhsulundan səxavətlə onlara pay verin.

*Yaradan sizə bərəkət verdiyi kimi, siz də onun yaratdıqlarına qarşı əliaçıq olun. Haqq-ədaləti tapdalamayın, tərəfkeşlik etməyin, rüşvət almayın, çünki rüşvət hikmətlinin gözünü kor edər, dürüst adamın fikrini dəyişdirər. Ədalətə, yalnız ədalətə can atmalısınız ki, sağ qalıb Yaradanın sizə verdiyi diyara sahib olasınız.

*Rəhbərlər çoxlu arvad almamalıdır, yoxsa ürəyi haqq yolundan dönər. Özü üçün çoxlu qızıl-gümüş də yığmamalıdır.

*Aranızdan pisliyi yox edin ki, bütün cahil insanlar eşidib qorxsun.

### *Öküzlə eşşəyi bir kotana qoşmayın.*

*Yaradanın sizə irs olaraq verdiyi dünyanı murdarlamayın.

*Qadın kişi paltarı, kişi qadın paltarı geyinməməlidir. Allah belə adamdan ikrah edir.

*Öküzlə eşşəyi bir kotana qoşmayın.

*Yunla kətanın qarışığından toxunmuş parçadan paltar geyinməyin.

*Aranızdan pisliyi yox etməlisiniz.

*Heç kim atasının arvadını alıb atasının şərəfinə ləkə gətirməməlidir.

*Düşmənlərinizə qarşı çıxmaq üçün ordugah quranda özünüzü hər cür murdarlıqdan qoruyun.

*Nəzir edəndə onu yerinə yetirməyi uzatmayın, çünki, Yaradan bunu sizdən tələb edəcək. Yerinə yetirməsəniz, özünüzə ziyan verənlərdən olacaqsınız. Amma nəzir deməkdən qaçınırsınızsa, bu, günah deyil.

Verdiyiniz sözün (əhdin) üstündə durun və Yaradana öz dilinizlə könüllü olaraq nə nəzir etmisinizsə, yerinə yetirin.

*Qəribin, yaxud, yetimin işinə baxanda haqqı, ədaləti pozmayın.

*Yaradanın sözünə həmişə qulaq assanız, bütün nemətlər başınızdan töküləcək: şəhərdə də, tarlada da xeyir-bərəkətiniz aşıb-daşacaq; övladlarınız çox, torpağınızın bəhrəsi bol olacaq, heyvanlarınızın balaları, buzovlarınız, quzularınız saya gəlməyəcək. Səbətləriniz, xəmir təknələriniz bərəkətli olacaq. Hər işiniz avand olacaq. Yaradan anbarlarınızı

bərəkətli, əl atdığınız hər işi xeyirli edəcək. Yaradan sizə verdiyi diyarda üstünüzə bolluca xeyir-bərəkət yağdıracaq. Yaradanın əmrlərinə riayət edib Onun yolu ilə getsəniz, Yaradan siz sülhsevərləri müqəddəs xalq edəcək.

*Yaradan mal-heyvanınızı birə-beş artıracaq, torpağınızı məhsuldar edəcək.

*Yaradan Öz ruzi-bərəkət anbarının, göylərin qapısını açıb torpağınıza vaxtlı-vaxtında yağış yağdıracaq, əlinizin hər işinə bərəkət verəcək.

*Yox əgər Yaradanın əmrlərinə qulaq asmasanız, bütün əmrlərə və qanunlara dəqiqliklə əməl etməsəniz, bu lənətlər sizi qarabaqara izləyib yaxanızdan yapışacaq;

*Şəhərdə də, tarlada da lənətli olacaqsınız. Səbətləriniz xəmir təknələriniz lənətli olacaq. Övladlarınız da, torpağınızın bəhəri də, mal-heyvanınızın balaları da lənətli olacaq. Hər işiniz nəhs gətirəcək. Bəd əməllərinizə, Yaradanı unutduğunuza görə gördüyünüz hər işdən lənət, çaşqınlıq, cəza biçəcəksiniz; tez bir zamanda məhv olub yer üzündən yox olacaqsınız...

***Allahı sevirsinizsə, insafdan üz çevirməyin.***

Ey sülhpərvər xalq! Mənim ilk nəsihətim budur: pak, gözəl və nurlu bir ürəyə malik olun ki, əzəli, əbədi və qədim bir səltənətə sahib olasınız.

*Yaradanın nəzərində ən sevimli şey insafdır; Allahı sevirsinizsə, insafdan üz çevirməyin. İnsaf Yaradanın bizə bir

bəxşişidir; onu gözünüzün önündə saxlayın.

*Ey insanlar! Sevgi Yaradanın qalasıdır; oraya daxil olan kəs nicat tapar və əmin-amanlıqda olar; ondan üz çevirən kəs isə, yolunu azar və həlak olar.

*Yaradan sizi zəngin yaratdı; nə üçün yoxsulluğa yuvarlanırsınız?

*Yaradan sizi əziz yaratdı; nə üçün özünüzü zəlil tutursunuz?

*Yaradan sizi elm cövhərindən yaratdı; nə üçün Yaradandan deyil, başqasından elm axtarırsınız?

*Ey sülhpərvər xalq! Kainatı başdan başa axtarsan Yaradanın qüdrətindən başqa heç nə tapa bilməzsən!

*Yaradan sizi əbədiliyə çağırır; siz isə, faniliyə meyl edirsiniz.

*Öz məqamınızla fəqirlər qarşısında lovğalanmayın.

*Allahın yaratdıqlarından biri sizə üz tutub bir şey istəsə, onu rədd etməyin.

*Ey ağıl sahibləri! Hesabata çəkilməmiş, hər gün özünüzə hesabat verin. Çünki, ölüm sizi qəflətən haqlayar və əməllərinizin hesabını verməli olarsınız.

*Yaradan ölümü sizin üçün bir şadlıq müjdəsi etdi; nə üçün ondan hüznlənirsiniz?!.

*Allah Günəşi öz şəfəqlərini sizin üzərinizə səpmək üçün yaratdı! Nə üçün o nurdan pərdələnirsiniz? (Evinizə qalın pərdələr vurursunuz?!)

***Yaradan qızılı atəşlə, bəndələri isə, qızılla sınayar!***

*Ey sülhpərvər xalq! Kainat boyunca qaçsanız da, göylərinənginlliklərini dolaşsanız belə, Yaradanın qanunlarına baş əyməyincə rahatlıq tapa bilməzsiniz!

*Ey sülhpərvər xalq! Dünyanı bütöv bir kənd halına gətirin ki, Yaradan Əzəmətinin sirlərini sizə açsın və əbədiyyət nuru ilə sizi işıqlandırsın!

*Fikirləş və düşün: boş-boşuna yatağınızdamı ölmək istəyirsiniz, ya elmlənib sirləri tapıb, bəşəriyyətə fayda vermək?!

*Ey ağıl sahibləri! Özünüzü tamahın qulu etməyin. Çünki, Yaradan qızılı atəşlə, bəndələri isə, qızılla sınayar!

*Ey sülhpərvər xalq! Malınızdan elmə və yoxsullara xərcləyin ki, göydəki bitməz şərəf dəfinələrindən və tükənməz şöhrət xəzinələrindən bəhrələnəsiniz.

*Ey insanlar! Ürəyiniz Yaradanın evidir, oranı təmiz saxlayın!

*Dəyişikliklərə təhlükə kimi yox, yeni imkanlar kimi baxın.

*Yoxsulluq və kasıblıq ən əzablı edamdır...

*Elm alimlərdən bizə qalan əziz bir mirasdır.

*Gülərüzlülük və xoşxasiyətlilik ikibaşlı olar.

*Sülh və bağışlamaq böyüklük əlamətidir.

*Eqoistin düşməni çox olar.

*Səxavətlilik xeyirli və ürəkaçan bir dərmandır.

*İnsanlarla elə qaynayıb qarışın, elə rəftar edin ki, onlar heç zaman sizi unutmasınlar.

*Bədbəxt olmuş insanı tənqid etmək onu intihara sövq etməyə bərabərdir.

*Qorxu bədxah qonşudur.

*Utancaqlıq ümidsizliyin qardaşıdır.

*Yalan danışan adamın ya dili çaşar, ya da üzü.

*Məsləhət və məşvərət olmasa, dünya məhv olar.

*Əgər bir şeyi bilmirsinizsə, qəti olaraq “bilmirəm” deyin; bu, sizə ən doğru olandır.

*Ağıldan və səbrdən faydalı heç bir sərvət yoxdur.

*Xoş əməli boş ibadət əvəz edə bilməz.

*Fürsəti əldən vermək qorxuya təslim olmaqdır.

*Səhlənkarlıq və tənbəllik ən böyük bəlalardandır.

*Öyrənmək eşqi hər bir avamın cihadıdır.

***Kainatın içində insan,***
***insanın içində isə, Kainat var.***

*Ruzinin artmasını istəyirsənsə, yaxşı əməl et və tənbəllikdən əlini üz.

*Qəm kədər içində olan gənc artıq qocalmışdır.

*Var-dövlətin az qismini bölüşməklə amanda saxlayın.

*Xoş əməlsiz ibadət düzgün deyildir. Çünki, Yaradan gözəl sözləri eşidir, gözəl əməlləri qəbul edir!

*Kainatda hər şey yumaq kimi bir-birinin içindədədir - Kainatın içində insan, insanın içində isə Kainat var.

*Ey insanlar, öz azuqə və ruzinizdən artıq qazandığınız şeylərdə başqası üçün xilaskarsınız.

*Elm və bilik tükənməz xəzinədir.

* Güzəştə getmək, zəfər və qələbənin balaca qardaşıdır.

*Çətinliklərə göz yumun və yan keçin, yoxsa heç vaxt şad olmarsınız.

* Haqqımızı yeyənlərə zülm etmək bizim üçün ən böyük sərvətdir.

*Cəncəlli işlərə göz yumun.

*Ədalət və insaf qızıl ortanı tutmaqdır.

*Xəsis qadın, xəsis kişidən daha üstündür.

*Xəbərçinin dostu olmaz.

*Borcunuz varsa, dərdiniz var.

*Acıdillilik dəliliyin bir növüdür.

***Elm axtaran insan heç vaxt doymaz.***

*Ən təhlükəli yer ən böyük vəzifədə olanın yeridir.

*Ən yaxşı görmək ağılla olur.

*Namuslu şəxs zinaya nifrət edər.

*Yaradan vasitələrlə hər şeyə qadirdir. Çalışın siz də Onun bir vasitəçisi olasınız.

*İnsanı tanımaq istəyirsənsə, ona vəzifə ver.

*Elm axtaran insan heç vaxt doymaz.

*Qeybət etmək və arxasınca danışmaq insanı rahatlaşdırsa da, sonradan onu kiçildər.

*Yaradana qovuşmağı öz yeganə istəyinə çevir. O səbəbdən ki, yeganə, ölməz və əbədi olan Odur.

*Davamlı elmlənən və daima elmi axtarışda olan insan mələkdən üstündür.

*Əgər xilas baradə bu gün düşünmürsünüzsə, bəs nə vaxt düşünəcəksiniz? Zəncirləri bu gün qırmayacaqsınızsa, bəs nə vaxt qıracaqsınız?

*Xırda işlərdə ciddilik böyük işlərdə mükəmməllik yaradar.

*Qorxu yolu ilə kamilləşmə, özünə daxili intizam yarat; qoy o sənin öz konstitusiyan olsun. Əks halda (qorxu yolu ilə kamilləşsən), kamillik cahilliyə dönər.

***Bir ölkədə oxumağa olan istək artmazsa, qəflət və ondan yaranacaq fəlakətlər azalmaz.***

*Heç bir zaman “mən” deməyin, “biz” deməyin; daim “siz” deyin. Bu cümlədə böyük hikmətlər yatır.

*Biliyə edilən yatırım sənə çox böyük fayda gətirər.

*Çox dil bilmək savadlı olmaq demək deyil.

*Bir ölkədə oxumağa olan istək artmazsa, qəflət və ondan yaranacaq fəlakətlər azalmaz.

*Amansız iqtidar piroq kimidir, onun qıraqlarından yemək asandır.

*Qoy bütün insanlar səni tanısın; amma, heç kim səni tam olaraq tanımasın. İnsanlar dayaz yerini gördükləri dərəni asan keçərlər.

*Evlənməzdən əvvəl gözünü dörd aç; evlənəndən sonra birini yum.

*Fırıldaqçılar düzgünlüyün bütün üstün cəhətlərini bilsəydilər, qazanc xatirinə düzgün insan olardılar.

*Həyatın ən böyük faciəsi tez qocalmaq deyil, gec ağıllanmaqdır.

*Ağıl dişinin tez çıxması insanın tez ağıllanmasına dəlalət etməz.

### *Hər kəsin içində öz doğuluşunu gözləyən bir xilaskar var*

*Yaradan kömək edənlərə kömək edər.

*Cəmiyyəti düşündürməyi bacarmaq, əslində, onu tərbiyə etmək deməkdir. Düşünə bilən cəmiyyət əslində kamilliyin bütün mərhələlərindən keçməyə qadir olan cəmiyyətdir. Düşünə bilməyən, düşünmək istəməyən cəmiyyət isə, bir cəmiyyət kimi imzasızdır və daima kölədir.

*Əgər əsgərə oturmağa icazə versən, tezliklə yatmaq istəyəcək.

*Pis qanunlarla və yaxşı məmurlarla ölkəni idarə etmək mümkündür. Yox, əgər məmur pisdirsə, ən yaxşı qanunlar belə kömək etməz və iri məmurlar kiçik məmurlara deyərlər: elə edin ki, narazılıq olmasın; olsa da, bir təhər yoluna qoyun; harada qırılar, qırılar.

*Zorakılıq çox sərt və davamlı olursa, məzlumarın tək nicatı zalıma və cəllada aşiq olmaq olur.

*Böyük şəxsiyyətlər öz xalqına haradan gəlib, hara getdiklərinə istiqamət vermək üçün yaranırlar.

*Hər kəsin içində öz doğuluşunu gözləyən bir xilaskar var.

*Nəsihət lazımsız olsaydı, onda peyğəmbərlər göndərilməzdi.

*Bağınızın, bostanınızın məhsulundan qurban olaraq paylayın. Bu vaxt məhsulun (meyvənin, tərəvəzin) ən keyfiyyətlisi Yaradan yolunda verilməlidir. Yaxın gələcəkdə insanlar bitkilərdən verilən Qurban bayramını qeyd edəcəklər. Buna “Qansız bayram” deyiləcək. Hər il yayda qeyd ediləcək bu bayramda insanlar üç gün ərzində öz bağ-bostanlarının məhsulundan qurban olaraq paylayacaqlar. Heyvanı olmayan və yaxud heyvan almağa pulu olmayanlar, öz bağlarının meyvəsindən imkansızlara paylamaqla savaba çatacaqlar. Yaxın gələcəkdə insanlar ölülərə ehsan olaraq meyvə ağacları əkləcəklər. Bütün bunlar ekologiyaya müsbət təsir göstərməklə yanaşı, insanların qidaya, vitaminə olan tələbatını da təbii yolla ödəyəcəkdir. Həm də insanlarda yardımlaşma, paylaşma hisslərini artıracaq ki, bu da günahların yuyulmasına və savabın çoxalmasına səbəb olacaqdır.

*Ölüsü üçün ehsan vermək istəyənlərə tövsiyə olunur ki, mərhumun ehsanı üçün 12 ədəd meyvə ağacı əksinlər. Ölən adamın varisləri o ağaclara ehtiramla yanaşsınlar və qulluq etsinlər. Ağacların meyvələrini hər il yetimlərə və imkansızlara paylayıb, ölən adam üçün dua etmələrini xahiş etsinlər. Onların hər il etdikləri dualarla ölən adamın günahları ya tamam, ya da qismən bağışlanır. Ölən adam əgər çoxlu var-dövlət qoyub gedibsə, ölən günü həmin var-dövlətdən

40 yetimi doyuzdurmaq tövsiyə olunur (və yaxud, heyvan kəsib, 40 yetimin evinə pay göndərmək olar).

*Mərhumun ilində isə, yeddi yetimi doyuzdurmaq tövsiyə olunur. Mərhum yuxunuza girirsə, üç yetimi doyuzdurun.

*Uşaq anadan olanda, toy zamanı, hərbi xidmətə uşaq yola salanda, hər hansı bir insanı itirmə səbəbilə, instituta qəbul olanda, institutu bitirəndə, iş tapanda, ev alanda da çalışın bar verən ağac əkin; meyvələrindən ehtiyacı olanlara paylayın.

*Ancaq yetimlərə (və çox yoxsullara) verilənlər Allah dərgahında ehsan olaraq qəbul edilir.

## DÜNYA SİYASƏTİNƏ DƏ BAŞ VURUR...

***Desəm öldürərlər, deməsəm ölləm.***
*(Zəlimxan Yaqub)*

Paşa Yaqub "MASSONLAR DÖVLƏTƏ BELƏ TƏSİR EDİR" başlıqlı yazısında göstərir:

-Siyasət və psixologiya-bu iki məfhum bir-biri ilə çox sıx bağlıdır. Sovetlər dönəmindən fərqli olaraq biz buna daha çox Azərbaycanın müstəqilliyinin ilk vaxtlarından diqqət etməyə başlamışıq.

Bəs siyasət və psixologiyanı özündə ehtiva edən siyasi psixologiya nədir?

Müxtəlif dövrlərində dövlətin keçdiyi mərhələləri ayrı-ayrılıqda mərhələlərlə belə göstərmək olar:

-Orta əsrlərdə yaşamış təcrübəli dövlət xadimi və tarixçi İbn Xəlduna görə, dövlətlər də insanlar kimi doğular, böyüyər, yaşlanar və ölər.

Buna görə də dövlətin keçirdiyi mərhələləri 5 yerə ayırmaq lazımdır.

Birinci mərhələ;

-Fəth və quruluş mərhələsidir ki, bu mərhələdə oturaq bir rəhbərliyin əlindən hərbi güclə iqtidar ələ keçirilir. Əsəbiyyə bağlarının çox güclü olduğu, hökmdarların bir kraldan daha çox bir başçı olduğu mərhələdir.

İkinci mərhələ;

-Hökmdar iqtidarı inhisarlaşdırmağa başlayır. Bunun üçün özünün başa keçməsinə kömək edən təbii həmrəylikdə "təmizlik" aparmağa başlayar, onun gücünə ortaq olanları yox edər, birbaşa özünə bağlı olan muzdlu döyüşçü və bürokratlardan təşkil olunmuş bir əhatə yaratmağa başlayar. Bundan başqa mütəfəkkirlərdən ibarət məsləhətçiləri olar.

İbn Xəldunun düşüncəsincə mütəfəkkirlər ən pis siyasi məsləhətçilərdir. Siyasi hadisələri ayrıca görmək əvəzinə, bir-biri ilə müqayisə edərək gördükləri üçün mənfi siyasi məsləhətlər verə bilirlər. İbn Xəlduna görə hökmdarlara əsl yararlı məsləhətləri "orta bir zəkaya sahib olan fövqəladə şəxslər" verirlər.

Üçüncü mərhələ;

-İqtisadi rifahın artdığı, mədəni ünsürlərin inkişaf etdiyi bir yüksəliş, ya da dəbdəbə mərhələsidir. Bu mərhələdə hökmdar şəxsi gəlirini artırmaq, tabeliyində olanların vergilərini azaldaraq dövlətin maliyyə mənbələrini artırmaq və yenidən düzəltmək, şəhərləri gözəlləşdirmək üçün çalışır. Hər kəs iqtisadi rifahdan öz payını alır, sənətkarlıq və elm inkişaf edir, hakim təbəqələr özlərini mədəni layihələrin qoruyucuları olaraq göstərərlər.  Rifah və sərbəstliyi dövlətin suveren vəziyyətinə çevrirlər.

Dördüncü mərhələ;

-Doymaq, təmin və özünü bəyənmək mərhələsidir. Sabitlik və sülhün hakim olduğu, idarəetmədə yenilikçi heç bir təşəbbüsün olmadığı, əvvəlki idarəetmənin təqlid edildiyi və

bundan imtina etmənin dövlətin dağılmasına səbəb olduğuna inanılan bir mərhələdir.

Həm idarə edənlər, həm də idarə olunanlar bu sabitlik və rifahın əbədi olacağına inanarlar. Dövlət qurucularının gücü və uğurlarına görə bu mərhələ çox uzun müddət davam edə bilər. Ancaq bu mərhələdə hiss olunmadan geriləmə, dağılma başlayır və dövlət sonuncu mərhələ olan "eyş-işrət və israf" mərhələsinə keçir.

Beşıncі (Sonuncu) mərhələ;

-Eyş-işrət və israf mərhələsidir.

Bu mərhələdə hökmdarların iqtisadi və toplum hadisələrini şəxsi arzuları ilə idarə etməyə çalışması ilə dövlətdə sağalması mümkün olmayan xəstəliklər meydana çıxır.

Hökmdar sahib olduğu lüks həyatı, ordunu və bürokratları saxlamaq üçün vergiləri artırmağa məcbur olur. Artan vergi iqtisadi fəaliyyətlərin azalmasına səbəb olur və hökmdarın məqsədinin əksinə olaraq, dövlətin gəlirləri azalır. Dövlətin gözləmələri zəifləyər və ümidsizlik yayılar. İqtisadi fəaliyyətlər dayanar və insanlar uzun müddətli planlara girişməzlər. Doğum həddi aşağı düşər, əhalisi çox olan şəhərlərdə sıxlıq və ekoloji problemlər ortaya çıxar. Dövlət dağılmağa başlayar. Mərkəzdən uzaqda yerləşən valilər, generallar, şahzadələr, ya da başqa dövlətlər dövlətdən torpaq parçaları əldə etməyə başlayarlar. Paytaxtda da ordu və bürokratlar hökmdarın nüfuzunu ələ keçirməyə, hökmdarı sadəcə "oyuncağa" çevirməyə başlayarlar. Nəticədə xaricdən gələn və əsəbiyyəsi güclü gənc və sağlam bir topluluq

dövləti zəbt edər və çürümüş quruluşu yox edib, yenisini qurarlar.

Hər dövlət bu mərhələləri yaşayar və bunlar dövri olaraq həmişə təkrarlanar. Göründüyü kimi bir mərhələdən digərinə keçid ictimai quruluşdakı təbii güclərlə izah olunur. İbn Xəlduna görə bu proses bir ictimai qanundur və şəxslərin iradəsinə tabe olmaz".

Siyasi psixologiya sosiologiya, iqtisadiyyat, kommunikasiya, biznes, təhsil və digər bir çox sahələr də daxil olmaqla sosial elmlər, siyasət və psixologiyanı özündə ehtiva edən sosial elmi araşdırmanın inkişaf edən sahəsidir. Siyasi psixoloqlar psixoloji əsasları, kökləri və siyasi davranışın nəticələrini aydınlaşdırmağa çalışırlar. Bu fəaliyyətin bir qismi elmi proseslərin əsas nəzəriyyələrini tətbiq edərək siyasi fenomenlərin anlaşılmasını və siyasətdən kənar inkişaf edən sosial əlaqələri araşdırır.

Siyasi psixologiyanın məqsədi cəmiyyətin və xalqın bir-biri ilə, yaxud liderləri ilə olan əlaqələri müşahidə etməkdir. İdarə edən-idarə olunan əlaqəsində müşahidə edilən "əlaqə" olduğu üçün mediada, yaxud müxtəlif sahələrdə siyasi partiyaların seçici davranışı, lider davranışı, qrup dinamikası və kütlə psixologiyası haqqındakı araşdırmaları siyasi psixologiyanın sahəsidir. Bundan başqa siyasi psixologiya daxili müharibə, soyqırımı, ictimai anlayışlar, terror, təzyiq qrupları, miqrasiya və inteqrasiya sahələrində fəaliyyət göstərilməsini məqsədə alıb.

## M A S S O N L A R...

Bu gün bu sözə tez-tez rast gəlinir. Massonları hər şeydə - hətta, SSRI-nin dağılmasında, iqtisadiyyatın çökməsində, insanların müflisləşməsində günahlandırırlar. Ancaq ciddi araşdırmaya başlayanda bütün bu baş verənlərdə bütövlükdə “mason fitnələrini” görmək mümkün deyil. Doğrudur, dünyanın idarə olunmasında massonların xüsusi proqramı var. Proqramlarını zaman-zaman həyata keçirirlər. Bunu inkar etmək qeyri-mümkündür. İndi heç bir ölkəyə ordu yeritməyə ehtiyac yoxdur. Hər 6 aydan bir Avropa Şurasında istənilən ölkəni müzakirə etmək kifayətdir ki, istədiklərini əldə edə bilsinlər.

Bu yolla əksər ölkələrin bütün sərvətləri Aropaya daşınır ki, həmin ölkənin liderləri yaxşı qələmə verilsinlər. Bu mədəni işğaldır. İşğal necə olmalıdır ki?

Məhz, buna görə dildə desələr də, əslində avropalılar şərq ölkələrində demokratiya bərqərar olmasını istəmirlər. Çünki, demokratiya olmayanda istədikləri vaxt düyməni basaraq istədikləri qədər pul əldə edə bilirlər.

Heç kimə sirr deyil ki, hazırda dünyanı massonlar idarə edir. Massonların şərq və qərb ölkələrini idarə etmək üçün xüsusi proqramları var. Hətta, əsas Kütləvi İnformasiya Orqanları da onların planları ilə işləyirlər. Massonlar əslən yəhudi və ingilislərdən ibarətdir. Əslində ağıllı adamdırlar. Bütün

ölkələrdə olduğu kimi, Şərqdə də onların üzvləri var. Üzvlərini rəhbərliyə yerləşdirib, onların vasitəsilə ölkələri idarə edərək şərqin şərvətlərini Qərbə daşıyırlar. Özü də mədəni şəkildə. Nə güllə atmağa, nə qoşun yeritməyə ehtiyac qalmır.

Hansı ölkə rəhbərliyinə deyiləndə ki, -Sizdə insan haqqları pozulur, Avropa Şurasında müzakirə olunaraq, qərar qəbul ediləcəkdir- bu istədikləri məbləği əldə etməyə kifayətdir.

Diktator ölkə başçılarını bir növ şantaj edərək pul alıb hakimiyyətdə qalmalarına şərait yaradırlar. Əksər millətlərdə tam dərketmə yoxdur. Dərrakə olsaydı, imkan verməzdilər ki, Avropa onların sərvətlərini daşısın.

Bilərəkdən Şərqdə demokratik seçkilər olmasına imkan vermirlər. Seçkilərə müdaxilə edib öz adamlarını yerləşdirirlər. Müxalifəti isə aldadırlar ki, seçkilərin demokratik keçirilməsinə nəzarət edəcəklər.

ABŞ-da da belədir. Seçkiləri böyük güclərin nümayəndələri keçirir. Yəni, massonlar. İstədikləri ölkələrə ABŞ-ın əlilə təzyiq edirlər. Bu hal belə davam edə bilməyəcək. Artıq sondur. Demək olar ki, sonuncu mərhələni yaşayırıq. Hər yerdə olduğu kimi Azərbaycanda da böyük güclərin rolu var. Hər şey onların planı ilə gedir. Amma, heç nə əbədi deyil. İnanıram ki, tamam yeni bir dövr yaxın illərdə başlayacaq. Bura təbii fəlakətlər, xəstəliklər də daxildir. İnsanın yaratdığı şey özünə qarşı çevrilir. Bəlalar gələndə hansı təbəqə olmasına baxmayacaq. Bu təmizlənmə prosesi olacaq. İnşallah, yer kürəsi təmizlənərək, ədalətin bərqərar olduğu eraya qədəm qoyacaq.

# DÜNYADA RÜŞVƏTƏ BELƏ SON QOYMAQ OLAR...

*Qanunsuz-qaydasız yurd olmaz abad,*
*Qanunsuz çox ölkə olubdur bərbad.*

Paşa Yaqub bütün dünyada tüğyan edən rüşvətə son qoymaq üçün dövlət quruluşunun necə olmasını özünəməxsus tərzdə xalqlara çatdırır və əmindir ki, dövlətlərdə onun izah etdiyi kimi quruluş olarsa, rüşvət alınması qeyri-mümkün olar.

Belə yazır:

-Bu gün dünya ölkələrinin böyük əksəriyyətində insanlar korrupsiya bataqlığında boğulmaqdadırlar. Millətlərin içərisində olan az sayda ağıl sahibləri bu bataqlıqdan xilas yollarını düşünməkdədirlər. Bunu nəzərə alıb, elmi-lədun yolu ilə bizə öyrədilmiş dövlət quruluşu sistemini paylaşırıq ki, xalqlar gələcəkdə bu sistemi öz ölkələrində tətbiq etməklə, elə dövlət qursunlar ki, o quruluşda məmurlar istəsələr belə, korrupsiyaya qurşanmaq mümkün olmasın.

Öncə qeyd edək ki, qədim dövrlərdən başlayaraq, korrupsiya dövlətlərin idarəetmə sisteminin kökünü zədələmiş, mütəşəkkil cinayətkarlığa yol açmış, cinayətkar qruplaşmaların yaranmasına səbəb olmuş və bu qrupların əsas strate-

giyasına və taktikasına çevrilmişdir. Məmur özbaşınalığı, vəzifə saxtakarlığı, vəzifədən sui-istifadə etmə halları, rüşvətxorluq, dövlət əmlakının talan edilməsi, maliyyə fırıldaqları və bu kimi başqa cinayət əməllərinin kökündə məhz, korrupsiya durur.

Bu gün dünyadakı bir çox korrupsioner rəhbərlərin əsas amalı bunlardır:-dövlət büdcəsini dağıtmaq, gənclərin mənəviyyatını pozmaq, həkimlərin, müəllimlərin və başqa peşə sahiblərinin vasitəsi ilə xalqı məhv etmək, seçkilərin nəticələrini saxtalaşdırmaq, xüsusi mülkiyyəti məhv etmək, ekoloji tarazlığı pozmaq, insan və vətəndaşların əsas azadlığını məhv etmək, mətbuatı yaltaq jurnalistlərlə "bəzəmək", azad sözü boğmaq və ən əsası dövlət hakimiyyətindən öz şəxsi məqsədləri üçün sui-istifadə etmək.

Korrupsiya hüquqi aktların və dövlətin inkarı deməkdir. Korrupsiya zülmü, zorakılığı, özbaşınalığı və s. bu kimi əzazil və rəzil xüsusiyyətləri özündə ehtiva edən, hətta, fahişəlik kimi qədim tarixi olan çox zərərli bir əməldir.

Rüşvət alan hakimin hər hansı bir orqanı alınıb Dövlət orqan bankına təhvil verilməlidir ki, o, belə əməldən çəkinsin. Göydə uçan quşun hara gedəcəyi məlum olmadığı kimi, pis dövlət başçısının da nə edəcəyi məlum olmaz.

Korrupsioner rəhbərlər elə edərlər ki, korrupsiya əməli pis hal kimi deyil, dolanışıq halı kimi qələmə verilsin. Hüquqi aktların işləməməsi korrupsiyanın əsas səbəblərindən biri kimi göstərilməlidir. Korrupsiyanın qarşısını almaq üçün məmurun maaşı artırılmalı və göstərdiyi xidmətə uyğun bonus əlavə edilməlidir.

Məhkəmə hakimiyyətində korrupsiyanın olmasının əsas səbəbləri bunlardır:-hakimlərə ciddi cəza nəzərdə tutulmaması, hüquqi aktlardakı qeyri-müəyyən nitq hissələrindən istifadənin çox olması (hüquqi aktlarda boşluqların yaranmasına səbəb olur), ictimai nəzarətin olmaması, nəzarətedici orqanın olmaması, cəzasızlıq mühiti, sahibkarların azad olmaması, hüquqi aktların işləməməsi, hakimlərin şəffaf seçilməməsi və s.

Korrupsiyanın nəticələri bunlardır: - kölgə iqtisadiyyatı yaranır, monopolistlər iri vəzifə sahibləri olur və onların sayı artır, təhsil və səhiyyə çökür, əsgər və zabitlərdə qələbəyə inam ölür, elmin inkişafı ləngidilir, xalqın milli mənəviyyat hissi ölür, yaltaq ziyalılar sinfi meydana gəlir, beyinlər kütləşir, dövlətin içindəki mafioz qruplar sahibkarları sıxır, yoxsulluq artır, hakimiyyətə inam azalır, xarici sərmayəçilərin etibar və inamı itdiyindən yatırımlar azalır, hüquq-mühafizə orqanları konkret şəxslərə və ailələrə işləyir, tayfa-klan hakimiyyətləri yaranır, sifarişli məhkəmələr və s.

Hansı xalq ki, korrupsiyaya hörmət kimi baxır, o xalq şübhəsiz məhvə məhkumdur. Korrupsiyanın əcdadı mənəvi pozğunluqdur. Rüşvət alan məmura ilk öncə xəbərdarlıq edin və onun iş yerini dəyişin. Əgər o ikinci dəfə bu hərəkəti etsə, o zaman onun bütün əmlakı dövlət tərəfindən alınsın, hərracda satılsın və ehtiyacı olanlara əvəzsiz verilsin.

Yaradan insana var dövləti ona görə verir ki, insan onu xoş niyyətlər üçün istifadə etsin və ehtiyacı olana yardım etsin.

Ey insanlar, sizin ən böyük amalınız zülm və istibdaddan, qorxu və ehtiyacdan azad bir dövlətdə asudə və rahat yaşamaqdır.

Ey insanlar, bilin və agah olun ki, insanın insana qarşı törətdiyi cinayətin kökündə şübhəsiz, varlanmaq ehtirası dayanır. Varlı olmaq və ya yaxşı yaşamaq hamının istəyi olsa da, başqasının hesabına varlanmaq hər adamın arzusu deyil. Hər bir insan öz zəhməti hesabına varlanmalı, yalnız haqqı olan maddi nemətlərlə kifayətlənməlidir.

Ey insanlar, bilin və agah olun ki, var dövlət toplamaq insanın ən böyük missiyası olsaydı, təbii ki, bunu peyğəmbərlər, filosoflar hamıya dəfələrlə bəyan edərdilər. İnsanın ən böyük missiyası xeyir əməl sahibi olmaq və elmlənməkdir. Şübhəsiz, insanın ən böyük amalı bəşəriyyəti maarifləndirmək, əhəmiyyətli ideyalar irəli sürmək və həyatı dərk etməkdir.

Ey rəhbərlər, işçilərnizə inanın, amma, daima onları yoxlayın. Hər şeyə şübhə ilə yanaşmaq olar, amma, hər şeyə inamsızlıq göstərmək olmaz.

Müharibələrin özü insan acgözlüyünün, hərisliyinin ən yüksək səviyyəsi deyilmi? İnsan qətlləri, üsyanlar hakimiyyət ehtirasının nəticəsi deyilmi? Bəzi şəxslər deyərlər ki, dünya fanidir, vəfasızdır. Əslində fani də, vəfasız da tamahkar insanın özüdür. Bir insanın təminatı yoxdursa, öz evində acından ölürsə, onun ölümündə kimdir günahkar - insan, dünya, yoxsa dövlət? Məgər dövlət elə insan deyilmi? Dövlətin başında duran kimdir: dünya, yoxsa insan?

Əl idarəçiliyin simvoludur; məgər insanlar bunu bilmirlərmi? Əldə beş barmaq olduğu kimi, dövlətin idarəçiliyi də beş yerə bölünməlidir:

1. Baş barmaq məhkəmə hakimiyyətini;
2. İşarə barmağı nəzarət edici hakimiyyəti;
3. Orta barmaq imtahanları təşkil edən hakimiyyətin bir qolunu;
4. Üzük barmağı qanunverici hakimiyyəti;
5. Kiçik barmaq isə, icraedici hakimiyyəti bildirir.

Quracağınız dövlətdə hakimiyyətin bu qolları qarşılıqlı fəaliyyət göstərməli və öz səlahiyyətləri daxilində müstəqil olmalıdırlar.

Məhkəmə hakimiyyətinin müstəqilliyini təmin etmək üçün, hakimliyə namizədlər ilk olaraq imtahan versinlər. (İmtahanları vahid qurum təşkil etməlidir). Sonra isə, hakimlər yüksək bal toplayan namizədlər arasından xalq tərəfindən seçki yolu ilə seçilsinlər.

Məhkəmələr Cinayət, Mülki, İnzibati, İqtisadi, Apellyasiya və Ali məhkəmələrə bölünsünlər.

Məhkəmə qərarlarının icrasına "Nəzarətedici orqan" nəzarət etsin. Nəzarət edici orqanı "Baş Senzorluq" adlandırılsın. Senzorun rəhbəri "Baş senzor" adlansın. Senzorluq ölkədə bütün hüquqi aktların icrasına nəzarət etsin. Senzorun işçiləri Ali hüquq təhsilli olmalı və işə imtahan verərək seçilməlidirlər.

Baş Senzor senzorlar arasından stajı, biliyi və təcrübəsi nəzərə alınmaqla, püşkatma yolu ilə 7 il müddətinə seçilsin

və bir daha bu vəzifəni tuta bilməsin. Keçmiş Baş Senzor seçilmiş şəxs səlahiyyət müddəti bitdikdə birbaşa Dövlət Şurasının üzvü sayılsın.

Dövlət Şurasının üzvləri insan hüquq və azadlıqlarına ziyan verəcək hər bir qərara veto qoymaq hüququna malik olsunlar və onlar toxunulmaz sayılsınlar.

İmtahan Şurası ən savadlı, bilikli, elm adamlarından ibarət tərkibdə yaradılsın və şuranın əsas məqsədi dövləti savadlı kadrlarla təmin etmək olsun.

Qanunverici hakimiyyət isə, hüquqi aktların ekspertiza şurasıdır. Şura bütün hüquqi aktlar qəbul edilməmişdən əvvəl onun ekspertizasını həyata keçirsin və şuranın işçiləri ən savadlı hüquqşunas, iqtisadçı və digər peşə sahiblərindən ibarət olsun. Şurada qanunvericilik təşəbbüsünü hər bir vətəndaş elektron və yazılı formada bildirə bilər. Şurada millət vəkilləri olmasın. Şurada ancaq ekspert və mütəxəssislər təkliflər hazırlasınlar. Təkliflər ümumi bəşəri dəyərlərə zidd olmamalıdır. Şurada hazırlanmış qanunlar (və onlara vaxtaşırı edilən dəyişiklikləri) ümumxalq referendumu ilə qəbul edilsin.

İcraedici hakimiyyətinizin başçısını Strateq adlandırın. Strateq öz icra səlahiyyətlərini həyata keçirmək üçün ixtisaslaşmış qurumlara rəhbərləri Baş senzorluq və İmtahan şurası ilə razılaşdırmaqla təyin etsin. Strateq 7 il müddətinə seçilsin. Strateq seçilmiş şəxs bir daha yenidən strateq seçilə bilməz. Əvvəllər strateq seçilmiş şəxs səlahiyyət müddəti bitdikdən sonra birbaşa Dövlət Şurasının üzvü olsun.

Strateq ölkəni aşağıdakı xalq tribunları vasitəsi ilə idarə etsin:

1.Hərbi işlər üzrə xalq tribunu - bütün silahlı qüvvələrə, hərbi sənayeyə və hərbi xidmətə çağırışa nəzarət etsin.

2. Maliyyə işləri üzrə xalq tribunu - dövlətdə işləyən işçiləri və işləməyən vətəndaşları sosial müavinət və pensiya alan şəxsləri hər ay vaxtlı-vaxtında pulla təmin etsin.

3. Daxili işlər üzrə xalq tribunu - bu vəzifə həm də vitse-strateq sayılsın. Daxili işlər üzrə xalq tribunu ölkənin miqrasiya, vergi, gömrük siyasətinə, fövqəladə hallara və türmələrə nəzarəti həyata keçirsin. Bu qurum həm də ölkədəki bütün təhqiqat və istintaqları aparsın. Bu quruma rəhbərlik edən şəxs dövlətin bütün qubernatorlarının başçısı sayılsın.

4.Qubernatorlar İmtahan Şurasının təşkil etdiyi imtahanları müvəffəqiyyətlə verən şəxslərdən ən çox bal toplamış şəxslər seçilsin. Əgər iki və daha artıq ən çox bal toplamış şəxs olarsa, onda qubernator onlar arasından püşkatma yolu ilə seçilsin.

Qubernatorlar öz ərazilərində qeydiyyat idarələrinə, təhsilə, səhiyyəyə, ekologiya idarələrinə tam nəzarət etsinlər.

5. Mədəniyyət işləri üzrə xalq tribunu - turizmə, idmana, tikinti və bərpa işlərinə nəzarət etsin və tikintilərə icazə versin.

6. Yüksək texnologiyalar və nəqliyyat işləri üzrə xalq tribunu - su, quru, dəmir yolu, hava, kosmosdakı işlərə nəzarəti və aidiyyatı yerlərdəki təmir-bərpa işlərinə nəzarəti həyata keçirsin.

7. Xarici işlər üzrə xalq tribunu - ölkənizin xarici siyasətini müəyyən etsin.

8. İnsan və Dövlətin mühafizəsinin təşkili üzrə xalq tribunu - dövlətinizin və vətəndaşlarınızın təhlükəsizliyini təmin etsin.

9. İqtisadi inkişaf üzrə xalq tribunu - kənd təsərrüfatı və digər dövlət inkişafı üçün müxtəlif proqramları hazırlasın və onları icra etsin.

10. Bütün banklar dövlətin müstəsna mülkiyyətində olsun. Sələmi haram elan edin. Bank işçiləri maaşlarını dövlətdən alsınlar.

Xalq tribunları və qubernatorlarınızın səlahiyyət müddəti beş il olsun və bir şəxs yalnız bir dəfə həmin vəzifələri tuta bilsin.

Bu gün dünyada olan xalqların böyük əksəriyyəti korrupsiyalaşmış dövlət qurumlarının əsarətində qalmışlar və çıxış yolu axtarırlar. Yuxarıda göstərdiyimiz dövlət quruluşu sistemi bəşəriyyətə bir model olaraq təklif edilir. Əgər sizlər həqiqətən də korrupsiya ilə mübarizə aparmaq, rüşvətxorluğun kökünü  kəsmək, tərəqqi etmək istəyirsinizsə, onda öz ölkələrinizdə bu modeli tətbiq etməyniz təklif olunur.

# ULULARIN ÖMRÜNÜ YAŞADAN İNSAN...

**"Yarat, sən köçəndə ellər söyləsin;**
**Dünyadan nə gözəl bir insan gedir".**
*Məmməd Rahim*

Paşa Yaqub 22-23 yaşlarında uşaq ikən oxuduğu Məmməd Rahimin bu misraları yadına düşür və Allaha sığınaraq qələmi əlinə alır. Nə az, nə də çox 100-lərlə məqalələr, 34 kitab və 5 ensiklopediya yazaraq, oxucuların sevimlisinə çevrilir.

Yazdığı hər cümləyə belə onun daxili zənginliyi, ruhu hopmuşdur deməmək mümkün deyil.

Müxtəlif mövzulardan olan yaradıcılığında Ulu Tanrıya, insanlığa, təbiətə bağlılıq olmaqla yanaşı, həm də çox rəngarəngdir.

Paşa Yaqub yazmaqla kifayətlənmir. Yazdıqlarını təbliğ edərək, cəmiyyətə çatdırmaq üçün də varlığı ilə çalışır. Mən əminliklə deyirəm ki, buna nail olur.

Hələ uşaq ikən gəzdiyi ziyarətgahlara gedir, onların tarixini, kəramətlərinin nədən ibarət olmasını öyrənir. Geniş oxucu auditoriyası olan Paşa Yaqubun ilk kitabı "Övliyalar Vurğunu"dur.

O, bu kitabı çox çətinliklə ərsəyə gətirir. Həmin dövrdə kompüter yox idi. Əllə yazırdılar ki, bu da uzun bir vaxt və zəhmət tələb edirdi.

Paşa Yaqubun demək olar ki, kitablarının bir neçəsi əllə yazılmışdır.

Paşa Yaqubun kitabları aşağıdakılardır:

1. Övliyalar vurğunu
2. Allahın dostları
3. Mürşidi-Kamil
4. Şəhidlik zirvəsi
5. Böhrandan çıxış yolları
6. Kamilliyə doğru
7. Kür damlaları
8. Tanrı məhəbbəti
9. Kəramət sahibi
10. Mənəviyyat həkimləri
11. Peyğəmbər nəvələri Azərbaycanda
12. İslamın Mayakları
13. Doğrulan ümidlər (I, II, III, IV nəşrlər)
14. Şıx Eyyub Baba
15. Nurlu simalar (I, II, III nəşrlər)
16. Torpağı şərəfləndirənlər (I, II nəşrlər)
17. Ziyarət yollarında (I, II nəşrlər)
18. Padar kəndinin ensiklopediyası
19. Baş Daşağıl ensiklopediyası
20. Övliyalar məskəni Quba Mahalı (I, II nəşrlər)
21. Kərimli ensiklopediyası

22. Kəramətin sirrləri
23. Eminli ensiklopediyası
24. Kişilik məktəbi
25. Xanım övliyalar
26. Cəlil Bəy
27. 16 - məhəbbət ili
28. Təbabətin sirləri
29. Həyatınızı dəyişəcək - 2019
30. Xərçəngdən belə qurtuldum
31. Gizli elmlər
32. Koronavirus dərmansız da sağalır
33. Autizm - Yaranma səbəbi və müalicəsi
34. Autizmə belə qalib gələk
35. Övliyalar ensiklopediyası

# ZƏRDAB RAYONU



Ötən əsrin 70-ci illərində Zərdab ərazisində görülən meliorasiya işləri zamanı bu yerlərdən keçən qədim karvan yolları boyunca ovdanlar, küp qəbirlər, əsrlər boyu torpaq altında qalsa da, rəngini və keyfiyyətini itirməyən çini və keramik qablar, Eldəgizlər və digər hakimiyyətlər dövründə buraxılmış mis pullar, qadın bəzək şeyləri, məişət və mədəniyyət əşyaları üzə çıxırdı və indi bunların bir çox nümunələri Zərdab tarix diyarşünaslıq muzeyində eksponat kimi nümayiş etdirilir. Ümumiyytlə, 1578-ci ilə aid tarixi mənbələrdə Zərdabın adına rast gəlinir.

Bir fərziyyəyə görə, Zərdab qızıl ***(zər)*** və su ***(ab)*** mənasını verir. Çünki o vaxtlar Kür və Qarasu çayları daşırdı. Çökəklərdə-axmazlarda qalan su əkinlər və əkinçilər üçün qızıl qədər əhəmiyyətli idi. Hər il öz bəndlərini aşıb daşan bu sular torpaqları yuyaraq həm həqiqi, həm də məcazi mənada təmizləmişlər. Ola bilsin ki, bəzi tədqiqatçıların Zər-

dabı 'Beynəlnəhreyn' (aydan arı, sudan duru) adlandırması da məhz bundan irəli gəlib. Olsun ki, məhz bu təmizlik bir sıra müqəddəs insanları bu torpağa çəkmişdir. Bunu bu torpaqda uyuyan neçə-neçə övliyalar, seyidlər, şıxlar da sübut edir. **'Allahın dostları' kitabında göstərilir ki, Hicrətin 30-cu ilində (Miladi 650-ci illər) Həzrət Əlinin başçılığı ilə ərəblər islamı yaymaq üçün Azərbaycana gəlmişlər, Tuqay meşələri yaxınlığındakı Suffin şəhəri ərazisində Suffin döyüşü olmuşdur. Bu ərazi Zərdabın indiki Yuxarı Seyidlər kəndinin yerində mövcud olmuş Yasər şəhərinin bir hissəsidir. Deyilənlərə görə peyğəmbərimizin müridi Veysəl Qərani də burada şəhid olmuşdur. Neçə illərdir ki, bu yerlər ziyarətgaha (Veysəlqara ziyarətgahı) çevrilmişdir.**

İbn Cövşən və Əli İstəxrinin kitablarında Bərzəng (Bərzənd, yaxud Bərdic) adlı şəhərdən söz açılır ki, bu da XII-XIII əsrin ən böyük şəhərlərindən hesab edilmişdir. Bu şəhər Zərdabın indiki Körpükənd kəndinin ərazisində olmuşdur. Zərdabın diğər kəndi- Əlvəndin də qədim tarixə malik olması söylənilir. Şərqdə ilk ipək, biyan kökü və qənd ustehsal edən sexləri bu kənddə açılıb. A.Bakıxanov 'Gülüstani-İrəm' əsərinə göstərir ki, Ağası xan 1775-ci ildə Əlvənd kəndində oturub bütün Şirvanı idarə edərmiş. Əlvənd bazarı həm də Şərqin ən böyük bazarlarından olmuşdur. Əjdər Fərzəli özünün 'Nizami zirvəsi' əsərində Nizaminin Qızıl Arslanla bu kənddə görüşdüyünü yazır. Əgər bu sadəcə yazıçı təxəyyülü deyilsə, biz dahi Nizami Gəncəviin Zərdab torpaqlarında

olması ilə fəxr edə bilərik. Tarixin sonrakı səhifələrində də Zərdab rayonunun adına rast gəlinir. 'Bakı quberniyası' adlı kitabda göstərilir ki, Zərdab kəndi xanlıqlar dövründə iri yaşayış məntəqəsi olub və zərdablılar əkinçilik, ipəkçilik, maldarlıqla məşğul olublar.

XIX-XX əsrlərdə Göyçay qəzasının iri kəndləırindən olan Zərdab sonralar inkişaf edərək, 1935-ci ildə rayon mərkəzinə çevrilmişdir. İnzibati mərkəzi – Zərdab şəhəridir. Rayon Bəyimli qəsəbəsini və 40 kəndi özündə birləşdirir.

Haşiyə: *Vikipediyada istinad edilən "Allahın dostları" kitabının müəllifi  əsərimin qəhrəmanı Paşa Yaqubdur.*

https://az.wikipedia.org/wiki/Z%C9%99rdab

## BU KƏNDDƏ DÜNYAYA GÖZ AÇDI

Ləlağacı kəndi Zərdab şəhərindən 10 kilometr cənub – qərbdə, Kür çayının sol sahilində yerləşir. Kənd əhalisinin əsas məşğuliyyəti heyvandarlıq, bostantançılıq, taxılçılıq, yemçilik, quşçuluq, pambıqçılıq, baramaçılıq, balıqçılıqdır. Burada əsas məktəb, klub, kitabxana, xidmət obyektləri və s. var.

Ləlağacı kəndi keçmişdə Qaravəlli adlanıb. Kəndin qərbindəki sahələrdən biri indi də Qaravəlli qalası adı ilə tanınır. Bir vaxtlar bu kənd indiki yerindən bir qədər şərqdə – Kürün sahilindəki Yurd yeri adlanan ərazidə olmuşdur. Köhnə Gəlmə adlanan, indiki Gəlmə kəndi sakinlərinin ata – babalarının bir zamanlar yaşadığı kənd də Ləlağacının lap yaxınlığıda, Kür sahilindədir. Deyilənlərə görə, kəndin adı burada ilk ağac əkib böyüdən Lələ adlı şəxsin adı ilə bağlıdır, yəni Lələnin ağacı.

# SON SÖZ

Allah bütün elmlərin sirrini müqəddəs kitabımız olan “Qurani-Kərim”də vermişdir. Sadəcə bu kəlamları, sirləri açmaq hər adama nəsib olmamışdır. Əsrlər boyu hər dövrün öz alimi və elm bilicisi olub. Gələn hər bilici müəyyən mənada dövrünün insanlarını elmləndirib, cahillikdən uzaq tutmaq üçün ciddi-cəhdlə çalışmış və öz gücü, əqli və elmi qədərində sözünü demişdir. Bu gün də Allahın iznilə insanların elmlənib, müasir zaman çərçivəsində cahillikdən uzaq olmaları üçün barmaqla sayılacaq qədər elm bilicilərimiz olsa da, onların tanınması üçün şərait yoxdur.

İmkanlar, çox məhdud olsa da, vaxtında zamana uyğun olaraq sözünü cəmiyyətə çatdırmağı bacaran fenomen bir insan Paşar Yaqub var.

Paşa Yaqub daim çalışır ki, insanlara ancaq müsbət enerji ötürməklə, bəşəri dəyərlərə sahib çıxan bir cəmiyyət yetişsin.

Paşa Yaqub Alı oğlu 26 may 1968-ci ildə Zərdab rayonunun Lələağacı kəndində doğulub. Elmi-dini və tarixi araşdırmalarla yanaşı, psixoterapevt və təbib kimi də fəaliyyət göstərir.

“Quran”ın surə və ayələrinin düzülüşünün kimya, fizika, riyaziyyat, anatomiya, astronomiya, biologiya, kibernetika,

informatika və s. elmlər ilə uyğunluğunu, Allahın hər şeyi dəqiqliyi ilə  hesablayıb yaratdığını bəşəriyyətə çatdırmaq missiyasını həvəslə yerinə yetirir. Kitablarında həmçinin, son dövrlər baş verən müəmmalı təyyarə, qatar və enerji qəzalarının Günəş və Ay tutulmaları ilə əlaqəsini sübut edən hesablamalar və cədvəllər təqdim olunur.

Paşa Yaqubun dərin bilik və bacarığını əks etdirən kitabları, məqalələri və elmi araşdırmaları ilə aşağıdakı saytlar vasitəsilə tanış ola bilərsiniz.

Youtube: Pasha Yaqub
Facebook.com paşa.yaqub
https://pashayaqub.weebly.com
https://www.instagram.com/pasayaqub/

# MÜNDƏRİCAT

Müəllifdən........................................................................ 5
Redaktordan ...................................................................... 8
İlk tanışlığım... ................................................................ 11
Allaha sevgisi soyundan gəlib... ................................. 19
Allahın ali kişiyə hədiyyəsi hamımıza hədiyyə oldu.... 26
"Paşanın bayrağı"... ........................................................ 31
İlahidən gələn diplom... ................................................ 35
"Dostu" agent imiş........................................................ 39
Ölümünə fitva verilir..................................................... 41
Ayın üzərindəki ləkə deyil, xəritədir............................ 45
Məşhur rəssamın əsərindəki rəqəm qız qalasına işarədir.................................................................... 52
Sirləri yuxuda öyrətdilər, o da kəşflər etdi.................. 57
Allah dost etdi, yuxusu ustad...................................... 66
Dostluqdan qardaşlığa aparan yuxular........................ 76
Səadət xanım yuxuda görür ki... .................................. 80
Yuxularda həccdə olan xeyriyyəçi... ............................ 82
Əfsanəvi loğman... ........................................................ 84
Ustad sözü...................................................................... 89
Cəfakeş insan, qələm dostum....................................... 91
Dostun duaları................................................................ 93
O, seçilmişlərdəndir... .................................................... 94

O, dahidir, xəstəsi idim, pərəstiş etdim....................... 100
Qızım onu tanıdı ........................................................ 102
Xərçəngdən, depressiyadan, səpkilərdən və
koronavirusdan məni xilas etdi .................................. 106
Deyərdim ki, əfsanəvi doktordur ............................... 113
Testin cavabları neqativ çıxdı .................................... 115
Şoka düşdüm. Onu Allah idarə edir. ........................... 116
Bizə çox lazımdır ........................................................ 119
Hələ bazarlıq da edirdi ............................................... 120
Həyatdan ümidim  üzmüşdüm .................................... 123
Onun sayəsində həyata qayıtdım ............................... 128
Tibb elminə sirr olan qeyri-adi müalicə ...................... 129
Bəs vəsiyyət etmişdin??? ........................................... 131
Doktor Paşa Yaqubun iynə-dərman işlətmədən indiyədək
sağaltdığı xəstəliklərin siyahısını təqdim edirik: ........ 138
Təbi də rəvandır... ....................................................... 242
Bəs ağlamazmı? .......................................................... 242
Ay baba ...................................................................... 244
Qəzəl .......................................................................... 245
Kəlәmları da hikmətlidir... .......................................... 246
Roman......................................................................... 250
Pangeya....................................................................... 251
Dünya  siyasətinə də baş vurur... ............................... 292
Massonlar.................................................................... 296
Dünyada rüşvətə belə son qoymaq olar... ................... 298

Uluların ömrünü yaşadan insan... .............................. 306
Zərdab rayonu ........................................................... 309
Bu kənddə dünyaya göz açdı ..................................... 312
Son söz........................................................................ 313

**Paşa Yaqubla əlaqə:**

Tel: (+994 50) 375 30 97
051 777 70 40
Youtube: Pasha Yaqub
Facebook.com paşa.yaqub
https://pashayaqub.weebly.com
https://www.instagram.com/pasayaqub/

**Zahidə Vulkan**

# Əfsanəvi fenomen


| | |
|---|---|
| Mətbəənin direktoru: | Elman Qasımov |
| Dizayner: | Azər Aydın |
| Dizayner: | Mətanət Əliqızı |

Çapa imzalanmışdır: 07.07.2021.
Formatı 60x84 1/16.
Həcmi 20 ç.v. Sifariş № 17. Tiraj 500

“Zərdabi Nəşr” MMC Nəşriyyat Poliqrafiya müəssisəsi
Tel.: (012) 514 73 73, (050; 055; 070) 344 76 01
e-mail: zerdabi_em@mail.ru